**AZƏRBAYCAN TEXNİKİ UNİVERSİTETİNİN NƏZDİNDƏ BAKI TEXNİKİ KOLLECİ**

**"HUMANİTAR ELMLƏR" FƏNN BİRLİYİ**

# *"AZƏRBAYCAN TARİXİ"*

## *MÜHAZİRƏ MƏTNLƏRİ*

***(60 saat)***

***(kredit qruplar üzrə)***

**BAKI-2023**

# MÜNDƏRİCAT


**1. İbtidai icma cəmiyyəti. Erkən dövlət qurumları.Manna,Atropatena,Albaniya dövlətləri............................................3-35**

**2.Azərbaycan III-VII əsrlərdə.Azərbaycanın Ərəb Xilafətinin tərkibinə daxil olması.Azadlıq hərəkatı.Babək.................36-49**

**3.Şirvanşahlar,Sacilər,Salarilər,Rəvvadilər,Şəddadilərdövlətləri.Atabəylər dövləti……………………………………50-65**

**4.Azərbaycan monqol yürüşləri dövründə.Qaraqoyunlu və Ağqoyunlu dövlətləri.................................................................66-78**

**5.Səfəvilər dövləti.Nadir şah Əfşar.............................................................79-101**

**6.Quba,Şəki,Qarabağ,Naxçıvan,İrəvanxanlıqları.Car-Balakən camaatlığı...............................................................102-113**

**7.Təbriz,Qaradağ,Urmiya,Xoy xanlıqları.Ağa Məhəmməd şah Qacarın mərkəzləşdirmə siyasəti.......................................114-124**

**8.I və II Rus-İran müharibələri.Komendant idarə üsulu..........................124-138**

**9.XIX əsrin 30-cu illərində üsyanlar.XIX əsrin 40-70-ci illərində islahatlar..................................................139-142**

**10. Şimali Azərbaycan Birinci Dünya müharibəsi illərində ........................142-152**

**11. Cənubi Azərbaycan XIX –XX əsrlərdə.................................................152-177**

**12. Azərbaycan Xalq Cümhuriyyəti. Sovet totalitar rejiminin təşəkkülü . Kütləvi repressiyalar...................................................................177-188**

**13. Azəbaycan SSR İkinci Dünya Müharibəsi illərində və müharibədən sonrakı illərdə (1945-1980-ci illər) .......................................................188-198**

**14.Birinci Qarabağ müharibəsi.Xocalı soyqırımı. Dövlət müstəqilliyinin bərpası. Milli Qəhrəmanlarımız. ................................................................. 198-2**

**15. İkinci Qarabağ (Vətən) müharibəsi. Vətən müharibəsi qəhrəmanları......................221-226**

# *Mövzu1. İbtidai icma cəmiyyəti.Erkən dövlət qurumları. Manna, Atropatena, Albaniya dövlətləri*

**Azərbaycan ərazisində ibtidai icma quruluşunun təşəkülü daş dövrünün (paleolit) ən qədim mərhələlərindən başlamış, uzun və mürəkkəb inkişaf yolu keçmiş və üst paleolitə keçid dövründə başa çatmışdir. Azərbaycan dünyanın ən qədim mədəniyyət ocaqlarından biridir. Əlverişli təbii-coğrafi şəraitdə, zəngin fauna və flora aləminə, mülayim iqlimə malik olan Azərbaycan yer kürəsində ibtidai insanın formalaşdığı rayonlar sırasına daxildir.Aparılmış tədqiqatlarla müəyyən olunmuşdur ki, 12 milyon il əvvəl Azərbaycan ərazisində insana bənzər meymunlar yaşamışdır. 1939-cu ildə Qərbi Azərbaycanla İrqi Gürcüstanın sərhədində, Ceyrançöl və Eldardüzənliyinin mərkəzində Udabno adlanan yerdə insana bənzər meymunun qalıqlarının tapılması buna sübutdur.**

**Azərbaycanda Azıx, Tağlar (Qarabağ), Zar (Kəlbəcər) , Qazma (Naxçıvan) Qaşsalahlı və Aveydağ (Qazax) kimi mağara düşərgələri Qədir dərə, Çaxmaqlı, Kəkilli kimi (Qazax) açıq düşərgələrdə aparılan arxeoloji tədqiqatlarla qədim daş dövrü insanlarının təşəkülü və inkişafı,ibtidai insan sürü icmasının yaranması, ilkin əmək alətlərinin forma aşması, ibtidai məşğuliyyət sahələri və s. Haqqında məlumatlarəldəolunmuşdur.**

**İbtidai icma quruluşunun dövrləri bunlardır:**

**1.Paleolit ( Qədim daş dövrü). Alt, orta, üst paleolit.**
**Alt paleolit - ən qədim dövrdən başlayaraq 100 min il bundan əvvələ qədər ki dövrü əhatə edir.**

**Orta paleolit – mustye dövrü – 100 min il bundan əvvəldən başlayaraq, 40 min il bundan əvvələ qədər ki, dövrü əhatə edir.**

**Üst paleolit – 40 min il bundan əvvəldən başlamış e.ə. XII minilliyə qədər davam etmişdir.**

**2.Mezolit dövrü – (Orta daş dövrü ) e.ə. XII-XIII minilliyi əhatə edir .**

**3.Neolit dövrü – (Yeni daş dövrü) e.ə. VII-VI minilliyi əhatə edir.**

**4.Eneolit dövrü – (Mis daş dövrü) e.ə. VI-IV minilliyi əhatə edir.**

**5.Tunc dövrü – e.ə. IV-II minilliyi əhatə edir.**
**Erkən, orta, son tunc dövrü**
**Erkən tunc dövrü- e.ə. IV-III minilliyini əhatə edir.**
**Orta tunc dövrü – e.ə. III-II minillik**

**Son tunc dövrü – e.ə. II-I minillik**

**6.Dəmir dövrü – e.ə I minillik**

**Tədqiqatlar nəticəsində Azərbaycanda dünyada hələlik məlum olan ən qədim insan mədəniyyəti izlərindən biri öyrənilmişdir. Bu abidə ilkin tağıldığı yerin adı ilə Quruçay mədəniyyəti adlanır. Bu mədəniyyətin 1,5 milyon ildən artıq yaşı var. Quruçay mədəniyyəti insanları əvvəl Quruçay hövzəsində açıq düşərgədə yaşamış, sonralar iqlim şəraitinin dəyişməsi ilə bağlı yaxınlığındakı Azıx mağarasına köçmüşlər. Aziıx mağarası Qarabağda Füzuli rayonu ərazisində yerləşir. İlk insanlar bura 1-1,2 milyon il əvvəl köçmüşdür. Azıx mağarasında arxeoloq alim Məmmədəli Hüseynov 1960-ci ildə arxeoloji tedqiqatlar aparmışdır. Alt paleolit dövrü Azərbaycanda Quruçay vadisində yerləşən Azıx mağarası sahəsində öyrənilmişdir. Azıx mağarasından 350-400 min il bundan əvvəl yaşamış 18-20 yaşlı qadının alt çənə sümüyü tapılmışdır. Bu insanı "Azexantrop" adlandırırlar.Bundan başqa buradan 700 min il bundan əvvələ aid ocaq işləri tapılmışdır. Tikili qalıqları, nəsli kəsilmiş vəhşi heyvan sümükləri, adi çay daşlarından hazırlanmış kobud daş alətlər, üzərində müxtəlif işarələr ayı kəllələri və s. tapılmışdır.**

**Alt paleoit dövründə “bacarıqlı insan ” yaşamış ulu icma yaranmış insanlar odla tanış olmuşdur. Bu dövrdə əmək alətləri çaxmaqdaşı, bazalt və dəvə gönündən hazırlanırdı.İbtidai dini təsəvvürlər yaranmışdır. adə dini ayinlər və totemlər yaranmışdır. Bu dövr insanları sadə incəsənətlə məşğul olurdular. Tikinti vərdişləri yaranırdı.**

**Orta paleolit dövründə Tağlar, Qazma və Damcılı mağaraları əsasında öyrənilir. Bu dövrdə “heandırtal adam” meydana gəldi. Axirət dünyasına inam yarandı Ulu icma tədricən parçalanmağa başladı. Ovsun, totem və təbiət qüvvələrinə inamla bağlı dini təsəvvür formaları yaranırdı.**

**Üst paleolitdə “ağıllı insan” meydana gəldi. Qəbilə icması yarandı. Anaxaqanlıq yarandı. Səsli nitq yarandı. İncəsənət yarandı. Qədim insanların ilk məşğulliyəti yığıcılıq və ovçuluq olmuşdur. İbtidai insan icması kiçik qruplarda birləşmiş kollektivlərdən ibadət olmuşdur.**

**Mezolit dövrü e.ə. XII-VII minilliyi əhatə edir. Mezolit dövründə insanların əmək fəaliyyətində, dünyagörüşündə ətraf aləmə münasibətində mühüm dəyişikliklər baş verir, qədim insanların ən mühüm ixtiralarından biri olan ox və kaman (yay) meydana gəlr.Ox və kamanın kəşfilə ovçuluq sahəsində aslı dəyişiklik yarandı və heyvanları uzaq məsafədən ovlamaq mümkünləşdi. Bununla daha çox ərzaq ehtiyatı əldə etməyə nail olan insanlar eyni zamand heyvanları əhilləşdirməyə başladılar.**

**Mezolit dövründə ibtidai maldarlıqla yanaşı, ilkin əkinçilik vərdişləri də təşəkkül tapmışdırş Bu dövrdə təbiətin hazır məhsullarını mənimsəməkdən onların bilavasitə istehsalına keçidin əsası qoyulmuşdur. Mezolit dövründə yaşamış insanların tərzi Qobustan abidələri əsasında öyrənilmişdir. Mezolit dövründə Qobustanda insanların ovçuluq, balıqçılıq yığıcılıq olmuşdur. Burada “öküzlər” , “Ana zaja” “Firuz” və b.Mezolit dövrü düşərləgərində çoxmaqdaşı və çay daşından, habelə sümükdən hazırlanmış müxtəlif əmək alətləri tapılmışdır. Sümükdən biz, ox ucu, balıq toru toxunulmasında istifadə olunan alətlər**

**hazırlanırdı. Qədim qobustanlılar bəzək əşyalarını müxtəlif dəniz ilbizlərinin çanaq hissəsindən, ayrı-ayrı heyvanların sümük və dişindən düzəldirdilər.**

**Qobustanın Mezolit dövrü qayaüstü rəsmlərinin ibtidai incəsənətin və əhalinin dini görüşlərinin, ovsun-totun inamlarının öyrənilməsində əhəmiyyət çox böyükdür. Burada qadın rəsmləri, müxtəlif siluetlər həkk olunmuşdur. "Firuz" düşərgəsində mezolit dövrünün son mərhələsinə aid edilən 11 insan skeletinin qalıqları tapılmışdır. Ölülərin yanında çoxlu əmək alətləri və bəzək əşyaları (balıq toru üçün alətlər, qarpun ucluğu çaxmaqdaşından alətlər, balıqqulağlarından muncuqlar, qaban dişi və s.) qoyulmuşdur. Damcılı (Qazax) mağara düşərgəsindən çaxmaqdaşından hazırlanmış kiçik ölçülü ox ucları, müxtəlif tipli mikrolitlər, səthi cilalanmış hazırlanmış ibtidai orqanlardan dənli bitkilərin biçilməsində istifadə olunurdu.**

**Neolit dövrü Azərbaycanda e.ə. VII minillikdən başlamış VI minilliyə qədər davam etmişdir. Neoliti başqa dövrlərdən fərqəndirən əsas xüsusiyyət bu dövrdə əkinçilik və maldarlığın əsaslı surətdə təşəkkülü və inkişafı ilə bağlıdır.Bu dövrdə insanlar istehsalı mənimsəyir, təbiətdə hazır şəkildə mövcud olmayan yeni materialların istehsalına başlayır.Toxuculuğun kəşfi və gil qabların hazırlanması istehsalda mühüm yer tutur.İlk vaxtları toxuculuq materialı kimi yabanı texniki bitkilərdən (gicitikən, kətan və s.)istifadə olunurdu.**

**Neolit dövründə əhali oturaq həyat sürmüş, ovçuluq balıqçılıqla da məşğul olmuşdur. Əmək alətləri əsasən çaxmaqdaşından hazırlanır, bıçaqlar, isgənə və dişici alətlər və s. üstün yer tuturdu. Dövrün tələblərinə uyğun olaraq , xüsusilə istehsal təsərrüfatının inkişafı ilə əlaqədər yəni alətlər meydana gəlirdi. Bu alətlərdən əkin (daş toxa) və biçin (oraq dişi) işlərində məhsul emalında istifadə olunurdu.**

**Gillidağ (Gəncə yaxınlığında) adli yerdə qədim çaxmaqdaş istehsalı ilə bağlı izlər, istehsal tullantıları və çoxlu hazır məhsullar tapılmışdır. Burada daş çəkic, balta, müxtəlif lövhələrə daha çox təsadüf olunmuşdur.**

**133 N-Lİ düşərgədə çaxmaqdaşından bıçaqvari lövhələr, qaşoxlar, daş toxa, dəvəgözündən əmək alətləri aşkar edilmişdir. Bu alətlərdən təsərrüfatın müxtəlif sahələrində və məişətdə, Damcılı mağarasında tapılmış ağzı dişli və pardaqlanmış lövhələrdən isə biçində istifadə olunmuşdur. Toxuculuq və saxsı qablar istehsalı ilə bağlı sahələrinin meydana gəlməsi qədim insanların həyatında mühüm rol oynamışdır. Saxsı qablar istehsalı ərzaq ehtiyatının saxlanmasında böyük rol oynamış, məişətin bütün sahələrində əsaslı dəyişikliyə şərait yaratmışdır. Saxsı qablar 133 n-li Gəncəçay düşərgəsində, Təbriz yaxınlığındakı Yanıqtəpə və Urmiya gölü yaxınlığındakı Firuztəpə abidələrinin müvafiq təpələrində daha ox məlumdur.**

**Qobustanın müvafiq dövr qayaüstü təsvirləri Azərbaycanda Neolit dövrü insanlarının dünya görüşü, ətraf aləmə münasibəti və onun dərketmə qabiliyyəti, habelə ilkin incəsənət vərdişləri haqqında müəyyən təsəvvür yaradır. Bu təsvirlərin bir çoxu Neolit düşərgələrinin divarlarında: Böyükdaş və Kişikdaş qayalarında həkk olunmuşdur.Qobustan təsvirləri mövzu müxtəlifliyi ilə yanaşı kompozisya etibarilə də çox zəngindir. Burada kollektiv rəqs, ov səhnələri, müxtəlif heyvan və insan təsvirləri xüsusi yer tutur. “Firuz” düşərgəsində sətirlərində təsvir olunan rəsmlərdən biri e.ə. VII minilliyin əvvəlinə aid edilir. Rəsmlərin bir çoxu ovsunla bağlıdır və dövrünün ovunun uğurla olması ilə əlaqədar çəkilmişdir. Neolit daş dövrünün axrıncı mərhəlisdir. Bu dövrdə insanlar qəbilə icması şəraitində yaşamış xaqanlığı (maderşallıq, matriarxat ana nəsli ) hökm sürmüşdür.**

**Eneolit (Mis-Daş dövrü) e.ə. VI-IV minillikləri əhatə edir.Eneolit dövrü istehsal təsərüfatının əsaslı surətdə formalaşması və onun dövrünə görə sürətli inkişafı ilə xarakterizə olunur.Eneolit dövrünü tarixin əvvəlki inkişaf mərhələrindən fərqləndirən əsaslı xüsusiyyətlərindən biri bu dövrdə məişətdə daş məlumatı ilə yanaşı metaldan istifadə olunmasına başlanmasıdır.**

**Görünür, metalla ilkin tanışlığ əmək alətləri hazırlanınması üçün daha davamlı və sərfəli xammal axtarışı ilə bağlı olmuşdur. İlk vaxtlar mis**

**külçələrindən soyuq döymə üsulu ilə müxtəlif əşyalar hazırlanırdı. Zaman keçdiqcə əmək vərdişlərinin təkmilləşməsi və müxtəlif texniki qaydalara yiyələnmə sayəsində mis külçələrinin əvvəlcə ocaqda qızdırma yolu ilə, sonralar isə xüsusi qablarda əritməklə ibtidai metalişləmənin sirlərinə bələd olan insanlar təsərrüfat həyatında mühüm dəyişikliklərin təməlini qoymuşdular. Məlumdur ki, Azərbaycanda mis filizi ehtiyyatları Gədəbəy, Daşkəsən, habelə Qarabağın Dağlıq zonasında və Naxçıvanda mövcuddur. Şübhəsiz, Enolit dövrü insanları bu yataqlardakı mis külçələrindən istifadə etməyi başlamışdılar. Eneolit dövrü yaşayış məskənlərindən tapılmış müxtəlif mis əşyalar ( biz, iynə, bıçaq və s.) da bunu sübut edir. Eneolit dövrü abidələri elmi ədəbiyyatda Kültəpə və Şomutəpə arxeoloji mədəniyyəti kimi bəllidir.**

**Eneolit dövrü əhalisi əkinçillik və maldarlıq, ev sənətkarlığının müxtəlif sahələri (dulusçuluq, daş və sümükişləmə, toxuculuq və s.) habelə balıqçılıqla məşğul olurdu. Torpaq toxa ilə əkilir və becərilirdi. Taxıl ehtiyatı böyük ölçülü saxsı küpələrdə və anbar saxlanılırdı.İlk vaxtlar mis külçələrdən soyuq döymə üsulu ilə müxtəlif bəzək əşyaları ( muncuqlar) və kiçik əmək alətləri (biz, iynə, bıçaq tiyəsi) hazırlayırdılar.**

**Eneolit dövründə qadınların mövqeyi möhkəm idi. Qadın bərəkət, rifah rəmzi olmaqla yanaşı, həm də təmizlik, paklıq, müqəddəslik nümunəsi kimi yüksək qiymətləndirilirdi.Eneolit dövründə icma ağsaqqaları şurası cəmiyyətin həyatında mühüm rol oynayırdı. İcmanın tərkibinə bir neçə yaşayış məskəninin sakinləri daxil idi.**

**Bu dövrdə dəfn mərasiminə xüsusi diqqət verilmişdi. Həmin dövrdə meyidlər yaşayış məskənində, evin döşəməsi altında və ya tikililər arasında boşluqla dəfn edilirdi. Ölüləri qırmızı rəng ilə boyayırdılar (oxra ilə). Eneolitin son mərhələsində ölülərin gil küpələrdə dəfn olunması mərasimidə yayılmışdı. Bu fakta Leylatəpə yaşayış məskəninə rast gəlinmişdir.Enolit dövründə Azərbaycanda həm ictimai-sosial, həm də iqtisadi, mədəni həyatda mühüm dəyişikliklərvə irəliləyişlər baş vermişdir.**

**Tunc dövrü e.ə. IV-II minillikləri əhatə edir. Tunc dövrü 3 yerə bölünür: erkən tunc dövrü, orta tunc dövrü və son tunc dövrü.**

**Tərkibinə aşqarlar ( sürmə, mərgümüş, nikel, qalay) qatılmış ərinti tunc adlanır Əmək alətləri və məşiətdə işlədilən əşyaların əksəriyyəti, habelə bəzək əşyaları tuncdan hazırlandığı üçün bu dövrə tunc dövrü deyilir.**

**Tunc dövrü məhsuldar qüvvəlrin sürətli inkişafı, istehsal münasibətlərində əsaslı dəyişikliklərin və yeniliklərin meydana gəlməsi ilə xarakterizə olunur. Toxa əkinçiliyi xiş əkinçiliyi ilə əvəz olunmuş, yeni heyvan növləri əhliləşdirilmiş, yaylaq maldarlığı təşəkkül tapmış, sənətkarlıq tərəqqi etmişdi.**

**Erkən Tunc dövrü ( e.ə. IV minilliyin sonu – III minillik).**

**İlk tunc dövrü Kür- Araz mədəniyyəti dövrünün yaşayış məskənləri ( Babadərviş, Göytəpə, Ağtəpə Günəştəpə, Xantəpə, Gültəpə, Mişarçay və s.) bir qayda olaraq çay kənarında, bulaqların yaxınlığında, başqa sözlə yaşayış və təsərrüfat üçün əlverişli sahələrdə, straji baxımdan yaxşı mühafizə olunan təbii təpə üzərində salınırdı.**

**İlk tunc dövründə əkinçilik və maldarlığın inkişafında yeni mərhələ başlanır, toxadan tədricən xışa keçirilir. Torpaq xışla şumlanırdı. Əmək alətləri tuncdan hazırlanırdı. At əhliləşdirilmişdi. Atın əhliləşdirilməsi və ondan minik vasitəsi kimi istifadə olunması köç işini asanlaşdırırdı.**

**Erkən Tunc dövründə I ictimai əmək bölgüsü baş verdi. Maldarlıq və əkinçilik bir-birindən ayrıldı. Əkin sahələri genişləndi və süni suvarma yarandı. Köçmə (yaylaq) maldarlığı meydana gəldi. Artıq bu dövrdə ölülər yaşayış məskənlərindən kənarda dəfn edilir və bəzi qəbirlərin üzərində kurqanlar qurulurdu. Ölüyandırma və kollektiv dəfnetmə adətləri yarandı. Anaxaqanlığı süqut etdi və Ataxaqanlığı yarandı. Ailəyə və tayfaya kişilər rəhbərlik edirdi. Tayfa daxilində bərabərsizlik meydana gəldi. Bu dövrdə əhali toxuculuq, dulusçuluq metalişləmə ilə də məşğul olurdu.**

**Orta Tunc dövrü ( e.ə. lll minilliyin sonu –ll minilliyin ortaları ).**

**Məhsuldar qüvvələrin güclü inkişafı təsərrüfatın bütün sahələrində, xüsusilə maldarlıqla, metallurgiya və metalişləmədə baş vermiş yeniliklər cəmiyyətin ictimai quruluşunda əsaslı dəyişikliklərə yol açdı. Həmin dövr tarixi bölgüdə orta tunc dövrünə uyğun gəlir. Orta tunc dövrü əkinçilik, maldarlıq və sənətkarlığın böyük sürətlə inkişafı, hələ ilk tunc dövründə təşəkkül tapmış əmlak və sosial bərabərsizliyin dərinləşməsi, yaxın şərqin mədəniyyət mərkəzləri ilə mədəni-iqtisadi əlaqərin müntəzəm xarakter olması və bu əsasda Azərbaycanda ilkin şəhər mədəniyyətinin formalaşması, beləliklə sinifli cəmiyyətə keçid mərhələsinin başlanması ilə xarakterizə olunur.**

**Azərbaycanın orta tunc dövrü Qarabağda tədqiq olunmuş Üzərliktəpə, Göytəpə, Çinartəpə, Qaraköpəktəpə, Nərgiztəpə, Ağtəpə, Toxmatəpə yaşayış məskənləri və Borsunlu kurqanları Qobustan, Gəncəçay, Xaçbulaq, Küdürlü kurqanları, Əliköməktəpə, amxor torpaq abidələri və s. arxeoloji abidələr əsasında ətraflı öyrənilmişdir.**

**Orta tunc dövründə Azərbaycanda iri yaşayış məskənləri yarandı. Sosial və əmlak bərabərsizliyi artdı. Tayfalar arasında əlaqələr genişləndi. İlkin şəhər mərkəzləri yarandı. ( ll Kültəpə, Oğlanqala, Göytəpə, Üzərliktəpə, Naxçıvan şəhəri). Bu dövrdə atdan minik və qoşqu qüvvəsi kimi istifadə edilirdi.**

**Orta Tunc dövründə ilk ictimai əmək bölgüsü baş verdi. Sənətkarlıq müstəqil sahəyə çevrildi. Bu dövrdə bağçılıq, bostançılıq, üzümçülük və şərabçılıq yarandı. Xış əkinçiliyi genişləndi. ll Kültəpədə dulusçuluq məhəlləsi dullus sobaları tapılmışdı. Filizçıxarma genişlənmişdi. Sənətkarlığın müxtəlif növləri ayrıca peşə sahələrinə çevrilmişdi.**

**Naxçıvan və Urmiya bölgəsindəki bəzi yaşayış məskənləri Qədim Şərqin ilkin şəhər mərkəzləri səviyyəsinə yüksəlmişdi.**

**Son tunc və ilk Dəmir dövrü ( e.ə. XIV-VII əsrlər).**

**Son Tunc və ilk Dəmir dövrü e.ə. XIV-VII əsrləri əhatə edir.Arxeoloji tədqiqatlar nəticəsində müəyyənləşdirilmişdir. Azərbaycanda ilk dəmir alətlər e.ə. ll minilliyin sonu l minilliyinində meydana gəlmişdir.**

**Son Tunc və ilk Dəmir dövrü bir sıra xüsusiyyətlərilə əvvəlki tarixi mərhələlərdən əhimiyyətli dərəcədə fərqlənirdi. Cəmiyyətin obyektiv inkişaf qanunauyğunluğu ilə əlaqədər olaraq, məhsuldar qüvvələrin, təsərrüfatın bütün sahələrinin, xüsusilə sənətkarlığın o vaxta qədər görünməmiş sürətlə inkişafı ictimaiquruluşda əsaslı dəyişiklik yaratdı. Belə erkən Tunc dövründə yaranmağa başlayan tayfa ittifaqları yeni ictimai- iqtisadi şəraitdə daha da güclənir, ibtidai-icma quruluşunun əsasları dağılır, sinifi cəmiyyət formalaşırdı.**

**Son Tunc və ilk Dəmir dövrü Azərbaycanda Xocalı – Gədəbəy mədəniyyəti, Talış- Muğan məcburiyyəti, Naxçıvan mədəniyyəti əsasında öyrənilir.**

**Əkinçilik və maldarlığın intensif inkişafı, habelə sənətkarlığın, xüsusilə metallurgiya və metalişləmənin yüksəlişi, bunuların əsasında isə mədəni-iqtisadi əlaqələrin daha sürətlə genişlənməsi, nəticə etibarilə cəmiyyətin ictimai inkişafının daha yüksək pilləsinə keçməsi üçün şərait yaratmış oldu.**

**Son tunc və ilk dəmir dövründə Azərbaycanda məhsuldar qüvvələrinin inkişaf səviyyəsi ilə mövcud istehsal münasibətləri arasında kəskin təzad yaranır. Hələ ilk Tunc dövrünün sonlarında müşahidə olunan, orta tunc dövründə isə xeyli dərinləşən əmlak və sosial bərabərsizlik son Tunc və ilk Dəmir dövründə son həddə çatmışdır. İri tayfa ittifaqları yarayır, bu ittifaqa nüfuzlu tayfa başçıları rəhbərlik edirdi.**

**Beləliklə, əmlak və sosial bərabərsizliyin daha da dərinləşməsi, böyük tayfa ittifaqlarının yaranması hakimiyyəti ayrı-ayrı nüfuzlu şəxslərin əlində cəmləşməsi, var-dövlətin əsasən fərdi ailələrdə toplanması, cəmiyyətin yoxsul və varlılara parçalanması və s. bu kimi faktlar Azərbaycanda e.ə. ll minlliyin sonlarında ibtidai- icma quruluşunun dağılması və sinifli cəmiyyətə keçid prosesini sürətləndirdi.**

**4. Azərbaycanda erkən tayfa ittifaqlarının yaranması və dövət halında birləşməsi gedişini qaynaqlar əsasında dəqiq müəyyənləşdirməq mümkün deyil. Lakin e.ə. lll minllikdə Azərbaycanda müxtəlif ad daşıyan dövlət qurumlarının meydana gəlməsi müşahidə olunur.**

**E.ə III minllikdə İkiçayarasi (Mesopotamiya) ilə münasibətlər. Cənubi Azərbaycan İkiçayarasina yaxın bir ərazidə yerləşirdi. İkiçayarasının qədim Azərbaycan tayfaları ilə erkən siyasi münaqişələri və iqtisadi əlaqəri Şumer-Akkad mixi yazılarında əks olunmuşdur. Bu qaynaqlar göstərilən hadisələrlə əlaqədar Arrata ölkəsini, kuti, lullu və su tayfalarını yad edir. Uruk şumer şəhər dövləti Aratta ilə iqtisadi əlaqələr yaratmaq və hətta ölkəni özünə tabe etmək istəyirdi. Akkad hökmdarları kuti və lullu tayfalarının İkiçayarasına hərbi müdaxiləsinə qarşı mübarizə aparırdılar. Şumerlər və akkadlar Urmiya gölü hövzəsi (Cənubi Azərbaycan), onun təbii sərvətləri və coğrafi şəraiti barədə müəyyən təsəvvürə malik idilər.**

**İlk dövlət qurumu Aratta. Aratta ölkəsi Azzərbaycan torpaqlarında yerləşirdi. Bu ölkə Azərbaycan torpaqlarında yerləşirdi. Bu ölkə ilə əlaqədar (e.ə. III minilliyin birinci yarisi) hadisələr bir neçə şumer dastanında “En –Mekrar və Aratta hökmdarı”, “En-Merkar və En- Sukuşsiranna”, “En Merkar və Luqalbanda”, “Luqalbanda və hurrum dağı ”) əks olunmuşdur.**

**Şumer dastanlarının və mixi yazıların əlavə məlumatlarının təhlili Arattadövlətinin qədim Azəbaycan ərazisində meydana gəldiyini söyləməyə**

**meydana gəlmiş ilk dövlət qurumu idi. Onun ərazisi Urmiya gölünün cənub və cənubi-şərq hissəsini əhatə edirdi. Diyala Çayının (cənubda) yuxari axarı və müasir Zəncan imkan vermişdir.**

**Aratta Cənubi Azərbaycanda e.ə. III minlliyinin birinci yarsında -Qəzvin (cənub-şərqdə) ərazisi Arattanın aşağı sərhədlərini təşkil edirdi. Aratta dövləti İkiçayarasının Şumer şəhər dövlətləri ilə iqtisadi, siyasi və mədəni əlaqələrə girmişdi. E.ə. XXVII-XXIV əsrlərdə Şumerdə şəhər dövlətləri fəaliyyət göstərirdi.**

**E.ə. XXVIII-XXVII əsrlərdə Şumerin Uruk şəhər dövlətinin hökmdarı En-Merkar olmuşdu.**

**Dastanlarla görə, Uruk ilə Aratta arasında münasibətlər gah düşmənçilik, gah dinc, gah dostluq xususiyyəti daşıyırdı. En-Merkar Arattanın Uruka tabe olmasını tələb edir. Aratta hökmdarı da öz növbəsində En-Merkarın Arattaya tabe edilməsi üçün hərbi tədbirlər görür. Lakin sami tayfaları Uruk şəhərinin mühasirə edən zaman En-Merkar hərbi yardım almaq üçün Aratta hökmdarına müraciət edir. Şumerlər Uruk şəhərindəki məbədləri bərpa etməkdən ötrü tikinti materiallarına, qiymətli metal və daşlara ehtiyac duyurdular. Uruk hökmdarı En-Merkar bu materialların Arattadan gətirilməsini istəyirdi. O, Aratta hökmdarı ilə yazışmalar aparır, qasidlər göndərir və hətta bu ölkəyə səfər edir. Arattada mövcud olan siyasi və ideoloji şərait şumer məfhumları vasitəsilə əks olunmuşdur. Ölkəni ensi rütbəsini daşıyan hökmdar idarə edirdi. Şumerdə bu rütbə ali kahin- hökmdara şamil edilirdi. Ensi rutbəsini Arrata Dilində ifadəsi qalmamışdır. Qaynaq Arattanı "saf ənənələr ölkəsi" adlandırır. Arattanın dövlət idarələri şəhərdə yerləşir, hökmdar sarayda oturur və dövlətin idarə edirdi. Əsilzadə təbəqəsinə daxil olan maşmaş (kahin vəzir), sukkal (elçi- kiçik hökmdar rütbəsi), uqula (rəis) və başqaları dövlət idarəsinin qulluqçuları olmuşlar. Arattada dövlət idarəsində mirzələrdə çalışırdılar. Onlar həm Şumer hökmdarına cavab məktubu yazır, həm də En-Merkarın şumer dilində yazdığı məktubları təcrüme edirdilər. Qaynaqdan göründüyü kimi, Aratta dövlət idarələri şumer mixi yazıları və şumer dili ilə tanış idi. Şumer ilə Aratta arasında əlaqə qasid vasitəsilə həyata keçirilirdi.**

**E.ə. III minillliyin birinci yarısında (e.ə. XXVII əsrdə) Arattada artıq dövlətə məxsus idarə orqanları və vəzifəli şəxsləri meydana gəlmişdi. Şumer hökmdarı En-Merkar bu dövləti özünə tabe etmək, əhalisini və sənətkarlarını Şumer məbəd tikintisində işlətmək niyyətində idi.**

**Arattada çoxallahlıq, yəni müxtəlif allahlara sitayiş mövcud olmuşdu. Qaynaqdan göründüyü kimi, Arattada, Şumerdə bərəkət və məhəbbət ilahəsi hesab edilən İnannaya ibadət geniş yayılmışdı.İnannanın Arattada müqabil adı**

**məlum deyil. Akkadlar bu ilahəni İştar adlandırırdılar. Qaynaqda Aratta ilə əlaqədar adı çəkilən ilahə Lama Arattanın mühafizəkarı hesab edilirdi. Lama Arrata ilahəsi imiş. Şumer allahı Dumuzi həmçinin Arattaya himayədarlıq edirdi. Ola bilsin ki, Aratta panteonuna ilahə başçılıq edirdi və nəsli quruluşun qalıqları Arattanın dini dünyagörüşündə öz əksini saxlayırdı. Aratta erkən İkiçayarası mədəniyyət dairəsinə daxil idi.**

**Lullubi (Lullubi) dövləti. E.ə. III minillliyin ikinci yarısında İkiçayarası Şumer şəhər dövlətləri süquta uğradı. İkiçayarası Akkad dövlətinin hakimiyyəti (e.ə. XXIV-XXII əsrlər) altında birləşirdirildi. Bu zaman Aratta bir dövlət kimi artıq siyasi səhnədən çıxmışdı. Urmiya gölünün cənubunda, keçmiş Aratta dövlətinin qərb torpaqlarında lullibi tayfalarının ittifaqı yaranmışdı. Lullibi tayfa ittifaqına, yəqin ki, nisbətən sonraki dövrdə siyasi səhnəyə çıxmış su və turukki tayfaları daxil idilər. E.ə. XXIII əsrdə Urmiya gölünün cənubunda lullibi tayfaları dövləti yarandı. Lullubum (lullubi) dövləti cənubi Azərbaycanın ərazisində yaranmış ikinci erkən dövlət quruluşu idi.**

**Tarixi ədəbiyyatda belə bir fikir mövcuddur ki, guya lullubilər bu zaman ibtidai–icma quruluşu dövründə yaşayırdılar. Lakin qaynaqların məlumatı həmin mülahizəni təkzib edir. Çünki bu zaman Lullubumda artıq dövlət hakimiyyəti meydana gəlmişdi. Lullubi hökmdarı Satuni (e.ə. 2230 – 2200-cu illər) Akkad dövlətinə qarşı hərbi birləşmələrdə iştirak edirdi. Lullubum torpaqlarının qərb hüdudunda Süleymaniyyə keçidinin cənub şərqində indiki Qarabağ ərazisində lullubilər müttəfiqləri ilə birlikdə Akkad hökmdarı Naram-Suene (e.ə. 2236 – 2200-cü illər) qarşi döyüşə girdilər. Lakin döyüş müttəfiqlərin və lullubi hökmdarı Satuninin məğlubiyyəti ilə başa çatdı. Naram-Suen bu hadisəni yazı və təsvirlər ilə "qələbə sütunu" adlandırılan daş plitə üzərində əbədiləşdirdi.**

**Lullubum padşahlığında xırda hökmdarların hakimiyyəti mövcud imiş. Lullubum hökmdarı İmmaşqun (e.ə. 2200 – 2170 –ci illər) xirda hakimləri mərkəzi Lullubum dövlətinə tabe etdi. Qaynaqlarda o, "İmmaşqun , Lullu (bum) ölkəsinin padşahlar padşahı" adlandırılır. Beləliklə, e.ə. XXIII əsrdə Urmiya gölünün**

**cənubunda İkiçayarası Akkad dövləti ilə rəqabət aparan güclü Lullubum dövləti yaranır. Bu dövlətin qüdrəti hökmdar Anubanininin ( e.ə.2170 – 2150-ci illər) dövründə daha da artır. Məiumdur ki, Anubanini yazılarını mixi işarələr ilə tərtib edilirdi. Mixi yazı sistemi buranın əhalisinə hakim dairələrinə hələ Aratta dövründə tanış idi. Anubanininin siyasi nailiyyətləri daş piltəsi üzərində həkk olunurdu. Onun " Daş sütunu" abidəsində qeyd edilir: " Anubanini, qüdrətli hökmdar, Lullubum hökmdarı, öz təsvirini və İştar ilahəsinin təsvirini Batir dağında qoydurdum." Bu abidə Diyala çayının orta axarında, Kirmanşaha gedən yol üzərində, Zohab şəhəri yaxınlığında Saripul adlanan yerdə aşkar edilmişdir. Bu fakta əsasən demək olar ki, Lullubilərin hakimiyyəti cənubda Diyala çayının orta axarınadək gəlib çatırdı.Anubanini eyni zamanda cənubda Fars körfəzinə qədərki ərazini iddia edirdi, Şimalda isə onun dövlətinin hüdudları Urmiya gölünədək çatırdı. Ola bilsin ki, Urmiya gölü hövzəsindəki digər torpaqlar da ona tabe edilmişdi.**

**Lullubum dövləti İkiçayarası ilə iqtisadi əlaqələrə girmişdi. Lullubilər şimali İkiçayarasının Qasur şəhərində mal mübadiləsi edir və mal-qaranı taxıla dəyişirdilər. Aratta dövründə olduğu kimi, lullibi dar sakinlərinin də taxıla ehtiyacı var idi. Onlar maldarlıq ilə yanaşı, dəmyə əkinçiliyi ilə də məşğul olurdular.**

**Lullubilər də, Aratta dövründe olduğu kimi, İkiçayarası mədəniyyətinin təsirinə məruz qalmışdılar. Onlar da mixi yazı sistemi ilə tanış idilər. Burada akkad dilini bilən mirzələr və akkad qələbə abidələri hazırlama ənənəsinə uyğun abidələr yaradan ustalar vardır. Anubanininin "Daş sütunu" İkiçayarası nümunələrinə əsasən Lullubi ustaları tərəfindən yonulmuşdu.**

**Lullubilər səma, bərəkət və məhəbbət, ay günəş və s. allahlara sitayiş edirdilər.Təəssüf ki, bu allahların lullubi dilində adları qalmamışdır. Anubanininin "Daş sütunu"nda bu allahların akkad adları çəkilmişdir. Anum(Səma allahı), İştar (Bərəkət və məbbət ilahəsi), Sın (Ay allahı), Şamaş ( Günəş allahı) və s. "Daş sütunu" abidəsində səma allahı Anunun adı birinci çəkilir.**

**Bu da onu göstərir ki, lullubi cəmiyyətində ata nəsli hüququ artıq üstünlük təşkil edirdi.**

**E.ə. II minillikdə vahid Lullubum dövləti parçalanır və yerində xırda hakimiyyətlər yaranır. Qaynaqlar bu dövrün başlanğıcında “ çoxlu lullubi hökmdarları” ifadəsini işlətmişdi.**

**Kutium (Qutium) dövləti. E.ə. III minilllikdə Urmiya gölünün qərb və cənub-qərb hissəsində kuti (yaxud quti) tayfa birləşmələri mövcud idi. Həmin minlliyin ikinci yarısında kutilərin dövlət halında birləşməsi başlanmışdı. Kutilər İkiçayarasında baş verən siyasi hadisələrə müdaxilə edirdilər. Onlar Şumer İkiçayarası ilə müttəfiq münasibətləri saxlayır, lakin Akkad hökmdarlarının işğalçılıq siyasətinə qarşı çıxırdılar. Epik əsərlərdən məlumdur ki, Naram-Suen Urmiya gölü hövzəsində yaşayan tayfalara təcavüzkar siyasət yürüdürdü. İşğala məruz qalan 70 hökmdar, o cümlədən Urmiya gölü hövzəsinin etnosları hərbi ittifaq yaradırlar. Urmiya gölü ətrafı etnoslar Ummanmanda- “Manna ordusu” adlandırılmışdır. Müttəfiqlərə qarşı göndərilmiş Akkad ordusu məğlubiyyətə uğradıldı. Naram-Suen eyni zamanda şumerlərin dini mərkəzi olan Nippur şəhərinə ordu göndərir və burdakı Enlil məbədini dağıtmaq istiyir. Lakin o buna nail ola bilmir. Kuti hərbi dəstləri bu şəhərin köməyilə gəlirlər. Ummanmanda və kuti hərbi dəstələrinin başında hökmdar Enridavazir (e.ə təxminən 2225 – 2250ci illər)dayanmışdı. Onun şərəfinə Nippur şəhərində mixi yazılı abidə qoyulmuş və orada Enridavazir “qüdrətli Kutium və dünyanın dörd səmtinin hökmadrı” adlandırılmışdı.**

**Kuti tayfaları Naram-Suenin hakimiyyəti illərində Akkad dövlətini tez-tez narahat edirdilər. Kutilər ilə mübarizədə ona Elam hökmdarı Kutik İnşuşinak (e.ə.2204 -2205-ci illər) yardım göstərirdi. Elam bu dövrdə Akkad ilə tarixdə məlum olan ilk beynəlxalq müqavilə bağlayır. Müqaviləyə uyğu olaraq Kutik-İnşuşinak Zaqroş dağları səmtə yürüş təşkil edir və kutilərin ölkəsinə gəlib çatır. Bu müqaviməti qələbə kutilərin İkiçayarasına axınının qarşısını ala bilmir və**

**onların Akkad dövlətinə təzyiqi getdikcə artır. Kuti hökmdarları İmta (e.ə. 2204-2197-ci illər) və İnqeşauşun (e.ə. 2198 – 2192-ci illər) hakimiyyəti illərində**

**Kutilərin İkiçayarası müdaxiləsi daha da güclənmişdi. Qaynaqların məlumatına görə, kutilərin İkiçayarasına basqınları mal-qaranın şəhərlərə gətirilməsinə əngəl törədir və çöl-əkini işlərinin pozulmasına səbəb olurdu. Naram-Suenin vəfatından sonra Akkad dövləti əvvəlki qüdrətini itirir. Hakimiyyətə gəlmiş Şarkalişarri ( e.ə. 2200 – 2175-ci illər) Kuti basqınlarının qarşısını almaq məqsədilə onlara qarşı yürüş təşkil edir. Bu zaman kutilərin hökmdarı Sarlaq (e.ə. 2191 – 2185-ci illər) idi. Kutilər ilə döyüş İkiçayarasının ərazisində baş verir və kutilər məğlubiyyətə uğrayır, Sarlaq əsir düşür, Sarlağın varisi Yarlaqaş ( e.ə. 2184 – 2178ci illər) ola bilsin ki, İkiçayarasına müdaxiləni gücləndirmiş və Akkad dövlətinin süqutuna şərait yaratmışdı. Onun varisi Elulumeş ( e.ə. 2177 – 2171ci illər) İkiçayarasında baş vermiş daxili hərmərclikdən istifadə edərək burada kutilərin hakimiyyətini bərqərar edir, Qaynaqda göstərilir ki, “hakimiyyət kuti dəstələrinin əlinə keçdi”. E.ə. 2175-ci ildə İkiçayarasında hakimiyyətə kuti sülaləsi gəldi. E.ə III minilliyin ikinci yarsında Urmiya gölünün qərb və cənub- qərbi torpaqlarında ( Qərbi Azərbaycan) Kutuim dövləti meydana gəlmişdir. Kutilər İkiçayarasını zəbt etməmişdən əvvəl dövlət qurumu yaratmışdılar. Bu dövlətin yuxarıda göstərilən ilk hökmdarlarının adları müvafiq qədim qaynaqda (“hökmdarlar siyahısı”) əks olunmuşdur. Kutilərin İkiçayarasında təxminən 80-100 illik hakimiyyəti zamanı onlara qarşı heç bir çıxış olmamışdır. Ancaq sonuncu kuti hökmdarı Tirikanın adı ilə bağlı narazılıq qaynaqda əks olunmuşdu. Kutilər İkiçayarasında olan idarə sistemini dəyişmədilər. Ölkəni canişinlər vasitəsilə idarə edirdilər. Kutilərə tabe olan Şumer şəhər hakimləri ensi rütbəsini daşıyırdılar və müstəqil daxili yürüdürdülər. Yəqin ki, kuti hökmdarlarının İkiçayarasında da iqamətgahları varmış. İkiçayarasının Şumer şəhərləri kuti hökmdarlarının şərəfinə yazılar tərtib edirdilər. Kuti hökmdarı Laharabın (e.ə. 2135 – 2133-cü illər) Sippar şəhərində akkad dilində yazısı aşkar edilmişdir. Kuti hökmdarları Yarlaqanda (e.ə. 2120 – 2113-cü illər) Siumun ( e.ə. 2112 – 2105-ci illər) şərəfinə**

**Umma şəhərindəki yazı tərtib olunmuşdur. Kuti hökmdarı Puzur-Suenin ( e.ə. 2127 – 2120-ci illər) möhürü üzərində Ur şəhərinin adı göstərilmişdir. Kutilərin hakimiyyəti bütün Ur şəhərini bürümüş, Nippur, Sippar, Umma, Ur kimi şəhərlər isə onların dayaq məntəqələrinə çevrilmişdi. Kutilərin uzunmüddətli hakimiyyəti illərində İkiçayarasının iqtisadiyyatı və ticarəti yeni inkişaf mərhələsinə qədəm qoyur.**

**Kutilərin İkiçayarası mədəniyyəti dairəsinə cəlb olunmuşdular. Kuti hökmdarlarının qısa mətnli kitabələri mixi yazıları ilə tərtib olunurdu. Onlar da aya, bərəkət və məhəbbət ilahəsinə sitayiş edir və kitabələrində bu allahların ancaq Akkad adları (İştar və Çin) çəkilmişdir. Yəqin ki, bu dövrdə kuti panteonuna ilahə başçılıq edirmiş. Məlumdur ki, sonralar assurlar kuti və lullubi allahlarının Asur panteonuna daxil edirdilər. Ola bilsin ki, bu panteonda adı çəkilən Assara kuti allahlarından olmuşdur. Eyni adı kuti hökmdarı Aşşarlaqın adında əks olunmuşdur. Siumun vəfatından sonra kuti taxt-tacına Tirikan ( e.ə. 2104-cü il) sahib olur. Tirikanın İkiçayarasında hakimiyyəti cəmi 40 gün sürür. Uruk şəhərində ona qarşı qiyam təşkil olunur. Qiyama Uruk ensisi Utunhenqal başçılıq edir. Utuhenqalın adına çıxılan kitabədə kutilərin ünvanına mənfi ifadələr işlədilmişdir. Kitabə onları "dağların zəhərli ilanı (yaxud əjdahası), allahlara əl qaldıran Şumer hakimiyyətini dağlara aparan, Şumeri ədavətlə dolduran, arvadı ərindən, övladı valideyndən ayıran, ölkədə ədavət və hiddət yayan" adamlar kimi qələmə verir. Lakin kutilərin ünvanına deyilmiş ittihamları təsdiq edən heç bir əlavə tarixi sənəd qalmamışdır. Əksinə, kutilərin hakimiyyəti illərində Şumerdə məbəd tikintisi və bərpası davam edir. Kuti hökmdarı Sium da özünü "Ur məbədi işçisi" adlandırırdı. Kuti canişini və yerli hakim Hammahani Yarlaqan Kutiumun hökmdarı olan zaman... Ninurta (allahının məbədini)... bərba etdi". Kutilərin hakimiyyəti illərində Yuxarı dənizdən (Urmiya gölü) Aşağı dənizdə (Fars körfəzi) kimi uzanan ticarət yollarında əmin-amanlıq bərpa olunmuş, İkiçayarasına xarici müdacilələrin arası kəsilmiş və Urmiya gölü hövzəsi ilə dinc əlaqələr yaradılmışdı. Şumer və Akkad gəncləri kuti qoşunlarına xidmətə cəlb olunurdular, lakin bu da**

**ədavət üçün şərait yaratmamalı idi. Yəqin ki, kutilər yerli qız və qadınlarla nigah bağlayırmışlar ki, bu da "arvadı ərindən ayırma" kimi qələmə verilmişdi. Humerdə ədavət salan siyasət ilə Kuti sülaləsi İkiçayarasında uzun müddət hökmranlıq edə bilməzdi. Kutilər və Şumerlər arasında ənənəvi sülh münasibətləri mövcud olmuşdu. Məhz buna görə İkiçayarasının Şumer hissəsi kutilərdən asılı olsa da müstəqil siyasət yürüdürdü.**

**Tarixçilərin bir qismi kutilərin adına çıxılan mənfi əməlləri həqiqət kimi qəbul etmiş, digər qismi isə bunu müstəqil Şumer dövləti yaranandan sonra kutilərin hakimiyyətini pisləyən təbliğat adlandırılmışlar. İkiçayarası cəmiyyətinin ictimai-iqtisadi quruluşundan doğan mənfi zallar kutilərin adına çıxılmışdı.Utuhenqalın adından yazılmış kitabə kuti sülaləsi hakimiyyətinin ləğv olunmasına bəraət qazandırmaq məqsədini güdürdü.**

**Utuhenqalın allah Enlilin adından Uruk əhalisinin kuti hökmdarı Tirikana qarşı çıxmağa sövq edərək "Şumer padşahlığının qaytarılmasını Enlil mənə etibar etmişdir" ifadəsini işlədirmiş. Utuhenqal Tirikana qarşı döyüqə urukluların qüvvəsilə hazırlaşır. Muru yaxınlığında (Umma şəhərindən bir günlük məsafədə yerləşirdi) döyüş baş verir. Hücum qəflətən olduğundan Tirikanın dəstələri məğlub olur və o, Dubrum şəhərindəki iqamətgahına qaçır.**

**Tirikan burada ailəsi ilə birlikdə əsir düşür. Mənbə bu haqda belə yazır: "Kutium hökmdarı Tirikan tək qaçdı. Sığınacaq tapdığı Dubrumda onu mehriban qarşıladılar. Dubrum əhalisi biləndə ki, Enlilin iradəsilə Utuhenqal hökmdar olmuşdur, Tirikanı buraxmadılar. Utuhenqalın göndərdiyi adamlar Tirikanı və onun ailəsini Dubrumda tutaraq əllərini ağac buxova saldılar və gözlərini bağladılar. Tirikanı Utuhenqalın yanına gətirərək onun ayaqları altına atdılar, Utuhenqal ayağını onun boğazına qoydu. O (belə) alçaldıldı və ... Kutium, dağların zəhərli ilanı onun ərazisindən uzaqlaşdırıldı..., (beləliklə, o)" padşahlığı Şumerə qaytarmadı". Utuhenqal e.ə. 2104-cü ildə kutilərin hakimiyyətini asanlıqla ləğv edə bildi, çünki kutilər İkiçayarasında böyük hərbi qüvvə saxlamırdılar. Maraqlıdır ki, Tirikan öldürülməmiş , ancaq ölkədən çıxarılmışdı. Tirikanın məğlubiyyətinin**

**əks-sədası tarixdə uzun müddət yaşamışdı. Sələvkilər dövründə tərtib edilmiş sənəddə Tirikanın məğlubiyyəti onun üçün əlverişsiz təbii əlamət – ayın tutulması ilə izah olunmuşdur. İkiçayarasında kutilərin ağalığına son qoyulduqdan sonra Kutium özündə də dövlət süquta uğrayır, xırda hakimiyyətlər yaranır.**

**E.ə. III minilliyin sonunda Kutium, eləcə də Lullubum dövlətləri süquta uğrayaraq xirda hakimiyyətli vilayətlərə parçalanırlar. Bu hal e.ə. I minilliyin əvvəlinə kimi davam edir. Azərbaycanın erkən dövlətləri türk mənşəli sülalələr idarə edirdilər.**

**2. Manna dövləti. E.ə. I minilliyin əvvəlində cənubi Azərbaycan ərazisində Urmiya gölü hövzəsində mərkəzləşmiş dövlətin meydana gəlməsi üçün şərait yaranır və yeni təşkil edilən dövlət Manna adlanır. Manna Assur və Urartu işğallarına qarşı mübarizədə mətinləşirdi. Manna dövləti qonşunların işğalına qarşı özünü müdafiə mövqeyində saxlayır, xarici siyasitini siyasi vəziyyətdə uyğunlaşdırır, ayrı-ayrı xırda vilayət hakimlərini vahid mərkəzdə birləşdirməyə cəhd göstərirdi.**

**Xırda dövlət birləşmələri. E.ə. IX əsrdə Manna ərazisində bir sıra xırda dövlət birləşmələri mövcud idi. Bu dövlətlər müstəqil xarici siyasət yürüdür və xarici müdaxiləyə qarşı təkbaşına mübarizə aparırdılar. Mannanın ərazisində Zamua, Mazamua, Gilzan, Allabria,Karalla, Meişta-Mesi, Alateye, Surikuş, Missi, Gizlibunda, Uişdiş, Buştu, Bara-Sanqibuti, Zikirtu, və andia kimi vilayətlər meydana gəlmişdi.**

**Urmiya gölünün cənubunda Zamua vilayəti yerləşirdi. Bu ərazi lulluların məskəni olmuşdu. E.ə. IX əsrin birinci yarısında Zamua siyasi cəhətdən vahid deyildi və bir neçə müstəqil vilayətlərə parçalanmışdı. Assur qaynaqlarında "Zamua hökmdarları" ifadəsi bu ölkə ilə əlaqədər işlədilmişdir. Deməli, Zamua ərazisi ayrı-ayrı xırda hakimlər tərəfindən idarə olunurdu. Ölkənin siyasi pərakəndəliyi şəraitində Zamua hökmdarları xarici işğalları qarşı güclü müqavimət göstərə bilmirdilər, nəticədə ölkə çapılıb talan edilir, yaxud da xerac**

verməklə əhalini və əmlakını saxlaya bilirdi. E.ə. 880-ci ildə assur hökmdarı II Aşşurnasirpal (e.ə. 883 – 859-cu illər) Zamua ölkəsinə hücuma keçir. Bu zaman Assuriyaya xərac verməkdən imtina edən zamualılar da üsyana qoşulurlar. II Aşşurnasirpal Süleymaniyyə keçidini aşaraq Zamuanın Nisir dağına yaxınlaşır. Əhali müqavimət göstərə bilmir. Assurlar yeddi qalanı ələ keçirərək dağ arxasında 150 yaşayış məntəqəsini də tuturlar. II Aşşurnasirpal Zamuanın paytaxtı Zamri şəhərinə yaxınlaşır. Vergidən boyun qaçıran Zamua hökmdarı Ameka şəhərinin müdafiəsini təşkil edə bilmir və qaçıb dağlarda gizlənir. Assurlar Lallu çayını keçib Etini keçilməz dağına yaxınlaşır. Qaynağın məlumatına görə, Etini dağı ərazisində hökmdar məskənləri yerləşirmiş. Burada mis əşyalar, hökmdar xəzinəsi və əmlakı, əhalinin sitayiş etdiyi allahlar qənimət kimi aparılır. II Aşşurnasirpal yürüşü davam etdirərək Zaumanın Edir və Elaniu çaylarını keçir və yüksək Suv dağlarına çatır, Ameka burada özünə sığınacaq tapıbmış. O, döyüşə girmək əvəzinə, indi də Sabua dağına qaçır. Çox güman ki, Amekanın daimi, yaxud müqavimət göstərə bilən güclü ordusu yox imiş. Burada assur hökmdarı ibadət yerlərini dağıtdı, mis əşyalar, əmlak və çoxlu atlar ələ keçirdi.

Müqavimət görməyən II Aşşurnasirpal Zamua ölkəsini ələk-vələk edərək Zamuanın Arzizu vilayətinə gəlib çatır. Arzizu Nispi sılddırımlı dağı ətrafında yerləşirdi. Burada Ata adlı bir nəfər hökmdar idi. Aşşurnasipal məlumatına görə, ondan əvvəlki heç bir hökmdarın ayağı bu yerlərə dəyməyibmiş. O, bu ölkənin də qalalarını və yaşayış məntəqələrini dağıdır, yandırıb külə döndərir . Arzizu vilayətinin qonşuluğunda Sipirmen ölkəsi yerləşirdi. Sipirmen əhalisi basqının qarşısını almaq məqsədilə assur hökmdarına mis əşyalardan ibarət xərac göndərir. Aşşurnasirpal qeyd edir ki, “ Sipirmen əhalisi arvad kimi danışır”. Bəlkə də “arvad kimi” danışmaq müəyyən dini ibadət ilə bağlı imiş.

Aşşurnasipal buradan Arakdi şəhərinə yola düşür. Qaynağın məlumatına görə, “Zamua ölkəsinin bütün hökmadarları” qorxuya düşərək onun yanına gəlir və itaət rəmzi olaraq qızıl, gümüş, qurğuşun, tunc, , tunc qab-qacaq, müxtəlif rəngli parçalardan tikilmiş paltardan, o cümlədən at, mal-qara və şərabdan ibarət

**idi. Aşşurnasirpal onların üzərinə yeni vergilər qoyur. O, Zamuada olarkən Gilzan vilayəti, Hubuşkiya ölkəsi və başqa şəhər elçiləri könüllü olaraq xərac gətirirlər. Lakin əhalinin bir qismi Aziru və Simaki dağları arasında yerləşən Mesu qalasında sığınacaq tapdı. Aşşurnasirpal ətraf kəndləri dağıdır, yandırır, 500 döyüşçüsü həlak olur, lakin Mesu qalasını ala bilmir. Mesu yəqin ki, Urmiya gölünün cənub- qərbində, dağlarda yerləşirdi.**

**Beləliklə, e.ə. IX əsrin birinci yarısında Zamua ölkəsində xırda hakimiyyətlər mövcud idi. Vahid mərkəzdə birləşmədiyindən Zamua hökmdarlarının hər biri assur ordusuna qarşı təkbaşına mübarizə aparmalı olur, yaxud xərac göndərməklə Assuriya ilə müstəqil siyasi əlaqə yaradırdılar. Əvvəlki dövrlərdə lullubi adlanan Zamua əhalisi vaxtilə burada vahid dövlət yaratmışdılar. Assurlardan uğurlu müdafiə olunmaq və tam müstəqil siyasət yürütmək üçün indi də vahid (e.ə. IX əsrin birinci yarısı) mərkəzə tabe olan dövlət idarə sisteminin yaradılmasına ehtiyac duyulurdu.**

**Manna dövlətinin yaranması. Manna adı ilk dəfə e.ə. 843-cü ildə assur qaynaqlarında yad edilmişdir. Ölkənin adı mixi qaynaqlarda Mannaş, Munna və daha çox Manna şəklində yazılırdı. Urartu mixi yazıları ölkəni Manna, Tövrat isə Mini kimi qeyd edirdi. İosif Flavi (I əsr) Urmiya gölünün cənub-qərbində və qərbinə şamil edilən Miniada formasını işlətmişdi. Assur qaynaqlarında Manna əslində tayfa adını bildirirdi.**

**Assur hökmdarı III Salmanasar (e.ə. 859-824 – cü illər) e.ə. 856-cı ildə Mannanın Zamua vilayətinə soxuldu, burada Nikdiara və Nikdimanın şəhərlərini tutdu. Görünür, bunlar şəhər hakimləri olmuşlar, çünki hakimiyyət rütbələri göstərilməmişdir. III Salmanasar dəniz (Urmiya gölü) döyüşündə onların ordusunu məğlubiyyətə uğradır. Elə həmin il Urmiya gölünün qərbində yerləşən Gilzan vilayətinin hökmadrı Asau oğlanları və qardaşları ilə birlikdə III Salmanasarı qarşılayır, ona at, dəvə, mal-qara, və şərabda ibarət xərac verir. Bu yolla Gilzan hökmdarı ölkəni assurların talanından qoruyur. E.ə. 835-ci ildə o,**

**Mannanın cənubunda, Parsua ölkəsinin qonşuluğunda yerləşən Messi vilayətinə də hücum edir.**

**E.ə. 829-cu ildə III Salmanasar bilavasitə Manna hökmadrı Ualakinin (Udaki) hakimiyyəti altında olan torpaqlara soxuldu. Ualki də müqavimət göstərə bilmədi, paytaxtı Zirtu (sonraki İzirtu) şəhərini tərk edərək qaçdı. III Salnmanasar müdafiəsiz qalmış Mannanın saysız- hesabsız mal qarasını, davarını və var-yoxunu taladı, şəhərlərini dağıdaraq yandırdı. Bir il sonra Salmanasar Mannanın Buştu vilayətinin eyni adlı şəhərini tutdu. Gilzanda hakimiyyətə gəlmiş Upu və uzaq Andiya vilayəti ona xərac göndərdi.**

**Beləliklə, e.ə. IX əsrin ortalarında, bəlkədə Birinci yarısında Urmiya gölü hövzəsində Manna dövləti artıq yaranmışdı. Manna bütün Cənubi Azərbaycan torpaqları üzərində hakimiyyətini bərqərar edə bilməmişdi, hələ müstəqil siyasət yürürdən vilayətlər mövcud idi. Xüsusilə Gilzan müstəqil hökmdarlar tərəfindən idarə olunurdu. Zamua-Lullubilər ölkəsi Mannanın mərkəzi torpaqları idi. Assuriyanın hərbi müdaxilələri Manna hökmdarlarının ölkəni vahid mərkəzdə birləşdirməyə vadar edirdi. Lakin Manna uzun müddət buna nail ola bilməmişdi. Çünki Mannalılar iki cəbhədə müdafiə olunmağa məcbur idilər. Bir tətəfdən assur hökmdarları Mannaya hərbi yürüşlər təşkil edir, şəhər və yaşayış məntəqələrini dağıdır, əhalini çapıb-talayır, öldürür digər tərəfdən isə Van gölü hövzəsində e.ə. IX əsirdə Urartu dövləti Mannaya qarşı işğalçılıq siyasəti yürüdərək torpaqlarını zəbt edir və burada möhkəmlənmək niyyəti güdürdü.**

**Manna artıq, e.ə. IX-VIII əsrlərin hüdudunda Urmiya gölü hövzəsində ən güclü bir dövlətə çevrilirdi və eyni zamanda xırda vilayətlərin vahid bir mərkəzdə birləşdirilməsi sahəsində ilk addımlar atırdı.**

**Assurların Mannaya müdaxiləsi. Assur hökmdarı V Şamşi-Adad (e.ə. 823-811 – ci illər) Mannaya qarşı yürüşünü Zamua torpaqlarından başladı. Burada Mekdiaranın oğlu Şarsina hakim (rütbəsi göstərilmişdir) idi. Onun vilayətini talan etdi, 300 yaşayış məntəqəsinə tutdu və dağıtdı. Eyni zamanda o, Urartu hökmdarı**

İşpuininin 11 qalasını və 200 yaşayış məntəqəsinidə tutaraq dağıtdı, döyüşçülərini məhv etdi, oğul və qızlarını əsir apardı. Çox güman ki,Urmiya gölünün cənub və cənub-şərqində yerləşən və Mannaya mənsub olan bu torpaqları İşpuini ( e.ə. 825-812 ci – illər) işğal edmişdir. V Şamşi-Adadın bu yürürüşü nəticəsində Urartu Mannanın qərb torpaqlarında sıxışdırılıb çıxarıldı. Bu ərazidə Mannanın sunbi ( sonraki subi, sumbi) tayfası məskunlaşmışdı. Urartu hökmdarının məğlubiyyəti və assur ordusunun burada daim qərar tutmaması Mannaya öz ərazisinə sahib olmaq üçün şərait yaratdı. Sunbilər yaranmış fürsətdən istifadə etdilər. Lakin V Şamşi-Adad yürüşdən qayıdan zaman sunbiləri də məğlubiyyətə uğratdı və atlardan ibarət vergi aldı. E.ə. 820-ci ildə V Şamşi-Adad yenə də Nairi ölkələrinəhərbi səfərə çıxdı. Bu dəfə Manna ərazisində heç bir müqavimətə rast gəlmədi. Mannalılar, sunbilər, Şarsina özü və başqaları Şamşi-Adadı atlardan ibarət xərac ilə qarşıladılar, bununla da əhalini talandan qorudular. Lakin Mesi vilayətinin əhalisi qaçıb Urmiya gölünün cənub-qərbində sıldırım qayalarda gizləndi. Qaynaqda qeyd edilir: “ Mesilər qaçdılar və göydən bulud kimi sallanan üç dağ zirvəsində ( “üç qaya arasında”) gizləndilər”. V Şamşi-Adad mesiləri təqib etdi. 500 yaşayış məntəqəsini dağıdaraq yandırdı, əhalini var-yoxdan çıxardı, mal-qaranı, qoşqu atlarını, ikigüvənli dəvələri, qatırları və əsirləri qənimət kimi apardı.

V Şamşi-Adad buradan Qizilbunda /Qizlibuda (Gizilbunda, yaxud Gizilbuda) ölkəsinə yola düşdü. Gizilbunda Manna ilə Midiyanın arasında, indiki Qızıl Üzən çayının cənubdan başlayan qolunu yuxarı axarında və dağlıq sahədə yerləşirdi. Assurlar Qizilbundanın Kinaki şəhərini tutaraq yandırdılar, ölkənin “ daşlı dağı Bişbizidaya” qalxdılar. Oranın bəzi hakimləri itaət məqsədilə V Şamşi-Adada at və qoşqu ləvazimatından ibarət xərac verdilər, lakin Qizilbunda əhalisi assurlardan canlarını qurtarmaq üçün yaşayış yerlərini tərk etdilər və Uraş qalasında gizləndilər. Assurlar Uraş qalasını ələ keçirərək dağıtdılar. Qizilbunda hökmdarı Pirişati döyüşdə 6 min döyüşçü itirdi, özü isə 200 döyüşçü ilə əsir düşdü. Qaynağın məlumatına görə, assuralar Uraş “ şəhərinin küçələrini qırmızı yun kimi döyüşçülərin qanına boyadılar”, əsirlər tutdular, əhalinin əmlakını, mal- qarsını,

**davarını, atlarını, qızıl, gümüş və tunc qablarını ələ keçirdilər. V Şamşi-Adadın dediyinə görə, o, "Günbatan dənizə" ( Xəzər) kimi əhali arasında vahimə yarandı.**

**Bu zaman yəni IX əsrin sonunda Qizilbunda hökmdar tərəfindən idarə olunurdu,Mannadan hələ tam asılı deyildi. E.ə. IX əsrin sonunda assur hökdarı III Adadnirari ( 810-783-cü illər) öyünür ki, Günbatan (Xəzər) dənizə kimi yerləşən ərazini işğal etmişdir. İşğal olunmuş ölkələr içərisində Manna, onun vilayətləri Mesu,Qizilbunda, "uzaqda yerləşən" Andia, Allabria, o cümlədən Midiya yad edilmişdir.**

**Məlumat təfsilatı olmadığından güman etmək olar ki, bu ölkələr təzədən işğal olumamışdır. E.ə. IX əsrin sonunda Assuriya hökmdarlarının işğal hədəfinə çevrilmiş Manna dövləti, onun vilayət hakimləri və hökmdarları gah uğursuz müqavimət göstərir, gah da assur ağalığını xərac verməklə tanımağa məcbur olurdular.**

**Mannanın yüksəlişi. Assuriyada III Tiqlatpalasarın (e.ə. 744-727 –ci illər) Hakimiyətə gəlməsilə Ön Asiyada siyasi vəziyyət dəyişildi. O geniş işğalçılıq müharibələri aparır. Assuriyada beynəlxalq nüfuzunu qaldırdı. Manna və başqa ölkələrdə o, Assuriyanın siyasi təsirini artırmaq məqsədilə Urartu ilə toquşmalı oldu. III Tiqlatpalasar Manna istiqamətində Mazamua (Urmiya gölünün cənubu və cənub-qərb vadi hissələri) vilayətini tutaraq orda yeni məskunlar yerləşirdi və Mazamuanı Assuriyaya birləşdirdi. Mazamua Zamuanın şimal hissəsini təşkil edirdi. Urartu da bu torpaq uğrunda uzun-uzadi müharibələr aparmışdı. Bununla urartular Mannanın bu ərazisində sıxışdırılıb çıxarıldılar. III Tiqlatpalasar işğal olunmuş ölkələrin əhalisini bir yerdən başqa yerə köçürmə siyasəti yürüdürdü. O, Urmiya gölü hövzəsində (əsasən qərb və cənub-qərbində) yaşayan kutiləri, sanqibutiləri, sanqilləri, budiləri, nakkabiləri və s. başqa əraziyə köçürdü və məskunlaşdırdı. Lakin III Tiqlatpalasar Mannanın digər vilayətlərinə toxunmadı. Tiqlatpalasarın işğal etdiyi ölkələr içərisində Manna yad edilmir, o, ancaq**

**Mannanın qonşuları Urartu və Midiya ilə müharibələr aparırdı. Manna hökmdarı III Tiqlatpalasara şəxsində özünün müttəfiqini görürdü.**

**İranzunun dövləti mərkəzləşdirmə siyasəti. Manna hökmdarı İranzu ( E.ə. 740-719-cu illər) yaranmış siyasi vəziyyətdən bacarıqla istifadə etdi. Ola bilsin ki, o, III Tiqlatpalasar ilə ittifaqa girmişdi. Assur ordusunun Urartuya qarşı uğurlu müharibələrindən istifadə edərək , İranzu Urartu tərəfindən işğal olunmuş Manna torpaqlarını geriyə qaytramğa müəssər oldu. İranzu Manna vilayətlərinin mərkəzi hakimiyətə tabe etdi və ölkədə canişinliq sistemi yaratdı. Canişinlər mərkəzi hakimiyyətdən asılı idilər. İranzu şərqdə və şimalda Mannanın hakimiyətini möhkəmləndirdi. Ola bilsin ki, şimalda Manna Araz çayı ilə cənub və cənub-şərqdə müvafiq surətdə Kassi ölkəsi, Parsua və Midiya ilə həmsərhəd idi. Qərbdə Mannanın sərhədləri bəzi hallarda Urartunun cənubi və və cənub şərqində yerləşən Hubuşkiyaya çatırmış. Hubuşkiyanın qonşusu, Urmiya gölünün qərbində yerləşən Gilzanda yəqin ki, bu dövrdən Mannanın tərkibində daxil olmuşdur. İranzunun hakimiyəti illərində Manna deməy olar ki, Cənubi Azərbaycanını sərhədlərinə bərqərar oldu və urmiya gölü hövzəsində ən qüvvətli bir dövlətə çevrildi.**

**Bu dövrdə Mannada iki meylli xarici siyasət mövcud idi. Bir qrup Assuriya ilə ittifaqa meyil göstərir, bununlada Manna torpaqlarının bütövlüyünü saxlayır və Urartunun işğalçılıq niyyətlərinə sədd çəkirdi. İranzu Assuriya ilə müttəfiq kimi davranır və onun siyasi üstünlüyünü tanıyırdı. Uzun müddət Urartu müdaxiləsinə qarşı mübarizə aparan Mannaya əmin amanlıq lazım idi. Digər qrup urartu ilə ittifaqa meyil göstərir və Assuria əlehinə qüvvələri birləşdirməyə çağırırdı. Ola bilsin ki, III Tiqlatpalasar Urmiya gölünün cənub və cənub-qərb torpaqlarını Uratuya meyil gostərən əhalisini siyasi mövqeyinə görə köçürmüşdü. Hər halda ikinci qrupun siyasəti Mannanın ərazi bütövlüyünü parçalaya bilərdi, eyni zamanda daxili qüvvələrin və vilayətlərin mərkəzi dövlət ətrafında birləşməsinə əngəl törədərdi. Keçmişin təcrübəsi Manna hökmdarının xarici siyasətinin istiqamətini müəyyənləşdirdi. Onun assur meyilli siyasəti Ön Asianın bu qüdrətli**

dövlətini Mannanın havadarına çevirmişdi. Belə hal, ilk növbədə Urartunu narahat edirdi, çünki Urartu hökmdarları Manna torpaqlarını işğal etmək niyyətindən əl çəkməmişdilər.

Assur meyilli xarici siyasət Manna dövlətini Urartu işğallarından xilas etmiş və ölkənın vahid mərkəzdə birləşməsi üçün şərait yaratmışdı. Lakin İranzunun dövləti mərkəzləşdirmə siyasəti Mannanın müəyyən canişinlərinin manefeyinə uyğun gəlmirdi, canişinlərin bəzisi mərkəzdən ayrılma fitvasına gedirdilər. Eyni zamanda Urartu Mannanın daxili işlərinə qarışır, canışınləri mərkəzi hakimiyyətə qarışı üsyan təhrik edirdi.

Urartu hökmdarı birinci Rusa (e.ə. 730-714-cu illər) işğalçılıq niyətinə heyata keçirmək məqsədilə Mannanın Zigirtu vilayətinin canişini  və başqa şəhərlər ilə sazişə girdi. Mannanın Zigirtu vilayətinin canişini Metatti 100 əhali arasında İranzuya qarşı üsyan meyilləri yaradırdı. E.ə. 719-cu ildə Mannanın Şuandahul və Durtukka şəhərlərinin əhalisi Metattiyə arxalanaraq İranzuya qarşı üsyan meyilləri yaradıldı.  Assur hökmdarının II Sarqunun ( e.ə. 722-705 – ci illər) kitabəsində bu barədə deyilir. “Hakimiyətinin üçüncü ilində Şuandahu və Durtukka qala şəhərləri öz ağalarına, mənim boyunduruğumu çəkən Manna hökmdarı İranzuya qarşı üsyan fikrinə düşdülər və Zikirtulu Metattiyə arxalandılar. Zikirtulu Mettati onlara öz döyüşçü və suvarilərini verməklə yardım göstərdi. (Allah) Aşşur çoxlu qoşununu mən silahlandırdım və bu çəhərləri tutmağa getdim”. II Sarqon sələflərinin Manna ilə ittifaqa sadiq qalaraq üsyançıların üzərinə qoşun yürüdü. Yürüş gedişində üsyana meyil edən və birinci Rusa ilə sövdələşən bir sıra şəhər əhalisini Suriyaya köçürdü.II Sarqon məlumat verir ki, “ Sukka səhər əhalisini onları kökünü  kəsə biləcək pis məsləhətlər verdiyi və Urartu hokmdarı ilə sazişə girdiyi üçün, mən öz yerlərindən qərbə , Suriyaya köçürdüm “. II Sarqon üsyançı şəhərləri dağıdaraq yandırdı. Beləliklə , canişin Metatti və I Rusa tərəfindən Manna hökmdarı İranzuya qarşı hazırlanmış üsyan Assuriyanın köməyilə yatırıldı. Lakin özgə torpagında ara qızışdıran Rusaya uyan Metatti vahid Manna dövlətini parçalamaq üçün fürsət axtarırdı. İranzu vəfat

etdikdən sonra onlar yeni müttəfiqlər tapıb Manna hökmdarına qarşı fitnə-fəsada başladılar.

**Manna dövlətinin süqutu.** Manna uzun müddət Assuriya ilə ittifaqa sadiq qaldı və e.ə. VII əsrin birinci rübündə Qafqazdan gəlmiş skit tayfaları ilə ittifaqa girdi. Mannanın qərb və cənub-qərb vilayətlərində kimmer-skit-sak tayfa birləşmələr məskunlaşır və Assuriyaya qarşı böyük təhlükə yaradırdı. Belə şəraitdə Mannadakı qüvvələr Assuriya əleyhinə baş qaldırdı. Manna assur itaətindən çıxdı. Manna hökmdarı Ahşeri (e.ə. 675-650-ci illər) artıq Assuriyadan asılı vəziyyətdə deyildi, ənənəvi ittifaqı pozmuşdu. Buna görə də assur hökmdarı Aşşurbanipal (e.ə. 669-627- ci illər) Manna ərazisinə soxuldu. Salnamede qeyd edilir ki, Aşşurbanipal "Manna hökmdarı Ahşeriyə qarşı getdi, çünki o, Aşşurbanipalın ata-babalarına tabe olmurdu". E.ə. 650-ci ildə Mannanın ərazisində döyüş başlandı. Ahşerinin başçılığı ilə Manna ordusu məğlub oldu. Aşşurbanipal Mannanın bir sıra şəhər və qalalarını, o cümlədən paytaxtı İzirtunu dağıtdı, əhalisini, mal- qara və atlarını qənimət kimi apardı.

Ahşerinin məğlubiyyəti ona baha oturdu. Assur meyilli qüvvələr ona qarşı üsyan təşkil etdilər. Üsyançılar Ahşerini öldürdülər. Qaynaq qeyd edir ki, "Onun ölkəsinin əhalisi üsyan qaldırdı, onu öldürüb meydini şəhər meydançasına atdı". Hakimiyyətə Ahşerinin oğlu Ualli ( yaxud Valle e.ə. 650-630 – cu illər) gəldi və Assuriya ilə ittifaqı təcili bərpa etdi. Oğlu Erisinnini Assuriyaya girov göndərdi. Onun arxansınca isə qızını Assur sarayına yola saldı. Manna yenidən Assuriyadan asılı vəziyyətə düşdü. Bundan sonra Manna Assuriya ilə ittifaqa tam sadiq qaldı. E.ə. 616-cı ildə Assuriya Middiya və Bablistan ilə mübarizədə təklənən zaman Manna hərbi dəstələri ona köməyə gəldi. Assuriya artıq süquta doğru gedirdi. E.ə. VI əsrin 90-ci illərində (e.ə. 593-ci ildə) Manna müstəqil dövlət kimi varlığını saxlayırdı. Çox güman ki, e.ə. 590-cı ildə Manna İranın mərkəzində yaranmış güclü Midiya dövlətini tanımış, lakin daxili müstəqiliyini saxlamışdır. Bundan sonra Manna adı tarixdən silindi. Midiya Mannadan cənub-şərqdə, İranın mərkəzində yerləşirdi. Midiya adı ilk dəfə e.ə. 9-cu əsr qaynaqlarında yad

**edilmişdir. Mannanın Qizilbunda vilayəti hər iki ərazinin sərhəddini təşkil edirdi. Skitlərin ön Asiyaya gəlməsi ilə Midiya Assuriyaya qarşı mübarizədə fəallaşdı. Herodotun məlumatına görə bu mübarizəyə Fraorta (e.ə. 675-653) başçılıq edirdi. Mixi yazılarda o, Kaştariti adlanırdı. E.ə. 672-ci ildə Midiyanın Assuriyaya qarşı mübarizəsi uğurla başa çatdı. Midiya müstəqil dövlətə çevrildi. Assuriyalılarda mübarizədə Kaştariti məğlub olur və döyüşdə həlak olur. Bir müddət (e.ə.653-625) Midiya skitlərin hakimiyyəti altına düşür.**

**5. E.ə. IV əsrdə Makedoniyalı İskəndərin şərqə yürüşləri başlanır. Yunanlara qarşı vuruşan Əhəməni ordusuna daxil olan midiyalılara Atropat başçılıq edirdi. E.ə. 331-ci il 1 oktyabrda Qavqamela düzənliyində qanlı döyüş başladı. Dara döyüşü qoyub Midiyaya qaçır. Əhəmənilər süqut edir. Bundan sonra İskəndər Babil və Elamı müqavimətsiz tutur. Persepol şəhəri yandırılarkən güman edilir ki, 12 min dananın gönü üzərində yazılmış Avesta yanıb məhv olur. E.ə.330-cu ildə İskəndər Midiyanın paytaxtı Ekbatana şəhərinə gəlir. III Dara qaçarkən orta Asiyaya gedən yolda öldürülür. Bununla Əhəməni sülaləsinin (e.ə.550-330) hakimiyyətinə son qoyulur.**

**İskəndər özünü əhəmənilərin varisi elan edir.**

**Bu zaman Atropat onun yanına gələrək tabe olduğunu bildirdi. Məşhur Suz təntənələri zamanı Atropat öz qızını İskəndərin yaxın silahdaşı Perdikkiyə verərək onlarla qohum oldu. Bununla da Kiçik Midiya ərazisini əhatə edən Atropatena dövləti yaranır və 350 il müstəqil dövlət kimi öz varlığını saxlayaraq, təqribən e.ə.150-ci ilə qədər mövcud olur.**

**Adərbayqan torpaqlarına Atropatın adından Atropatena adının verilməsi və Midiya coğrafi anlayışının bəzən buraya şamil edilməsi eranın I əsrlərini təsadüf edir.**

**E.ə. 323-cü ildə İskəndər öləndən sonra imperiya onun sərkərdələri arasında bölüşdürülür. Onlardan biri Selevk (e.ə.321-281) Suriyanı, Babilistanı, İranı və Orta Asiyanı tutub Hindistana qədər genişləndirdi. Selevkilər Ekbata şəhəri ilə**

**birgə Böyük Midiyanı da zəbt etdilər. Selevkilər dövləti belə yarandı. E.ə. III əsrin ortalarında Selevki dövləti dağılmağa başlayır. Belə bir şəraitdə E.ə. 250-ci ildə Kaspi dənizinin cənub Şərqində Orta Asiyada Parfiya çarlığı yaranır. Orta Asiyanın cənub Qərbi, İranın Şimal-Şərqi onun tərkibinə daxil idi. Paytaxtı əvvəl Aşxabad yaxınlığında olan Nisa şəhəri, sonra isə Dəclə çayı sahilində yerləşən Ktesifon olmuşdur. Ölkənin əsasını Arsakilər sülaləsinin banisi I Arşak qoyub.**

**Adərbayqan e.ə.220-ci ildə Sələvkilərdən asılı vəziyyətə düşür.**

**E.ə. II əsrin əvvəllərində Roma ilə döyüşdə Selevkilər məğlub olur. Adərbayqan yenə də müstəqillik əldə edir.**

**İ.Roma sərkərdələri Lukull, sonra isə Pompey şərqə doğru yürüşə göndərilir. Bu zaman belə təsəvvür yaranır ki, tədricən midiyalı məvhumu İran ərazisində yaşayan bütün əhaliyə aid olunmağa başlayır. Sonra Roma sərkərdəsi Antoni Atropatenaya hücum edir. Plutarx bu haqda məlumat verir. Parfiya üzərinə hücum edən Zaman Parfiyanın keçmiş müttəfiqi erməni çarı II Artavazd Romalılarla birgə idi. Lakin ilk uğursuzluqdan sonra o, Antoniyə xəyanət edərək, döyüşdə onu tək qoyur. Antoni bu xəyanəti ona bağışlamır. E.ə. 34-cü ildə onu İskəndəriyyədə qətlə yetirir. (Ah, yenə də erməni xisləti, erməni satqınlığı).**

**Antolninin Şərqə yürüşü uğursuz olur. 24 min itgi verir. E.ə.30-cu ildə Antonii həlak olur, Şərqdə hökmranlıq Oktavian Avqustun əlinə keçir.**

**Göstərmək lazımdır ki, əhəmənilərin və parfların hakimiyyəti dövründə irandilli etnoslar hakimiyyətdə müvafiq fars mənşəli ad qəbul edirdilər.**

**Tədqiqatlar nəticəsində məlum olur ki, Həsənlu, Təxte Süleyman qazıntılar dünya mədəniyyət xəzinəsinə nəfis incilər bəxş etmişdir.**

**Atropatena səhərləri quru və dəniz ticarət yolları vasitəsilə dünyanın müxtəlif ölkələri ilə ticarət və mədəni əlaqə saxlayırdı.**

**Atropatena şəhərləri şimalda Qafqaz Albaniyası, İberiya, Ermənistan, Şərqdə məşhur «İpək yolu» vasitəsilə İran, orta Asiya, Hindistan və Çin, qərbdə Kiçik Asiya ölkələri ilə iqtisadi əlaqəyə girirdi. Əkinçilik, maldarlıq, toxuculuq, metalişləmə, dulusçuluq və s. Atropatenanın təsərrüfat həyatının əsasını təşkil edirdi.**

**Atropatena əhəməni imperiyasına, parfiyalılara, xüsusilə Roma işğalçılarına qarşı amansız mübarizə aparmışdır. Atropatena sasanilərin dövründə imperiyanın dini və ideoloci mərkəzinə çevrilmişdir. Avesta məhz Atropatena məbədləri tərəfindən toplanıb kodifikasiya edilmişdir.**

**Sasani Şahları tac qoyduqda Ktesifondan (Mədain) Qazakaya piyada gəlib müqəddəs odu ziyarət etdikdən sonra Şahlığa çatırdılar. Burada bəslənilən atlar dünya şöhrəti qazanmışdır.Yadelli işğalçılara qarşı atropatenalılar amansız mübarizə aparmışlar. Atoninin 100 min nəfərlik ordusu məhz Qazaka şəhəri ətrafında məğlub edilmişdir.**

**Sasanilər imperiyası dövründə siyasi müstəqilliyini itirsə də, Atropatena yenə də ideoloci və dini mərkəz kimi bu böyük imperiyanın həyatında mühüm rol oynamışdır. Təqribən e.ə.150-ci ildə Parfiya çarı I Mitridat Atropateni də özünə tabe etdi. Atropaten III əsrin ortalarına qədər Parfiyanın tərkibində qaldı. 224-cü ildə parfiyalıların hakimiyyəti devrilib yerində yeni bir dövlət – Sasanilər dövləti təşəkkül ləğv edərək mərkəzi hakimiyyət yaratdılar. F.Engels bu sistemi «Sasanilərin nizama salınmış İran monarxiyası» adlandırmışdır.Atropatenanın ərazisi indiki Cənubi Azərbaycan vilayətləri, İran Kürdüstanının bir hissəsi və Sovet Azərbaycanının bəzi əyalətləri. (Saatlı, Sabirabad, Neftçala, Salyan, Biləsuvar, Cəlilabad, Masallı, Lənkəran, Lerik, Astara və Naxçıvan).**

**Qafqaz Albaniyasının tarixini bərpa etmədən Yaxın Şərqin qədim və ilkin orta əsrlər tarixini təsəvvür etmək mümkün deyil. Albaniya həm coğrafi, həm də siyasi anlayış idi.Erməni ənənələrinə görə Albaniya «Böyük Ermənistanın ayrılmaz**

**hissəsi» kimi verilir, «Şərqi Ermənistan» adlandırılır, albanlar isə etnik, mədəniyyət və konfessional (dini) baxımdan erməni sayılırdılar.**

**Azərbaycanın Araz çayından Şimalda yerləşən torpaqları antik qaynaqlarda Albaniya adlandırılırdı. Ərəb mənbələrində Arran, Suriya qaynaqlarında Aran və s. Bu dövlət indiki Azərbaycan Respublikasının ərazisini və Dağıstan Muxtar Respublikasının cənub hissəsini (Böyük Qafqaz sıra dağlarından Şimal-Şərq ətəklərindən kiçik Qafqaz dağları və Araz çayına, Qabırrı çayından Xəzər dənizinə qədər ki, ərazini, Mil və Muğan düzlərini) əhatə edirdi, paytaxtı Kabalaka, V əsrdən etibarən isə Bərdə şəhəri idi.**

**Antik mənbələrdə Albaniya, orta fars məqbələrində Ardan, ərəb mənbələrində Arran, gürcü mənbələrində Rani, erməni mənbələrində Ağvan, Suriya mənbələrində Aran kimi adı çəkilir.Dağıstana mənsub Samur-Dərbəndarası bölgə, indiki Ermənistana aid Göyçə və Zəngəsur daxil olmaqla Şimali Azərbaycan ərazisini əhatə edirdi.**

**Lakin Azərbaycanın Kür çayının Arazla birləşdiyi yerdən Xəzərə qədərki hissəsindən cənubdakı inzibati rayonların (Saatlı, Sabirabad, Neftçala, Salyon, Biləsuvar, Cəlilabad, Masallı, Lənkəran, Lerik və Astara rayonlarının) ərazisi və Naxçıvan qədimdə Midiyaya, e.ə. IV əsrdən eranın VII əsrinə qədər Atropatenaya məxsus idi. Albaniya dövləti təxminən 1000 il (min) ömür sürmüş və ərəb işğalı nəticəsində VIII əsrdə süqut etmişdir.**

**Albanların E.ə. I əsrdən qabaqkı siyasi və etnik tarixi zil qaranlıqdır. Maddi mədəniyyət nümunələrinə istinadən Albaniya ərazisində siyasi və etnik tarix məsələlərini izləmək olmur.**

**Alban etnosunun adı ilk dəfə e.ə. 331-ci ildə İran ordusu ilə Makedoniyalı İskəndərin ordusu arasında baş vermiş Qavqomel döyüşü ilə əlaqədar olaraq II əsr müəllifi Arrion tərəfindən çəkilir. Deyilir ki, İran ordusunda Albanlar da var idi.**

**Albanlar haqqında yazan antik müəllifləri Strabon, Tit livi, Vuli Solin, Plutarx. («Ən cəsur xalq-albanlar»). «Albaniya» xronimi, bəzi mülahizəyə görə dağlıq ölkə. «Alban» - sözü qədim türk dillərində «Cəsur», «İgid» mənasını verir.**

**Albaniyanın Dağıstana yaxın hissəsinlə qədim zamanlarda ləzgi dil qrupunda danışan əhali məskunlaşmağa başlamış və tədricən cənuba doğru yayılmışdır.**

**Bəzi mənbələr (müəlliflər) utiləri Qafqazdilli udinlər kimi qələmə verirlər. Hələ əhəmənilər (e.ə.550-331) dövründə vergi dəftərində utilərin adı çəkilir.**

**E.ə. VII əsrin əvvəllərinlə Kimmer-skit dalğaları ilə ön Asiyaya düşmüş Sak tayfaları Albaniyanın ərazisində də məskən salmışdılar. Sak etnonimi bir sıra türkdilli (tayfalarda) xalqlarda – özbəklərdə Şakay, qırğızlarda Saka, türkmənlərdə Şaklar, yakutlarda Saxa və s. mövcuddur.**

**Albaniyanın mərkəzi və aran rayonları əhalisi əsasən Türk etnoslarının, Dağıstana yaxın ərazisi isə Qafqaz-iberdilli etnosların yaşadığı bölgələr olmuşdur. Dağıstandilli tayfalar indiki udinlərin, ləzgilərin, avarların, saxurların, xınalıqların, qrızların və budaqların əcdadları idi. Albaniyada yaşayan ləzgidilli etnosların adlarını Q.Qeybullayev aydınlaşdırmış, mənbələrdəki pərakəndə məlumatları sistemə salmışdır.**

**Şabranda ləzgi və türk albanlarla yanaşı, Şimali Qafqaz çöllərindən gəlmiş türk dilli etnoslar (hunlar, sabirlər, maskutlar, goruslar, çullar) və Sasani şahlarının şimali sərhədlərini qorumaq məqsədilə İrandan köçürdükləri tatlar və yəhudilər də məskun idi.**

**Albanların, Qafqazdilli adlandırılması elmi obyektivlikdən uzaqdır. Bu yanlış konsepsiya Azərbaycana qarşı ərazi iddiaları üçün qida mənbəyinə çevrilmişdir.**

**Albaniyada irandilli tayfalar da yaşamışdır. E-ın III-IV əsrlərindən tatların ulu əcdadları burada məskun idi. Tat adını bu etnosa qədim türklər vermişlər. Mənası «Oturaq», «Əkinçi» deməkdir. Təsadüfi deyil ki, Səlcuq oğuzları Cənubi Azərbaycanın oturaq türkdilli əhalisini, «tat» adlandırırdılar.**

**IV-VI əsrlərdə Beşbarmaq, Gil-Gil çay, daha sonra Dərbənd sədlərinin çəkilməsi ilə bağlı Sasani Şahları Xızı, Dəvəçi, Quba rayonundakı tatları və Dərbənd bölgəsindəki yəhudiləri İrandan köçürtmüşlər. (Məsudi bu haqda məlumat verir).**

**Yəhudilər ondan əvvəl İranda tatlarla yanaşı yaşamış və öz dillərini unudub tat dilinə keçmişlər. Quba-Xaçmaz bölgəsindəki tatlar əvvəlcə xristian dinini qəbul etmiş, ərəblər Albaniyanı tutduqdan sonra tatların əksəriyyəti islama keçdi, az hissəsi (Xaçmaz və Dəvəçinin Kilvar kəndi) xristian dinini saxladı. Ona görə də orta əsrlərdə onlar ermənilərlə qaynayıb-qarışmışlar, halbuki, əslində onlar erməni deyil, Albaniyanın Şimal-Şərqində heç vaxt ermənilər yaşamayıb.**

**Azərbaycanın irandilli xalqlarından olan və qədim mənbələrdə e.ə. V əsrdən «Kadus» adlanan talışların ərazisi tarixən Midiyada və sonra Atropatenaya daxil idi.**

**Eranın əvvəllərinə qədər Albaniyada aşağıdakı tayfalar yaşayırdı. Alban, abant, aran, qat, quqar, qarqar, kaspi, kəmər, Ebin (epin), maskut, sliv, ciqb, çul, gel, lek, sak, satak, uti, şarvan, şamak, şirak, her. Bunlardan Alban, abant, aran, qartar, quqar, maskut, satak, çul, şarvan, Şirak türk mənşəli idilər. Lbinlər, silvlər indiki avarların, ciblər saxurların, herlər qrızlıların, qatlar xınalıqların, leqlər isə ləzgilərin əcdadlarıdır. Gellər İranmənşəli idilər. Onlar indiki ingiloyların ulu əcdadları hesab olunur.**

**Müəllif alan və sarmatların da türkdilli olmasını etnonimik və toponomik paralellər əsasında sübut edir.**

**Təsərrüfatı. Albaniya beynəlxalq ticarət yollarından və Ellin dünyasından kənarda yerləşirdi, həmin səbəbdən burada iqtisadiyyatın, ictimai münasibətlərin inkişafı ləng gedirdi.**

**Əsas təsərrüfat sahələri: əkinçilik, maldarlıq, balıqçılıq idi. Atçılığın inkişafı daha qədimlərə gedib çıxır. Təsərrüfatda dəvədən istifadə edirdilər. Metalişləmə**

**sahəsində qızıl və gümüşdən istifadə edirdilər. Albaniyada toxuculuq da yayılmışdır. Qazınğıları zamanı ipək və pambıq paltarlardan istifadə olunması üzə çıxmışdır.**

**Albaniyanın xarici ticarətində Kür çayının böyük əhəmiyyəti vardı. Antik müəlliflərin məlumatına görə hind malları Amudərya çayı vasitəsilə Xəzər dənizinə gətirilir. Kür və onun qolu Rion çayı ilə Qara dəniz sahilinə çıxarılırdı.Azərbaycanın Şimalını Cənubla birləşdirən karvan yolundan biri Xəzərsahili boyu ölkənin daxili ticarətinə xidmət edir. Digəri muğan çölündən cənuba doğru uzanır, üçüncüsü isə Naxçıvan vilayətini cənubla bağlayırdı. Bu yollar beynəlxalq ticarət yolları ilə birləşirdi.Azərbaycanda Makedoniyalı İskəndərə, Selevkilərə, Arşaki və Roma imperatorlarına məxsus sikkələr tapılıb. Verli sikkələr də zərb olunurdu.**

**Beynəlxalq ticarət yolları Roma tabeliyində olan ölkələrə, Şərqdə Parfiya torpaqlarına keçərək Hindistan və Çinə qədər gedib çatırdı.**

## *Mövzu 2. Azərbaycan III – VII əsrlərdə.Azərbaycanın Ərəb Xilafətinin tərkibinə daxil olması*

**III-V əsrlərdə Azərbaycanda feodalizmə xas iqtisadi münasibətlər bərqərar oldu. Çox təəssüf ki, yazılı qaynaqların yoxluğu üzündən Azərbaycanda quldarlıq çagı təsərrüfatı və sosial münasibətlərinin feodal ictimai-iqtisadi münasibətlərinə keçməsini izləmək mümkün deyil. Lakin sonrakı dövrə aid qaynaqlar və qonşu ölkələrdəki iqtisadi və sosial vəziyyət Azərbaycanda erkən feodalizm münasibətləri barədə təsəvvür yaratmağa imkan verir.**

**Məhsuldar qüvvələrin və istehsal münasibətlərinin tədricən inkişafı feodal istehsal üsulunun bərqərar olmasına şərait yaradırdı. Feodal münasibətləri birdən-birə yaranmamışdı, onun rüşeymləri hələ quldarlıq dövründə meydana gəlirdi.**

**Əmək alətlərinin təkmilləşməsi və onların hazırlanmasında dəmirin tətbiqi əkinçiliyin və sənətkarlığın geniş inkişafına, əmək məhsuldarlığının artmasına səbəb oldu.Taxıl sahələrinin becərilməsi genişləndirildi, müxtəlif sənət növləri yarandı və inkişaf etdi. Ticarət yollarına yaxın ərazidə və şəhərlərdə mal mübadiləsi və ticarəti vüsət aldı.**

**İranda hakimiyyətə gəlmiş Sasani sülaləsi (III – VII əsrlər) mərkəzdən asılı, lakin müəyyən daxili müstəqilliyə malik olan dövlət quruluşlarını ləğv etdi. Arşakilərə (parflara) məxsus ərazilər Sasani dövlətinin ərazilərinə birləşdirildi. İşğal olunmuş torpaqlarda mərkəz nümayəndələri tərəfindən idarə olunan əyalətlər yaratdılar. Belə əyalətlərdən biri Azərbaycan idi. Burada canişin hakimiyyəyi bərqərar edildi. Qaynaqlar canişini mərzban ("sərhəd qoruyan") adlandırırdı. Azərbaycanın ictimai-iqtisadi, sosial inkişafı, torpaq sahibkarlığı qonşu əyalətlərdə olduğu kimi baş verirdi.**

**İranda Sasani dövlətinin başında şahənşah (şahlar şahı) dururdu. O, "İran və qeyri-İran şahlar şahı" rütbəsini daşıyırdı. Onun vəfatından sonra övladları növbə ilə hakimiyyətə sahib olurdular.**

**224-cü ildə İranın cənubunda yerləşən Pars vilayətinin Sasan nəslindən olan hökmdarı Ərdəşir (Artaşir) Papakan Arşaki hökmdarı V Artabanı məğlubiyyətə uğradır. 226-cı ildə o, "İran şahənşahı" elan edilir və Dəclə çayı üzərində yerləşən Ktesifon-Selevkiya Sasanilərin paytaxtı olur. I Ərdəşir dövlətə tabe olan ölkələri canişinliklərə bölür. Azərbaycan ərazisi canişinlik sisteminə daxil edilir. Lakin ilk Azərbaycan (Aturpatakan və Albaniya) I Ərdəşirin hakimiyyəti altına alınmamışdı. Burada hökmranlıq edən Arşaki sülalə nümayəndələri Sasanilərə tabe olmağa tələsmirdilər. Məhz I Şapur (241-272-ci illər) ilk dəfə Sasanilərə tabe olan ölkələr arasında 260-cı ildə Azərbaycanın da (Adurbaden və albaniya) adını çəkmişdi, lakin Sasani şahının buraya hərbi yürüş təşkil etməsi barədə məlumat yoxdur. Çox güman ki, Azərbaycan yenə də hərbi münaqişələrdən kənarda qalmaqla Sasanilərin hakimiyyətini tanıyırdı.**

**Şah I Yezdəgird (399-421-ci illər) hakimiyyətə gəldikdən sonra İran əyanlarının və kahinlərin dövlət işlərinə güclü təsirini qırmaq üçün orta təbəqələrə arxalanırdı. Onların içərisində xristianlar da vardı. Şah xristianlara müəyyən güzəştlər etdi, lakin hakimiyyətinin sonunda bu siyasəti dəyişməyə məcbur oldu. Artıq güclənmiş xristian dairələrinin Bizansla yaxınlaşması təhlükəsi yaranmışdı. Buna görə də, Bəhram Gur (421-438-ci illər)xristianlığın ardıcılları ilə mübarizəni gücləndirdi.**

# Mani təlimi

**Zərdüştdən sonra İranda Mani öz dini təlimini yaymağa başlayır. Onun təlimi zərdüştlük, xristianlıq və buddizm ünsürlərini özündə cəmləşdirmişdi. Mani 215-ci ildə Cənubi İkiçayarasında adlı-sanlı İran mənşəli arşakilər nəslinə mənsub ailədə doğulmuşdu. Maninin dini təlimi digər dinləri əvəz etməli və ümumdünya dininə çevrilməli imiş. O öz təlimini III əsrin ortalarında (242-ci ildə) I Şapur hakimiyyətə gələn zaman yaymağa başlayır. Həmin təlimə görə dünyada işıq və qaranlıq arasında daimi mübarizə gedir. Dünya şeytan əməlləri ilə doludur. İnsan, ilk növbədə şər ünsürlərdən azad olmalıdır, hakimiyyətə can atmamalıdır. Mani ardıcıllarını dünya nemətlərindən, hətta ev-ailə qurmaqdan imtina etməyə çağırırdı. Lakin Mani təlimi ailə qurmağı, mülkiyyət sahibi olmağı tam qadağan etmirdi, belələrinin təlimi yayanlara yardım göstərmələrini tövsiyə edirdi. Şər qüvvələrdən etiraz əlaməti olaraq uzaqlaşmağa çağıran Mani sanki istismar olunan zəhmətkeşlərin gününə yanırdı. Lakin o, əhalini mövcud quruluşa qarşı fəal mübarizəyə çağırmırdı.**

**Manilik qısa müddətdə geniş bir ərazidə İrandan tutmuş qərbdə Roma imperiyasının ucqarlarına (Afrika və İspaniya), şərqdə isə Orta Asiyaya kimi yayılır. Mani təlimi mövcud istismarçı qanun-qaydalara, dövlət hakimiyyətinə qarşı yönəldiyi üçün tezliklə təqibə məruz qalır və 276-cı ildə Mani edam edilir. Mani təlimini pəhləvi və Suriya dillərində aparırdı. Bu məqsədlə o, Suriya**

**əlifbasını İran dillərinin xüsusiyyətinə uyğunlaşdırmışdı. Mani əlifbası Mərkəzi Asiya xalqlarının yazı sisteminin yaranmasına təsir göstərmişdi.**

**III əsrin sonunda Maninin davamçısı Bundos Romada və İranda dini təlimə başlayır. O, hətta Albaniyada öz təlimini yaymaq cəhdi göstərmişdi. Manilikdən fərqli olaraq Bundos şər-xeyir mübarizəsində son məqamda xeyirin qələbə çalacağını söyləyirdi. Əslində Bundos şər qüvvələri məhv etmək üçün insanları fəal mübarizəyə çağırırdı. Fəal mübarizəyə çağırış ideyası Məzdəkilər hərəkatına böyük təsir göstərmişdi.**

# Məzdəkilər hərəkatı

**Sasanilərin hakimiyyəti dövründə imperiyaya daxil olan ölkələrdə feodal münasibətləri inkişaf edirdi. Kəndlilər son dərəcə istismar olunurdular. Torpaq sahələri feodalların əlində cəmləşirdi. Feodal torpaqlarında icarədar kimi işləməyə məcbur olan kəndlilərə paylanmış torpaqlar iri feodalların xüsusi mülkiyyətinə çevrilirdi. Kəndlilər feodaldan asılı vəziyyətə düşürdülər. Kənd icmalarının parçalanması və feodal mülkiyyətinə çevrilməsi prosesi güclənir, dövlət xəzinəsi boşalırdı. Sasanilərin müharibələri, kəndli torpaqlarının hesabına iri feodal mülklərinin yaranması və kəndlilərin feodallardan asılı vəziyyətə salınması cəhdləri ölkədə ictimai hərəkatın genişlənməsinə şərait yaratmışdı. 481-529-cu illəri əhatə edən ictimai hərəkata Məzdək Bəmdad oğlu başçılıq edirdi.**

**Məzdək təliminin əsas müddəası ədalətli cəmiyyət qurmaq, insanlar arasında əmlak bərabərliyi yaratmaq idi. Qaynaqların birində bu ideya belə şərh olunmuşdu: "Allah insanlara ona görə əmlak vermişdir ki, onlar bunu öz aralarında bərabər bölüşdürsünlər. Lakin insanlar bir-birlərini ağır ədalətsizliyə düçar edirlər. Onlar (məzdəkilər) deyirdilər ki, (əmlakı) varlılardan alıb**

yoxsullara vermək və bununla da varlıların hesabına onlara öz mülkiyyətini qaytarmaq istəyirdilər". Məzdək təliminə görə, Xeyirin Şər üzərində qələbəsini Allahın və İşıqlı qüvvələrin köməyilə təmin etmək olar. Məzdək mübarizə yolu ilə ədalətli cəmiyyətin qurulmasını mümkün hesab edirdi.

Kavadın (488-531-ci illər) hakimiyyəti illərində Məzdəkilər hərəkatı daha geniş vüsət alır. Xalq üsyanından ehtiyat edən və əyanların qüdrətini sarsıtmaq məqsədini qarşıya qoyan I Kavad (Qubad) məzdəkilərə qəyyumluq edirdi. Aclıq zamanı Məzdəkin məsləhətilə Kavad dövlətin taxıl anbarlarını əhalinin üzünə açır. Məzdəkin fikrincə, "Əmlak insanlar arasında bölüşdürülmüşdür, onların hamısı isə Allahın qulları və Adəmin övladlarıdır. Kim ehtiyac hiss edirsə, qoy bir-birinin əmlakından istifadə etsin, belə ki, heç ehtiyac və yoxsulluq duymasın, hamı mövqecə bərabər olsun".

I Kavad bir müddət taxtdan salınır, Heptal hökmdarının yanına qaçmalı olur. Hakimiyyətini möhkəmləndirən şah artıq məzdəkilərin köməyinə arxalanmırdı. Kavadın oğlu Xosrov məzdəkilərə qanlı divan tutur, Məzdək isə 529-cu ildə edam edilir.

Məzdəkilər hərəkatı məğlub oldu, lakin onun ideyaları xalq arasında uzun müddət yaşadı, sonrakı (ərəb və fars) qaynaqlarda bu və ya digər şəkildə öz əksini tapdı.

## Alban feodal dövləti

Tarixi rəvayətə görə, e.ə II əsrdə Albaniyanın hökmdarı Aran olmuşdur. Aran sözü (ərən türk.) türk dillərində izah olunur və "cəsur, qocaq, mərd" mənasını daşıyır.I-III əsrlərdə Roma-Parfiya münaqişələri davam edirdi. Alban xristian tarixçisi Moisey Kalankətli yazır ki, "Arandan sonra böyük arşakilər sülaləsinə mənsub olan Cəsur Vaçaqanadək (I) keçən günlər məlum deyil".

226-cı ildə İranda Sasanilər sülaləsi (III-VII əsrlər) hakimiyyətə gəldi. Arşakilərin hakimiyyətinə son qoyuldu. Sasanilər Roma ilə ənənəvi müharibəni

**davam etdirdilər. III əsrdə Sasani şahı I Şapur (241-272-ci illər) Roma ordusunu məğlubiyyətə uğratdı (260-ci il) və Roma imperatoru Valerian əsir düşdü. I Şapur öz qələbəsi barədə bütün ölkələrə xəbər göndərdi. Lakin albanlar və iberlər Sasani şahının məktubunu qəbul etmədilər və üzlərini Romaya tərəf tutaraq Valeriani əsirlikdən azad etmək üçün vədlər verdilər. Bu zaman Albaniyada hakimiyyətə I Vaçe (255-262-ci illər) gəlmişdi və o, şübhəsiz, arşaki sülaləsinin nümayəndəsi kimi, Roma ilə ittifaqı sasanilərə tabe olmaqdan üstün tutmuşdur. Lakin, çox güman ki, 262-ci ildə bir çox ölkələr kimi, Albaniya da I Şapur dövlətinin tərkibinə daxil oldu. I Şapurun 262-ci ildə Nəqşi-Rüstəmdəki məbəd divarında həkk etdirdiyi yazıda Sasani dövlətinə daxil olan ölkələr arasında Adərbayqan (Aturpatakan), Armeniya, İberiya, Gürcüstan, Midiya və başqaları ilə yanaşı, Albaniya və onun vilayətinə çevrilmiş Balasakan da yad edilmişdi. I Şapurun ölümündən (272-ci il) sonra Albaniya yenə də müstəqil xarici siyasət yürüdürdü. Roma imperatoru Avrelian (270-275-ci illər) dövründə Albaniya, Armeniya və İberiya ilə yanaşı, Roma meylli siyasət aparırdı. Bu zaman Albaniya hökmdarının kim olduğu məlum deyil. Hər halda o, Sasani hakimiyyətinə artıq tabe deyildi.**

# Mehranilər sülaləsi. Cavanşir

**VII əsrin əvvələrindən Albaniyada Mehranilər sülaləsinin hökmranlığı başlayır. Bu sülalənin hakimiyyəti öncə Albaniyanın Girdman (ind. Şəmkir, Qazax ərazisi) vilayətində bərqərar olmuş, sonra isə mərkəz Partav (ind. Bərdə) şəhərinə keçmişdi. Moisey Kalankətlinin qeyd etdiyi rəvayətə görə, sülalənin banisi hesab edilən Mehran Sasani şahı II Xosrov ilə qohum imiş. II Xosrov Bizans imperatoru Mavrikinin köməyilə Sasani taxt-tacını geriyə qaytardıqdan sonra (591-ci il) atasının öldürülməsində təqsiri olan adamlara qarşı cəza tədbirləri görməyə başlayır. Qətldə barmağı olan Mehran II Xosrovun qəzəbindən qorxaraq Albaniyaya qaçır.Göstərilən qaynaqda yazılır ki, “o, özü ilə nəslinə mənsub 30 min ailə götürüb Albaniyaya keçir və Uti vilayətinə gəlir. Oradan isə xəzərlərin yanına**

**getmək və düşmənlərə qoşulmaq istəyirdi". Bu məlumatdan görünür ki, Mehran və onun tərəfdarları türklərlə birləşməyə meyl edirdi. Guya, II Xosrov Mehranın düşmənlərə qoşulmasından qorxaraq əyanların məsləhəti ilə ona öz padşahlığında qalmağı təklif etmişdir. Xosrovun Mehrana müraciətində deyilirmiş: "Mənim əziz qardaşım. Sən məni kinlə tərk etmə. Əgər sən mənim yanımda yaşamaq istəmirsənsə, onda mənim məktubum sənə yetən yerdə ayaqla keçə bildiyin qədər özünə mülk götür". Guya bu xəbəri Mehran dağ ətəyində yerləşən Girdman vilayətində almış, orada Mehravan şəhərini saldırmış və onunla gələn ailələrlə birlikdə həmin yerdə məskunlaşmışdı.**

**Mehran (570-590-cı illər), qaynağın məlumatına görə, yerli əyanlardan 12 nəfəri öldürüb bütün Girdman vilayətinə sahib olur. Bundan sonra, o, uzun müddət dinc şəraitdə yaşayır. Onun nəticəsi Cəsur Vardan (600-615-ci illər) Girdman qalası tikdirir. Vardan xristian dininin sərbəst ibadəti dövründə monofizit etiqadını qəbul etmişdi. O, guya Arani nəslinin 60 nümayəndəsinə zəhər verib öldürmüş və Albaniyanın sahibinə çevrilmiş, həmçinin Qafqaz tayfalarını özünə tabe etmişdi. Onun nəvəsi, xristian adı qəbul etmiş Varaz-Qriqor (625 -636-cı illər) Bizans imperatoru İraklikin Qafqaza yürüşü zamanı hələ Girdman vilayətində idi.**

**Varaz-Qriqorun varisi Cavanşir (636-680-cı illər) bütün Albaniyanın hakiminə çevrildi. O, Partav şəhərini paytaxt etdi. Hakimiyyətinin ilk dövründə Sasani şahı III Yezdəgirdə tabe olan Cavanşir onun tərəfində ərəblərə qarşı vuruşurdu. Sasani imperiyası dağıldıqdan (651-ci il) sonra ərəb xilafətindən asılı vəziyyətə düşdü. Ərəb xilafətində daxili çəkişmələr, toqquşmalar başlayan zaman Cavanşir Qafqazın digər feodalları kimi Bizans imperatorunun tərəfinə keçdi. II Konstantin (641-668-ci illər) onu öz himayəsi altına aldı. Bizans imperatorunun sayəsində Canşir İberiya sərhədlərindən Araz çayına və Hun darvazalarınadək bütün ərazini əhatə edən Albaniyanın hakiminə çevrildi. Lakin tezliklə xəzərlərin Albaniyaya hücumları təkrar olundu. Cavanşir ölkəsini işğallardan qorumaq məqsədilə Xəzər xaqanının qızına evləndi və müəyyən dərəcədə xaqanlıqdan asılı**

**vəziyyətə düşdü. Lakin tezliklə ərəb xilafəti yüksəliş mərhələsinə qədəm qoydu. Cavanşir cənubdan gələn təhlükəni Albaniyadan sovuşdurmaq məqsədilə ərəb xilafətinin qüdrətinə sığınırdı. Albaniyanın bütövlüyünü saxlamaq naminə Cavanşir ərəb istilası dövründə yaranmış mürəkkəb siyasi vəziyyətdən çıxmaq üçün hər bir imkandan istifadə edirdi. Lakin Azərbaycanın ərəblər tərəfindən işğalı da yaxınlaşırdı.**

**VII əsrin 40-cı illərində Xilafət ordularının Qafqaza hucumu ərəfəsində Azərbaycanda siyasi vəziyyət mürəkkəb idi.Ön Qafqaza sahib olmaq uğrunda Bizans imperiyası ilə Sasanilər imperiyası arasında III əsrdən başlanan müharibələr fasilələrlə VII əsrin 30-cu illərinədək davam etdi. Müharibə Azərbaycanın təsərrüfat həyatına ağır zərbə endirir və məhsuldar qüvvələrin inkişafını ləngidirdi.İşğalçılar torpağımızda azğınlıq edir, əhalini doğma yurd-yuvasından zorla köçürür, mahir sənətkarları əsir götürərək özləri ilə aparır, xalqın sərvətini, əmlakını və mal-qarasını qarət edirdilər. Nəticədə, əyalətlərdə əhali azalır və iqtisadiyyatın yenidən dirçəlməsi üçün on illərlə vaxt lazım gəlirdi.**

**Ərəblərin hücumu ərəfəsində Azərbaycan Sasanilərin hakimiyyəti altında qalmaqla imperiyanın şimal canişinliyi deyilən inzibati vahidin tərkibinə daxil idi. Bununla belə, Albaniya hər il xəzərlərə müəyyən miqdarda xərac verirdi. Azərbaycanın cənub hissəsi İrandan tam asılı vəziyyətdə olsa da, ölkənin şimal hissəsi yarımasılı vəziyyətdə idi, istiqlaliyyətini qismən saxlaya bilmişdi. Ərəblərin Azərbaycana hücumu məhz belə bir dövrə təsadüf edir.**

**Xilafət qoşunları İranın Rey və Qəzvin şəhərlərini işğal etdikdən sonra 639-cu ildə sərkərdə Hüzeyfənin başçılığı ilə Azərbaycana daxil oldular və burada güclü müqavimətə rast gəldilər. Azərbaycan qoşunlarına mərzban İsfəndiyar ibn Fərruxzad başçılıq edirdi. Ərəb qoşunu qalib gəldi və İsfəndiyar ibn Fərruxzadı əsir götürdü. Mərzban İsfəndiyar ibn Fərruxzad 644-cü ildə əhali adından ərəblərlə müqavilə bağlamağa məcbur oldu. Müqavilənin şərtinə görə, azərbaycanlılar ərəblərə tabe olmalı, vergi verməli, ərəb əsgərlərini bir gecə-gündüz evində saxlamalı idilər. Bunun müqabilində ərəblər yerli əhalinin dini**

**etiqadlarına toxunmamağı, adət və məişətlərinə qarışmamağı öhdələrinə götürürdülər. Ölkəni tərk etmək istəyənlərə özlərinə sığınacaq tapana kimi vaxt verilirdi. Yerli əhalidən ərəb ordusunda könüllü xidmətə daxil olanlardan həmin ilin vergisi alınmırdı.**

**Ərəb qoşunları getdikdən sonra 645-ci ildə ölkənin əhalisi üsyan qaldırıb, ərəblərin onlarla bağladığı müqavilənin şərtlərindən imtina etdi. 646-cı ildə ərəb ordusu Valid ibn Ukbənin başçılığı ilə yenidən Azərbaycana hücum etdi və əhalinin müqavimətini qıraraq onlarla müqavilə bağladı. Ərəblərə veriləcək illik xəracın miqdarı 800 min dirhəm idi.**

**Ərəb tarixçisi Əl- Bəlazuri Azərbaycanın şimal hissəsində ərəb qoşunlarının əməliyyatları haqqında ətraflı məlumat verir. 639-cu ildə buraya gələn ərəb qoşunlarının başçısı Bukeyr ibn Abdullah əhalinin ciddi müqaviməti ilə rastlaşdı. Döyüşlər bir neçə il çəkdi. Ərəblər 642-ci ildə çətinliklə Muğanı işğal edərək əhali ilə müqavilə bağladı. Əvvəl bağlanan müqavilənin şərtləri təkrar olunurdu. Yalnız alınan xəracın miqdarı fərqli idi.**

**646-cı ildə Arrana hücum edən ərəb ordusuna sərkərdə Salman ibn Rəbiə başçılıq edirdi. Beyləqan, Bərdə işğal edildi. Şəmkir, Qəbələ, Şəki, Şirvan, Şabran talandı, əhali xərac və cizyə verməyə məcbur edildi. Ərəb qoşunlarının Albaniyaya hücumu dövründə hakimiyyətdə Cavanşir idi. Cavanşir güclü xilafət qoşunlarına qarşı birlikdə mübarizə aparmaq məqsədilə Bizans imperatoru II Konstant (641-668) ilə ittifaqa girdi. Onların birinci görüşü 654-cü ildə, ikinci görüşü 660-cı ildə olmuşdur.**

**VII əsrin 60-cı illərində siyasi hadisələrin sonrakı gedişi Cavanşiri Xilafətə qarşı öz siyasətini dəyişdirməyə məcbur etdi. O, Xilafətin vassallığını qəbul etməyi qərara aldı. 667-ci ildə Şam şəhərində xəlifə Müaviyə ilə görüşdü. Cavanşirin bu addımı ölkəni ərəb ordularının qarətindən xilas etdi. Bu çox uğurlu və ağıllı addım idi. Xəlifənin belə bir güzəştə getməsinin bir səbəbi Azərbaycanın zəngin sərvəti, əlverişli coğrafi-strateji mövqeyi idisə, ikinci mühüm səbəbi Alban hakiminin şəxsi**

**nüfuzu idi. Ərəblər Cavanşirin gücünə və xasiyyətinə bələd idilər. 671-ci ildə Müaviyə Cavanşiri yenidən Şama dəvət etdi. Ona qiymətli hədiyyələr bağışladı. Xəlifə onun ölkəsinin daxili müstəqilliyinə toxunmadı. Əvvəlki qaydaları olduğu kimi saxladı və əhalidən alınan vergiləri üçdə birə qədər azaltdı.**

**Ərəb ordusunun fasiləsiz hücumlarına baxmayaraq, əhali onlara asanlıqla boyun əymədi. Hər dəfə düşmənə ciddi müqavimət göstərdi. Vergi verməkdən imtina etdi. İslam dinini qəbul etmədi. Yalnız 90 illik kəskin mübarizədən sonra xilafət orduları Azərbaycanın istilasını başa çatdıra bildilər.**

**Ərəblər böyük iqtisadi və strateji əhəmiyyəti olan Azərbaycanda öz hakimiyyətlərini möhkəmləndirməkdə islam dinindən çox kəsərli vasitə kimi istifadə edirdilər. Azərbaycanda əsas din atəşpərəstlik idi. Atəşpərəstlərin baş məbədi Qazakada yerləşirdi. Albaniyada həm xristianlıq, həm də bütpərəstlik dinləri mövcud idi. Ərəb işğalı dövründə islamı qəbul etməyənlər xəracdan əlavə cizyə vergisi verirdilər. VIII əsrin əvvəllərində islam dini Azərbaycanda geniş yayıldı.**

**Ərəblər siyasi və dövlət təşkilatı cəhətdən Bizans imperiyasından və İrandan geri qalırdı. Ona görə də onlar ilk vaxtlar işğal etdikləri digər ölkələrdə olduğu kimi, Azərbaycanda da özlərinə qədər mövcud olan idarə qaydalarını saxlamağa məcbur idilər. Xilafət əsarətə aldığı geniş əraziləri idarə etmək üçün Sasanilərin mərzbanlıqlarına bənzər əmirlik sistemi yaratdı. Əvvəlcə, 5 əmirlik, yəni vilayət təşkil olundu. Azərbaycan 4-cü əmirliyə daxil idi. Əməvilər dövründə bəzi dəyişikliklər edildi. Azərbaycan Əlcəzirə adlanan 3-cü əmirliyə daxil edildi. 83 əyalətdən ibarət 14 əmirlik yaradıldı. Vilayətlər özləri də kiçik inzibati vahidlərə - nahiyələrə və rayonlara bölündü. Azərbaycanın şimal sərhəddi Dərbənd, cənub sərhəddi Həmədan idi. Paytaxt Marağaya köçürüldü. Hər bir əmirliyə xəlifə tərəfindən təyin edilmiş əmir başçılıq edirdi. O, qoşunun da sərkərdəsi hesab edilirdi. Bütün mülik və hərbi hakimiyyət əmirin əlində idi.**

**Amil - mülki işlərlə məşğul olurdu. Qazı - məhkəmə idarəsinin başçısı idi. O, vəqf işlərinə nəzarət edir, amilin hərəkətlərindən narazı olan şəxslərin işinə baxırdı. Bütün istilaçı dövlətlər kimi Xilafətin də əsas məqsədi mümkün qədər daha çox torpaq ələ keçirmək və vergi toplamaq idi. Azərbaycanda əhalinin bir qismi xristian olduğundan xəlifənin xəzinəsinə 2 adda vergi-xərac və cizyə verilirdi. Müsəlmanlar cizyə vergisindən azad idilər.**

**İnsanın mənfəətləndiyi bütün sahələrdən, müharibə zamanı əldə edilən hərbi qənimətlərdən, əsirlərdən, daşına bilən əmlakdan xüms (beşdə bir) deyilən vergi alınırdı. Bundan başqa mal-qaradan, əkin və meyvədən, qızıl və gümüşdən zəkat (sədəqə) vergisi alınırdı. Zəkat ruhanilərin, yetimlərin, şikəstlərin, əlacsızların ehtiyacına sərf olunurdu.**

**Azərbaycan istila olunduqdan sonra suvarılan, münbit və yararlı torpaqların xeyli hissəsi Xilafətin mülkiyyəti elan olundu. Ərəblərin hakimiyyəti dövründə Azərbaycanda torpaq üzərində mülkiyyətin 5 forması mövcud idi.**

**Feodal torpaq mülkiyyətinin əsas növlərindən biri dövlət torpaqları idi. Belə torpaqlar divan və ya xəlifə torpağı adlanırdı. Varissiz ölən şəxslərin, əməllərinə görə vəzifəsindən qovulan məmurların torpağı da divan torpağına qatılırdı.**

**Geniş yayılmış torpaq mülkiyyəti formalarından biri iqta idi. İqta hüququ adamlara orduda göstərdiyi hərbi hünərə və sədaqətli xidmətlərinə görə dövlət tərəfindən dövlət torpağından verilirdi. İqtanın 2 forması mövcud idi: bağışlanan və icarə edilən iqta.**

**Bağışlanan iqta sahibinin şəxsi mülkiyyətinə çevrilə bilər və nəsildən-nəsilə keçirdi. Bu iqta növü şairlərə, istedadlı şəxslərə, dövlət qarşısında böyük xidməti olan adamlara verilirdi. İcarə edilən iqta hərbiçilərə verilirdi. Bu cür torpaqlar irsən keçə bilməz , lazım gəldikdə geri alına bilərdi. Azərbaycanda yerli feodalların irsi mülkiyyətində olan torpaqlar mülk, onun sahibi isə malik addlanırdı.**

**Torpaq üzərində mülkiyyət formalarından biri vəqf torpaqları idi. Bu torpaqlar Məkkə və Mədinə kimi müqəddəs şəhərlər üçün, din uğrunda mübarizlər və şəhidlər üçün nəzərdə tutulurdu. Vəqf torpaqları müsəlman dini idarələrinin ixtiyarında idi. Bu torpaqlar ancaq icarəyə verilə bilərdi. Onu almaq, satmaq, xüsusi mülkiyyətə keçirmək olmazdı.45Torpaq mülkiyyətİ formalarından biri də icma torpaqları idi. Kəndlərdə əhaliyə məxsus əkin yerləri, biçənəklər, otlaqlar, meşələr, qəbirstanlıqlar və s. icma torpaqlarına daxil idi.**

**Azərbaycan xalqının çoxəsrlik tarixi istismarçılara və yadelli istilaçılara qarşı qəhrəmanlıq mübarizəsi ilə zəngindir.Azərbaycanda azadlıq mübarizəsinin parlaq səhifələrindən biri ərəb Xilafətinə qarşı 60 ildən artıq davam etmiş Xürrəmilər hərəkatıdır. Xürrəmilər cəmiyyətdəki bütün ədalətsizliklərin kökünü sosial bərabərsizlikdə görürdülər. Onların şüarı torpağı və digər istehsal vasitələrini xalqın ixtiyarına verməkdən, kəndliləri və sənətkarları feodalların və digər hakim təbəqənin asılılığından azad etməkdən ibarət idi. Sosial bərabərlik uğrunda mübarizələri, maddi nemətləri insanlar arasında bərabər şəkildə bölüşdürmək və bütün təbəqədən olan gənclər üçün istisnasız kəbin hüququ azadlığı arzusunda olmaları onları məzdəkilərin ideyası ilə yaxınlaşdırırdı.**

**“Xürrəm “ termini haqqında bir sıra fikirlər mövcuddur:**

**1. Xürrəm adlı yaşayış məntəqəsinin adı ilə bağlıdır.**

**2. Məzdəkin qadını Xürrəmin adı ilə bağlıdır.**

**3. Şad, xürrəm, firavan deməkdir.**

**4. Yaxşı qayda deməkdir.**

**5. Pəhləvi dilində “əbədi od” və “əbədi günəş” deməkdir.**

**Xürrəmilərin Xilafətə qarşı ilk üsyanı 778-ci ildə və ikinci üsyanı 808-ci ildə baş vermişdir. Lakin hər iki üsyan daxili ixtilaflar nəticəsində məğlub olmuşdur. 816-cı ildə iki xürrəm lideri- Cavidan və Əbu-İmran bir-birini öldürdü. Bundan sonra Babək xürrəmilərin başçısı oldu. Babəkin ilk tədbirlərinə aiddir:**

**1. Öz adamlarını Azərbaycanın hər tərəfinə göndərərək əhalini Ərəb Xilafətinə qarşı mübarizəyə səsləməsi.**

**2. Xürrəmilərin Ərəb Xilafətinə qarşı mübarizəsinin uğur qazana bilməməsinin araşdırılması.**

**3. Xürrəmi dəstələrində hərbi intizamın taradılması.**

**4. Bəzz qalasının xürrəmilərin əsas mərkəzinə çevrilməsi.**

**5. Azərbaycanın müxtəlif kənd və şəhərlərindən ərəblərin qovulması.**

**Babəkin rəhbərlik etdiyi Xürrəmilər hərəkatının əsas hərəkətverici qüvvəsini kəndlilər təşkil edirdi. Bununla yanaşı şəhər yoxsulları, sənətkarlar, iri və orta feodallar da hərəkata qoşulmuşdular. 819-cu ildə Abbasi xəlifəsi tərəfindən xürrəmilərə qarşı ilk nizami ordu göndərildi. Xürrəmilər qələbə qazanaraq bir sıra mühüm əraziləri ərəblərdən təmizlədilər.**

**IX əsrin 20-ci illərində Babəkin rəhbərliyi ilə Xürrəmilər hərəkatı daha da genişləndi. 829-cu ildə 1-ci Həşdadsər döyüşündə ərəb ordusu məğlub oldu. 830-cu ildə 1-ci Həmədan döyüşündə xürrəmilər qələbə qazanaraq Həmədanı ələ keçirdilər. 833-cü ildə 2-ci Həmədan döyüşündə xürrəmilər məğlub oldu. Xəlifə Mötəsim Babəkə qarşı aparılan müharibədə aşağıdakı mühüm dəyişiklikləri etdi:**

**1. Bizansla aparılan müharibəni dayandırdı.**

**2. Xilafətin bütün maddi və hərbi qüvvəsini Babəkə qarşı yönəltdi.**

**3. Təcrübəli və səriştəli sərkərdələri müharibəyə cəlb etdi.**

**4. Yollar sahmana salındı.**

**5. Orduda nizam-intizam möhkəmləndirildi.**

**835-ci ildə xəlifə Mötəsim sərkərdə Afşini Babəkə qarşı göndərdi.Afşin təcrübəli idi, hərbi-siyasi vəziyyəti və öz düşməninin imkanını düzgün qiymətləndirməyi bacarırdı. Afşin bir sıra tədbirlər gördü. O, öz qərərgahını Bəzz qalasına yaxın olan Bərzəndə köçürdü. Əks-kəşfiyyatı gücləndirdi. Babəkin ən yaxın adamlarını- Tərxan və İsma əl Kürdü öldürtdü. Bəzi iri feodallara pul və mövqe vəd edərək öz tərəfinə çəkdi (Səhl ibn Sumbat, İbn Bəis, Əbu Musa).**

**836-cı ildə 2-ci Həşdadsər döyüşündə Babək ərəblər üzərində qələbə qazansa da müharibənin gedişində əsaslı dəyişiklik aparmaq mümkün olmadı. Afşin 837-ci ildə Bəzz qalasını mühasirəyə aldı. O, Babəkə sülh təklif etdi. Lakin Babək qəbul etmədi. Ərəb ordusu Bəzz qalasına amansız hücum etdi. Adinin rəhbərlik etdiyi xürrəmilər Bəzz qalasını qəhrəmancasına müdafiə etməsinə baxmayaraq, ərəblər qələbə qazandılar. Bəzz qalasının süqutundan sonra Babək Arana gəldi. Onun əsas məqsədi Bizans imperatoru ilə əlaqə yaratmaq idi. Lakin o keçmiş müttəfiqi Səhl ibn Sumbat tərəfindən ərəblərə təhvil verildi. Bəzi tarixçilər tərəfindən Hanniballa müqayisə edilən Babək 88-ci ildə Abbasilər xilafətinin paytaxtı Samirə şəhərində edam edildi. Beləliklə, Xürrəmilər hərəkatına son qoyuldu.**

**Xürrəmilər hərəkatının bir sıra məğlub olma səbəbləri var idi:**

**1. İmtiyazlı təbəqələrin dönük çıxması.**

**2. Türk mənşəli sərkərdələrin və döyüşçülərin Xilafət tərəfində döyüşməsi.**

**3. Xristian dininə mənsub olan iri əyanların xəyanət etməsi.**

**4. Əhalinin uzun sürən müharibədən yorulması.**

**5. Müharibənin illərlə uzanması və geniş əraziləri əhatə etməsi.**

**Xürrəmilər hərəkatı Abbasilər Xilafətini kökündən sarsıtdı. Abbasilər Xilafətinin əsarəti altındakı digər xalqların azadlıq mübarizəsinə təkan verdi.**

**Abbasilər Xilafəti parçalanmağa başladı. Nəticədə, Xilafətin ərazisində bir sıra müstəqil dövlətlər yaranmağa başladı.**

## *Mövzu3.Şirvanşahlar,Sacilər,Salarilər,Rəvvadilər, Şəddadilər dövlətləri. Atabəylər dövləti*

**IX əsrdə Xilafətə tabe olan ölkələrdə azadlıq müharibələrinin genişlənməsi, feodallaşma prosesinin inkişafı mərkəzi hakimiyyətə tabe olmaq istəməyən qüvvələrin artmasına və daxili çəkişmələrin qüvvətlənməsinə səbəb olduğundan Xilafət getdikcə zəiflədi.**

**Abbasilər imperiyasının dağılması gedişində Azərbaycanda bir sıra müstəqil feodal dövlətləri meydana gəldi. Belə bir şəraitdə Xilafətin işğal etdiyi ölkələrdə yerli hökmdarlıqlar əmələ gəldi və onlar Xilafət hakimiyyətinə tabe olmaqdan boyun qaçırdılar. IX əsrdə Azərbaycan, Orta Asiya, İran, Suriya və s. ölkələrdə yerli feudal dövlətlər yaranmışdı. Hələ Xilafətin tərəqqisi dövründə Azərbaycanda, xüsusilə Arranda ərəblərdən asılı olan Sünik, Varsan, Beyləqan, Qəbələ, Şəki və s. kimi knyazlıqlar vardı. Lakin göründüyü kimi, onlar müstəqil deyildilər.**

**Babək üsyanı yatırıldıqdan sonra IX-XI əsrlərdə Azərbaycanda yaranmaqda olan feodal dövlətləri ərəblərin hakimiyyətindən imtina edir və özlərinin istiqlaliyyətinə nail olurdular. Belə dövlətlər sayca çox idilər. Onlardan daha nufuzluları Şirvanşahlar, Şəddadilər, Sacilər, Salarilər və Rəvvadilər idi.**

**Şirvanşahlar dövlətinin yaradıcısı Heysəm ibn Xalid Şirvanın birinci rəsmi məliki Yezid ibn Məzyədin nəvələrindən idi. Ona görə də sülalə Məzyədilər (861-1080) adlanırdı. Yəzid ibn Məzyəd ərəb mənşəli Şeybani qəbiləsinə mənsub idi. O, Xilafətdə bir sıra hərbi-inzibati vəzifələri icra etmiş, Ərməniyə və Azərbaycanda xəlifənin valisi olmuşdu. O, vəzifəsindən istifadə edərək Şirvanda və Bərdədə əlinə**

**böyük torpaq sahələri və mülklər keçirsə də, Şirvan ərəblərin asılılığında qalmaqda idi.**

**IX əsrin 60-cı illərində Xilafətdə başlanan yeni iğtişaşlardan istifadə edən Heysəm ibn Xalid özünü Şirvanın müstəqil hakimi elan etdi və mərkəzi hökumətlə əlaqəni kəsdi. Beləliklə, Şirvanın istiqlaliyyəti bərpa edildi.**

**Mənbələrin məlumatından aşkar olur ki, Məzyədilər sülaləsinin hakimiyyətinin ilk dövründə Şirvanşahların sərhədləri cənubda Kür çayı, şimalda Dərbənd və Samur çayı, qərbdə Göyçay və Şəki, şərqdə Xəzər dənizi ilə əhatə edilirdi. Lakin tədricən onun ərazisi genişlənirdi. Bir mənbədə onun cənub sərhəddinin bəzən Araz çayına qədər uzandığı qeyd edilir. Məzyədilərin uğurlu siyasəti nəticəsində müxtəlif dövrlərdə Şəki, Beyləqan və Bərdə Şirvanşahların tabeçiliyinə keçmişdi. Lakin dövlətin sərhədləri sabit deyildi. Müxtəlif dövrlərdə baş vermiş siyasi hadisələrlə əlaqədar olaraq dəyişirdi. Dövlətin paytaxtı əvvəlcə Şirvan, X əsrin birinci rübündən etibarən Yəzidiyyə (Şamaxı) şəhəri olmuşdu. Ölkədə çah ailəsinə məxsus sarayların, xəzinənin, ordunun və həbsxanaların yerləşdiyi bir sıra mötəbər şəhər-qalalar vardı.**

**Məzyədi sülaləsinin uğurlu siyasətinə baxmayaraq, bəzən özləri də asılı vəziyyətə düşürdülər. IX əsrin axırlarında Məzyədilər öz vassalları ilə birlikdə əvvəlcə Sacilər, sonra isə Salarilər dövlətinə tabe idilər. Daxili idarə işini öz əllərində saxlamaqla Məzyədilər onlara xərac verirdilər.**

**XI əsrin 60-70-ci illərində Fəriburzun hakimiyyəti dövründə Şirvanda siyasi vəziyyət daha da ağırlaşdı. Şəddadilər hakimi Şavurun Şirvana hücumları başlandı. Döyüşlərdə minlərlə adam həlak oldu. Şavur Şirvanda bir sıra qalaları ələ keçirdi və 40 min dinar xərac alıb geri qayıtdı.**

**Ön Qafqazda hakimiyyəti ələ keçirən Səlcuq türklərinin Şirvanda da təsiri gücləndi. Sultan Məlikşahın dövründə Dərbənd iqta şəklində İraq hakiminə bağışlandı. Şirvanşah Məzyədiləri daxili istiqlaliyyətlərini saxlamaq şərtilə səlcuqların vassalına çevrildi və hər il sultanın xəzinəsinə 40 min dinar xərac**

**verməli oldu. Vassal halına salındıqdan sonra Şirvanşah titulu ləğv edildi. Onun hakimləri məlik adlandılar.**

**Şirvanşahların hakimiyyəti mütləq hesab olunurdu. Şahın hakimiyyəti varislərə irsən keçirdi. Bir qayda olaraq əyalətləri şahzadələr idarə edirdilər. İnzibati və maliyyə işlərinə vəzir baxırdı. Şirvanşahlar vəzirin məsləhəti ilə hərəkət edirdilər. Şahlıq kimi vəzirlik vəzifəsi də çox vaxt atadan oğula irsən keçirdi. Saraydakı mühüm vəzifələrdən biri də haciblik idi. Onlar saraydakı işləri tənzim edirdilər.**

**Bir sıra ölkələrdə olduğu kimi, Məzyədilərin də iki növ qoşunu vardı. Əsas qoşun şahın xüsusi qvardiyasından ibarət idi. Bundan əlavə iri feodalların və vilayət hakimlərinin xüsusi qoşun dəstələri olurdu. Hər iki növdən olan qoşunun əsas hissəsini süvarilər təşkil edirdi. Süvariləri atla təmin etmək üçün şahın ilxısında 40 min at saxlanılırdı. Ordu yerli sənətkarların hazırladığı silahlarla təmin edilirdi. Qoşun yalnız müharibə zamanı Şirvanşahın göstərişi ilə bir yerə toplanırdı. Döyüşlərdə orduya ümumi komandanlığı ya şahın özü, ya da vəliəhdi edirdi. Təsərrüfatın natural xüsusiyyəti və feodal pərakəndəliyi Dərbəndin Şirvandan ayrılması nəticəsində ticarət əlaqələrinin kəsilməsi, sənətkarlığın və məhsuldar qüvvələrin inkişafını ləngidən əngəllərin çoxalması rusların və köçəri tayfaların hücumları qonşu feodal dövlətləri ilə ara müharibələri sülalə üzvləri arasında hakimiyyət üstündə mübarizənin güclənməsi, əhali arasında feodal zülmünə qarşı ixtişaşların artması və digər səbəblər nəticəsində XI əsrin 70-80-ci illərində Məzyədilər dövləti tənəzzül etdi. Səlcuq türkləri bu prosesi illərində Məzyədilər dövləti tənəzzül etdi. Səlcuq türkləri bu prosesi sürətləndirdilər.**

# Sacilər dövləti

**IX əsrdə Xilafətə qarşı mübarizə şəraitində Azərbaycanda meydana gələn feodal dövlətlərdən biri də paytaxtı Ərdəbil şəhəri olan Sacilər dövləti (889-942) idi. Yeni sülalənin banisi hesab edilən Əbu Sac Divdad adlı-sanlı türk sərkərdələrindən olmaqla Xilafət ordularının döyüşlərində dəfələrlə sınaqdan çıxmış, Səhl ibn Sumbatın xəyanəti nəticəsində Babəkin tutulub Bərzəndə, Afşinin düşərgəsinə aparılmasında iştirak etmişdi.**

**Sacilər mənşəcə türk idilər. Əbu Sac Divdad və onun varisləri Məhəmməd və Yusif müxtəlif vaxtlarda Xilafətin əyalət hakimləri olmuş Abbasilər hakimiyyətinə qarşı baş vermiş üsyanların yatırılmasında fəal iştirak etmişdilər.**

**Sacilərin banisinin Əbu Sac Divdad hesab edilməsinə baxmayaraq, dövlət onun ölümündən xeyli sonra oğlanları Məhəmmədin və Yusifin dövründə yaranmışdı. Xidmətləri ilə xəlifənin rəğbətini qazandığına görə 898-ci ildə Məhəmməd Azərbaycanın hakimi təyin olundu..**

**Məhəmməd ona qarşı itaətsizlik göstərən Marağa hakimini susdurdu və şəhəri ələ keçirtdi. 893-cü ildən başlayaraq o, bir neçə dəfə Ərməniyəyə uğurlu yürüşlər etdi, Naxçıvandan keçərək Dvin hasarlarına qədər çatdı və erməni hakimi I Sumbatın ailə üzvlərini və yaxın qohumlarını əsir götürdü, onun özünü güzəştə getməyə məcbur etdi. Qələbədən sonra Məhəmməd öz oğlu Divdadı Ərməniyəyə hakim təyin edib, özü Gürcüstana gedərək, Tiflisi və digər şəhərləri soyub taladı. Bu qələbələr Məhəmmədin şöhrətini yüksəltdi. Qonşu dövlətlərin hakimləri ondan çəkinməyə başladılar.**

**Məhəmmədin ölümündən sonra hakimiyyətə oğlu Divdad keçdi.Lakin onun hakimiyyəti çox davam etmədi. Həmin ilin avqustunda əmisi Yusif Divdadı hakimiyyətdən salıb özü xəlifənin Azərbaycan hakimi və canişini oldu. Xəlifənin mərhəməti müqabilində Yusif Xilafətin xəzinəsinə xərac verməli idi. Yusif hakimiyyəti ələ keçirən kimi Xilafətdən ayrılmaq üçün cəhd göstərdi. Ərməniyəni və Gürcüstanı qarət etdi, onların mötəbər istehkam və qalalarını dağıtdı. 914-cü ildə dəfələrlə verdiyi andı pozan və dikbaşlıq edən Ərməniyə hakimi I Sumbatı**

**Dəbildə ələ keçirib edam etdirdi. Beləliklə, Yusif 915-ci ilə kimi Azərbaycanda və Ərməniyədə öz hakimiyyətini möhkəmləndirə bildi. Dövlətin ərazisi qərbdə Ani və Dəbil şəhərlərinə, şərqdə Xəzər dənizinə qədər, cənubda Zəncan, şimalda Dərbəndə qədər uzanırdı.**

**Yusif hər il Xilafətin xəzinəsinə 120 min dinar xərac verirdi. O, 912-ci ildə xərac verməkdən qəti imtina etdi. Bu hadisə Xilafətlə Sacilər dövləti arasında müharibəyə səbəb oldu. Yusif 918-ci ildəki döyüşlərin birində 7 minlik qoşunla xəlifənin 20 minlik ordusunu məğlub etdi. Xəlifə 919-cu ildə məşhur sərkərdəsi Munisin başçılığı ilə qoşun göndərdi. Ərəb ordusu bu dəfə də məğlub oldu. Munis yenidən daha böyük ordu toplayıb həmin il iyulun 16-da Ərdəbil yaxınlığındakı döyüşdə Yusifin qoşununu məğlubiyyətə uğratdı və özünü əsir götürdü. Yusif üç il xəlifənin zindanında saxlanıldı. Bu müddətdə Azərbaycan Sacilər dövləti ərəblərə qarşı mübarizəni dayandırmadı. Bəzi mülahizələri nəzərə alan xəlifə yaxın adamlarının məsləhəti ilə 922-ci ildə Yusifi Azərbaycan və Ərməniyə canişini, habelə Rey, Qəzvin, Zəncan valisi təyin etdi. O, bunun müqabilində hər il xəzinəyə 500 min dinar xərac verməli idi.**

**Bacarıqlı sərkərdə olan Yusifin qibtə ediləcək dərəcədə çevikliklə rəqiblərini əzməsi, hakimiyyəti möhkəmləndirməsi, əvvəliki siyasi nüfuzunu bərpa etməsi, Azərbaycanın müstəqilliyini reallaşdırması Bağdadda xəlifə sarayına rahatlıq vermirdi. Ona görə də xəlifə onu "idarə etdiyi Azərbaycan, Ərməniyə, Arran, Beyləqan və s." əyalətləri buraxıb İkiçayarasından "təhlükəli bir səfərə", Xilafətə qarşı üsyan qaldırmış qərimətlərə qarşı müharibəyə göndərdi. 927-ci il dekabrın 27-də Kufə şəhəri yaxınlığındakı döyüş zamanı Yusifin qoşunu məğlub oldu. O, özü yaralandı, əsir düşdü və öldürüldü.**

**Sacilər sülaləsinin hakimləri içərisində Yusif ən nüfuzlusu olmaqla 24 il bu dövləti idarə etmişdi. Sacilər dövləti istiqlaliyyət qazandı. Azərbaycan torpaqları mərkəzləşdirildi ki, bunun sayəsində təsərrüfatın canlanmasına, şəhərlərin, sənətkarlığın, ticarətin və mədəniyyətin inkişafına xeyli zəmin yarandı.Onun**

**maliyyə və vergi sahəsində obyektiv siyasəti ölkədə iqtisadiyyatın dirçəlməsinə və əhalinin artmasına təkan verdi.**

**Yusifin ölümündən sonra hakimiyyət əldən-ələ keçdi. Onun sərkərdəsi Deysəmin dövründə Azərbaycan yenidən müharibə meydanına çevrildi. 942-ci ildə Sacilər sülaləsinin hakimiyyətini Salarilər əvəz etdilər.**

# Salarilər dövləti

**Dövlətin yaradıcısı Mərzuban ibn Məhəmməd Gilan vilayətindəki Salarilər tayfasına mənsub olduğundan dövlət Salarilər adlanırdı. Dövlətin təməlini qoyan Mərzuban ibn Məhəmməd çox uzaqgörən, ağıllı, mərd və cəsur şəxsiyyət, görkəmli dövlət xadimi olmuşdu. O, 942-ci ildə Sacilər hakimi Deysəmi məğlub edərək Azərbaycanı tutdu. Həmin tarixdən hakimiyyət onun təmsil etdiyi Salarilər sülaləsinin (942-981) əlinə keçdi. Salarilər dövlətinin paytaxtı Ərdəbil idi.**

**Salari hakimi Mərzuban ibn Məhəmməd çətin mübarizə şəraitində Sacilər dövlətinin hakimiyyəti altında olan Azərbaycan torpaqlarına sahib olaraq öz səltənətini möhkəmləndirməyə çalışdı. Möhkəmlənməkdə olan gənc dövlət yeni fəlakətlə üzləşdi. Mənbələrdə rus adlanan tayfalar təbiətinin və sərvətinin zənginliyinə görə Qafqazın mirvarisi hesab edilən Bərdə şəhərinə hücum etdilər. Xalq müqəddəs torpaq uğrunda mübarizəyə qalxdı. Görünməmiş qırğınlar və talanlar başlandı, gözəl binalar dağıldı, şəhər əvvəlki əzəmətini itirdi. Bundan istifadə edən Mosul hakimi Azərbaycanın cənubunda Səlmas şəhərinə hücum etdi. Salari hakimi Bərdənin müdafiəsini sərkərdələrindən birinə tapşırıb, özü Səlmasın harayına getdi. Onun bu yürüşü uğurlu oldu. Döyüşlərdəki qələbələr sayəsində ölkənin cənub-qərb vilayətlərindən düşməni qovduqdan sonra, Azərbaycanın şimal-qərb vilayətlərini və Ərməniyəni öz hakimiyyəti altına keçirdi.Sacilərin dövründə olduğu kimi, Şirvanşahlar Məzyədilər dövləti Salarilərə tabe edildi. Bununla da Salarilərin şimal sərhədi Dərbəndə üədər uzandı.**

**Azərbaycanın cənub-şərq vilayətlərinin, xüsusilə, Zəncanın, Əbhərin və Qəzvinin İsfahan hakiminin asılılığında qalması Mərzubanı narahat edirdi. Onun məqsədi Azərbaycanın qədim sərhədlərinin büütövlüyünə nail olmaq idi. O, bu niyyətlə 948-ci ildə hərbi yürüşə başlayaraq Qəzvinə getdi. Mərzubanın 5 min nəfərlik ordusu düşməninkindən dəfələrlə az idi. Buna baxmayaraq o, döyüşdən imtina etməyi qeyrətinə sığışdıra bilmədi. Saatlarla davam edən savaş Mərzubanın məğlubiyyəti ilə başa çatdı. O, sərkərdələri ilə birlikdə əsir düşdü. Onun əsirlikdə oldduğu dövrdə Azərbaycanda hakimiyyət uğrunda feodal ara müharibələri yenidən qızışdı. Hakimiyyəti əvvəlcə Mərzubanın atası, sonra isə qardaşı Bəhsudan ələ keçirdi. Hakimiyyət uğrunda mübarizədə keçmiş Sacilər dövlətinin hakimi Deysəm də iştirak edirdi. O, Zəncanda, Azərbaycanın və Ərməniyənin bir hissəsində hakimiyyəti bərpa etdi.**

**Lakin Mərzuban anasının və yaxın adamlarının köməkliyi ilə 953-cü ildə qaçıb Ərdəbilə gələrək hakimiyyəti ələ keçirdi. Bu xəbəri eşidən Deysəm qorxusundan əvvəlcə Mosula, oradan da Bağdada qaçdı. Bu hadisədən iki il sonra Mərzuban Dərbənddəki üsyanı yatırmağa gedən zaman Deysəm fürsətdən istifadə edərək Səlması ələ keçirdi. Lakin orada çox qala bilmədi. Mərzuban onun gözlərini çıxartdırıb, özünü də zindana saldırdı. Bundan sonra ölkədə sakitlik yarandı. Əmin-amanlıq şəraitində ölkədə iqtisadiyyatın bütün sahələrində canlanma başladı. Sənətkarlıq, ticarət, mədəniyyət inkişaf etməklə yanaşı, əhalinin sayı da artmağa başladı, feodal müharibələrindən cana gəlmiş adamlar dinclik əldə etdilər.**

**957-ci ilin dekabrında Mərzuban ibn Məhəmməd öldü. Onun ölümündən sonra oğlanları və qardaşı Bəhsudan arasında hakimiyyət uğrunda mübarizə yenidən kəskinləşdi. Hakim sülalə üzvləri arasında gedən mübarizə nəticəsində mərkəzi dövlət zəiflədi və parçalandı. Mərzubanın oğlu İbrahimin hakimiyyəti (961-981) dövründə səltənətin əvvəlki şöhrətini bərpa etmək cəhdləri özünü doğrultmadı. Əksinə, vaxtı ilə Salarilərə tabe edilmiş əyalətlərin bir çoxu onlara vergi verməkdən imtina etdilər. Xəzinəyə daxil olan mədaxil kəskin surətdə azaldı.**

**Məzyədilər, Dərbənd və Gəncə vilayətləri Salarilərin tərkibindən çıxdı. Şəddadilər dövlətinin yaranması ilə Arranın bir hissəsi və Ərməniyə də onların əlindən çıxdı. Belə bir şəraitdə Əhər və Təbriz hakimi Rəvvadilər nəslindən olan Əbülheyca 981-ci ildə Salari İbrahimi məğlub edib əsir aldı və dövlətin paytaxtı Ərdəbili tutmaqla hakimiyyəti öz əlinə keçirtdi.**

**40 il yaşamış Salarilər dövləti təkcə Azərbaycan və Qafqazdakı feodal dövlətlərlə deyil, Ön Asiyadakı nüfuzlu dövlətlərlə də müqayisə olunmağa layiq idi.**

# Rəvvadilər dövləti

**Orta əsr müəllifləri Rəvvadilər sülaləsinin tarixi və dövlətin yaradıcısı Əbülheyca Rəvvadinin şəxsiyyəti barədə dolaşıq fikirlər söyləmişlər. Əbülheycanın mənsub olduğu Rəvvadilər (mənşəcə ərəb idilər) sülaləsinin tarixi qədimdi. Onlar VIII əsrdə Təbrizdə, Marağada, Əhərdə, Qaradağda hakimlik etməklə uzun müddət müstəqilliyə can atmışdılar. Rəvvadilərin mənşəcə Salarilərə yaxınlığı olmamışdı.**

**X əsrin ortalarında və ikinci yarısında Əhər hakimi Əbülheyca Rəvvadi Salarilər dövlətinin hakimi Mərzubana, sonra isə onun varisi İbrahimə tabe olan və xərac verən nüfuzlu feodallardan idi. Əbülheyca yaranmış tarixi şəraitdən istifadə edərək 981-ci ildə Salari İbrahimə tabe olmaqdan boyun qaçırdı, onunla mübarizəyə başladı, qalib gəldi və hakimiyyəti ələ aldı. Beləliklə, Rəvvadilər dövləti rəsmən yarandı. Vaxtilə Salarilər dövlətinin əlində olan Azərbaycan və Ərməniyə torpaqları əvadilərin hakimiyyəti altına keçdi. Dövlətin paytaxtı Ərdəbildən Azərbaycanın qədim və zəngin şəhəri Təbrizə köçürüldü. Bu zaman Təbriz Ərdəbilə nisbətən iqtisadi, siyasi və mədəni cəhətdən xeyli tərəqqi etmişdi. Təbrizin təbii-coğrafi mövqeyi paytaxt şəhər üçün daha münasib idi. Rəvvadilər dövlətinin ərazisi əsasən indiki İran Azərbaycanı ərazisini əhatə edirdi. Əbülheyca hakimiyyəti ələ keçirib dövlətin daxili işlərini sahmana saldıqdan sonra 987-ci ildə**

**Ərməniyəyə hücum edərək onu özünə tabe edib əhali üzərinə vergi qoydu və xərac aldı. O, Xoy və Urmu feodallarını da hakimiyyəti altına keçirtdi. Dövlətin ərazisi genişlənməklə yanaşı onun nüfuzu da yüksəlirdi. Əbülheycanın varislərindən olan Əbu Mənsur Vəhsudan da (1020-1059) ölkə daxilində bir sıra tədbirlər həyata keçirdi. Mərkəzi hakimiyyəti xeyli gücləndirdi. Onun dövründə Şəddadilərlə düşmənçilik davam etdi. 1042-ci ilin oktyabrında Təbrizdə güclü zəlzələ baş verdi. Mənbələrin məlumatına görə, zəlzələ nəticəsində bir çox binalar və qalalar dağıldı, 40 mindən çox adam tələf oldu, şəhərin müdafiə qabilyyəti zəiflədi. Şəhərin ətrafındakı qala hasarları uçulub-dağıldığından Rəvvadi Vəhsudan Təbrizi tərk edib başqa qalaya köçdü. Şəhərin bərpa işləri başa çatdırılmamış Toğrul bəyin başçılq etdiyi səlcuq türkləri Təbrizə hücum etdilər. Hücuma hazır olmayan Vəhsudan müqavimət göstərə bilmədi.**

**İbn əl-Əsirin yazdığına görə, "səlcuq hakimi Toğrul bəy bir sıra qələbələrdən sonra 1054-cü ildə Təbrizə gəldiyi zaman Rəvvadi hakimi Vəhsudan siyasi hakimiyyəti əlində saxlamaq məqsədilə səlcuqların vassallığını qəbul etməyə məcbur oldu."**

**Səlcuq sultanı Alp Arslan (1063-1072) Azərbaycana gəldiyi zaman Rəvvadilərin daxili müstəqilliyini tamam ləğv edərək 1065-ci ildə Təbrizə səlcuq əmiri təyin etdi. Bununla da Rəvvadilər dövləti öz müstəqilliyini itirərək, səlcuqların hakimiyyəti altına keçdi. Süqut etməsinə baxmayaraq, bir əsrə qədər mövcud olmuş Rəvvadilər dövləti ölkənin iqtisadi, ictimai, siyasi və mədəni həyatında mühüm rol oynamışdı.**

**IX-XI əsrlərdə Azərbaycanda meydana gələn feodal dövlətlərdən Şirvanşah Məzyədilər, Sacilər, Salarilər, Şəddadilər və Rəvvadiləri yaradan sülalələr mənşəcə müxtəlif olsalar da, onların təşkil etdiyi dövlətlər Azərbaycan ərazisini əhatə edirdi. Bunlardan Sacilər və Salarilər ara müharibələri və daxili mübarizə nəticəsində, Rəvvadilər və Şəddadilər isə səlcuqların hücum və təzyiqləri nəticəsində fəaliyyətlərini dayandırmağa məcbur oldular.**

**IX-XI əsrlərdə gərgin mübarizə şəraitində Azərbaycanda müstəqil feodal dövlətlərin yaranması müstəsna əhəmiyyəti olan hadisə idi. Həmin dövlətləri yaradan sülalələrin mənşəyindən və mənsubiyyətindən asılı olmayaraq bu dövlətlər Azərbaycan torpağında milli zəmində təşəkkül tapırdılar. Onlar Xilafətə tabe olmaqdan imtina etməklə öz istiqlaliyyət bayraqlarını qaldırırdılar. Bu dövlətlərin mövcud olduğu on illər ərzində daxildə yaranmış qismən əmin-amanlıq zəminində təsərrüfatın bütün sahələri dirçəlir, əhali artır və məhsuldar qüvvələr inkişaf edirdi.**

# Şəddadilər dövləti

**X əsrin II yarısında Azərbaycanda meydana gələn müstəqil feodal dövlətlərdən biri də paytaxtı Gəncə olan Şəddadilər dövləti idi. Onun ərazisi əsasən Kür və Araz çayları arasındakı torpaqları əhatə edirdi. Şəddadilər şimal tərəfdən Şəki və Kaxetiya çarlığı ilə, cənubdan Rəvvadilər dövləti ilə həmsərhəd idi. Dövlətin cənub-qərbində yerləşən Dəbil şəhəri də Şəddadilərə tabe idi. Müəyyən dövrlərdə Şəki və Kaxetiya çarlığının bəzi əraziləri də onlardan asılı vəziyyətə düşmüşdü. Ərməniyənin xeyli hissəsi Şəddadilərin hakimiyyəti altında idi.**

**Bu dövlətin yaradıcısı hesab edilən Məhəmməd ibn Şəddad mənşəcə kürd idi. O, Dəbil ətrafında yaşamaqla siyasi fəaliyyətə X əsrin ortalarında başlamışdı.**

**Əslində Şəddadilər dövləti Salarilərin dövründə və onların ərazisində meydana gəlmişdi. Salari hakimi Mərzuban əsirlikdə qaldığı beş il (948-953) müddətində onun varisləri arasında hakimiyyətin qızışdığı şəraitdə dövlət xeyli zəiflədi. Ona tabe olan feodal əyanlar içərisində müstəqillik meylləri gücləndi. Belə feodallardan biri Məhəmməd ibn Şəddad idi. O, fürsətdən istifadə edərək Dəbili tutdu və özünü müstəqil elan etdi. Lakin o burada möhkəmlənə bilmədi. Mərzuban əsirlikdən xilas olduqdan sonra hakimiyyətini bərpa etdiyi zaman Dəbil Şəddadın əlindən çıxdı. Onun ölümündən sonra oğlanları Fəzl və Ləşkəri Gəncəyə**

**gəldilər və 971-ci ildə Salari İbrahimin Gəncədəki naibini qovaraq burada hakimiyyəti ələ keçirdilər. Müharibədə Əbülhəsən Ləşkəriyə gücü çatmayan Salari hökmdarı İbrahim ibn Mərzuban onunla müqavilə bağladı və Şəddadilər dövlətini rəsmi tanımağa məcbur oldu. 971-ci ildən Şəddadilər dövləti fəaliyyətə başladı. Bu hadisə Ləşkərinin nüfuzunu artırdı. O, az müddət ərzində Bərdəni, Şəmkiri, Ərməniyənin xeyli hissəsini öz dövlətinə birləşdirdi, ölkədə əmin-amanlıq yaratdı. Səkkiz illik hakimiyyəti dövründə Şəddadilər dövləti möhkəmləndi və ərazisi genişləndi. Onun varisi Fəzlin dövründə Beyləqan Şəddadilər dövlətinə birləşdirildi. Şəddadi Fəzl uğurlu xarici siyasətlə yanaşı, ölkənin daxili işləri ilə məşğul olmağı da unutmur, sənətkarlığın, ticarətin, mədəniyyətin inkişafına qayğı göstərirdi. O, ticarət və hərbi məqsədlə Araz çayı üzərində körpü saldırdı. Gəncədə öz adına pul kəsdirdi. Onun Şirvanşah Mənuçöhrlə (1027-1034) qohum olmasına baxmayaraq, Şəddadilərlə Şirvanşahlar arasındakı dostluq və qohumluq sabit deyildi. Şəddadilər tez-tez Şirvanşahlar, Rəvvadilər və gürcü hakimləri ilə müharibələr edirdilər.**

**Şəddadilərin görkəmli hakimlərindən olan Əbüləsvər Şavurun dövründə (1050-1067) dövlət daha da möhkəmləndi. Şavur iqtisadi, ictimai həyatda və xüsusilə orduda bir sıra faydalı islahatlar keçirərək Gürcüstanla və Şirvanşahlarla müharibələri davam etdirdi. Alan tayfalarının, qonşu feodal dövlətlərin və xüsusilə şöhrəti gündən-günə artmaqda olan səlcuq türklərinin basqınlarından qorunmaq üçün tədbirlər gördü. Gəncənin ətrafında xəndək qazdırıb hasar çəkdirdi. Onun tapşırığı ilə Dəmirçi İbrahim 1063-cü ildə gəncənin dəmir qapılarını düzəltdi. Həmin il Şirvana bir neçə yürüş təşkil edərək onlardan 40 min dinar xərac aldı. Lakin siyasi vəziyyətin dəyişməsi ilə əlaqədar olaraq Şavur hakimiyyətinin sonunda səlcuqların vassallığını qəbul etməyə məcbur oldu.**

**Şəddadilər dövlətinin axırıncı əmiri olan III Fəzlun (1074-1088) vassalı olduğu səlcuq sultanlığına qarşı mübarizəni davam etdirmək istəyirdi. Mənbələrin məlumatından aydın olur ki, Yaxın və Orta Şərqdə, həmçinin Zaqafqaziyada güclü dövlət yaradan Səlcuq türkləri Şəddadilərin daxili müstəqilliyini özləri üçün**

**təhlükə hesab edirdilər. Ona görə də Səlcuq sultanı Məlikşah öz sərkərdəsi Buğanı qoşunla Gəncəyə göndərdi. Buğa 1088-ci ildə Gəncəni tutdu və III Fəzlunu əsir götürərək Bağdada göndərdi. O, 1091-ci ildə orada əsirlikdə öldü. Beləliklə, 1088-ci ildə Şəddadilər dövlətinin tarixi sona çatdı.**

# *Atabəylər dövləti*

**IX-X əsrlərdə Azərbaycanda və başqa şərq ölkələrində feodal torpaq mülkiyyəti möhkəmlənir və onların siyasi cəhətdən müstəqil olmaq meylləri artırdı.**

**Abbasilər imperiyasının dağılması gedişində Azərbaycanda feodal dövlətləri yaranır və inkişaf edirdi. Hələ xilafətin tərəqqisi dövründə Azərbaycanda, xüsusilə Arranda ərəblərdən asılı olan Sünik, Varsan, Beyləqan, Qəbələ, Şəki və s. knyazlıqlar var idi. Lakin onlar müstəqil deyildi.**

**Müstəqil Azərbaycan dövlətlərinin yaranması ilə paytaxt və qala kimi şəhərlərin önəmi artır. IX-XI əsrlərdə sənətkarlığın və ticarətin inkişafı ilə əlaqədar şəhərlər çoxalır və böyüyürdü. Azərbaycanda hər birində 10 minə qədər əhali yaşayan Ərdəbil, Sərab, Miyanə, Təbriz, Marağa, Bərzənd, Səlmas, Xoy, Mərənd, Əhər, Naxçıvan, Bərdə, Gəncə, Şəmkir, Beyləqan, Şəki, Şamaxı, Şabran, Bakı, Dərbənd və onlarca başqa şəhərlər vardır.**

**Bunlardan Təbriz, Ərdəbil, Əhər, Bərdə, Gəncə, Şamaxı, Naxçıvan, Şəki müxtəlif vaxtlarda feodal dövlətlərin və ya vilayət hakiminin paytaxtı olmuşdur. Adları çəkilən paytaxt şəhərləri eyni zamanda iri mədəniyyət və ticarət mərkəzləri idi. Sənətkarlıq sahəsində ixtisaslaşmanın sürətlənməsi, peşələrin çoxalması, yerli sənətkarlar tərəfindən müxtəlif çeşiddə və formada məmulatların istehsalı iri şəhərlərdə böyük bazarların yaranmasına səbəb olurdu.**

**Dərbənd – iki adı var. Dəmir qapı və Babül-Əb-Vab. Bir rəvayətə görə Makedoniyalı İskəndər tərəfindən salınıb. Lakin daha inandırıcı Xosrov Nuşirəvan tərəfindən inşa olunmuşdur. Məqsəd xəzərlərə qarşı müdafiə səddinin yaradılması idi. «Dərbəndnamədə» şəhər haqqında müxtəlif rəvayətlər qeyd olunur.**

**Ərəb müəlliflərindən Əl-Müqəddəsi, Məsudi, Dərbənd və onun çeşidli-qapıları haqqında məlumat verir. Dərbəndin Şimalında paytaxtı Səməndər (Tarxu) olan Xəzər (Curcan) xaqanlığı yerləşirdi.Yaqut Həməvi və Övliyyə Çələbi şəhərin qapıları və oradakı heykəllər haqqında maraqlı məlumat verirlər.**

**Azərbaycan orta əsrlərdə dünyada ipəkçiliyin əsas vətənlərindən biri idi. Şəkidə, Şirvanda, Bərdədə hazırlanan xam ipəyə, ondan hazırlanmış parçalara böyük maraq vardı. Azərbaycandan dünya bazarına çıxarılan mallar içərisində pambıq-parçalar və boyaq maqqəsinin adları çəkilir.**

**IX-XI əsrlərdə Azərbaycanda feodal münasibətlərinin inkişafı və kifayət qədər möhkəmlənməsi sayəsində feodalların və kəndlilərin formalaşması sabitləşdi. Cəmiyyətin ən böyük sinfi olan kəndlilər iki hissədən ibarət idi. 1-cisi. Uluc adlanan – asılı kəndlilər, 2-cisi, dağ yerlərində yaşayan azad kəndlilər. Uluclar əksəriyyət təşkil edirdi.**

**Torpaq üzərində aşağıdakı mülkiyyət formalar mövcud idi.**

**Divani-dövlətə məxsus olan torpaqlar. Buradan gələn gəlir xəzinəyə daxil olurdu.**

**Əmlakı-Xassə-hökmdara və onun sülaləsinə mənsub olan torpaqlar.**

**Mülk (Əmlak) – iri feodalların və onların vassallarının əlində olan torpaqlar. Xilafət dövründə mülk sahibləri məlik adlanır və dövlətə xərac deyilən vergi verirdi.**

**Geniş yayılmış mülkiyyət formalarından biri-dövlətə göstərdiyi xidmətə görə verilən iqta idi. Bu mülkiyyət irsi xarakter daşımırdı. Şəraitdən və yerindən asılı olaraq «iqta»ya torpaq şəklində, ya da torpaqdan götürülən gəlirin bölüşdürülməsi şəklində tətbiq edilirdi.**

**Vəqf – məscidlərə müqəddəs yerlərə, ruhani idarələrinə, xeyriyyə cəmiyyətlərinə məxsus torpaqlar. Bu orta əsrlərdə nüfuzlu və toxunulmaz mülkiyyət hesab edilirdi.**

**İcma – becərilmək üçün kənd icmasının istifadəsinə verilən torpaqlar. Kəndlilər torpağı bölür, becərir və xərac adlanan vergini toplayıb dövlətə təhvil verirdilər. Bu forma XX əsrin əvvəllərinə kimi yaşamışdır. Vergilər içərisində ən ağırı torpaq vergisi adlanan xaric idi. XI əsrin 60-cı illərinin əvvəllərində Şirvanda, Təbrizdə, Səlmasda, Xoyda xalq kütlələrinin feodal zülmünə qarşı baş vermiş çıxışları xəracın ağırlığı ilə bağlı idi.**

**Cəsur və cəngavər bir şəxs olan Səlcuq oğuzların qınıq tayfasına mənsub idi. Oğuzlar 22-24 türk tayfasını birləşdirirdi. Oğuzların başçısı oğuz xaqan hesab edilir. F.Rəşiddədin, «Oğuznamə» əsərində oğuzlar haqqında bəhs edib. Oğuzlar İslama qədər totemlərə və Şamanizmə sitayiş edirdilər. Oğuzların bir hissəsi Xorosan tərəfdən yaxın Şərq ölkələrinə, digər hissəsi Xəzərin Şimalından keçməklə Şərqi Avropaya və Balkan yarımadasına yayıldı.**

**Türk tayfasının Azərbaycana növbəti axını XI əsrdə oldu. Səlcuqlar əvvəlki türk tayfalarından fərqli olaraq Şimaldan Dərbənd yolu ilə deyil, cənubdan İran yolu ilə gəlirdilər.**

**Səlcuqlar IX əsrdə Xəzər dənizi ilə Aral gölü arasındakı ərazidə yerləşirdi. Qəznəvilər dövlətinin başçısı Sultan Mahmud səlcuq başçılarını həbs edərək, səlcuq tayfalarını 1009-cu ildə Xorasanda yerləşdirdi. Səlcuq Toğrul 1038-ci ildə Nişapuru ələ keçirib, özünü Sultan elan etdi. Beləliklə, yaxın və orta Şərqdə ən güclü feodal dövlətlərindən olan Səlcuqilər imperiyasının (1038-1157) əsası qoyuldu. 1040-cı ildə Qəznəvi sultanı Məsuda zərbə endilir, Xorasan tutulur, 1045-ci ildə Həmədan, 1050-ci ildə İsfahan ələ keçirilir. Sonra İran, İraq, Kiçik Asiya, Suriya, Ərəbistan yarımadası, Ön Qafqaz, bir sözlə Türkstandan Aralıq dənizinə, Dərbənddən fars körfəzinə qədər olan əraziləri ələ keçirirlər. 1054-cü ildə onlar**

**təkrar Azərbaycana soxulur, Rəvvadi Vəhsodan, Şəddadi Şavur onların vassal asıllığını qəbul edir.**

**1055-ci ildə Xilafətin paytaxtı Bağdad tutulur. Paytaxt əvvəl Mərv, sonra isə Rey və İsfahan olur. 1071-ci ildə Bizans Səlcuqları müharibədə uduzur. Sultan Məlkşahın dövründə (1072-1092) səlcuq imperiyası öznün ən yüksək inkişaf nöqtəsinə çatır. 1088-ci ildə Səlcuqlar Şəddadilərin varlığına son qoyur. Şirvanşahlar da onlara tabe olur.**

**Məlkşahın oğlu Sultan Səncərin dövründə (1118-1157)_Səlcuq imperiyası parçalanır. O sıradan Girman, Konya, Suriya, İraq Səlcuq sultanlığı və kiçik Asiyada bir sıra əmirliklər yaranır. Azərbaycan İraq Sultanlığına daxil idi. Əslində dövləti Azərbaycan Ağabəyləri Şəmşəddin Eldəniz və onun varisləri idarə edirdi.**

**XII əsrin 20-ci illərində yaranması tarixi Şərait nəticəsində Şirvanşahla dövləti bərpa olunur. Həmin əsrin 30-cu illərində Yaxın və orta Şərqin əzəmətli dövlətlərindən olan Atabəylər dövləti yaranır. Banisi Şəmsəddin Eldəniz idi. O, Sultan II Toğrulun az yaşlı oğlu Arslan şaha atabəy təyin olundu. II Toğrul öləndən sonra Şəmsəddin onun dul qadını Möminə xatunla evlənir. Bu izdivacdan Məhəmməd Cahan Pəhləvan və Qızıl Aslan dünyaya gəldi. Sultan Məsud 1136-cı ildə Arranı iqta şəklində Eldənizə bağışlayıb, onu Bərdəyə yola saldı. Bununla da Azərbaycan Atabəylər dövlətinin əsası qoyulur.**

**Tədqiqatçılar bu dövlətin və onu idarə edən sülalənin tarixini təşəkkül (1136-1160), çiçəklənmə (1161-1191) və tənəzzül (1191-1225) dövrünə bölürlər. Bu dövlət Xarəzəmşah Cəlalədinin Azərbaycana hücumu zamanı süqut etdi. Eldəniz Səlcuq sultanları arasında gedən mübarizədən istifadə edərək 1160-cı ildə 20 min süvari ilə Həmədana daxil oldu, Arslan şahı Sultan taxtına əyləşdirdi. Öz oğlunu – Qızıl Arslanı Sultan ordusunun baş sərkərdəsi təyin etdi. Təbriz və Naxçıvan Azərbaycan Atabəylər dövlətinin paytaxtı oldu. Səlcuq sultanlarının əsas paytaxtı**

**Həmədan şəhəri idi. Eldəniz Qum, Qəzvin, Ərdəbil, Marağa, Girman əyalətlərinin hakimləri Azərbaycan Ağabəylərindən asılı vəziyyətə düşdülər.**

**Eldənizin xarici siyasətində gürcü hakimi III Georgi ilə müharibələr mühüm yer tutur. Mənbələrdə Eldənizin 1174-cü ildə gürcülər üzərindəki qələbəsi xüsusi qeyd olunur. 1175-ci ildə Şəmsəddin Eldəniz Naxçıvanda vəfat etdi. Möminə xatun ondan bir ay əvvəl ölmüşdür. Hakimiyyətə Eldənizin böyük oğlu məhəmməd Cahan Pəhləvan (1175-1186) gəldi. Onun dövründə dövlət iqtisadi və siyasi cəhətdən möhkəmləndi. Xarəzəmşah və gürcü çarı onunla hesablaşmağa məcbur oldu. Misir və Suriyanın hakimi Səlahəddin Yusiflə münaqişəli vəziyyət dinc yolla Cahan şahın xeyrinə həll olundu. Cahan şah 1186-cı il martın 23-də vəfat etdi.**

**Qızıl Arslan (1186-1191) Sultan Toğrulu oğlu Məlikşahla birlikdə ələ geçirdi. Gəncədə Qızıl Aslan Nizami Gəncəvi ilə görüşdü. Şahı «Xosrov və Şirin» poemasını sənətkara oxudu. 1191-ci ildə evləndiyi qardaşının dul qadını İnanc xatunun əli ələ yatağında öldürüldü. İnanc xatun sonra III Toğrulla kəbin kəsdirdi. Onu da zəhərləmək istədi. Lakin Toğrul bundan bundan xəbər tutub zəhəri İnanc xatunun özünə içirdib öldürdü. Atabəylər dövləti hökmdar Atabəy Özbəyin (1210-1225) zamanında 1225-ci ildə Xarəzmşah Cəlalədinin hücumları ilə süqut etdi.**

**İdrarəetmə- Sultan, vəzir və hacib (xüsusi xidmət orqanı)**

**Tuğrayi (Valinin dəftərxana rəisi), sahibi divan (hərbi idarə)**

**Atabəylər dövlətinin hökmdarları:**

**1. Şəmsəddin Eldəniz (1136-1175).**

**2. Cahan Pələvan (1175-1186).**

**3. Qızıl Arslan (1186-1191).**

**4. Əubəkr (1191-1210).**

**5. Özbək (1210-1225)**

# *Mövzu 4. Azərbaycan monqol yürüşləri dövründə.Qaraqoyunlu və Ağqoyunlu dövlətləri*

**XIII əsrin əvvəllərində mərkəzi Asiyada güclü hərbi qüdrətə malik olmuş monqol dövlətinin yaranması və onun qonşu ölkələrə yürüşü bu ölkələri təhlükə qarşısında qoydu. Vahid monqol dövlətinin banisi məşhur sərkərdə Çingiz xan (təqribən 1155-1227) olub. Əsl adı Temuçin idi. 1206-cı ildə onun Onon çayı sahilində monqol noyonlarının qurultayında Temuçin böyük xan seçilmişdir. Qonşu ölkələrdə hökm sürən feodal pərakəndəliyi Çingiz xanın işğalçılıq planlarının həyata keçməsi üçün əlverişli şərait yaratdı.**

**Monqol yürüşləri ərəfəsində Azərbaycan daxili və xarici vəziyyəti gərgin və acınacaqlı idi. Ölkənin şərq sərhədlərində mövcud olan Xarəzmşahlar dövləti daxilən möhkəm əsaslar üzərində qurulmadığı üçün iqtisadi və hərbi qüdrətə malik deyildi. Xalq kütlələrinin və ayrı-ayrı feodal qruplarının dəstəyini qazana bilməyən Xarəzmşahlar dövləti monqollara qarşı mübarizə apara bilmədi. Bu sülalənin ən görkəmli hökmdarı II Məhəmməd Əlaəddinin (1200-1220) dövründə İran, Azərbaycan, Əfqanıstan, Orta Asiyanın çox hissəsi Xarəzmə tabe idi. O, 1220-ci ildə Çingiz xanla qəti döyüşə girməkdən qorxaraq ölkədən qaçmış, Xəzər dənizindəki adalardan birində həlak olmuşdur.**

**Monqol yürüşləri ərəfəsində Azərbaycan ərazisində vahid mərkəzləşmiş dövlət yox idi. Və burada feodal pərakəndəliyi hökm sürürdü. Azərbaycanda Eldənizlər (yaxud Atabəylər) dövləti və Şirvanşahlar dövləti mövcud idi. Marağada isə Rəvvadilər nəslindən olan yerli Ağsungurilər sülaləsi (1108-1227) hökmranlıq edirdi.**

**XII əsrin sonunda Eldənizlər dövləti əvvəlki qüdrətini itirdi. Atabəylər ailəsinin ayrı-ayrı üzvləri arasında hakimiyyət uğrunda şiddətli mübarizə gedirdi. Atabəy Əbubəkr (1192-1210) yalnız Azərbaycanda (Şirvan və Marağa istisna olmaqla)**

hakimiyyət sürürdü. Atabəylərin son nümayəndəsi özbək (1210-1225) feodal qrupların əlində oyuncağa çevrildi.

Qonşu ölkələrdə mövcud olan şəraitdən yararlanan Çingiz xan 1211-ci ildə Şimali Çin, 1215-ci ildə Pekin və Şərqi Türküstanı ələ keçirdi. (1219-cu ildə monqollar Xarəzm dövləti ərazisinə basqın etdilər). 1219-cu ildə monqollar Xarəzm dövləti ərazisinə basqın etdilər. Monqol hücumlarına ciddi müqavimət göstərə bilməyən Xarəzmşah Məhəmməd və onun oğlu Cəlaləddin İrana qaçdılar. Xorasan və İraqı-Əcəm qarət olundu. Azərbaycan üzərinə yürüşə hazırlıq başladı. Monqollar Azərbaycana ilk dəfə 1220-ci ildə yürüş etdilər. Sərkərdələr Cəbə və Subutay Zəncanı, Ərdəbil, Sərabı talan edərək Təbrizə yaxınlaşdılar. Monqollar böyük xərac aldıqdan sonra qışlamaq üçün Muğana yollandılar və oradan Gürcüstana basqın etdilər. 1221-ci ilin əvvəllərində monqollar yenidən Təbrizə döndülər. Şəhər hakimi Şəmsəddin Tuğrayı xərac verməklə şəhəri qarətdən xilas edə bildi. Bundan sonra monqollar qəflətən Marağa üzərinə yürüş etdilər. Şəhər hakimi olan qadın Ruyendec qalasında gizləndi. Düşmənlər divardağıdan qurğuların köməyi ilə Marağaya soxuldular. Əhaliyə qanlı divan tutdular. Monqollar Marağada ikən Həmədanda xalq üsyanı baş verdi. Üsyan qəddarlıqla yatırıldıqdan sonra, Ərdəbil şəhəri ələ keçirildi. Qoşun Ərdəbil istiqamətində Təbrizə üçüncü dəfə hücum etdi. Atabəy Özbək düşmənin şəhərə yaxınlaşdığını eşidib Naxçıvana qaçdı. Monqollar Şahəddin Tuğrayinin başçılığı ilə Təbrizin ciddi mübarizəyə hazır olduğunu görüb açıq döyüşə girməkdən çəkindilər və yenidən xərac almaqla kifayətləndilər.

Monqollar Sərab şəhərini zəbt etdikdən sonra Beyləqana tərəf yönəldilər. Amansız və qanlı döyüşdən sonra Beyləqanı zəbt edildi və əhaliyə qanlı divan tutuldu. Güclü qarətdən sonra Beyləqana od vurub yandıran monqollar şəhər əhalisindən xərac alıb Gürcüstana getdilər və oradan qayıdıb Şirvana soxuldular. Şamaxı düşmənə mərdliklə müqavimət göstərdi. Mühasirə nərdivanları və meyidlərdən düzəldilmiş qalaqlar üzərinə çıxıb şəhərə od yağdıran düşmən üç gün

**şamaxılıların iradəsini qıra bilmədi. Lakin sayca üstün olan monqollar şəhəri ələ keçirə bildilər. İbn əl-Əsirin ifadəsi ilə desək «şəhərdə əhalinin kökü kəsildi».**

**Dərbənd keçidindən getməyin çətinliyini anlayan monqollar hiyləgərliyə əl atdılar, danışıqlar üçün Şirvanşaha xəbər göndərdilər. Şirvanşah təklifi qəbul edib 10 nəfərlik elçi heyəti göndərdi. Monqollar diplomatik əxlaqa sığışmayan hərəkət edərək elçinin birini öldürüb, qalanları məcbur etdilər ki, onları gizli yollarla Dərbənddən Şimala keçirsinlər. Beləliklə monqol qoşunları 1222-ci ildə Azərbaycan ərazisini tərk edərək Monqolustana qayıtdılar. Monqolların ilk yürüşləri Azərbaycanın ictimai-iqtisadi siyasi və mədəni həyatına böyük zərbə vurdu. Ərəb müəllifi İbn əl-Əsir yazır ki, «tatarlar Beyləqanı qarət edib dağıtdıqdan sonra Gəncəyə doğru hərəkət etdilər. Ancaq tatarlar ora əhalisinin çoxluğunu, şücaətini, gürcülərlə olan müharibədə kişilik və qoçaqlıq göstərmiş olduqlarını və bu şəhərin olduqca möhkəmliyini bildikləri üçün oraya yaxın gedə bilmədilər. Şəhər əhalisinin xərac almaqla kifayətləndilər. İbn əl-Əsir «Əl-Kamil-Fit tarix» əsərində monqol vəhşiliyini bütün çılpaqlığı ilə təsvir edərək yazır: «Kaş annam məni doğmamış olaydı, yaxud mən bu hadisədən əvvəl ölmüş və tamamilə unudulmuş olaydım. «Allah-Təala dünyanı yaratdığı zamandan indiyə qədər dünya bir belə bəlaya düçar olmuşdur».**

**«Hamilə arvadların qarnını yarıb çağalarını da çıxarıb öldürürdülər». (Erməni vandalizm idə necə də səsləşir).**

**İqtisadi və siyasi qüdrətini itirmiş Eldənizlər dövləti ölkədə vəziyyəti nizama salmaq iqtidarın deyildi. Azərbaycanda yaranmış ağır vəziyyət yeni istilaçıların həmlələri üçün imkan yaratdı. 1223-cü ildə qıpçaq dəstələri Şimali Qafqaz çöllərindən keçərək Dərbəndə gəldilər və buradan Azərbaycana soxuldular. Onlar Şirvanı qarət edərək Qəbələ və Gəncəyə tərəf irəlilədilər. Əvvəlcə onlar Gəncə hakimindən yaşamaq üçün torpaq istədilər, lakin sonra yerli əhaliyə əzab verməyə başladılar. Qıpçaqlara qarşı Arran Şirvan, Gürcüstan və Dağıstan əhalisi arasında ittifaq yarandı və nəticədə qıpçaq dəstələri məğlub edildilər. Lakin Azərbaycanın**

**ağır vəziyyətindən istifadə edən gürcü feodalları 1225-ci ildə Gəncəyə hücum edib, şəhəri qarət etdilər.**

**1221-ci ildə Çingiz xana məğlub olaraq Hindistana qaçan Xarəzmşah Cəlaləddin 1225-ci ildə Azərbaycana yürüş etdi. Monqolların orta Asiyaya hücumu nəticəsində hakimiyyətdən məhrum olmuş Cəlaləddin İranı və qonşu ölkələri zəbt etməyi qərara aldı. Marağanı ələ keçirən Cəlaləddin əhalini öz tərəfinə cəlb etmək üçün şəhərdə bərpa işləri apardı. Sonra Təbrizə yönəldi. Atabəy Özbək ailəsini də şəhərdə qoyub Gəncəyə qaçdı. Sonra isə Əlincə qalasına gedərək orada vəfat etdi. Onun ölümü ilə (1225) Azərbaycanda Eldənizlər dövləti süqut etdi.**

**Təbriz 7 gün Cəlaləddinə müqavimət göstərdi. İyulun 25-də şəhər ələ keçirildi. Nizaməddin Tuğrayi şəhər rəisi təyin olundu.**

**Sonra Gəncə şəhəri Cəlaləddin sərkərdəsi Urxana təslim olundu. Beyləqan, Şəmkir ələ keçirildi. Tezliklə Azərbaycanın başqa əraziləri də Cəlaləddinin əlinə keçdi. Ağsunqurilər dövləti süqut etdi. Şirvanşahlar isə ildə yüz min dinar xərac vermək şərti ilə Cəlaləddinin hökmranlığını qəbul etməli oldular. Azərbaycanın Cəlaləddin tərəfindən zəbt edilməsindən sonra Gürcüstanın bir hissəsi qarət olundu.**

**Azərbaycanın idarəsi Cəlaləddinin vəziri Şərəf əl Mülkün ixtiyarına verildi. Onun Təbrizdə qeyri-qanuni vergilər toplanması şəhər əhalisinin narazılığına səbəb oldu. Cəlaləddin Təbrizə qayıtdı. Şəmsəddin Tuğrayi zindana salındı, Nizaməddin Tuğrayi isə edam edildi. Lakin tezliklə Şəmsəddin həbsdən azad edilib, öz malikanəsinə sahib oldu.**

**Cəlaləddin İraqda səfərdə olarkən Təbrizdə bir qrup Atabəylər dövlətini bərpa etməyə cəld göstərdi, lakin məğlub oldular.**

**Təbrizdə Xarəzmşahlara qarşı Məhəmməd İbn Bəşir Garbəyin başçılığı ilə üsyan qalxdı. Xalq hərəkatı bütün Azərbaycanı bürüdü. Cəlaləddinə qarşı baş vermiş 1231-ci il Gəncə üsyanı xalq hərəkatının ən yüksək zirvəsi oldu. Sənətkar**

**Bəndərin başçılığı ilə gəncəlilər şəhərdəki qarnizonunu məhv etdilər. Cəlaləddin dəfələrlə üsyançılarla danışığa cəhd etdi, lakin buna nail ola bilmədi. Qanlı döyüşdən sonra üsyançılar məğlub oldu. 30 nəfər asi edam edildi. Bəndər isə tikə-tikə doğrandı. Azərbaycan Xoy, Mərənd, Naxçıvan və digər şəhərlərində də Xarəzmşah Cəlaləddinə qarşı üsyanlar qalxdı, hərəkat geniş vüsət aldı.**

**Monqolların barışmaz düşməni kimi şöhrət tapmış Cəlaləddin siyasi vəziyyətdən səmərəli istifadə edə bilmədi. Monqollara qarşı mübarizədə qonşu ölkələrinin qüvvələrini birləşdirmək əvəzinə, onlarla müharibə aparan Cəlaləddin onları daha da zəiflətdi və beləliklə, Azərbaycanın və qonşu ölkələrin monqollar tərəfindən zəbt olunması üçün əlverişli şərait yaratdı. Cəlaləddin İsfahana gedərkən Kürdüstanda yaxalanmış, 1231-ci il avqustun ortalarında bir kürd tərəfindən öldürülmüşdür. Monqollar 1231-ci ildə Çormağunun başçılığı ilə Rey və Həmədan şəhərlərini zəbt edib, 1231-ci ildə ikinci dəfə Azərbaycana soxuldular. Marağa şəhəri düşmənə ciddi müqavimət göstərdi. Sonra Təbriz şəhəri mühasirəyə alındı. Şəhər əyanları danışıqlar yolu ilə Təbrizi növbəti qırğından xilas etdilər. Ən qiymətli sənətkarlar Qaraqoruma aparıldı.**

**Monqollar buradan Gəncəyə səmt aldı. Əhalinin müqaviməti elə güclü idi ki, işğalçılar qala divarlarını dağıtdıqdan sonra belə bir həftə şəhərə girməyə cürət etmədilər. Uzun mübarizədən sonra 1235-ci ildə Gəncəni zəbt edən düşmənlər əhaliyə qanlı divan tutdular. Gəncə 4 il ərzində xaraba vəziyyətdə qaldı.**

**Şəmkir işğalçılara ciddi müqavimət göstərdi. Bakı və Tovuz ələ keçirildi. 1239-cu ildə Dərbənd şəhərinin zəbt olunması ilə bütün Azərbaycan monqollar tərəfindən istila olundu.**

**İlk yürüşdən fərqli olaraq monqolların ikinci yürüşündə əsas məqsəd zəbt edilmiş ölkələrdə möhkəmlənmək idi. Odur ki, onlar qələbə əldə etdikdən sonra Monqolustana qayıtmadılar, Cənubi Qafqazda və İrandav məskunlaşdılar.**

**Azərbaycan və ümumiyyətlə Cənubi Qafqaz ərazisi 1239-1256-cı illərdə Ali Monqol Xaqanlığının təyin etdiyi canişinlər tərəfindən idarə olunurdu. Arğun ağa**

**Xorasan, İrağı-Əcəm, Azərbaycan (Şirvan da daxil olmaqla), Gürcüstan, Ermənistan, Zur və Kirmana canişin təyin olundu. Onun siyasətinin əsas mahiyyəti yerli feodalların (vassalların) köçəri monqol əyanlarından asılılığını getdikcə gücləndirməkdən ibarət idi.**

**Mənşəcə oğuzların Yivə boyundan olan Qaraqoyunlular Yaxın və Orta Şərqin tarixində mühüm rol oynamışdır. Tarixi mənbələr VII əsrdən etibarən onların Azərbaycanda yaşaması haqqında məlumatlar verir. Onlara baharılılar başçılıq edirdilər. Əvvələr Van gölünün Cənubunda məskən salmış qaraqoyunlular XIV əsrin 70-ci illərindən Ərzincan Sivas və Gürcüstanın şimal torpaqlarında möhkəmlənib Ağqoyunlular, Cəlairilər və Teymurilərə qarşı mübarizə aparmışlar.**

**Onların Orta Asiyadan gəlməsini Səlcuqların Yaxın Şərqə köçməsi ilə bağlayırlar. Ehtimal ki, Qaraqoyunlular monqol işğalları dövründə Azərbaycandan və İrandan qərbə doğru hərəkət etməyə məcbur olmuş, Kiçik Asiya, İraq və Suriyada məskunlaşmışlar.**

**Qaraqoyunluları təşkil edən əsas tayfalar bunlardır: Baharlı, Sədli, Qaramanlı, Alpout, Duharlı, Cagirli, Hacili, Ağacəri.**

**Sədli oylağının qədim vətəni Naxçıvan və Sürməli idi. Qaraqoyunlular XIV sonlarında şərqi Anadoluda bəylik yaratmış və onun əsasını qoyan şəxs Bayram Xoca olmuşdur. Onun oğlu Qara Məhəmməd qızını Cəlairi Sultan Əhmədə verərək sülalə əlaqələrini möhkəmlətmişdir. Qaraqoyunluların hakimiyyətinin möhkəmlənməsində Cəlairi əmirlərinin böyük rolu olmuşdur. Vəziyyətdən istifadə edən Qara Məhəmməd mərkəzi Van şəhəri olan Qaraqoyunlu tayfa ittifaqının əsasını qoyur.**

**Əvvəlcə o, Cəlairi Şahzadəsi Şeyx Əlini məğlub edir, sonra Mardin hökmdarının qızı ilə evlənərək onunla qohum olur. 1387-ci ildə Teymur Naxçıvandan qaraqoyunlular üzərinə hücuma keçir. Qara Məhəmməd Çapaqcur dairəsində sərt keçidləri tutaraq Teymuri qüvvələrini darmadağın edir. 1388-ci ildə o, Təbrizə girir. Qara Məhəmməd və oğlu Bayram 1389-cu ildə Qara Pirşəsən tərəfindən**

**öldürülür. 1392-ci ildə Qara Yusif Pirhəsəni məğlub edir. 1392-ci ildə Teymurilər Van şəhərini qarət etdilər. 1394-cü ildə Cəlairilər və qaraqoyunluların birləşmiş qüvvələri teymurilərə məğlub oldu.**

**Teymurun ölümündən sonra Cənubi Azərbaycan Teymuri Mirənşahın oğlu Əbubəkr və qardaşı Ömər arasında gedən qanlı toqquşmalar meydanına çevrilmişdir. Qara Yusif Gürcüstan ətrafında, Ərməniyyə və Azərbaycanın cənubunda məskunlaşan yarım köçəri kürd əmirlərini öz ətrafında birləşdirə bildi.**

**1406-cı il iyulun sonunda Sultan Əhməd və qara Yusif Bağdadı zəbt edib, təcili cənubi Azərbaycana doğru irəlilədilər.**

**1406-cı il oktyabrın 14-də Qara Yusif Əbubəkri məğlub etdi. Teymurilər qaçmağa üz qoydular. Bu məğlubiyyət onun atası Miranşaha ağır təsir etdi. 1408-ci il 21 apreldə Təbrizin cənubunda Sərdrud adlı yerdə 20 minlik qaraqoyunlu qoşunu Əbubəkrin teymuri ordusunu darmadağın etdi. Miranşah öldürüldü. Əbubəkr qaçmağa üz qoydu. Bununla da Teymurilərin ayalığına son qoyuldu.**

**Teymurilər imperiyasının böyük bir hissəsi metropoliyadan ayrılmış və bu ərazidə Azərbaycan Qaraqoyunlu dövləti (1410-1467) yaranmışdır. 1409-cu il payızın başlanğıcında Qara Yusif Təbrizə daxil olmuş, Şəki hakimi Seyid Əhmədə qarşı qoşun göndərmişdir.**

**1410-cu il avqustun 30-da Təbriz yaxınlığında Əsəd qəsəbəsi kənarındakı döyüşdə keçmiş müttəfiqi Cəlairi Sultan Əhmədi məğlub etmiş Qara Yusif ona hakimiyyətin yeni sülaləyə keçməsini qanuniləşdirən sənədlərə qol çəkdirdi. Belə ki, Sultan Əhməd Qara Yusifin oğlu Pirbudağı öncədən oğulluğa götürmüşdür. Buü məsələni Sultan Əhmədə xatırladan Qara Yusif Azərbaycanın Pirbudağa verilməsi haqqında yarlıq yazdırdı. 1411-ci ildə Qara Yusif Təbrizdə Azərbaycan əyanları və Qaraqoyunlu əmirlərinin məclisində Pirbudağı Sultan elan etdi. Beləliklə, Azərbaycan Qaraqoyunlu dövləti yarandı. Sultan Əhməd edam edildi. Beləliklə, da cəlairilərin hakimiyyətinə son qoyuldu.**

**Kürdən cənuba doğru uzanan Azərbaycan torpaqları, Ərməniyyə, Kürdüstan, Gürcüstanın bir hissəsi, Qərbi İran, Anadolunun şərq vilayətləri, İraqi-ərəb bu dövlətin tərkibinə daxil edildi. Təbriz dövlətin paytaxtı oldu.**

**Burada bir məqamı qeyd etmək maraqlıdır. 1410-cu ildə Şirvanşah qoşunu Kəyumərsin başçılığı ilə Təbrizə yaxınlaşdı. Gecə Kəyumərs istirahət edərkən Qara Yusifin kəşfiyyat qrupu tərəfindən əsir götürülür. Qara Yusif onu öldürmür. Atasının tabe olması haqqında onun vasitəsilə məktub göndərir. Şirvanşah I İbrahim oğlunun guya ona xəyanət etməsindən, asanlıqla təslim olmasından şübhələnərək oğlunu edam etdirir.**

**1412-ci ilin sonunda Kür sahilində Şirvanşah I İbrahim (onun tərəfində Şəki hakimi, Kaxetiya çarı), o biri tərəfdə Qara Yusif, Qarabağın, Muğanın, Naxçıvanın silahlı dəstələri arasında döyüş baş verdi. Şirvanşah və onun müttəfiqləri məğlub oldu. I İbrahim Qara Yusifə tabe oldu. Qara Yusifin qoşunu Şirvanı tərk etdi. 1417-ci ildə Şirvanşah I İbrahim dünyadan köçdü. Onun oğlu I Xəlilullah (1417-1462). Qaraqoyunlular əleyhinə Teymurun Orta Asiya və İranda hakim olan oğlu Sultan Şahruxla (1466-1447) ittifaqa girir. Şahrux qardaşı Miranşahın qanını almaq üçün 1418 və 1420-ci illərdə Azərbaycana uğursuz yürüş edir. Qara Yusif 1420-ci il noyabrın 17-də Təbrizdə Ucan adlı yerdə xəstələnib öldü. Qara Yusifin əmirləri ordugahdan onun həşini sahibsiz qoyub qaçdılar. Cəsəd 2 gün sonra Təbriz əyanları (Seyid Məhəmməd keçəçi və b.) tərəfindən götürülüb Təbrizə, buradan da Ərcisə gətirilib dəfn olundu.**

**Heç bir müqavimətə rast gəlməyən Şahrux Azərbaycanı zəbt edir. Qara Yusifin böyük oğlu İskəndər 1421-ci il iyul-avqust aylarında 3 günlük qanlı döyüşdə sayca onlardan 4-5 dəfə çox olan Teymuri Şahruxun qüvvələrinə məğlub oldu. Teymurilərin qoşununda Hindistandan gətirilmiş döyüş filləri də var idi. Ağqoyunlu əmiri Qara Osman da öz qüvvələri ilə Şahruxun tərəfindən vuruşurdu.**

**Şahruxun Azərbaycana ikinci yürüşü zamanı 1429-cu ildə sentyabrın 17-də Səlmas yaxınlığında Qurd İskəndər arasındakı döyüş sonuncunun məğlubiyyəti ilə**

**başa çatdı. Şahrux İskəndərin qardaşıf Əbu Səidi Azərbaycana hakim təyin etdi. Lakin tezliklə İskəndər Əbu Səidi ələ keçirib öldürdü və hakimiyyəti öz əlinə aldı. (1431-1435).1435-ci ildə Şahrux Azərbaycana üçüncü dəfə yürüş etdi və bir il sonra vassallığı qəbul etmək şərtilə Azərbaycan hökmdarlığını Cahanşaha verdi.**

**1438-ci ilin baharında Cahanşah bəzi Qaraqoyunlu və Şirvan Əmirləri ilə birlikdə Təbrizə doğru hərəkət etdi, lakin Qaramanlı Piri bəyin Cahanşahın tərəfinə keçməsi İskəndərin hərb meydanından qaçmasına səbəb oldu. İskəndərin gizləndiyi Əlincə qalası Cahanşah tərəfindən mühasirəyə alındı. İskəndər qalada öz oğlu Şahqubad tərəfindən qətlə yetirildi.**

**İskəndər Təbrizdə dəfn olunmuşdur. İskəndərin ölümündən sonra Qaraqoyunlu taxtında onun qardaşı Cahanşah əyləşdi (1438-1467). Şahruxun ölümünə qədər Cahanşah özünü onun vassalı kimi qələmə verir və Şirvanşahla münasibətlərində düşmənçilikdən çəkinirdi. Cahanşahın əsas rəqibi Ağqoyunlu Uzun Həsən idi. Onunla mübarizənin gedişində Qaraqoyunlular Şərqi Anadolunun böyük bir hissəsindən əl çəkməli oldular. 1445-ci ildə Cahanşah Bağdad hakimi olan qardaşı İspəndin ölümündən sonra şəhəri zəbt etdi. Beləliklə, İraq-i-Ərəb də Azərbaycan Qaraqoyunlu dövlətinə qatıldı.**

**1447-ci ildə Şahruxun ölümündən sonra Cahanşah öz adına xütbə oxutdurmağa başlayır. Sonra İraqi-Əcəmə hərəkət etdi və Şahruxun arvadının vasitəçiliyi ilə son qoyuldu, Şahruxun nəvəsi Məhəmməd Cahanşaz qızını aldı və İraqi-i-Əcəm Cahanşaha verildi.1453-cü ildə İsfahan, Şiraz, 1454-cü ildə Girman və Yəzd zəbt edildi. 1453-cü il iyunun 28-cə Cahanşah Teymuri hökmdarı Şahruxun Heratdakı taxtında əyləşdi. Lakin həmin il o, heratı tərk etməli oldu. Təbrizdə oğlu Həsənəlinin üsyanını yenicə yatırmış Cahanşah, o biri oğlu Pirbulağın Şirazdakı qiyamını yatırmalı oldu, 1466-cı ildə Pirbudaq öldürüldü.**

**1467-ci il noyabrın 10-da Muş düzündə Uzun Həsənin oğlu Xəlil Mirzə ilə döyüşdə Cahan şah məğlub edilərək öldürüldü. Onun oğlu Həsənli Azərbaycanın Cənubunda Qaraqoyunlu hakimiyyətini bərpa etməyə cəhd göstərdi, lakin buna**

**nail olmadı. Bununla da Azərbaycan Qaraqoyunlu dövləti süqut etdi. Cahanşah Təbrizdə Göy məsciddə dəfn olundu. Sonuncu Qaraqoyunlu Şahzadəsi Həsənəli Uzun Həsənlə döyüşü uduzub Əbu Səidin yanına qaçdı və orada intihar etdi. 1468-ci ildə Ağqoyunlu dövləti Qaraqoyunlu dövlətinə son qoydu.**

# *Ağqoyunlu dövləti*

**XIV əsrdə Kiçik Asiyanın Şərqində məskunlaşmış Qaraqoyunlulardan qərbdə Ağqoyunlular yaşayırdılar. Cənubda – Urfada, Mardində, Şimalda – Bayburdda, Dəclə çayının müxtəlif qollara ayrıldığı sahələrdə yaşayan Ağqoyunluların mənşəyi mübahisəlidir. Ağqoyunlu etnik birliyinin başında Bayandur qəbiləsi dururdu. Bu ittifaqa Pörnak, Mosullu, Əfşar, Bayat və b. tayfavlar daxil idi. Mahmud Qasğari (XI əsr) adlarını çəkdiyi 24 oğuz qəbiləsi içərisində Kınık, Kayıdan sonra Bayandur qəbiləsinin də olduğunu qeyd etmişdir.**

**Rəşidəddinin (XIV əsr) məlumatına görə Sırdərya sahillərində X əsrdə hökmran olan Yabğu oğuzlarının həyatında Bayandur qəbiləsi böyük rol oynamışdır. Ağqoyunlu Qutlu bəyin 3 oğlu arasında hakimiyyət uğrunda mübarizə getdiyi bir vaxtda Qara Yusif Ağqoyunlu torpaqlarına hücum etdi. Ağqoyunlu Qara Osman kurusu udub Diyarbəkirdə möhkəmləndi və Ağqoyunlu bəylinin əsasını qoydu. Sonralar Ərzincan və Mardin də onların hakimiyyəti altına düşdü. Qara Osmanın anası Trabzon imperatoru III Aleksisin bacısı Mariya idi. O, (1394-1435) mərkəzi hakimiyyəti möhkəmlətdi, feodal separatizminə amansızcasına münasibət göstərdi. Öz adından pul kəsdirdi. Qara Osman onun dövlətinin güclənməsindən təşvişə düşən Osmanlı Sultan Bayazid İldırıma qarşı mübarizədə Teymuri qüvvələri ilə əlaqəyə girdi.**

**Qara Osman Teymurun yürüşlərindəki iştirakına görə Malatyanı ona verdi, tezliklə Ərzincan və Sivas da onun əlinə keçdi. Teymurun Suriyaya yürüşündə Qara Osmanın oğlu İbrahim böyük şücaət göstərdiyinə görə Teymur Amid**

**(Diyarbəkirdə) şəhərini ona bağışladı.1401-ci ildə Teymur Bağdadı, Qara Osman Mardini zəbt etdi.**

**1408-ci ildə Diyarbəkir yaxınlığında Ağqoyunlularla Qaraqoyunlular arasında 20 gün davam edən vuruşda Qaraqoyunlu Qara Yusif qalib gəldi. Mardin Ağqoyunluların əlindən çıxdı. Lakin tezliklə Qara Osman Mardini Ağqoyunlulara qaytardı.Qara Osman 1435-ci ildə 90 yaşında Qaraqoyunlularla döyüşlərdən birində yaralanıb öldü.**

**Ağqoyunlu Əli bəyin hakimiyyəti zamanı Misir hakimi Məlik Əşrəflə (1453-1461) qarşılıqlı kömək haqqında sülh imzalanır. Hakim ona 50 minlik qüvvə verir. Qəfildən Əli bəy ölür. Ona qarşı mübarizə aparan qardaşı Həmzə bəy də sui-qəsd nəticəsində öldürülür.**

**1453-cü ildə Əli bəyin oğlu Uzun Həsən qardaşı Cahangir Mirzənin qüvvələrini darmadağın edir, özü isə Qaraqoyunlu Cahanşahın yanına Təbrizə qaçır. XV əsrin 50-ci illərdə Uzun Həsən ermənilərin yaşadıqları torpaqları və Gürcüstanın şərqini ələ keçirir. 1468-ci ildə Uzun Həsən asanlıqla Cənubi Azərbaycanı və Qarabağı ələ keçirdi. Uzun Həsən Təbriz şəhərini yeni dövlətin paytaxtı elan etdi.**

**Kiçik Asiyadakı Osmanlı dövlətinin yeritdiyi fəal xarici siyas ət Cənubi Qafqazın inkişafına mane olurdu. U.Həsən 1453-cü ildə hakimiyyətə gələrkən türklər konstantinapolu fəth etdilər. Qara dəniz boğazlarında ağalıq türklərin əlinə keçdi. Bununla da osmanlılar Avropa Asiya tranzit ticarətinə böyük zərbə vuran gömrük siyasəti yeritməyə başlayır.**

**XIV əsrin 60-cı illərində Qara dəniz sahillərində yerləşən Trabzon şəhəri Avropanın Şərq ölkələri ilə Hindistan, Çinlə ticarətində vasitəçi rol oynayan, Ağqoyunlularla qohumluq əlaqələri daşıyan Trabzon krallığı Uzun Həsənin hücumlarına məruz qaldı. U.Həsən Kral İohanın gözəlliyi ilə məşhur olan qızı katerinanı alır.**

**1460-cı ildə bir çox Qərb və Şərq hökmdarları, Osmanlı dövlətinə qarşı Səlib yürüşü planlaşdırsalar da uğur qazana bilmirlər. Uzun Həsən Osmanlı Sultanı II Mehmedi Trabzon üzərinə yürüşdən daşındırmağa nail olmaq üçün anası Saray Xatunu Osmanlı sarayıfna göndərir. Lakin diplomatik missiya nəticəsiz qalır. Beləliklə, Bizans imperiyasının Kiçik Asiyada son qalığı olan Trabzon çarlığı 1461-ci ildə osmanlılar tərəfindən süquta uğradılır.**

**Bundan sonra Azərbaycana sahib olmaq uğrunda Osmanlı-Ağqoyunlu mübarizəsi daha da şiddətlənir. Uzun Həsən Ağqoyunlulara qarşı Venetsiya, Polşa, Macarıstan, Neapol krallığı, habelə Kipr və Qaramandan ibarət ittifaq yaradır. Kiçik Asiyanın Toqat və Qeysəriyyə şəhərlərində Ağqoyunlularla qaramanlıların birləşmiş qüvvələri Sultan Türkiyəsinə güclü zərbələr endirir.1472-ci il avqustun 18-də Konya yaxınlığındakı döyüşdə Ağqoyunlular məğlub olur. Uzun Həsənin 3 oğlu əsir alınaraq edam olunur.**

**1473-cü il avqustun 4-də Malatiya yaxınlığında Sultan II Mehmedin sərkərdəsi Xasmuradın qoşunları ilə U.Həsən arasında döyüş baş verir. Əvvəlcə Ağqoyunlular ağır qazansa da, 1473-cü il avqustun 11-də Tərcanda (otloqbeli adlanan yerdə) Ağqoyunlular döyüşü uduzur. Əsas səbəb: Uzun Həsənin kifayət qədər odlu silahının olmaması və onun osmanlılara qarşı mübarizədə Misir və Suriya qüvvələrindən yararlana bilməməsi idi.Bununla belə U.Həsənin Osmanlı qoşunlarına vurduğu ağır zərbələr onların Şərq doğru yürüşlərini dayandırdı.**

**1474-cü ildə Venetsiya respublikası Uosofat Barbara, Ambroco Kontarini və Antioxiyanın baş ruhanisi Fiqaro Lodoviko U.Həsənin sarayına göndərilir. 1475-ci il iyunun 11-də onlar saraydı U.Həsən tərəfindən qəbul olunur və burada hökmdar osmanlılara qarşı müharibəyə hazırlaşdığını deyir və öz xristian dövlətlərinin hökmdarlarına ona hərbi kömək etməyi çatdırmağı tapşırır.**

**Ağqoyunlu dövlətinin qərb sərhədlərində uğur qazana bilməyən U.Həsən, İranda gedən feodal ara müharibələrindən yararlanaraq əvvəlcə Qaraqoyunlu Cahanşaha (1467), sonra isə Muğanda Teymuri Əbu Səidə (1469) qalib gəlmiş,**

**nəticədə Xorasan Gilan, Mazandarandan başqa, bütün İranı öz hakimiyyəti altında saxlaya bilmişdir.**

**Teymuriləri Yadiyar Məhəmmədə qalib gəldikdən sonra Xorasan 36 il Sultan Hüseyn Baygaranın hakimiyyəti altında qaldı. H.Baykara (1438-1506). Teymurilərin sonuncu görkəmli nümayəndəsi, şair. 1470-ci ildə Heratda hakimiyyəti ələ keçirmiş, 1472-ci ildə keçmiş məktəb yoldaşı Əlişir Nəvaini baş vəzit təyin etmişdir. Onun ölümündən sonra 1507-ci ildə Özbək Şeybanilər dövləti Xorasan hakimliyinin varlığına son qoymuşdur.**

**Uzun Həsən Şirvanşah Fərrux Yasar və Ərdəbil şeyxi Heydər Səfəvi ilə ömrünün sonuna kimi dostluq əlaqəsi saxlamışdır. U.Həsən Trabzon hökmdarı Kala İohan Komnenin qızı Katerinadan olan övladını Şeyx Heydərə ərə vermişdir.**

**U.Həsən feodal pərakəndəliyindən istifadə edərək Gürcüstana və Misir və Suriya məmlüklərinə qarşı yürüşlər etmişdir. U.Həsən 5 yanvar 1478-ci ildə ölmüş və Təbrizdə özünün inşa etdirdiyi «Həsən padşah» məscidində dəfn olunmuşdur. Onun ölümündən sonra hakimiyyətə oğlu Sultan Yaqub (1478-1490) gəlir. Onun sərkərdəsi Süleyman bəy Bicanoğlunun sücaəti nəticəsində Suriya və Misir məmlük sultanları darmadağın edildi. Sonralar Süleyman bəy saray çəkişmələri nəticəsində Diyarbəkirə qaçıb orada öldürülmüşdür.Şirvanşah Fərrux Yasarın qızı Sultan Yaqubun arvadı idi.**

**Hakimiyyətə Uzun Həsənin Əlincə qalasındakı nəvəsi Sultan Yaqub gəlir (1492-1497). 1500 –cü ildə Ağqoyunlu dövləti Uzun Həsənin nəvələri arasında artıq iki hissəyə parçalanır(Əbhər sazişi). 1501-ci ildə bir hissəsi, 1503-cü ildə isə ikinci hissəsi Uzun Həsənin nəvəsi İsmayılın yaratdığı Səfəvi-Qızılbaş dövlətinin ərazisinə qatılır.**

# *Mövzu 5. Səfəvilər dövləti.Nadir şah Əfşar*

**Səfəvilər sülaləsinin yüksəlişi monqol istilası dövrünə təsadüf edir. XIII əsrdə monqolların işğal etdikləri ərazidə sufi-dərviş təriqəti (orden və ya məktəb) yarandı və tezliklə sənətkar və kəndlilər içərisində geniş yayıldı. XIII əsrin sonunda belə dərviş ordenlərindən biri də Azərbaycanın Ərdəbil şəhərində yaranmışdır. Ordenin və şeyxlər sülaləsinin adı XIII−XIV əsrlərdə yaşamış Şeyx Səfiəddin İshaq əl-Musəvi əl-Ərdəbilinin adı ilə bağlı idi. Bütün Ərdəbil əhalisi şeyxin müridləri hesab olunur və göstərişlərinə əməl edirdilər. Şiəlik təriqətinə mənsub Səfəvilərin müvəffəqiyyətinə səbəb Ərdəbil şeyxlərinin başçılıq etdiyi hərəkatın ölkənin oturaq əhalisinin tələbini ifadə etməsi idi. onralar Səfəvi təriqətinə Şeyx Cüneyd (1447−1460), Şeyx Heydər (1460−1488), Şeyx Sultanəli (1488−1494) və Şeyx İsmayıl (1494−1501) başçılıq etmişdir.**

**XV əsrin ortalarından etibarən Səfəvilər uğurlu yürüşlər keçirərək böyük qənimətlər əldə edir və tədricən Ərdəbildə öz mövqelərini möhkəmləndirirdilər. Bu vaxt Azərbaycanın cənubunda Qaraqoyunlu Cahanşah hökmranlıq edirdi. Onun tələbi ilə Şeyx Cüneyd 1449-cu ildə Ərdəbili tərk etdi. O, Misir, Suriya, Mesopotamiyanı gəzib dolaşdıqdan sonra Diyarbəkirə qayıtdı. Qaraqoyunluların rəqibi Ağqoyunlu Həsən bəy Bayandur (Uzun Həsən) tərəfindən səmimi qarşılandı və onunla qohumluq əlaqəsi yaratdı. onralar Səfəvi təriqətinə Şeyx Cüneyd (1447−1460), Şeyx Heydər (1460−1488), Şeyx Sultanəli (1488−1494) və Şeyx İsmayıl (1494−1501) başçılıq etmişdir. Sultan Yaqub Ərdəbili işğal etdi, Şeyx Heydərin oğlanları: Sultanəli, İbrahim və hələ iki yaşı tamam olmamış İsmayılı əsir aldı. Onlar Şiraz yaxınlığında İstəxr qalasında dörd il yarım saxlanıldı.**

**1492-ci ildə hakimiyyətə gələn Ağqoyunlu Rüstəm Mirzə onları həbsdən azad etdi, Sultanəlini Ərdəbilə qaytardı və onu müstəqil hakim kimi tanıdı. Lakin Sultanəlinin nüfuzunun artması Rüstəm Mirzəni qorxuya saldığı üçün ona qarşı 5000 nəfərlik ordu göndərdi. 1494-cü ildə Sultanəli Ərdəbil yaxınlığında Şəməsi adlanan yerdə Ağqoyunlu qoşunu ilə döyüşdə öldürüldü. Ağqoyunlular yenidən**

**Ərdəbili zəbt etdilər. Sultan Əlinin qızılbaşları Ərdəbil yaxınlığındakı Şəməsi adlı yerdə darmadağın edildikdən sonra sədaqətli sufilər Şeyx Heydərin oğulları İsmayıl və İbrahimə Ərdəbildə gizlənməyə kömək etdilər. Onların ardınca Heydərin övladlarını hər vasitə ilə tutmaq və məhv etmək tapşırığı almış Eybə Sultanın dəstələri şəhərə daxil oldular. Eybə Sultanın dəstələri həmin hadisələri danışan anonim salnaməçinin dediyinə görə, "Ərdəbil əhalisinə münasibətdə zorakılığa və təzyiqə əl atdılar, qətl və qarətlərə başladılar". İsmayıl, anası Aləmşah bəyimin ilk vaxtlar onları gizlətdiyi Şeyx Səfiəddin məqbərəsini tərk edərək Qazi Əhməd Kakuli adlı Səfəvi müridlərindən birinin evinə köçdü və üç gün ərzində orada qaldı. Dördüncü gün İsmayılın dəstəsi Rəştə doğru hərəkət etdi. İsmayılın tərəfdarları Rəşt hakiminin dəvətinə baxmayaraq, onu "Ağ məscid" deyilən yerdə yerləşdirməyi üstün tutdular. Rəştdə olduğu zaman İsmayıla daim məscidin qonşuluğunda yerləşən zərgərlik dükanının sahibi Əmir Nəcm adında yerli sakin qulluq etmişdi. Rəşti də təhlükəsiz hesab etməyən sadiq müridlər İsmayıla Lahicana, Gilanın Biyepiş vilayətinin hakimi Karkiya Mirzə Əlinin sarayına köçməkdə kömək etdilər. Lahicanda İsmayılı və onu müşayiət edənləri mehribanlıqla qarşıladılar və Key Əfridun mədrəsəsi ilə üzbəüz binada yerləşdirdilər. Karkiya Mirzə Əli özünün hörmətli qonaqlarına hər cür diqqət göstərirdi. Tanınmış yerli alimlərdən biri, Şəmsəddin Lahici ərəb və fars dillərini öyrətmək, Quranı oxumaq üçün İsmayılın və onun qardaşının tərbiyəçisi təyin olundu. İsmayıl 6 il Lahicanda qaldı. O, həddi-büluğa çatana qədər bütün məsələləri qızılbaş əmirləri həll edirdilər.**

**XIII əsrdə Bağdadın tutulması ilə Abbasilər xilafəti süqut etdi. Dini liderin olmaması islam cəmiyyətini ciddi sınaq qarşısında qoydu. Monqolların ilk vaxtlar**

**islam dinini sıxışdırması müsəlman cəmiyyətlərində çoxsaylı təriqətlərin və cərəyanların yaranmasına səbəb oldu. Ərdəbildə şiəliyi təbliğ edən Səfəviyyə təriqəti də məhz bu vaxtdan formalaşmağa başladı. Sonralar bu təriqətin nümayəndələri yeni mərkəzləşmiş dövlətin əsasını qoydular.**

**Təriqətdən dövlətə. XV əsrdə Səfəvi təriqəti güclü siyasi qüvvəyə çevrilməkdə idi. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin sabitlik yarada bilməməsi, hakimiyyət uğrunda çəkişmələr sosial-iqtisadi vəziyyətə də mənfi təsir göstərdi. Əhalinin güzəranı çətinləşdi. XV əsrin sonlarında mərkəzi hakimiyyətin daha da zəifləməsi sadə xalq arasında Səfəvilərin nüfuzunun artmasına əlverişli şərait yaratdı. 1499-cu ildə Ərdəbil şeyxlərinin varisi İsmayıl Lahicandan Ərdəbilə doğru hərəkətə başladı. Qızılbaş əmirlərinin məsləhəti ilə hərəkətə keçən gənc İsmayılın əsas vəzifəsi "Səfəviyyə" müridlərini qısa müddətdə bir araya toplamaq, Azərbaycanda siyasi hakimiyyəti ələ keçirmək idi.**

**Ərdəbildə möhkəmlənə bilməyən İsmayıl Ərzincana yollandı. Yol boyunca qızılbaşlara qoşulanların sayı durmadan artırdı. Ərzincandan Şirvana. Qızılbaşların əsas rəqibləri Ağqoyunlular və Şirvanşahlar idi. 1500-cü ildə Ərzincanda qızılbaşların müşavirəsi toplandı. Müşavirədə ilk zərbənin Şirvanşah Fərrux Yasara vurulması qərarı qəbul edildi. Həmin ilin sonlarında İsmayılın başçılığı ilə qızılbaş qoşunu Gülüstan qalası ətəyindəki Cəbani (Cabanı) düzündə Şirvanşahın qoşunları ilə döyüşə girdi. Sayca az olmalarına baxmayaraq, qızılbaşlar Şirvan qoşununu darmadağın etdilər, Fərrux Yasar isə həlak oldu.**

**1501-ci ilin yazında şiddətli müqavimətdən sonra Bakı qalası da tutuldu. İsmayılın uğurları ağqoyunlu Əlvənd Mirzəni narahat edirdi. Onun Şirvana qayıtmaq və oranın idarəsi ilə kifayətlənmək təklifini İsmayıl rədd edincə müharibə qaçılmaz oldu. 1501-ci ilin ortalarında Şərur düzündə baş verən döyüşdə qızılbaşlar özlərindən qat-qat üstün olan ağqoyunlu qoşununu məğlub etdilər. İsmayıl bu döyüşdə şəxsi igidlik və böyük sərkərdəlik məharəti göstərdi. Qızlbaşların qələbə qazanmasının əsas səbəbi müridlərinin öz şeyxləri yolunda ölümə belə hazır olması, mənəviyyatca möhkəm və mətinlikləri idi. Bütün**

döyüşlərdə şəxsən iştirak edən gənc İsmayıl isə qızılbaşların ilham mənbəyinə çevrilmişdi.

Ağqoyunluların birinci qolunun süqut etməsi ilə nəticələnən Şərur döyüşündən bir qədər sonra İsmayıl Təbrizə daxil olaraq özünü şah elan etdi. Azərbaycan Səfəvi dövlətinin əsası qoyuldu. 1503-cü ildə isə Fars və Əcəm İraqının hakimi Ağqoyunlu sultan Murad Almabulağı adlı yerdə məğlub edildi. Beləliklə, Ağqoyunlu dövlətinə son qoyuldu. İsmayıl özünü babası Uzun Həsənin siyasi varisi sayaraq qurduğu dövləti Ağqoyunlu sərhədləri daxilində bərpa etməyə çalışırdı. Qısa müddət ərzində Ərəb İraqı və Diyarbəkrdən Xorasana qədər olan vilayətlər yeni dövlətin tərkibinə daxil edildi. 1510-cu il Mərv döyüşündə Şeybani xanı da məğlub edən Şah I İsmayıl Amudəryaya qədər bütün Xorasanı öz hakimiyyəti altına aldı. Səfəvi dövləti geniş ərazili imperiyaya çevrildi.

Səfəvi-Osmanlı münasibətləri. Şah I İsmayılın uğurları onun Osmanlı sultanı tərəfindən hökmdar kimi tanınması ilə nəticələndi. II Bəyazidin dövründə yaradılan mehriban dostluq əlaqələri Sultan I Səlimin hakimiyyətə gəlişi ilə pozuldu.

Sultan I Səlimin Osmanlı dövlətinin sərhədlərini Şərqi Anadoluya qədər genişləndirmək və Azərbaycandan da keçən ticarət yollarına nəzarət etmək istəyi Səfəvi-Osmanlı müharibələrinin başlanmasına səbəb oldu. I Səlim müharibə ərəfəsində Macarıstan və Venesiya ilə sülh bağlamış, Şeybanilər tərəfdən yardım vədini almışdı. Şah I İsmayıl da ehtiyat tədbirləri görmüş, Avropa dövlətləri ilə diplomatik əlaqələr yaratmağa başlamışdı. Ağqoyunlu Həsən padşahın siyasətini davam etdirən Səfəvi şahı diplomatik münasibətlərdə əsas diqqəti odlu silah almağa və ticarət əlaqələrini genişləndirməyə yönəltmişdi. Bu məqsədlə portuqallar ilə danışıqlar aparan Səfəvi şahı onların Hörmüzdə möhkəmlənməsinə də göz yummuşdu.

Lakin bütün bunlara baxmayaraq, Osmanlılarla müharibə ərəfəsində Səfəvilərin odlu silah əldə etmək cəhdləri uğursuz oldu. I Səlimin göstərişinə uyğun olaraq üləmaların qızılbaşlara qarşı müqəddəs müharibə - cihad elan etməsi ilə

müharibəyə dini don geyindirilmiş oldu. Beləliklə, orta əsrlərin iki qüdrətli türk dövləti arasında fasilələrlə iki yüz il ərzində davam etmiş müharibə başlandı.

**Tərəflər arasında həlledici döyüş 1514-cü il avqustun 23- də, Maku yaxınlığındakı Çaldıran düzündə baş verdi. Qızılbaşların cəsarətli həmlələrinə və Şah I İsmayılın şəxsi şücaətlərinə baxmayaraq, sonda say çoxluğu və odlu silahların hesabına Osmanlı ordusu qələbə qazandı. Təbrizi ələ keçirən Sultan I Səlim burada mökəmlənə bilmədi. Əsgərlər arasındakı narazılıq dalğası, həmçinin qızılbaşların gücündən ehtiyat edən Osmanlı sultanı geri dönməyə məcbur oldu. Buna baxmayaraq, Mosula qədər şərqi və cənub-şərqi Anadolu torpaqları osmanlıların əlinə keçdi. Çaldıran döyüşündə ən yaxın silahdaşlarının itirilməsindən sarsılan Şah I İsmayıl da bir daha Osmanlılarla döyüşə girmədi. Sultan I Səlimin ölümü və ondan sonra hakmiyyətə gələn Sultan I Süleymanın daha çox Qərb ölkələri ilə müharibə aparmağa üstünlük verməsi də təsir göstərmişdi.**

**Vahid Azərbaycan dövlətinin yaradılması prosesinin başa çatdırılması. I Təhmasib.Şah I İsmayılın vəfatından sonra (1524) hakimiyyətə oğlu Təhmasib gəldi. Onun azyaşlı olması hakimiyyətinin ilk illərində qızılbaş əmirləri arasında çəkişmələrə yol açmışdı. Lakin yaşa dolduqca dövlət idarəçiliyini tamamilə öz əlinə alan Şah I Təhmasib özünü tədbirli və uzaqgörən hökmdar kimi göstərdi. O, ilk növbədə, daxili çəkişmələrə son qoyub qiyamları yatırdı, mərkəzi hakimiyyəti gücləndirdi. Bundan sonra diqqətini şimala yönəldən Şah I Təhmasib II Xəlilüllahın ölümündən sonra Şirvanşahlar dövlətində yaranmış qarışıqlıqdan və özbaşınalıqlardan istifadə etmək qərarını verdi. 1538-ci ildə əvvəlcə qardaşı Əlqas Mirzəni 20 minlik qoşunla Şirvana göndərən I Təhmasib Buğurd qalasının mühasirəsinin uzun çəkməsi xəbərini alıb özü də Şirvana gəldi. Buğurd qalasının müdafiəçiləri top atəşlərindən sonra təslim oldular. Burada saxlanılan Şirvanşah xəzinəsi ələ keçirildi, əyanların əlində oyuncağa çevrilmiş sonuncu Şirvan hökmdarı Şahrux Təbrizə gətirilərək edam edildi.**

**Şirvanşahlar dövlətinin varlığına son qoyuldu. Əlqas Mirzə Şirvan bəylərbəyi təyin edildi. 1551-ci ildə isə Şəki hakimliyinin müstəqilliyinə son qoyuldu. 1548-ci**

**ildə Şirvanda qiyam qaldırmış Əlqas Mirzəni müdafiə edən Şəki hakimi Dərviş Məhəmməd öldürüldü,Toyğun bəy Qacar isə Şəkinin ilk qızılbaş hakimi oldu. Beləliklə, Şah I Təhmasibin uğurlu dövlətçilik siyasəti nəticəsində bütün Azərbaycan torpaqları vahid dövlətin tərkibində birləşdirildi.Ölkə vilayətlərinin vahid dövlətin tərkibinə qatılması Azərbaycanın iqtisadi inkişafına müsbət təsir göstərməklə yanaşı, mədəni və etnik birliyi gücləndirdi.**

**Ataların başladığı, oğulların davam etdirdiyi qanlı müharibə. I Səlim ilə Şah I İsmayılın arasında başlanan müharibə, hərbi əməliyyatlar dayansa da, sülh bağlanılmadığından bitməmişdi. 1534-cü ildə Şah I Təhmasibin Xorasanda özbəklərlə müharibəsindən istifadə edən Osmanlı Sultanı I Süleymanın Azərbaycana hücumu başladı. Təbrizi ələ keçirən Osmanlı qüvvələri burada möhkəmlənə bilmədi.**

**Qışın yaxınlaşması, ərzaq çatışmazlığı, əhalinin şiddətli müqaviməti Sultan I Süleymanı Azərbaycanı tərk etməyə məcbur etdi. Geri dönən osmanlı qoşunu Bağdada daxil oldu, beləliklə, Səfəvilər Ərəb İraqını itirdilər. Burada qışlayan osmanlı qüvvələri 1535-ci ildə növbəti dəfə Azərbaycana yürüş etdi. Şah I Təhmasib sayca üstün və güclü osmanlı qüvvələrinə qarşı maraqlı taktika hazırlamışdı. Əhali paytaxtdan köçürülmüş, taxıl və əkin sahələri yandırılmış, suvarma kanalları və kəhrizlər torpaqla doldurulmuşdu. Sultan I Süleyman Təbrizi ikinci dəfə tutsa da, osmanlıların şərqə irəliləyişinin qarşısı Sultaniyyədə alındı. Ərzaqsız qalan və əsgərləri arasında taun xəstəliyi yayılan osmanlı qoşunu Azərbaycanı tərk etməyə məcbur oldu.**

**Müharibə uzandıqca hər iki tərəfdə bir dövlətdən digərinə qaçan narazı şəxslərin də sayı artırdı. Onlar hökmdarları hərbi əməliyyatları davam etdirməyə təhrik edirdilər. Şirvanda qiyam qaldırmış və məğlub edildikdən sonra Sultan I Süleymanın yanına qaçmış Əlqas Mirzə də belələrindən idi. Osmanlıların Səfəvilər üzərinə 1548-ci il yürüşü məhz onun təhriki ilə başlamışdı. Lakin osmanlılar bu dəfə də uğur qazana bilmədilər. Əlqas Mirzə isə əsir düşərək edam edildi. Sultan I Süleymanın 1554-cü il yürüşü zamanı osmanlı qoşunu Buğurd qalası yaxınlığında məğlub edildi. Uğur əldə edə bilməyən sultan sülh bağlamağa məcbur oldu.**

**1555-ci il mayın 29-da Amasiyada bağlanan sülhə görə, Səfəvilər bütün Azərbaycanı və Şərqi Gürcüstanı əllərində saxladılar, Qərbi Gürcüstan isə Osmanlılara verildi. Bağdad daxil olmaqla Ərəb İraqı Osmanlılara qaldı. Beləliklə, Səfəvi-Osmanlı müharibələrinin ilk mərhələsi başa çatdı. Osmanlı dövlətinin ən qüdrətli vaxtında belə Azərbaycan torpaqlarının qorunması və sülhə nail olunması I Təhmasibin ən böyük uğurlarından biri idi. Təbrizin osmanlı qoşunları tərəfindən bir neçə dəfə tutulması I Təhmasibi paytaxtı dəyişməyə məcbur etdi. Amasiya sülhündən dərhal sonra paytaxt Osmanlı sərhədlərindən uzaqda yerləşən Qəzvinə köçürüldü.**

**Səfəvilər dövlətinin siyasi quruluşu. İdarə sistemi və hərbi qüvvələr. Səfəvilər dövlətinin siyasi quruluşu Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin ənənələrinə əsaslanırdı. Lakin bu dövlətlərdən fərqli olaraq, Səfəvilər sülaləsinin hakimiyyəti dövründə güclü mərkəzləşmiş dövlət qurulmuşdu. Bu dövlət həm də teokratik xüsusiyyəti ilə də seçilirdi. Dövlətin başında dini və dünyəvi hakimiyyəti öz əlində cəmləşdirmiş şah dururdu. Şahın yanında 12 nəfər yüksək mövqe tutan nüfuzlu əmirlərdən ibarət məşvərət orqanı -** ***Ali məclis*****fəaliyyət göstərirdi. Şahdan sonra dövlətdə ikinci nüfuzlu şəxs vəkil hesab olunurdu. O, şahın dini və dünyəvi işlər üzrə tam hüquqlu müavini idi. Səfəvi qoşunlarına** *əmir ül-üməra* **başçılıq edirdi. Dövlətin qurulmasında və orduda əsas rolu Azərbaycan qızılbaşları oynadığından bu vəzifə də Azərbaycan türklərinin inhisarında idi. Mülki işlərə, əsasən, maliyyə məslələrinə** *vəzir***başçılıq edirdi. Dövlət xəzinəsinə nəzarət də onun əlində idi. Vəqf işləri və onun əmlakının idarə edilməsinə** *sədr* **nəzarət edirdi.** ***Teokratik hakimiyyət*** **- dini qanunlara əsaslanan idarəetmə formasıdır.**

**Səfəvilər dövründə Azərbaycan ərazisi bəylərbəyliklərə bölünürdü. İlk vaxtlar Azərbaycanda iki bəylərbəylik (Qarabağ və Azərbaycanın cənubunu əhatə edən Təbriz bəylərbəyliyi) yaradılsa da, Şirvanşahlar dövlətinin süqutundan sonra Şirvan bəylərbəyliyi də təsis edildi. Bəylərbəylikləri, adətən, şah sarayına yaxın olan şəxslərdən təyin edilən bəylərbəyilər idarə edirdi. Onlar əhalidən toplanan vergiləri mərkəzi xəzinəyə göndərir, müəyyən miqdarda qoşun saxlayırdılar. Bəylərbəyilər şahın əmri ilə bu qoşunların başında yürüşlərdə iştirak etməyə**

**borclu idilər. Bəylərbəyliklər mahallara, mahallar isə kəndlərə bölünürdü. Mahalları naiblər, kəndləri *kəndxudalar*, şəhərləri *kələntərlər* idarə edirdi. Şəhərlərdə asayişi kələntərə tabe olan *darğa*qoruyurdu. Səfəvilərin ordu sistemi də Qaraqoyunlu və Ağqoyunlu dövlətlərindəki ənənələrə əsaslanırdı. Ordunun əsasını Azərbaycan tayfalarından yığılan qızılbaş qoşunu - *çərik* təşkil edirdi. Orduya ümumi rəhbərlik əmir ül-üməranın səlahiyyətində idi. Şahın qızılbaşlardan ibarət xüsusi mühafizə dəstəsinə isə *qorçubaşı* rəhbərlik edirdi.**




**Şah I Təhmasibin ölümündən sonra oğulları Heydər Mirzə ilə İsmayıl arasında hakimiyyət uğrunda başlanan çəkişmələr mərkəzi hakimiyyətin zəifləməsinə səbəb oldu. I Təhmasibin dövründə yaradılan sabitlik səriştəsiz rəhbərlik ucbatından pozuldu. Osmanlıların da Səfəvilərə qarşı müharibəyə başlaması dövləti böyük təhlükə qarşısında qoydu. Taxt-tac qovğası dövləti zəiflədir. Ustaclıların müdafiə etdiyi Heydər Mirzə Qəzvində İsmayılın tərəfdarları tərəfindən öldürüldü. Hələ atasının sağlığında ömrünün 20 ilini məhbəsdə keçirən**

**İsmayıl azad edildi və şah elan olundu. II İsmayılın dövləti gücləndirmək üçün əl atdığı kütləvi cəza tədbirləri qızılbaş əyanlarını narazı saldığından şah sui-qəsd nəticəsində öldürüldü. 1578-ci ildə hakimiyyətə qızılbaş əmirlərinin müdafiə etdiyi Məhəmməd Xudabəndə gəldi. Onun hakimiyyəti dövründə (1578- 1587) xəzinə boşaldı, mərkəzi hakimiyyət daha da zəiflədi, qızılbaş əmirlərinin müstəqillik meyilləri gücləndi. Üstəlik, şahın vəkili olan arvadı Məhdi Ülyanın Şiraz əyanı Mirzə Salmanın təsiri ilə hakim vəzifələrə "tacikləri" (farsları) gətirməsi qızılbaş əyanlarının narazılığına səbəb olmuşdu.**

**Yaranmış əlverişli şəraitdən Osmanlı sultanı III Murad istifadə etmək qərarına gəldi. Osmanlı hərbi qüvvələrinin Van hakimi Xosrov paşanın təhriki ilə qiyam qaldıran kürdlərlə birlikdə Xoya hücum etməsi Amasiya sülhünün pozulması demək idi. Bu hadisə ilə Səfəvi-Osmanlı müharibələrinin ikinci mərhələsi (1578-1590) başlandı. Mustafa Lələ paşanın başçılığı ilə 100 minlik Osmanlı qoşunu Gürcüstan istiqamətinə göndərildi. Səfəvi və Osmanlı qoşunları Çıldır gölü yaxınlığında üz-üzə gəldi. Sayca üstünlükləri və qızılbaş əmirlərinin arasında birliyin olmaması bu döyüşdə osmanlıların qələbə çalmasına səbəb oldu. Nəticədə, Şərqi Gürcüstan itirildi, osmanlı qüvvələri Şirvana daxil oldular. Şirvanda baş verən qiyam osmanlıların işini daha da asanlaşdırdı. Qısa müddətdə Kürdən şimalda yerləşən Azərbaycan torpaqları osmanlıların hakimiyyəti altına keçdi. Osmanlı sultanının tələbi ilə Krım xanları da şimaldan Şirvana daxil oldular. Lakin Krım xanı Adil Gərayın qoşunları 1578-ci ilin noyabrında Ağsu çayı yaxınlğındakı Mollahəsən adlı yerdə məğlub edildi, özü isə əsir düşdü. Dərbənddən başqa bütün Şirvan torpaqları azad edildi. Bu, Səfəvi qoşunlarının böyük uğuru oldu.**

**Səfəvilər 1583-cü ildə Niyazabad döyüşündə qalib gəlsələr də, qızılbaş əyanları arasındakı çəkişmələr, mərkəzi hakimiyyətin zəifliyi, xəzinənin boşalması Səfəvilərə müharibədə uğur qazanmağa imkan vermirdi. XVI əsrin 80-ci illərində baş verən hərbi əməliyyatlar nəticəsində Çuxursəəd vilayəti də itirildi. 1585-ci ildə Osmanlı qoşunları Sufiyan döyüşündə Səfəvi şahzadəsi Həmzə Mirzənin**

**qoşunlarına qalib gələrək Təbrizə hücüm etdilər. Şəhər əhalisinin şiddətli müqaviməti Osmanlı paşasını qəzəbləndirdiyindən o, Təbriz tutulduqdan sonra yeniçərilərə şəhəri talan etmək əmri verdi. Təbriz şəhəri viran edildi, məhşur "Qeysəriyyə" bazarı yandırıldı. Lakin bir qədər sonra Həmzə Mirzə Təbrizi azad edə bildi. Müharibəni davam etdirmək Səfəvilər üçün çətin idi. 1586-cı ildə Həmzə Mirzə osmanlılarla sülh danışıqlarına başladı. Lakin onun sui-qəsd nəticəsində öldürülməsi ilə vəziyyət daha da pisləşdi. Sülh danışıqları dayandırıldı. Hərbi əməliyyatlara başlayan Osmanlı qoşunları, demək olar ki, bütün Azərbaycanı ələ keçirdilər.**

**Özbək hakimləri yaranmış vəziyyətdən istifadə edərək Xorasanı tutdular. Qızılbaş əmirləri zəif xarakterli Şah Məhəmməd Xudabəndədən üz çevirdilər. O, taxtdan uzaqlaşdırıldı. Oğlu Abbas Mirzə şah elan edildi. Şah I Abbas osmanlılarla müharibənin daha da fəlakətli nəticələr verəcəyini anladığından dövlətin varlığını qorumaq və vaxt qazanmaq üçün sülhə razılaşdı. 1590-cı ildə imzalanan İstanbul sülhünə görə, Qaradağ, Ərdəbil, Xalxal və Lənkəran əraziləri istisna olmaqla, Azərbaycan, Şərqi Gürcüstan, həmçinin İranın bəzi qərb torpaqları Osmanlılara verildi.**

## SƏFƏVİLƏR DÖVLƏTİ ŞAH I ABBASIN HAKİMİYYƏTİ İLLƏRİNDƏ

**16 yaşında hakimiyyətə gələn Şah I Abbasa boş xəzinə, çökməkdə olan dövlət aparatı, ərazilərinin xeyli hissəsini itirmiş dövlət, intizamsız ordu və müharibələrdən dağıdılmış təsərrüfat miras qalmışdı. Hər şey çox ümidsiz görünsə də, gənc hökmdar iradəsi və qətiyyəti hesabına dövləti yenidən dirçəltməyə başladı.**

**Güclü hökmdar - güclü dövlət. İstanbul sülhünün şərtləri Səfəvilər üçün ağır olsa da, bu, Şah I Abbasa ölkə daxilində baş verən qiyamları yatırmaq, dağılmış təsərrüfatı bərpa etmək və mərkəzi hakimiyyəti möhkəmləndirmək imkanı verdi. Bundan əlavə, Səfəvilər dövləti eyni vaxtda iki dövlətlə (Osmanlı və Şeybanilər)**

**müharibə aparmağın çətinliyindən də xilas oldu. Yeni şah yaranmış fürsətdən səmərəli istifadə etməyə başladı.**

**İnzibati islahat. Azərbaycan torpaqlarını Səfəvi dövlətinin tərkibinə qaytarmaq fikrindən əl çəkmədiyini nümayiş etdirən Şah I Abbas 1593-cü ildə mərkəzi Ərdəbil olan Azərbaycan bəylərbəyliyi yaratdı. İstanbul sülhünə görə, Səfəvilərdə qalan Azərbaycan mülkləri bu bəylərbəyliyə daxil edilmişdi. Yeni inzibati vahidin ilk hakimi Zülfüqar bəy Qaramanlı təyin olundu. 1598-ci ildə isə paytaxt qiyam və çıxışlardan uzaq olan İsfahana köçürüldü. Bu addım Səfəvi sarayında İran elementlərinin güclənməsinə şərait yaratdı. Şah paytaxtın köçürülməsindən narazı qalan Qəzvin əhalisinin könlünü almaq məqsədilə İsfahanda türklərdən ibarət "Abbasabad" adlı xüsusi məhəllə saldırdı.**

**Hərbi islahat. İtirilmiş əraziləri geri qaytarmaq üçün, ilk növbədə, ordu gücləndirilməli idi. Bu məqsədlə Şah I Abbas ordu quruculuğuna başladı. 1578-1590-cı illər Səfəvi - Osmanlı müharibəsi zamanı məğlubiyyətlərə gətirib çıxaran tayfa çəkişmələrinə son qoymaq məqsədilə tayfa başçılığında irsilik prinsipi ləğv edildi. İndi bu vəzifəni yalnız şahın rəğbətini qazanmış şəxslər tuta bilərdi. Bununla da hərbi birləşmələrin formalaşmasında qohumluq prinsipi əsaslı şəkildə sarsıdıldı. Qoşun tayfa müxtəlifliyi prinsipi əsasında təşkil edildi. Qızılbaşlara təkbaşına silah gəzdirmək qadağan olundu. Şah I Abbasın dövründə Səfəvi ordusu, əsasən, iki hissədən ibarət idi: daimi qoşunlardan ibarət nizami hərbi hissələr və müharibələr zamanı vilayətlərdən toplanan ənənəvi qızılbaş qoşunu. Yeni yaradılan və birbaşa şaha tabe olan daimi qoşunlar bunlar idi:**

***Qulamlar* yeniçəri nümunəsində yaradılan qoşun növü idi. Qeyri-müsəlman əhalidən uşaq yaşlarında yığılan və şaha sədaqət ruhunda tərbiyə edilən qulamlar şah ordusunun əsas zərbə gücünü təşkil edirdi.*Tüfəngçilər* əhalinin aşağı təbəqəsindən toplanan və sayı 12 min nəfər olan piyada qoşun növü idi. *Topçular* hərbi birləşməsində 500 topdan ibarət əsas odlu silah ehtiyatı cəmləşmişdi. Toplardan döyüşlərdə, xüsusilə qalaların alınmasında istifadə olunurdu.**

**Sayca çoxluq təşkil edən və əsasən, Azərbaycan tayfalarından toplanan süvari qızılbaş qoşunu yenə də Səfəvilərin əsas hərbi gücünü təşkil edirdi. Şah I Abbasın hərbi islahatları nəticəsində Səfəvilərin hərbi qüdrəti bərpa edildi, ordu daha da gücləndirildi. Şah I Abbasın hərbi islahatları həm də qızılbaş əmirlərinin özbaşınalıqlarının qarşısını almağa, ordu intizamını möhkəmləndirməyə yönəlmişdi. Buna baxmayaraq, islahatlardan sonra da Səfəvi ordusunda, eyni zamanda dövlət idarəçiliyində aparıcı mövqelər qızılbaşlara məxsus olaraq qalırdı. Osmanlı hakimiyyəti altında olan Azərbaycan əraziləri. Osmanlılar işğal etdikləri Azərbaycan torpaqlarında hərbi-inzibati idarə üsulu yaratmışdılar. Ölkə vilayət və bəylərbəyliklərə, onlar isə öz növbəsində sancaqlara bölünürdü. Əhali və torpaqlar siyahıya alınmış, yeni vergilər və mükəlləfiyyətlər tətbiq edilməyə başlanılmışdı. Ərazilər üzrə xüsusi vergi dəftərləri tərtib olunmuşdu. Ənənəvi ticarət əlaqələrinin kəsilməsi, dağıdıcı müharibələr Azərbaycan xalqının güzəranına mənfi təsir etdiyindən əhali çox zaman bu vergiləri ödəyə bilmirdi.**

**Osmanlı hakimiyyəti altında yaşamaq istəməyən əhalinin xeyli hissəsi ölkədən köçmüş, yaşayış məntəqələri boşalmışdı. İqtisadi vəziyyətin ağırlığı, osmanlıların vergi siyasəti bir sıra yerlərdə üsyanlara səbəb olmuşdu. Osmanlı ərazisində yayılan Cəlalilər hərəkatı Azərbaycana da sirayət etmişdi. Bu hərəkatın ölkəmizdəki nümayəndəsi xalq qəhrəmanı Koroğlu idi. XVII əsrin əvvəllərində Osmanlılara qarşı müharibəyə başlayan I Abbas Cəlalilər hərəkatından da istifadə etmişdi.**

**Xarici siyasət. Şah I Abbasın dövründə Səfəvilər dövlətinin xarici siyasəti üç əsas istiqamət üzərində qurulmuşdu:**

1. **Osmanlı işğalı altında olan Azərbaycan torpaqlarını azad etmək;**
2. **Xorasanı Şeybanilərdən geri almaq;**
3. **Hörmüzü portuqallardan təmizləmək.**

**İlk zərbə Şeybanilərə vuruldu və Xorasan azad edildi. Osmanlılara qarşı hərbi əməliyyatlara başlamamışdan əvvəl I Abbas da sələfləri kimi Avropa dövlətləri ilə geniş diplomatik əlaqələr qurmuşdu. Almaniya və İspaniya dövlətləri, Moskva knyazlığı öz elçilərini Səfəvi sarayına göndərərək şahı Osmanlılarla müharibəyə təhrik edirdilər. Hətta İspan kralı II Filip bunun müqabilində İran körfəzində portuqallarla mübarizədə Səfəvilərə yardım edəcəyini də vəd etmişdi. İngiltərə ilə də əlaqələr qurulmuşdu. Məhz ingilis donanmasının yardımı ilə Şah I Abbas 1622-ci ildə portuqalları Hörmüzdən və körfəzdən çıxara bildi. Şah Abbasın dövründə Böyük Moğol dövləti ilə də dostluq münasibətləri saxlanılırdı.**

**Səfəvi-Osmanlı müharibəsinin növbəti mərhələsi. XVII əsrin əvvəllərində Osmanlı dövlətini bürümüş üsyanları, yaranmış siyasi vəziyyəti əlverişli hesab edən Şah I Abbas Osmanlılarla müharibəyə başladı. 1603-cü ildə başlanan hərbi əməliyyatlar Səfəvilər üçün uğurla nəticələndi. Əvvəlcə Təbriz, sonra isə Ordubad və Naxçıvan geri alındı. Ordubad əhalisi şəhərin alınmasında yaxından iştirak etdiyi üçün şah onları vergilərdən azad etdi. 1604-cü ildə İrəvan qalasındakı Osmanlı qarnizonu da təslim oldu, az sonra bütün Çuxursəəd vilayətində Səfəvi hakimiyyəti bərpa edildi. Şah I Abbas əsir alınan osmanlı əsgərlərini azad edərək Qarsa getmələrinə icazə verdi. 1606-1607- ci illərdə baş verən hərbi əməliyyatlar nəticəsində Qarabağ və Şirvan əraziləri də osmanlılardan təmizləndi. 100 minlik Osmanlı ordusunun hücum xəbərini alan I Abbas onlara qarşı ənənəvi "yandırılmış torpaq" takitikasını tətbiq etdi. Osmanlı sərhədlərinə yaxın bölgələrdə ərzaq ehtiyatının məhv edilməsi ilə kifayətlənməyən Səfəvi şahı burada yaşayan əhalini də dövlətin içərilərinə köçürdü. Bu siyasət tarixdə "böyük sürgün" adı ilə məşhurdur. Osmanlı qoşunları bir neçə dəfə Azərbaycana daxil olsa da, uğur qazana bilməyib geri dönməyə məcbur oldu. Nəhayət, 1612-ci ildə iki dövlət arasında Sərab (II İstanbul) sülhü imzalandı. Razılaşmaya görə, 1555-ci il Amasiya sülhünün şərtləri bərpa olundu. Rusların tikdirdiyi Terek qalasının dağıdılması barədə sultan fərmanı verilərdisə, osmanlılar şahın bu işə mane olmamasını da müqavilə şərtlərinə daxil etdilər. Lakin bu sülh tezliklə pozuldu.**

**Şah I Abbasın Şərqi Gürcüstana yürüşlərindən narahat olan Osmanlılar yenidən hərbi əməliyyatlara başladılar**

**Həlledici döyüş 1618-ci ildə Sərab yaxınlığındakı Sınıq körpü adlı yerdə baş verdi. Osmanlı qoşunu məğlub olub geri çəkildi. Elə həmin il bağlanmış Mərənd müqaviləsinə görə, Sərab sülhünün şərtləri bərpa edildi. Beləliklə, Səfəvi hökmdarı Azərbaycan torpaqlarının və azad edilən digər Səfəvi ərazilərinin azad edilməsinin Osmanlılar tərəfindən tanınmasına nail oldu. Şah I Abbas bu sülhə 1622-ci ilə qədər sadiq qalmış, Osmanlı sultanı II Osman ilə dostluq münasibətlərini qoruyub saxlamışdı. Lakin II Osmanın öldürülməsi və Bağdadı idarə edən osmanlı hakiminin Səfəvilərə müraciət etməsi vəziyyəti dəyişdi. 1622-1623-cü illərdə Səfəvi qoşunları Bağdad, Kərbəla, Nəcəf, Mosul və Kərkük şəhərlərini ələ keçirdi. Osmanlılarla müharibə yenidən başlandı. I Abbas vəfat edərkən (1629) bütün Azərbaycan, Şərqi Gürcüstan, Bağdad da daxil olmaqla Ərəb İraqı Səfəvi dövlətinin hakimiyyəti altında birləşdirildi. Qüdrətli Səfəvi şahı bütün mümkün vasitələrdən istifadə edərək hökmdarı olduğu dövlətin nüfüzunu artırdı, ərazisini genişləndirməyə nail oldu.**

**Müharibə yekunlaşır. Şah I Abbasın ölümündən sonra hakimiyyətə gələn nəvəsi Şah Səfi bu uğurları qoruya bilmədi. XVII əsrin 30-cu illərində Osmanlılar Bağdadı geri ala bildilər. Tərəflər arasında danışıqlar 1639-cu ildə Qəsri-Şirin sülhü ilə yekunlaşdı. Sülhün şərtlərinə görə, Səfəvilər Bağdad da daxil olmaqla Ərəb İraqını Osmanlı dövlətinə qaytardı, Zəncir qalasından şərqdə yerləşən ərazilər isə Səfəvilərə verildi. Osmanlılar Səfəvilərdən Van, Qars və Axalsıx qalalarına hücum etməyəcəklərinə dair təminat da aldılar.**

**Beləliklə, fasilələrlə yüz ildən artıq davam edən Səfəvi-Osmanlı müharibələri dayandı. Böyük dağıntılara və insan təlafatına səbəb olan amansız müharibələr hər iki türk-müsəlman dövlətini zəiflətdi. Yaxın və Orta Şərqdə Avropa dövlətlərinin nüfuzu artmağa başladı. Hərbi əməliyyatlar, əsasən, Azərbaycan ərazilərində aparıldığından bu müharibələrdən daha çox zərər görən də ölkəmizin əhalisi olmuşdur.**

## Səfəvilər dövləti XVII əsrdə. İctimai-iqtisadi həyat və idarəetmə

**Qəsri - Şirin sülhü o vaxta qədər bağlanmış Səfəvi-Osmanlı müqavilələrindən fərqli olaraq iki dövlət arasındakı münasibətlərdə uzun müddətli sabitliyi təmin edə bildi. Yaranmış sabitlik Azərbaycanın sosial-iqtisadi həyatında müəyyən canlanmaya səbəb oldu. Müharibələr zamanı qonşu ərazilərə səpələnməyə məcbur olmuş əhali tədricən öz yerlərinə qayıdır, iqtisadi əlaqələr bərpa olunur, ölkənin təsərrüfat həyatı dirçəlirdi. Xarici iqtisadi əlaqələrin bərpa edilməsi sənətkarlıq və ticarətin inkşafına müsbət təsir göstərir, bu isə öz növbəsində şəhər həyatının canlanmasına səbəb olurdu. Təbriz şəhəri müharibələr nəticəsində dağıntılara məruz qalsa da, XVII əsrdə siyasi və iqtisadi mövqeyinə görə imperiyanın ikinci şəhəri hesab olunurdu. Təbriz hakimləri bu əsrin sonlarına qədər Səfəvi ordusunun baş komandanı vəzifəsini də icra edirdilər. Təbriz həm də sənətkarlıq və ticarət mərkəzi kimi şöhrət tapmışdı. Yaxın və Orta Şərqin ən iri bazarı - Qeysəriyyə bərpa edilmişdi. Beynəlxalq ticarət yollarının kəsişdiyi Təbriz şərq və qərb tacirləri üçün əlverişli məntəqə idi.**

**XVII əsrdə Azərbaycan inzibati cəhətdən dörd bəylərbəyliyə bölünürdü: Qarabağ (mərkəzi Gəncə), Şirvan (mərkəzi Şamaxı), Çuxursəd (mərkəzi İrəvan) və Cənubi Azərbaycan torpaqlarını əhatə edən Təbriz bəylərbəylikləri. Bəylərbəyliyə daxil olan mahalları *qolbəyi* idarə edirdi. Daha kiçik inzibati vahidlərin idarəçiləri *sultan titulu* daşıyırdılar. Onlar qolbəyilərə tabe idilər. Ali hərbi-inzibati mövqe tutan şəxslər *xan* adlandırılırdı.**

**Səfəvi-Osmanlı müharibələri dövründə bəylərbəyilər hərbi və idarəetmə qabiliyyətləri ilə seçilən, şah sarayına yaxın adlı-sanlı qızılbaş əmirlərindən təyin olunurdu. Lakin hərbi zərurətin aradan qalxdığı sabitlik dövründə bu vəzifəyə bəzən səriştəsiz adamların gətirilməsi yerlərdə ədalətsizlik və rüşvətxorluq hallarına yol açırdı. İdarəçilikdə irsilik prinsipinin də mövcudluğu məmur bürokratiyasının güclənməsinə şərait yaradırdı. Onlar xəzinə gəlirlərinin müəyyən**

**qismini mənimsəyir, müxtəlif üsullarla dövlətdə mövqelərini gücləndirməyə nail olurdular. Bəylərbəyliklərdə maliyyə işlərini mərkəzi hakimiyyət tərəfindən təyin edilən *vəzirlər* yerinə yetirirdilər. Vəzirlər bəylərbəyinin rəhbərliyi altında fəaliyyət göstərsələr də, yalnız mərkəzi divana hesabat verirdilər.**

**Qafqaz uğrunda mübarizəyə qoşulan üçüncü ölkə.**

**XVI əsrdə Kazan və Həştərxan xanlıqlarını işğal edən Moskva çarlığı Xəzər dənizinə də birbaşa çıxış imkanı qazanmışdı. Bu işğallardan sonra Şimali Qafqazda rusların siyasi təsiri güclənməyə başladı. Qafqazın içərilərinə doğru irəliləməyə can atan ruslar XVII əsrin ortalarında Səfəvi sərhədləri yaxınlığında qalalar inşa etməyə başladılar. Bu qalalar hərbi dayaq məntəqələri olub Moskva çarlarının strateji maraqlarına xidmət etməli idi.**

**II Abbasın ölümündən sonra hakimiyyətə gələn Şah Süleyman (1666-1694) Rusiya dövləti ilə müqavilə imzaladı. 1667-ci ildə imzalanan bu müqavilədə rus tacirlərinə geniş imtiyazlar verilirdi: onlar səfəvi sülaləsinin hakimiyyəti dövründə Səfəvi dövləti ərazisində gömrüksüz ticarət hüququ və digər imtiyazlar əldə etdilər. Şah Süleymanın fərmanı ilə yerli hakimlərdən rus tacirlərinə xüsusi ehtiramla yanaşmaq tələb olunurdu.**

**Volqa-Xəzər ticarət yolunun canlanması buraya quldur basqınlarının başlanmasına şərait yaratdı. Bu sahədə rus kazakları xüsusi ‘‘fəallıq” göstərirdi. Onların ən böyük qarətçi basqını Stepan Razinin adı ilə bağlıdır. 1668-ci ilin yayında öz gəmiləri ilə Xəzərə enən Razin öz quldur dəstəsi ilə Dərbənddən Gilana qədər sahilboyu yaşayış məntəqələrini qarət etmiş, böyük qənimətlərlə geri dönmüşdü. Rus çarları qətiyyətlə belə yürüşlərin qarşısını almağa çalışırdılar. Ələ keçirilən Razin də sərt cəzalandırılmışdı.**

**Şah II Abbasın və onun oğlu Şah Süleymanın dövründə Səfəvi şahları qonşu dövlətlərlə sülh şəraitində yaşamağa üstünlük verir, münaqişələrdən qaçmağa və ticarət əlaqələrinin genişləndirilməsinə çalışırdılar. Onlar Səfəviləri Osmanlı dövləti ilə yeni müharibəyə çəkməyə çalışan Avropa və rus elçilərini dəfələrlə öz qəti cavabları ilə məyus etmişdilər.**

**İqtisadi tənəzzül və ya sonun başlanğıcı. XVII əsrin sonlarına doğru Səfəvilər dövləti ağır iqtisadi böhranla üz-üzə qalmışdı. İqtisadi həyatın bütün sahələrini əhatə edən böhranın iqtisadi və siyasi səbəbləri vardı.**

**İqtisadi səbəblər:**

1. **İpək yolunun əhəmiyyətini itirməsi və ənənəvi ticarət əlaqələrinin zəifləməsi;**
2. **Dövlətin əsas gəlir mənbələrindən olan ipək ixracatının aşağı düşməsi;**
3. **Xarici ticarətin zəifləməsi nəticəsində ölkədə yaranan pul qıtlığı, qəlp pulların dövriyyəyə yol tapması;**
4. **Süni suvarma şəbəkələrinin sıradan çıxması və əkin sahələrinin azalması.**

**Siyasi səbəblər:**

1. **İdarəçilikdə yol verilən səhvlər, dövlət idarəetmə aparatına səriştəsiz şəxslərin yol tapması;**
2. **Məmur özbaşınalıqları, mülki bürokratiyanın rüşvətxorluğu.**

**Şah Sultan Hüseynin dövləti böhrandan çıxarmaq cəhdləri. XVII əsrin sonlarında hakimiyyətə gələn şah Sultan Hüseyn (1694−1722) ölkəni düşdüyü böhrandan qurtarmaq üçün bir sıra uğursuz addımlar atdı. Əvvəlcə pul böhranını aradan qaldırmağa cəhd edən şah Ərdəbildə ata-babalarının qəbri üstündəki qızıl, gümüş əşyaları əridib pul zərb etdirdi. Amma bu tədbir səmərə vermədi. Ölkədə maliyyə böhranı getdikcə dərinləşdi, dövlətin gəlirləri azaldı, xəzinə boşaldı. Vaxtının çoxunu eyş-işrətdə keçirən şah bu dəfə xəzinəni doldurmaq üçün vergiləri artırmaq qərarına gəldi. Bu məqsədlə 1699-1702-ci illərdə əhali və əhalinin əmlakı siyahıya alındı. Yeni vergilər tətbiq edilməyə başlandı. Əvvəlkilərdən üç dəfə artıq olan vergilər əhalinin güzəranını daha da çətinləşdirdi. Üstəlik, XVIII əsrin əvvəllərində Azərbaycanı bürüyən quraqlıq dəhşətli aclığa səbəb oldu. Mərkəzi hakimiyyətin zəifləməsi yığılan vergilərin xeyli hissəsinin məmurlar tərəfindən mənimsənilməsinə şərait yaratdı.**

**Torpaq mülkiyyəti formaları**

**XI əsrdə Mərkəzi Asiyadan Aralıq dənizinə, Dərbənddən İran körfəzinədək geniş əraziləri əhatə edən Səlcuq imperiyası dövründə islam idarəetmə ənənələri türk dövlətçilik elementləri ilə zənginləşdirildi. Geniş ərazili imperiyanı əldə saxlamaq üçün səlcuq hökmdarları iqta paylanılmasını daha da genişləndirdilər. Bir qayda olaraq, xidmət müqabilində hərbçilərə verilən bu torpaq mülkiyyəti, xüsusilə, Məlikşahın hakimiyyəti illərində daha çox paylanılmış, aparıcı torpaq mülkiyyətinə çevrilmişdi. İqta torpaq mülkiyyət forması Azərbaycan Atabəylər dövləti və Hülakülər səltənətinin hakimiyyəti illərində də geniş yayılmışdı. Səlcuq imperiyası dövründə *"uc torpaqları"* adlanan torpaq mülkiyyət forması da meydana gəldi. Xüsusiyyətlərinə görə iqtanı xatırladan bu torpaqlar imperiyanın ucqar sərhədlərini qoruyan əmirlərə verilir və irsən keçmirdi.**

**XIII əsrdə Azərbaycanı mərkəz seçən Hülakülər səltənətinin hakimiyyəti illərində mövcud torpaq mülkiyyəti formalarına yeniləri də əlavə olundu. Monqol yürüşləri zamanı əhalinin qırğınlara məruz qalması, həmçinin qonşu ərazilərə köç etməsi nəticəsində əkinə yararlı böyük torpaq sahələri sahibsiz qalmışdı. İstifadəsiz qalan bu torpaqlar bayrat adlandırılırdı. Elxani Qazan xanın islahatları nəticəsində onların xeyli hissəsi siyahıya alınaraq əhaliyə paylanıldı. Elxanilər dövründə incu adlandırılan torpaqlar isə xan və xan ailəsinə məxsus idi.**

**XIII−XIV əsrlərdə torpaq mülkiyyəti formalarında başqa dəyişikliklər olmamışdı. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin hakimiyyəti illərində geniş yayılan torpaq sahibliyi formalarından biri** ***soyurqal*** **(monqolca - ehsan, bəxşiş mənasını verir) idi. Qaraqoyunluların hakimiyyəti dövründən başlayan iqta əvəzinə soyurqal paylanılması ənənəsini Ağqoyunlular daha da genişləndirmişdilər. Dövlətə xidmət müqabilində verilən bu torpaqlar iqtadan fərqli olaraq, irsən keçir, sahibi isə dövlətə vergilərdən azad edilirdi. Soyurqal paylanılması siyasəti hər iki türk dövlətini zəiflətmiş, mərkəzləşdirmə prosesini ləngitmişdi. XVI əsrdə hakimiyyətə gələn Səfəvi hökmdarları soyurqalın mənfi fəsadlarını düzgün qiymətləndirmişdilər. Səfəvilər dövründə soyurqal məhdud şəkildə məşhur seyidlərə, dərvişlərə, elm xadimlərinə və s. verilirdi. Əvəzində Səfəvi şahları** ***tiyul*** **paylanılmasına üstünlük verdilər. Tiyul dövlətə xidmət**

müqabilində verilir, irsən keçmirdi. Tiyul sahibi *tiyuldar* adlanırdı. Onlar yığılan vergilərin bir qismini özünə götürür, əsas hissəsini isə dövlət xəzinəsinə verirdilər. Tiyul istisna hallarda və yalnız şahın razılığı ilə irsən keçə bilərdi. XVII əsrdə Səfəvilər dövlətində aparıcı torpaqlar *divani* və *xassə* idi. Divanidən gələn gəlirlər bütünlüklə dövlət xərclərinin ödənilməsinə sərf edilir, şaha məxsus xassə gəlirləri isə ya xəzinəyə göndərilir, ya da şahın razılığı ilə konkret məsələlərin həllinə yönəldilirdi.

Vergilər

Səlcuq imperiyası dövründə əvvəlki vergilərə yeniləri də əlavə olunmuşdu. Bunlardan biri *üşr* (onda bir) idi. Xərac ilə yanaşı yığılan bu vergi xass torpaqlarından və iqta sahiblərindən alınırdı. *Alaf* (ərəbcə ulufə sözündən olub *"qida", "yem"* mənasında işlədilib) qarovulda duran dəstəni və ya rəsmi şəxsi təmin etmək üçün alınırdı. Əhalidən toplanan *silah bahası, nal bahası* adlı vergilər ordunun ehtiyaclarına sərf olunurdu. Hülakülərin hakimiyyəti zamanı sənətkarlardan *tamğa*, tacirlərdən isə *bac* adlanan vergi yığılırdı. Monqol işğalı dövründə tətbiq edilən vergilərdən biri də *qopçur* idi. İlk monqol işğalı dövründə köçəri maldarlardan alınan bu vergi sonralar oturaq əhalinin ödədiyi can vergisinə çevrildi. Qazan xanın dini islahatından sonra bu vergi tədricən aradan qalxdı. Qazan xan həmçinin vergi islahatı keçirməklə bu sahədə məmur özbaşınalıqlarının və rəiyyətdən qanunsuz vergilərin yığılmasının qarşısını almağa nail oldu.

Səlcuq və Hülakülər dövlətlərinin tətbiq etdiyi vergilərin əksəriyyəti dövlət idarəçilik sistemini onlardan əxz etmiş Qaraqoyunlu və Ağqoyunlu sülalələrinin hakimiyyəti dövründə də qüvvədə qaldı. Vergi işləri Ağqoyunlu Həsən padşahın tərtib etdiyi "Qanunnamə" ilə nizama salınmışdı.

Ağqoyunluların hakimiyyəti dövründə əhalidən *malcəhət, bəhrə* və çobanbəyi adlandırılan vergilər də yığılırdı. Malcəhət əldə edilən məhsuldan, bəhrə isə suvarma suyundan istifadəyə görə alınan gəlir vergisi idi. Çobanbəyi vergisi isə otlaqlardan istifadəyə görə köçəri maldarlıqla məşğul olan elatlardan alınırdı. Uzun Həsənin "Qanunnamə"si "Həsən padşahın qanunları" adı ilə Səfəvilərin XVI

əsr hakimiyyəti dövründə də qüvvədə olmuşdur. XV əsrin sonlarında hakimiyyətə gələn Ağqoyunlu hökmdarı Gödək Əhməd vergi islahatı keçirməyə cəhd göstərmişdi. O, 1474-cü ildə atasına qarşı çıxıb II Mehmetə sığınan və onun qızı ilə evlənən Uğurlu Məhəmmədin oğlu idi. Osmanlı dövlətçilik təcrübəsinə uyğun idarəetmə qurmağa çalışan Gödək Əhməd şəriətdə olmayan 20-dən artıq vergini və bəzi mükəlləfiyyətləri ləğv etməklə bağlı fərman vermişdi. Lakin onun vergiləri ləğv etmək və soyurqalı da məhdudlaşdırmaq siyasəti uğursuzluqla nəticələnmiş, özü də qiyam nəticəsində öldürülmüşdü.

Padşah Uzun Həsənin tamğa vergisini ləğv etmək istəyini Şah I Təhmasib gerçəkləşdirdi. O, 1565-ci ildə tamğa vergisinin ləğv edilməsi ilə bağlı fərman verdi. Monqollar dövründən qalan bu verginin aradan qaldırılması sənətkarlığın və ticarətin inkişafına şərait yaratdı.

Şah I Abbasın hakimiyyəti illərində də vergi siyasəti diqqət mərkəzində idi. Şah I Abbas bu sahədə özbaşınalıqların qarşısını almış, bəzi şəhərləri vergilərdən azad etmişdi.

Səfəvilər dövlətində növbəti islahat cəhdi Şah Sultan Hüseynin dövrünə aiddir. 1699-1702-ci illərdə əhalinin və əmlakının siyahıya alınması ilə həyata keçirilən islahat gözlənilən nəticəni vermədi. Vergilər artırılsa da, xəzinənin gəlirləri artmadı. Əksinə, şah hakimiyyətinin ağır vergi siyasəti və məmur özbaşınalığı xalq üsyanlarına səbəb oldu.

**Şəhər həyatı. Sənətkarlıq və ticarət**

XI əsrdə Azərbaycanın geniş ərazili Səlcuq imperiyasının tərkibinə daxil olması, vahid pul, ölçü və çəki sistemlərinin tətbiqi şəhər həyatının canlanmasına, sənətkarlıq və ticarətin inkişafına müsbət təsir göstərdi. Şəhərlərin inkişaf xüsusiyyətləri xeyli dərəcədə onların coğrafi mövqeyi ilə bağlı idi. Beynəlxalq ticarət yolları üzərində yerləşən şəhərlər sabitlik dövründə daha sürətlə inkişaf edirdi. Təbriz, Gəncə, Şamaxı, Dərbənd, Naxçıvan və Beyləqan belə şəhərlərdən idi. Yerli xammalın zənginliyi, ənənəvi sənət sahələrinin varislik prinsipi əsasında ötürülməsi şəhər həyatına təsir göstərən iqtisadi amillər sırasında idi. Azərbaycan

**şəhərləri ixtisaslaşma sayəsində qonşu ölkələrdə yaxşı tanınırdılar. Məsələn, Təbriz toxuculuq məmulatları, yun və ipək xalçaları, pərdələri ilə məhşur idi. Gəncə ənənəvi ipəkçiliyi və silah istehsalı, Dərbənd kətanı və pambıq parçaları, Beyləqan və Naxçıvan dulusçuluq məhsulları, Şamaxı isə yüksək keyfiyyətli ipəyi ilə xarici ölkə tacirlərinin diqqətini cəlb edirdi.**

**Metalişləmə, daşişləmə və şəbəkə məmulatları da sənətkarlığın mühüm sahələrindən idi.**

**Siyasi amillər də şəhərlərin inkişafına təsir göstərirdi. Gəncə əvvəlcə Şəddadilərin paytaxtı, sonralar isə Səlcuq canişinliyinin mərkəzi olmuşdu. Klassik feodalizm dövrünün əvvəllərində burada 500 min əhali yaşayırdı. Bizans-erməni-gürcü feodallarının hədəfində olan Gəncə o dövrdə islam dünyası ilə xristian dünyası arasında mühüm strateji qala idi. Buna görə feodal hakimlər və dövlətlər Gəncənin möhkəmləndirilməsinə xüsusi diqqət yetirirdilər. Lakin 1139-cu ildə baş verən dəhşətli zəlzələ, 1235-ci ildə isə monqolların şəhəri dağıtması Gəncənin inkişafına mənfi təsir göstərdi. Gəncə Səfəvilərin dövründə Qarabağ bəylərbəyliyinin mərkəzi olduğu üçün yenidən möhkəmləndirilmiş şəhərə çevrildi.**

**Şamaxı şəhəri Şirvanşahların ənənəvi paytaxtı, Səfəvilər dövründə isə Şirvan bəylərbəyliyinin mərkəzi olmuşdu. Şamaxı ipəyi bütün Avropada məhşur idi. Müharibələr və tez-tez baş verən zəlzələlər Şamaxının inkişafına mənfi təsir göstərdi.**

**Təbriz şəhəri ilk dəfə Rəvvadilərin, sonralar isə Azərbaycanda yaranan dövlətlərin paytaxtı olduğundan hökmdarlar bu şəhərə xüsusi diqqətlə yanaşmış, burada geniş abadlıq işləri aparmışdılar. Ağqoyunlu hökmdarı Həsən padşahın əmri ilə burada Qeysəriyyə bazarı inşa edilmişdi. Bu bazar sonrakı dövrlərdə Yaxın və Orta Şərqin ən iri bazarlarından birinə çevrilmişdi. Lakin Səfəvi-Osmanlı müharibələri, paytaxtın köçürülməsi Təbrizin ictimai-iqtisadi həyatına mənfi təsir göstərdi.**

**Naxçıvan şəhəri Azərbaycan Atabəylər dövlətinin paytaxtı idi. Atabəy Şəmsəddin Eldənizin dövründə çiçəklənən şəhərlərimizdən birinə çevrilmişdi.**

**Səfəvi-Osmanlı müharibələri Naxçıvanın da taleyindən yan keçmədi. Şəhər dəfələrlə dağıdıldı, əhalisi isə I Abbasın hakimiyyəti dövründə ölkənin içərlərinə köçürüldü.**

**Beyləqan şəhəri Bərdənin slavyanlar tərəfindən dağıdılmasından sonra dirçəlməyə başlamışdı. Bir müddət Səlcuq canişinliyinin də mərkəzi olan Beyləqan monqol yürüşləri nəticəsində dağıdıldı və bir daha özünə gələ bilmədi.**

**Dərbənd XV əsrə qədər Azərbaycanın ən iri liman şəhəri, eyni zamanda mühüm strateji qalası idi.**

**Səfəvilərin dini-siyasi mərkəzi olan Ərdəbil şəhəri Səfəvilər dövləti yarandıqdan sonra daha da abadlaşdırıldı.**

**Göründüyü kimi, şəhərlərin inkişafına coğrafi, iqtisadi və siyasi amillər mühüm təsir göstərmişdir.**

**Şəhər həyatında sənətkarlar və tacirlər mühüm rol oynayırdılar. XIII—XIV əsrlərdə sənətkarlar *"əxilik"* (qardaşlıq) adlanan sənətkar birliyi yaradırdılar. Əxilik monqol işğalı dövründə sənətkarların iqtisadi zərurətdən yaranan mənəvi-siyasi birliyi idi. Bu yolla sənətkarlar özlərini əyanların, feodalların təzyiqindən qorumağa çalışırdılar. XVII əsrdə yaradılan sənətkar birlikləri isə *"əsnaf"* adlanırdı.**

***XVII əsrin ikinci yarısında sənətkarlar üç qrupa bölünürdü:***

1. **Sənətkar təşkilatlarında (əsnaflarda) birləşənlər;**
2. **Müstəqil fəaliyyət göstərənlər;**
3. **Feodal emalatxanalarında çalışanlar.**

**3-cü qrupa aid olan sənətkarların güzəranı daha ağır idi. Onlar həm feodala, həm də dövlətə vergilər ödəyirdilər. Şəhərlərdə, adətən, tacirlərə *məlik-üt-tüccar* adlı ən varlı və adlı-sanlı tacir başçılıq edirdi. O, tacirlər arasında sağlam rəqabət mühitinin yaradılmasına nəzarət edir, dövlət vergilərini bölüşdürürdü.**

**Klassik feodalizm dövründə Azərbaycan hökmdarları dövlət xəzinəsinin əsas gəlir mənbələrindən olan ticarətin qayğısına qalır, ticarət əlaqələrini**

genişləndirməyə çalışırdılar. Səlcuq hökmdarı I Məlikşah tacirlər üzərinə qoyulan vergi və rüsumları azaltmış, Hülakü hökmdarı Qazan xan isə ticarət sahəsində islahat keçirmişdi. Ağqoyunlu hökmdarı Uzun Həsən də ticarəti xüsusi diqqət mərkəzində saxlayırdı. O bu məqsədlə Avropa ölkələri ilə diplomatik münasibətləri genişləndirmiş, sənətkar və tacirlər üzərinə qoyulan vergiləri azaltmışdı.

Səfəvi şahları I Təhmasib, I Abbas, II Abbas və Şah Süleyman da ticarətə böyük önəm verirdilər. Onların hakimiyyətləri dövründə Venesiya, Almaniya, İspaniya, İngiltərə, Rusiya və s. Avropa dövlətləri ilə ticarət əlaqələri inkişaf etdirilmiş, eyni zamanda Hindistan, Çin, Misir məmlükləri ilə ticarət əlaqələri gücləndirilmişdi. Şah I Təhmasibin hakimiyyəti dövründə ingilislərin Səfəvi ipəyinin satışıyla bağlı "Moskva" şirkəti ilə müqavilə imzalanmışdı. Lakin rus tacirlərinin maraqlarına cavab vermədiyindən IV İvan ingilislərin "Moskva" şirkətinin fəaliyyətini dayandırmışdı. XVII əsrin ikinci yarısında Böyük İpək yolu əhəmiyyətini itirdikdən sonra Azərbaycanın Avropa ilə ticarət əlaqələri zəifləmiş, yerli məhsulların ixracatı kəskin surətdə aşağı düşmüşdü.

# *Mövzu 6. Quba,Şəki,Qarabağ,Naxçıvan,İrəvan xanlıqları.Car-Balakən camaatlığı*

## Xanlıqların yaranması

XVIII əsrin ortalarından XIX əsrin I rübünün axırlarına qədər olan dövr Azərbaycan tarixinə xanlıqlar - feodal pərakəndəliyi dövrü kimi daxil oldu. Bu dövrdə Azərbaycan ərazisində 20 xanlıq, 6 sultanlıq, 5 məliklik və 1 camaatlıq mövcud olmuşdur. Azərbaycanda bir çox xanlıq və digər feodal qurumlarının meydana çıxması, ölkənin ayrı-ayrı vilayətləri arasında sabit iqtisadi əlaqələrin olmaması, natural təsərrüfatının hökmranlığı, ayrı-ayrı vilayətlərdə müxtəlif pul, çəki və ölçü vahidlərinin tətbiqi, habelə feodalların bu və ya digər ərazi üzərində

**öz hakimiyyətlərini quraraq müstəqilliyə can atmaq cəhdlərinin nəticəsi idi. Xanlıqların yaranmasına yardım edən amillərdən biri də Nadir şahın qətli, varisləri arasında gərgin mübarizənin başlanması və bu mübarizənin gedişində mərkəzi hakimiyyətin zəifləməsi idi.**

**1726-cı ildə Rus hakimiyyət orqanları Rusiyadan asılı olmaq şərtilə Hüseynəli bəyi Quba xanı elan etmişdilər. Nadir şahın ölümündən sonra qubalı Hüseynəli (1726−1758) xan müstəqil siyasət yeritməyə başlamışdır. Quba xanlığının yüksəlişi Fətəli xanın (1758-1789) hakimiyyətə gəlməsi ilə bağlı idi. Fətəli xanın hakimiyyəti dövrünü təhlil edəndə onun fəaliyyətini 3 mühüm sahəyə bölmək olar:**

**1. Vergi islahatı;**

**2. Köçürmə siyasəti;**

**3. Birləşdirmə siyasəti.**

**Vergi islahatı**

**Fətəli xan vergi toplanması işini nizama salmaqla xəzinənin gəlirini artırmağa çalışırdı. Bunun üçün də o, vergi islahatı keçirdi. Əvvəllər vergiləri mahal naibləri toplayırdılar. Bu zaman naiblər yığılan verginin bir qismini mənimsəyirdilər. Verginin birbaşa xəzinəyə daxil olmasını təmin etmək məqsədilə Fətəli xan bu qaydanı ləğv etdi. Artıq vergini kəndxuda toplamalı və şəxsən özü xan xəzinəsinə təhvil verməli idi. Eləcə də kəndlilərin vəziyyətini yaxşılaşdırmaqdan ötrü Fətəli xanın göstərişi ilə bəzi mükəlləfiyyətlər yalnız xan yasavullarının tələbi ilə yerinə yetirilməli idi.**

**Köçürmə siyasəti**

**Fətəli xanın köçürmə siyasətinin özünü də 3 yerə ayırmaq olar; 1. Əhalinin sayını artırmaq: Muğan, Gilan, Ərdəbil və digər yerlərdən Quba xanlığı ərazisini özünə daimi yaşayış yeri seçən kəndliləri, sənətkarları və bəzi feodalları bu əraziyə köçürdülər; 2. Müdafiəni gücləndirmək: Fətəli xan öz sərhədlərini möhkəmləndirmək üçün Muğandan cəngavər şahsevənlərin bir hissəsini xanlığın ərazisinə köçürdü; 3. Özünə dayaq yaratmaq: Şamaxı şəhəri ələ keçirildikdən**

**sonra Fətəli xan burada özünə dayaq yaratmaqdan ötrü öz tərəfdarlarını Dərbənd, Quba və Salyandan Şamaxıya köçürdü.**

**Birləşdirmə siyasəti**

**Fətəli xanın ən önəmli əhəmiyyət daşıyan siyasəti onun yürütdüyü birləşdirmə siyasəti idi. Məlum olduğu kimi, birləşdirmə siyasəti yeridən Quba xanlığına birləşdirilən ilk ərazi 1757-ci ildə - Hüseynəli xanın dövründə tabe edilmiş Salyan xanlığı olmuşdur. Atasının ölümündən sonra taxta çıxan Fətəli xan birləşdirmə siyasətini davam etdirmiş və tez bir zamanda yerli əhalinin köməyi ilə 1759-cu ildə müqavimətsiz Dərbənd xanlığını Quba xanlığına tabe etmişdi. Növbədə Şamaxı xanlığı dururdu.**

**Lakin Fətəli xan qonşu xanlıqlardan kömək alan və digər xanlıqlardan iqtisadi və siyasi cəhətdən nisbətən güclu olan Şamaxı xanlığının ələ keçirilməsini bir qədər təxirə saldı. Şamaxı xanlığını tutmağa hazırlaşan Fətəli xan "nikah diplomatiyası" vasitəsilə Bakı xanlığını özündən asılı vəziyyətə saldı. Bununla da şimal-şərqi Azərbaycan torpaqlarının birləşdirilməsinin birinci mərhələsi başa çatdı.**

**Birləşdirmə siyasətinin ikinci mərhələsi**

**Bu mərhələdə Şamaxı və Cavad xanlıqlarını birləşdirmək uğrunda mübarizə getdi. Şamaxını almaq uğrunda mübarizə çox amansız və qanlı oldu. Şamaxı xanlığı həm iqtisadi, həm də hərbi-strateji cəhətdən Fətəli xanının diqqətini cəlb edirdi. Xanlıq şimal-şərqdə Quba xanlığı ilə, şərqdə Bakı, cənub-qərbdə Qarabağ xanlıqları ilə, cənubda Kür çayı ilə həmsərhəd idi. Əvvəllər Şamaxı xanı onun ərazisini dağıstanlıların hücumlarından qoruduğuna görə hər il Quba xanlığına xərac verirdi. Bir müddət sonra Şamaxı hakimləri Quba xanına xərac verməkdən imtina etdilər və iki xanlıq arasında münasibətlər pisləşdi. Nəticədə, 1765-ci ildən Quba-Şamaxı mübarizəsi başladı. Mübarizənin ilk dövründə şəkili Hüseyn xanın Şamaxı xanına kömək etməsi Fətəli xanın uğur qazanmasına mane olurdu. Yaranmış vəziyyətdən çıxış yolu arayan Fətəli xan Hüseyn xanı öz tərəfinə çəkdi. Beləliklə, Şamaxı xanlığının taleyi həll olundu. Əvvəlcə Şamaxı xanlığı Quba ilə Şəki xanlıqları arasında bölüşdürülsə də, 1768-ci ilin avqustunda Fətəli xan**

Hüseyn xanı məğlub edib Şamaxını tamamilə Quba xanlığına tabe etdi. Şamaxının tutulmasının ardınca Kürlə Araz çaylarının qovuşduğu yerdə yerləşən Cavad xanlığı da şimal-şərqi Azərbaycan dövlətinin tərkibinə daxil edildi. Bu xanlıqlarla yanaşı, 1785-ci ildə Lənkəran (Talış) və Şəki xanlıqları da Quba xanlığından asılılığı qəbul etdi. Fətəli xan yalnız qonşu torpaqları birləşdirməklə kifayətlənmək niyyətində deyildi. Bütün Azərbaycanı, hətta İranın bəzi yerlərini ələ keçirməkdə onun planlarına daxil idi. Bu məqsədini reallaşdırmaq məqsədilə Fətəli xan hətta 1784-cü ilin yayında Cənubi Azərbaycana (bu zaman o, Ərdəbili və Meşkini ələ keçirmişdi) hücum etmişdi. Lakin Azərbaycana dair öz planları olan Rusiya və onun Cənubi Qafqazdakı əlaltısı Kartli-Kaxetiya çarlığı hər vasitə ilə buna mane olurdu.1789-cu ildə Fətəli xan vəfat etdi. Hakimiyyətə gələn oğlanları atasının nailiyyətlərini möhkəmləndirə bilmədilər. Tezliklə asılılıqda olan xanlıqlar Qubanın tabeçiliyindən çıxdılar.




# Şəki xanlığı. Car–Balakən camaatlığı

### Şəki xanlığının yaranması və möhkəmlənməsi

Azərbaycanın şimalında yerləşən Şəki xanlığının əsasını Hacı Çələbi qoymuşdur. Hacı Çələbi hələ Nadir şahın sağlığında üsyan qaldıraraq özünü müstəqil xan elan etsə də, onun əsas fəalliyyəti Nadir şahın qətlindən sonrakı dövrə təsadüf edir. 1747-ci ilin yayında Nadir şahın qətlindən sonra İranda mərkəzi hakimiyyətin zəifləməsi nəticəsində digər Azərbaycan xanlıqları kimi Şəki xanlığı da özünü müstəqil aparmağa başlamışdı. Bu zaman Hacı Çələbi əlverişli vəziyyətdən istifadə edib qonşu əraziləri xanlığa qatmağı qərarlaşdırdı. Hacı Çələbi, ilk növbədə, qonşuluğunda yerləşən Qəbələ və Ərəş sultanlıqlarını özünə tabe etdi. Daha sonra təzəcə müstəqilliyini əldə etmiş Qarabağ xanlığına hücum etdi. Qarabağın bəzi ərazilərini ələ keçirsə də, Pənahəli xan Bayat qalasına

çəkilərək ona ciddi müqavimət göstərdi. Hacı Çələbi öz müttəfiqi Şamaxı xanı ilə bir aydan artıq Bayat qalasını mühasirəyə alsa da, heç bir uğur əldə edə bilmədi. Böyük itkilər verib geri qayıdaraq Pənahəli xanın müstəqilliyini tanıdı.

**Kartli-Kaxetiya çarlığı ilə mübarizə**

**Şəki xanlığının belə aktivlik göstərməsi qonşu xanlıqları, eləcə də Kartli-Kaxetiya çarlığını[1] narahat edirdi. İranda şah hakimiyyəti uğrunda gedən mübarizədən istifadə edən Kartli-Kaxetiya çarları Qazax və Şəmsəddil sultanlıqlarını ələ keçirmiş Car-Balakən camatlığını, Gəncəni, hətta Qarabağı tutmağa çalışırdı. Kartli-Kaxetiya çarlarının 1751-ci ilin fevralında Car torpaqlarına etdiyi hucumunun qarşısı Hacı Çələbi tərəfindən alındı. Belə bir şəraitdə gürcü çarları Hacı Çələbiyə qarşı mübarizədə Azərbaycan xanlarının qüvvələrindən istifadə etməyi düşündülər. Gəncə, Qarabağ, Qaradağ, Naxçıvan və İrəvan xanlıqları 1752-ci ilin martında Kartli-Kaxetiya çarları ilə ittifaq bağlamaq üçün Gəncə yaxınlığında bir araya gəldilər. Lakin bu görüş heç də xanların gözlədiyi kimi nəticələnmədi. Gürcü çarları danışığa gələn Azərbaycan xanlarını əsir alıb özləri ilə Gürcüstana aparmağı qərara aldılar. Bundan xəbər tutan Hacı Çələbi vaxt itirmədən düşməni təqib edərək Qızılqaya adlanan yerdə gürcüləri məğlubiyyətə uğratdı. Hacı Çələbi xan əsirlikdən qurtardığı xanlarla görüşmədən düşməni təqibə davam etdi, nəticədə Borçalı və Qazax mahallarını ələ keçirdi. Həmin mahalların idarəsini oğlu Ağakişiyə tapşırıb Şəkiyə döndü.**

**Xanlığın zəifləməsi**

**Gürcülər üzərində qələbədən ruhlanan Hacı Çələbi diqqətini Şərqə yönəltdi və Ağsunu mühasirəyə aldı. Lakin birləşmiş Quba və Şamaxı xanlıqları tərəfindən məğlub edilib geri çəkildi. 1755-ci ildə Hacı Çələbidən sonra hakimiyyətə oğlu Ağakişi keçdi. Çox keçməmiş Ağakişini qayınatası qazıqumuxlu Məhəmməd xan qətlə yetirdi və hakimiyyətə gəldi. Qırx gündən sonra Quba xanı Fətəli xanın köməyi ilə Hacı Çələbinin nəvəsi Hüseyn xan onu taxtdan saldı və hakimiyyəti ələ aldı. Hüseyn xan hakimiyyətinin ilk dövrlərində Quba xanlığı ilə müttəfiq**

**münasibətləri saxlayırdı. Lakin Şamaxı xanlığı uğrunda mübarizə zamanı bu ittifaq pozuldu və keçmiş müttəfiqlər rəqiblərə çevrildilər. Tezliklə bu mübarizədə məğlub olan Hüseyn xan 1769-cu ildə Fətəli xanla müqavilə bağladı. Bu müqavilə ilə Hüseyn xan Fətəli xana lazım olduqda qoşun verməyi və Şamaxının işlərinə qarışmamağı öhdəsinə götürdü. İyirmi ildən artıq Şəkidə hökmran olmuş Hüseyn xan hakimiyyət uğrunda öz qohumları və əmirləri ilə gərgin mübarizə apardı. 1779-cu ildə sui-qəsd nəticəsində öldürüldü, hakimiyyətə Hacı Çələbinin oğlu Əbdülqadir xan gəldi. Bununla da Şəkidə hakimiyyət uğrunda mübarizə bir qədər də qızışdı. Bu da Şəki xanlığını həm siyasi, həm də iqtisadi cəhətdən sarsıtdı.**

**Car-Balakən camaatlığı**

**Azərbaycanın şimal-qərbində yerləşən Car-Balakən camaatlığı Car, Balakən, Katex, Tala, Muxax və Cənik adlı azad cəmiyyətləri özündə birləşdirən sosial-siyasi qurum idi. Hər bir cəmiyyət camaat adlandırılan bir neçə kənd icmasından ibarət idi. Hər bir icma kəndxuda və qazı tərəfindən idarə olunurdu. İdarəetmə şəriət qaydalarına əsaslanırdı. Cəmiyyətdə ruhanilərin də nüfuzu yüksək idi. Camaatlığın ali orqanı xalq yığıncağı idi. Burada yalnız yetkinlik yaşına çatmış kişilər iştirak edə bilərdilər. Yığıncaqlarda camaatın bütün vacib məsələləri müzakirə edilir və qəbul olunan qərarlar qanun qüvvəsini alırdı. XVIII əsrin 50-ci illərində Car-Balakən camaatlığı Şəki xanlığından asılı vəziyyətə düşmüşdü. Camaatlıq XVIII əsrin sonlarında müəyyən müstəqillik əldə edə bilmişdi.**

# Qarabağ xanlığı

*Mən aşiqəm qara bağ,*
*Qara salxım, qara bağ,*
*Tehran cənnətə dönsə,*
*Yaddan çıxmaz Qarabağ.*
*İbrahimxəlil xanın qızı Ağabəyim ağanın şeiri*

**Qarabağ xanlığının yaradılması**

**Qarabağ xanlığı Səfəvilər dövlətində mövcud olan Qarabağ bəylərbəyliyi ərazisində yaranmış iki xanlıqdan (Gəncə və Qarabağ) biri idi. Xanlığın əsasını Cavanşirlər nəslindən olan Pənahəli xan qoymuşdu. Xanlığın əhalisinin əksəriyyətini Cavanşir, Ziyadoğlular, İyirmidördlər, Otuzikilər, Kəbirli tayfaları təşkil edirdi. 1736-cı ildə Muğanda keçirilən tacqoyma mərasimi zamanı Nadir şah elan olunmasına etiraz etdiyinə görə Qarabağ bəylərbəyliyini cəzalandırdı. O, Qazax, Borçalı və Şəmsəddil ərazilərini Qarabağ bəylərbəyliyinin tabeliyindən çıxarıb Kartli çarının ixtiyarına verdi. Qarabağ elatlarının bir hissəsini Xorasan istiqamətinə sürgün etdi. Eləcə də Qarabağ bəylərbəyliyinə tabe olan beş Qarabağ məlikliyini tabeçilikdən çıxarıb sərbəstlik verdi. 1748-ci ildə Qarabağın bir hissəsində hakimiyyəti ələ alan Pənahəli xan xanlıq ərazisində hakimiyyətini möhkəmləndirməkdən ötrü Nadir şah tərəfindən sürgün edilmiş tayfaları geri qaytardı. Eləcə də düşmənlərindən və qonşu xanlıqların hücumlarından qorunmaq üçün Kəbirli mahalında Bayat qalasını tikdirdi. Bayat qalası xanlığın sərhədinə yaxın ərazidə yerləşdiyindən qonşu xanlıqların hücumu üçün açıq idi. Bu üzdən də Pənahəli xan xanlığın mərkəzini xanlığın içərilərində yeni tikdirdiyi qalalara - əvvəlcə Şahbulaq və daha sonra Şuşa qalasına köçürtdü. 1756-1757-ci illərdə tikilib başa çatdırılan Şuşa qalası əvvəllər onun banisinin adı ilə Pənahabad adlandırılmışdı.**

**Pənahəli xanın mərkəzləşdirmə siyasəti**

**Pənahəli xan xanlığı daxilən möhkəmləndirməkdən ötrü Qarabağ ərazisindəki məlikləri mərkəzi hakimiyyətə tabe etmək qərarını verdi. Nadir şahın dövründən özlərini müstəqil aparan Qarabağın xristian məlikləri Pənahəli xana tabe olmaq istəmir, əksinə separatçılıq siyasəti yürüdərək qonşu xanlıqları Qarabağa hücumlar təşkil etməyə səsləyirdilər. Pənahəli xan, ilk növbədə, məliklərin birliyini pozmaq üçün onlar arasında nifaq saldı. Tezliklə digər məliklər tərəfindən təklənən Vərəndə məliyi onun hakimiyyətini qəbul etdi. Pənahəli xanın məliklərə təzyiqini artırması Xaçın məliyinin ciddi müqavimətinə səbəb oldu. Ballıqaya yaxınlığında baş verən döyüşdə məğlub olan Xaçın məliyi Pənahəlinin hakimiyyətini tanıdı. Tezliklə Dizaq, Çiləbörd, Talış (Gülüstan) məlikləri də Pənahəli xana tabe olduqlarını bildirdilər. Lakin məliklər zahirən Qarabağ xanlığının ali hakimiyyətini tanısalar da, müxtəlif yollarla gürcü çarları və Rusiya hakimiyyət orqanları ilə gizlicə əlaqə saxlayır, Qarabağda bir xristian dövləti yaratmağa kömək etmələrini xahiş edirdilər.**

**Pənahəli xan xanlığı daxilən möhkəmləndirdikdən sonra diqqətini qonşu xanlıqlara yönəltdi. Tezliklə Gəncə, İrəvan və Naxçıvan xanlıqlarının bəzi torpaqları Qarabağ xanlığına birləşdirildi, Pənahəli xanın Qarabağı belə böyük ərazisi olan güclü xanlığa çevirməsi İranda mərkəzi hakimiyyət uğrunda mübarizə aparan qüvvələrin diqqətini cəlb etdi.**

**Belə qüvvələrdən biri olan Məhəmmədhəsən xan Qacar 1757-ci ildə Qarabağa hücum etdi. Şuşanın bir aylıq mühasirəsi heç bir nəticə vermədi və Məhəmmədhəsən xan geri qayıtmağa məcbur oldu. Bir qədər sonra bir sıra Cənubi Azərbaycan xanlıqlarını öz ətrafında birləşdirmiş Fətəli xan Əfşar Pənahəli xanın yanına elçilər göndərərək tabe olmasının tələb etdi. Pənahəli xanın rədd cavabından sonra - 1759-cu ildə Fətəli xan Əfşar böyük bir ordu ilə Qarabağ üzərinə hücuma keçdi. Şuşa qalası altı ay mühasirədə qaldıqdan sonra Pənahəli xan oğlu İbrahimxəlili girov verməklə şəhəri azad etdi.**

**İbrahimxəlil xan**

İbrahimxəlil xanın (1763-1806) dövründə xanlıq daha da gücləndi. İbrahimxəlil xan məlikliklərin xəyanətinə, qonşu xanlıqların hücumlarına son qoymaqdan ötrü Avar xanlığı, Gürcü çarlığı və Şəki xanlığı ilə qohumluq əlaqələri yaratdı. Öz qohumu Əsədulla bəyi Təbrizini xan taxtına çıxartdı. Tezliklə Naxçıvan, Qaradağ və bəzi digər xanlıqlar Qarabağ xanından asılı vəziyyətə düşdülər. İbrahimxəlil xan 1780-ci ildə müttəfiqi Kartli-Kaxetiya çarlığı ilə birlikdə Gəncəyə hücum edib xanlığı bölüşdürdü. İbrahimxəlil xanın belə güclənməsi bütün Azərbaycanı birləşdirməyi qarşısında məqsəd qoyan qubalı Fətəli xanın planlarına uyğun deyildi. Bu da öz növbəsində iki Azərbaycan xanlığının toqquşmasına gətirib çıxartdı. Bu qarşıdurmada üstünlük Quba xanlığının tərəfində olsa da, Kartli-Kaxetiya çarlığının yaxından köməkliyi Qarabağı Quba təhlükəsindən qurtarmış oldu.

# Naxçıvan xanlığı

İndiki Ermənistan ərazisi e.ə. VIII−VII əsrlərdən başlayaraq, əsasən, türk mənşəli etnosların yaşadığı və idarə etdiyi ölkə olmuş və sonralar−XIX əsrin əvvəllərinə qədər burada türklər aparıcı rol oynamışlar.

Səfəvilər dövləti vaxtında mövcud olan Çuxursəəd bəylərbəyliyi ərazisində Nadir şahın ölümündən sonra iki xanlıq - Naxçıvan və İrəvan xanlıqları yarandı. Nisbətən kiçik bir əraziyə malik olan Naxçıvan xanlığının əsasını Kəngərli tayfasının başçısı Heydərqulu xan qoymuşdu. Öz hakimiyyətini gücləndirmək və təcavüzlərdən qorunmaq üçün Heydərqulu xan (1747-1763) daha qüdrətli sayılan Qarabağ xanlığına arxalanmaq qərarına gəlmişdi.

Bu məqsədlə də o, Pənahəli xanla görüşmüş və hətta onun məsləhəti ilə Şəki xanına qarşı yaradılmış ittifaqa da qoşulmuşdur. Heydərqulu xanın ölümündən sonra onun varislərinin dövründə xanlıq nisbətən zəiflədi. Əvvəlcə Kərim xan Zəndin təsirinə düşdü, sonra isə Xoy, İrəvan, Qarabağ xanlıqları və Gürcü çarları Naxçıvanda özlərinə münasib adamı taxta çıxartmağa səy göstərdilər. Bu da öz

**növbəsində hakimiyyət uğrunda gedən mübarizənin daha da qızışmasına şərait yaratdı.**

**Vikipediya məlumatı:**

**Naxçıvan xanlığı — 1747-ci ildə Nadir şah Əfşarın ölümündən sonra kəngərli tayfa başçısı Heydərqulu xan tərəfindən əsası qoyulmuş Azərbaycan xanlığıdır. Zəngəzur kəndindən başlamış, Araz çayı vadisinə qədər uzanan geniş ərazidə yerləşən Naxçıvan xanlığı, Qərbi Azərbaycanın böyük bir hissəsini əhatə edirdi. Dağlar xanlığı qala kimi əhatə edirdi. Şimal-qərbdən Dərələyəz dağları, cənub-şərqdən İlanlıdağ, şimal-şərqdən Böyük və Kiçik Ağrı dağları xanlığın sərhədləri boyu uzanırdı. Naxçıvan xanlığı İrəvan, Qarabağ, Xoy və Maku xanlıqları ilə həmsərhəd idi.**

**Heydərqulu xan 1763-cü ilə qədər hakimiyyətdə olmuşdur. Araşdırmalar göstərir ki, Naxçıvan xanlığı Qarabağ, Maku, Qaradağ, Gəncə və İrəvan xanlıqları ilə Heydərqulu xanın vaxtında yaxın dostluq münasibətləri yaratmışdı. Heydərqulu xanın vəfatından sonra onun oğlanları xanlığı idarə edirlər və ən uğurlu dövr Şükurəli xanın dövrünə təsadüf edir. 1768-ci ildən 1780-ci ilədək fasilələrlə Naxçıvan xanlığına rəhbərlik edən Şükurəli xan Kərim xan Zəndin fərmanı ilə müstəqil xan, yəni hakim tituluna layiq görülməklə yanaşı, bütün Kəngərli süvarilərinə sərkərdə təyin olunduğu müddətdən etibarən tümən hakimi kimi şöhrət tapır.**

**1790-ci illərin sonlarında Naxçıvan xanlığında hakimiyyət uğrunda mübarizə güclənir. İrəvan xanı Hüseynəli xan, Qarabağ xanı İbrahimxəlil xan və Kartli-Kaxetiya çarı II İrakli istəyirlər ki, Naxçıvan xanları onların istəyi ilə hərəkət etsin. Beləliklə, Rəhim xanın oğlu Abbasqulu xan 1780-ci ildə xanlığı idarə etməyə başlayır. Lakin onun iradəsizliyi hakimiyyətdəki uğursuzluğu ilə nəticələnir və 1810-cu ildə İranda edam edilir. Naxçıvan xanlığı 1747–1797-ci illərdə daxili və xarici siyasəti ilə qonşu xanlıqların rəğbətini qazanmış Heydərqulu xanın, sonralar isə Kəlbəli xanın hakimiyyəti dövründə siyasi diplomatiyası ilə də fərqlənib.**

**Xanlığın ərazisi, qoşunu, pul vahidi, xarici və daxili siyasəti, müstəqil dövlətə məxsus atributları olub.**

**Kəlbəli xan çox güclü siyasət yeritsə də əvvəlcə Ağaməhəmməd şahla, daha sonra isə rus qoşunları ilə ciddi mübarizə aparır. Uzunmüddətli Rusiya-İran müharibəsindən sonra 1813-cü ildə Gülüstan müqaviləsi imzalanır və bununla müharibə yekunlaşır. Daha sonra isə 1826-ci ildə Qacar hakimiyyətinin yeni hücumları ilə yenidən Rusiya-İran müharibəsi başlayır və müharibə rusların qələbəsi ilə başa çatır. 1828-ci ildə imzalanan Türkmənçay müqaviləsinin şərtlərinə əsasən Naxçıvan və İrəvan xanlıqları Rusiyaya verilir. Naxçıvan xanlığının ərazisində məskunlaşan sonuncu xan Kərim xanın bütün əmlakı Rusiya xəzinəsinə müsadirə edilir. Şahzadə Abbas mirzə Kərim xan və onun bir qrup Kəngərli sülaləsindən olan tərəfdarlarına məskunlaşmaq və idarə etmək üçün Marağa xanlığının bir neçə kəndini verir. Bununla da Naxçıvan xanlığı ləğv edilir.**

**İrəvan xanlığının əsasını Mir Mehdi xan qoymuşdu. Əhalisinin böyük əksəriyyətini azərbaycanlılar təşkil edən xanlıq Ağrı vadisi, Dərələyəz və Göyçə gölü arasındakı torpaqlarda yerləşirdi. İrəvan şəhərinin əhalisinin yalnız cüzi hissəsini ermənilər təşkil edirdi.**

**Xanlığın ərazisində erməni dini mərkəzi Üçkilsə[1] yerləşirdi. Kilsənin başçısı - katolikos İrəvan xanı tərəfindən təyin olunurdu. Xanlıq nisbətən zəif olduğundan qonşuların diqqətini cəlb edirdi. 1749-cu ildə İrəvan Qarabağ xanı Pənahəlinin, daha sonra isə Kaxetiya çarı II İraklinin hucumuna məruz qaldı və bir müddət gürcü çarlığından asılı vəziyyətə düşdu. İrəvan xanlığını zəbt etməyə çalışan Kartli və Kaxetiya çarları Üçkilsə monastrının katolikosu ilə əlaqə saxlayır, İrəvan xanlarına onun əli ilə zərbə endirməyə çalışırdılar.**

**1765-ci və 1769-cu illərdə Kartli-Kaxetiya çarının İrəvana hücumları nəticəsində xan onlara müəyyən qədər bac verməyə məcbur oldu. Lakin mərkəzi İranda hakimiyyəti ələ almış Kərim xan Zəndin tələbi ilə o vaxt İrəvanda xan olan Hüseynəli xan gürcü çarı II İrakliyə bac verməkdən imtina etdi. 1779-cu ildə**

**Kərim xan Zəndin vəfatından sonra II İrakli İrəvan xanlığından bac tələb etdi. Azərbaycan xanlıqlarına güvənən Hüseynəli xan gürcü çarının tələbini rədd etdi. Buna görə II İrakli iyirmi minlik qoşunla qəflətən İrəvana hücum etdi, lakin güclü müqavimətə rast gəlib geri çəkilməli oldu. İrəvanı tuta bilməyib bir çox kəndi qarət edən gürcü çarı geri qayıdan zaman 2500-ə yaxın ailəni də Hüseynəli xanın vermədiyi bac əvəzinə apardı. Osmanlı dövlətinə arxalanan Hüseynəli xan II İraklidən İrəvan xanlığından zorla Gürcüstana köçürdüyü ailələrin geri qaytarılmasını tələb etdi. 1441-ci ildə Cahanşah Qaraqoyunlu erməni katolikosluğunun mərkəzinin Kilikiyadan İrəvan yaxınlığındakı Üçmüəzzin (Üçkilsə) monastırına köçürülməsinə icazə vermişdi. Hüseynəli xanın belə müstəqil siyasət yürütməsi, hətta bir ara Naxçıvanı özündən asılı hala salmaq cəhdi II İraklini çox narahat edirdi. Tezliklə gürcü çarlarının təhriki ilə İrəvanda hakimiyyət uğrunda mübarizələr qızışdı və xanlıq xeyli zəiflədi.**

**Vikipediya məlumatı:**

**İrəvan xanlığı — Azərbaycan xanlıqlarından biri, Nadir şah Əfşarın vəfatı və Əfşarlar dövlətinin süqutundan sonra Çuxursəəd bəylərbəyliyinin əsasında yaranmış və 1747–1828-ci illərdə mövcud olmuş tarixi feodal dövlət. İrəvan xanlığının əsası XVIII əsrin ortalarında Mirmehdi xan tərəfindən qoyulub. Xanlıq Qarabağ, Naxçıvan və Maku xanlıqları ilə, Osmanlı imperiyası, Kartli-Kaxetiya çarlığı, Borçalı, Qazax sultanlıqları ilə həmsərhəd olub. Mərkəzi İrəvan şəhəri idi.**

**İrəvan xanlığı Mirmehdi xandan sonra Hüseynəli xanın dövründə möhkəmləndi. Hüseynəli xanın oğlu Məhəmməd xan Qacarın dövrü İrəvan xanlığında ən uzunmüddətli xan dövrü sayılır. Məhəmməd xan fasilələrlə İrəvan taxtında 21 il oturdu.**

**Məhəmməd xandan sonra hakimiyyətə Hüseynqulu xan Qacar gəldi. Onun hakimiyyəti dövründə İrəvan Rusiya imperiyasının dağıdıcı yürüşlərinə məruz qaldı. Hüseynqulu xanın hakimiyyəti dövrü İrəvan xanlığının mədəniyyətinin pik**

**həddə çatdığı dövrdür. İrəvandakı Göy məscid və Sərdərabad mahalındakı eyni adlı qala Hüseynqulu xanın əmri ilə tikilmişdir.**

**1827-ci il oktyabrın 6-da İrəvan xanlığı ruslar tərəfindən işğal edilir və bu işğal 1828-ci il fevralın 10-da Türkmənçay sülh müqaviləsi ilə möhkəmlənir. Bu müqavilənin 15-ci bəndinə əsasən Qacarlar və Osmanlı imperiyası ərazisində yaşayan erməni əhalisi Cənubi Qafqaza köçürülür.**

## *Mövzu 7.Təbriz,Qaradağ,Urmiya,Xoy xanlıqları.Ağa Məhəmməd şah Qacarın mərkəzləşdirmə siyasəti*

**Nadir şahın ölümündən (1747) sonra İranda Nadirin varisləri arasında mərkəzi hakimiyyət uğrunda mübarizə qüvvətləndi.**

**1747-1751-ci illər arasında şah hakimiyyəti beş dəfə əldən ələ keçmişdi. Şah hakimiyyəti uğrunda belə gərgin mübarizənin qızışması və bu mübarizənin Azərbaycandan uzaqda Xorasanda getməsi Cənubi Azərbaycanda da bir sıra feodal hakimlərinə özlərini müstəqil aparmasına şərait yaradırdı.**

Təbriz xanlığı

**1747-ci ildə Əmiraslan xan Təbrizdə özünü müstəqil hakim elan edərək Təbriz xanlığının əsasını qoydu. Əmiraslan xan tezliklə Ərdəbili, Qaradağı və bir sıra Cənubi Azərbaycan torpaqlarını özünə tabe etdi. Lakin bu uğur müvəqqəti oldu. Döyüşlərin birində Əmiraslan xan öldürüldü. Bundan sonra Cənubi Azərbaycanda Fətəli xan Əfşarın başçılığı ilə Urmiya xanlığı qüvvətlənməyə başladı.**

**Təbriz xanlığı — XVIII əsrin ortalarında keçmiş Təbriz bəylərbəyiliyinin mərkəzində Təbriz xanlığı yaranır. Xanlığın əsasını Əfşar tayfasından olan Əmiraslan xan qoymuşdur. Xanlığın mərkəzi də Təbriz şəhəri olmuş, Xoy, Naxçıvan, Qaradağ, Sərab və Marağa xanlıqları ilə sərhədlənmişdi. Əmiraslan xan qısa bir zamanda Təbriz, Xalxal, Ərdəbil və Azərbaycanın bir sıra**

**cənub əyalətlərini özünə tabe edir. Təbriz uğrunda mübarizəyə qoşulanların çox olması bu şəhərə tez-tez hücumlara, şəhərin əldən-ələ keçməsinə səbəb olur. Nadir şahın qardaşı oğlu İbrahim Mirzə güclü ordu ilə Təbrizə hücum edərək şəhəri ələ keçirir. Lakin Məşhəd və İsfahanda baş vermiş üsyan xəbərini eşidib Məşhədə qayıdır və döyüş zamanı həlak olur. Bundan sonra Fətəli xan Əfşar Təbrizi tutur və şəhərin idarəsini Nəcəfqulu xan Dünbiliyə tapşırır. Urmiya xanlığının süqutundan sonra Təbriz tam müstəqil xanlığa çevrilir. 1780-cı ildə isə xanlığın fəaliyyətinə son qoyulmaqla ərazisi Xoy xanlığına birləşdirilir.**

**Təbriz xanlığı inzibati cəhətdən Təbriz, Güney və Mərənd mahallarına bölünürdü. İlk dövrlərdə Xalxal və Ərdəbil mahalları da xanlığın tərkibində olmuşdur. Mahalları naiblər, kəndləri isə kətxudalar idarə edirdilər. Xanlığın 10 minə qədər hərbi qüvvəsi var idi. Dövləti qeyri-məhdud səlahiyyətləri olan xan idarə edirdi.**

**Təbriz şəhəri yenə mühüm sənət, ticarət və mədəniyyət mərkəzi olaraq qalırdı. Naiblər yerlərdə xanın dayaqları hesab olunurdular. Şəhər məmurları da naib vəzifəsi daşıyırdılar. Bundan başqa şəhər məmurları sırasına qalabəyi, darğa və gecə qarovulunun başçısı olan əsasbaşı da daxil idi. Naib təsərrüfatı idarə edir, vergilərin vaxtında yığılması üçün xanın qarşısında məsuliyyət daşıyır, mükəlləfiyyətlərin yerinə yetirilməsini tələb edirdi.**

**Təbriz şəhəri qədim ticarət və sənətkarlıq mərkəzi kimi öz şöhrətini saxlamışdı. Burada çoxlu bacarıqlı ustalar yaşadığından digər Azərbaycan şəhərlərinə ustalar buradan dəvət olunurdu. XVIII əsrin 70-ci illərində Azərbaycanda olmuş rus səyyahı S.Qmelinin məlumatına görə şamaxılı Məhəmməd Səid xan şəhərdə ipəkçiliyi bərpa etmək üçün Təbrizdən Şamaxıya yüzə qədər usta dəvət etmişdir.**

**Təbriz həm də iri toxuculuq mərkəzi kimi şöhrət qazanmışdı. Buranın ipək məhsulları öz keyfiyyətinə görə digər şəhərlərin məhsullarından üstün idi. Bu şəhərdə ildə 60 min taya yaxın yüksək keyfiyyətli məhsul istehsal olunurdu. O dövrün səyyahlarından biri yazırdı: *"Şəhər bazarı genişdir. Burada Asiya mallarından başqa Avropa malları da satılır. Kağız və yun materialları çoxdur. İngilis***

***və holland mahudu, əla şallar və xalçalar, şüşə və çini qablar, bəzi polad əşyalar və s. Təbriz bazarında kifayət qədərdir".***

**Qaradağ xanlığı**

**Qaradağ xanlığı — 1747-ci ildə yaranmış və Cənubi Azərbaycanda (indiki İran ərazisində)feodal dövlət olmuşdur. Mərkəzi Əhər şəhəri idi. Qərbdən Xoy xanlığı, şərqdən Talış xanlığı, şimaldan Naxçıvan xanlığı, Qarabağ xanlığı, Cavad xanlığı, cənubdan isə Təbriz və Ərdəbil xanlıqları ilə həmsərhəd idi.**

**Qaradağlı tayfası Səfəvilərin hakimiyyətə gəlməsində fəaliyyət göstərdiyindən I Şah İsmayıldan başlayaraq Qaradağ vilayətinin idarəsinə nail ola bilmişdi. XVI əsrdən XIX əsrin əvvəllərinədək Qaradağ vilayətinin idarəsi irsi olaraq müəyyən nəsil üzrə olmuşdu. Onlar həm də ruhani səlahiyyətlərinə malik idi. XVIII yüzilin əvvəllərində Səfəvi sülaləsi zəiflədiyindən hakim Kazım xan mərkəzi hakimiyyətə tabeçilikdən çıxmış, şah Sultan Hüseynin ehtiramına layiq görülən rus A.Volınskini Əhərə qoymamışdı. Nadir mərkəzi hakimiyyətə tabe olmayan xanın gözlərini çıxartdırmışdı. Nadirin ölümündən sonra Qaradağ xanlığı müstəqilləşmiş, Kazım xan Qaradağ xanı olmuşdu.**

**Kazım xan XVIII yüzilin ortalarında Qarabağ, Gəncə və Naxçıvan xanları ilə birlikdə Şəki xanlığına qarşı ittifaqa qoşulmuşdu. Bu ittifaq məqsədinə nail ola bilməmişdi. Qaradağ xanı Qarabağ xanlığına, Kərim xan Zəndə (1761), sonra isə Ağa Məhəmməd Qacara (1791) tabe olmuşdu.**

**Qaradağ xanı Abbasqulu xan XIX yüzilin əvvəllərində Pavel Sisianova məktub yazaraq Rusiyaya sadiq qalacağını bildirmiş, lakin 1804-1813-cü illər Rus-İran müharibəsində Rusiyaya qarşı çıxmışdı.**

**Xanları**

- **Kazım xan (Məhəmmədkazım xan) (1747-1763)**
- **Mustafaqulu xan (1763-1782, 1786-1791)**
- **İsmayıl xan (1782-1783, 1791-1797)**

- **Nəcəfqulu xan (1783-1786)**
- **Abbasqulu xan (1797-1813)**
- **Məhəmmədqulu xan (1813-1828)**

**Urmiya xanlığı**

**Fətəli xan Əfşar (1747-1763) fəaliyyətinin ilk günlərindən qonşuluğundakı pərakəndə xanlıqları birləşdirib vahid dövlət yaratmağa təşəbbüs etmişdir. Fətəli xan öz arzusunu həyata keçirmək üçün hərbi qüvvəsini artırmaq məqsədilə Nadir şahın sabiq sərkərdəsi Azad xanla ittifaq bağladı. ətəli xan Əfşar həmçinin Xoy xanlığının hakimi Şahbaz xanı da öz tərəfinə çəkməyə nail oldu. Bundan sonra Fətəli xan Əfşar Azərbaycanın digər xanlıqlarını özünə tabe etmək məqsədilə geniş fəaliyyətə başladı və buna Cənubi Azərbaycan çərçivəsində qismən nail oldu. Az müddət ərzində Qaradağ, Marağa, Təbriz xanlıqları, habelə bir sıra xırda feodal malikanələri Urmiya xanlığına tabe edildi. Bu dövrdə İranda mərkəzi hakimiyyət uğrunda mübarizə əsasən astrabadlı Məhəmmədhəsən xan Qacar və şirazlı Kərim xan Zənd arasında gedirdi. Bu mübarizənin gedişində Məhəmmədhəsən xan hətta bir ara Cənubi Azərbaycanın əksər ərazisini özünə tabe edərək 1757-ci ildə Qarabağ xanlığına hücum etdi. Məhəmmədhəsən xanın Şimali Azərbaycanda olmasından istifadə edən rəqibi Kərim xan Zənd Astrabada hücum etdi. Bu xəbəri alan Məhəmmədhəsən xan Şuşa qalasının mühasirəsindən əl çəkməyə məcbur oldu. Geri qayıdanda Urmiya xanlığını da özünə tabe edən Məhəmmədhəsən xan Şiraza, Kərim xan Zənd üzərinə hücum etdi. Lakin yolda sui-qəsd nəticəsində öldürüldü.**

**Bu hadisədən sonra yenidən fəallaşan Fətəli xan Əfşar qısa müddətdə Cənubi Azərbaycanda itirilmiş mövqeyini bərpa edib 1759-cu ildə Qarabağ xanlığına hücum etdi. Tezliklə Şuşanı mühasirəyə alan Əfşar qoşunlarına məliklər də öz dəstələri ilə qoşuldular. Müqavimət göstərməyi lüzumsuz hesab edən Pənahəli xan oğlu İbrahim ağanı Fətəli xan Əfşara girov verməklə Şuşa qalasını mühasirədən azad etdi.**

**Fətəli xan Əfşar və Kərim xan Zənd rəqabəti**

**Fətəli xanın belə uğurlar qazanması ilə barışmaq istəməyən Kərim xan Zənd 1760-cı ilin payızında Cənubi Azərbaycana hücum edərək Təbrizi mühasirəyə aldı. Lakin tezliklə Fətəli xan Əfşarın təzyiqi ilə geriyə - Şiraza doğru çəkilməli oldu. Məğlubiyyətinə baxmayaraq Kərim xan daha böyük qüvvə yığaraq yenidən Cənubi Azərbaycana hücum etdi. Kərim xan 1761-ci ilin yayında Azərbaycana hücum etdiyi zaman Fətəli xan onu Ucan düzündə, Qaraçəmən kəndi yaxınlığında qarşıladı. Baş verən döyüşdə üstünlük əvvəlcə Fətəli xanın tərəfində olsa da, müttəfiqi xoylu Şahbaz xanın xəyanət edərək düşmən tərəfə keçməsi onu çətin vəziyyətə saldı. Buna görə Fətəli xan Urmiya qalasına çəkilməli oldu.**

**1762-ci ilin may ayında Marağa şəhərini tutan Kərim xan burada düşərgə salıb Urmiya qalasına həmlə üçün hazırlığa başladı. Kərim xan vaxtilə Fətəli xanla toqquşmuş müxtəlif Azərbaycan xanlıqlarına məktub göndərərək onları Fətəli xanla mübarizə üçün birləşməyə çağırdı. Kərim xanın çağırışını qəbul edən Pənahəli xan kiçik oğlu Mehrəli bəyi Qarabağa müvəqqəti hakim qoydu, bir sıra başqa Azərbaycan xanları kimi Kərim xanın Urmiya yanındakı düşərgəsinə gəldi. Xanların da qüvvələrini özünə birləşdirən Kərim xan Urmiya qalasını dövrəyə aldı. Doqquz aylıq mühasirədən sonra Urmiya qalası təslim oldu. Kərim xan Fətəli xanı ailəsi ilə birlikdə götürərək Şiraza yola düşdü. O, eyni zamanda köməyinə gəlmiş Azərbaycan xanlarını: Pənahəli xanı, qaradağlı Kazım xanı, xoylu Şahbaz xanı, naxçıvanlı Hacı xan Kəngərlini, sərablı Əli xan Şəqqaqini və başqalarını da Fətəli xan üzərində qələbə münasibətilə Şirazda keçiriləcək şənliklərdə iştirak etmək bəhanəsi ilə özü ilə apardı. Kərim xan, əslində, onları orada girov kimi saxladı. Fətəli xan Əfşar üzərində çaldığı qələbə sayəsində Kərim xan Zənd öz hakimiyyətini Cənubi Azərbaycanda yaymağa müvəffəq oldu.**

**Xoy xanlığı**

**Xoy xanlığı da Nadir şahın imperiyasının dağılması nəticəsində yaranan xanlıqlardan biri idi. Xanlığın ilk hakimi Şahbaz xan olmuşdur. O, Nadir şah dövründə Xoy vilayətinin hakimi təyin edilmişdi. Nadir şahın ölümündən sonra isə özünü Xoy xanlığının müstəqil hakimi elan etmişdi. Mülayim siyasət yeridən**

**Şahbaz xan Fətəli xan Əfşarla dostluq münasibətləri saxlayıb, hətta bəzi yürüşlərdə ona kömək də göstərir. Lakin Kərim xan Zəndin 1762-ci il hücumu zamanı Şahbaz xan Kərim xanın vədlərinə aldanaraq Fətəli xana qarşı çıxmış, nəticədə girov kimi Şiraza aparılmışdır. Kərim xan Zənd bir neçə Azərbaycan xanlarını girov kimi Şiraza aparmaqla öz hakimiyyətini Cənubi Azərbaycanda yaymağa müvəffəq olsa da, tezliklə burada Əhməd xanın (1763-1786) başçılığı ilə Xoy xanlığı qüvvətlənməyə başladı. Əhməd xan Azərbaycanın bir neçə xanı, həmçinin Kartli-Kaxetiya çarları ilə diplomatik münasibətlər saxlamış, bir müddət İrəvan, Naxçıvan, Təbriz və Qaradağ xanlıqlarını da özündən asılı vəziyyətə salmışdır. 1786-cı ildə Əhməd xanın yaxın qohumları onu qətlə yetirdilər. Bununla da hakimiyyət uğrunda başlanan mübarizə xanlığı zəiflətdi.**

**Xoy xanlığının əsasını dünbuli tayfa başçıları qoymuşdu. Dünbuli Əhməd xan XVIII əsrin 60-cı illərində Təbrizdə də möhkəmlənmişdi. Xoy xanlığı İrəvan, Naxçıvan və Qaradağ xanlığını da özünə tabe etmişdi. Qarabağ xanlığı ilə müttəfiqlik hakimiyyətinin möhkəmlənməsinə müsbət təsir göstərdi.**

**1775-ci ildə Xoy xanı Əhməd xandan Çıldır valisi Süleyman paşaya göndərilən məktubda "Şimali Qafqazın istilasından qüvvət alan Rusiyanın və onunla ittifaq yaradan İrakli xanın təcavüzünə imkan verməməsi üçün Azərbaycan və Qafqaz xanlarının "Dövləti-Aliyyə" (Osmanlı imperiyası ) ilə birgə mübarizə aparmasının vacib olduğu bildirilirdi".**

**Xoy xanlığı ilə Kərim xan Zəndin zərbələrindən sonra dirçəlməyə başlayan Urmiya xanlığı arasında ziddiyyət var idi. Əhməd xan Təbriz xanlığı ilə birləşərək 1783-cü ildə Təbriz şəhəri yaxınlığında Urmiya və Sərab xanlıqlarının birləşmiş qoşununu məğlub etdi. Bu qələbə Xoy xanlığının nüfuzunu xeyli artırdı. Kərim xan Zənd Xoy xanlığının güclənməsindən narahat olub, Əhməd xanı sarsıtmaq üçün tədbirlər görməyə başladı. Bu məqsədlə onun qardaşı Şahbaz xanın oğlanlarını əmilərinə qarşı mübarizəyə hazırlayırdı. Kərim xan Zəndin səpdiyi düşmənçilik toxumu onun ölümündən sonra belə özünü göstərdi. Şahbaz xanın oğlanları Əhməd xana qəsd edib, onu öldürdülər. Qəsdçilər hakimiyyəti ələ**

**keçirməyə nail ola bilmədilər. Cəfərqulu xan Xoylu xilas ola bildi, onları cəzalandırdı və qardaşı Hüseynqulu xanı azad edərək hakimiyyətə gətirdi.**

**Xoy xanlığı yaranmış vəziyyətdə əvvəlki mövqeyini itirdi. İrəvan xanlığı müstəqillik əldə etdi. İrəvan və Qaradağ xanlığı yalnız Qarabağdan asılı oldu. Təbriz də əldən çıxdı. Xanlıqlar arasında yeni çəkişmələr başlandı.**

**Xoy xanlığı Qacarlardan asılı vəziyyətə düşdü, sonra xanlığa son qoyuldu.**

# Ağa Məhəmməd şah Qacarın mərkəzləşdirmə siyasəti

**Qacar tayfaları**

**Oğuz tayfalarından olan Qacarlar Bayat boyunun bir qolu olmuşlar. Monqol yürüşləri dövründə digər oğuz tayfaları kimi Azərbaycanda yaşayan Qacar tayfalarının da bir hissəsi qərbə doğru çəkilərək Şərqi Anadoluda və Suriyada məskən salmışdılar. XIV əsrdə Şərqi Anadoluda formalaşan Ağqoyunlu tayfa birliyinə Qacar tayfası da daxil idi. Ağqoyunlu Uzun Həsənin hakimiyyəti dövründə Diyarbəkirdə yaşayan Qacar tayfaları yenidən Azərbaycana qayıdaraq Gəncə, Bərdə və İrəvan ətrafında məskunlaşdılar. Hələ Diyarbəkirdə olduqları vaxtlarda Ərdəbil şeyxlərinin apardığı təbliğat nəticəsində digər oğuz tayfaları ilə birlikdə Qacar tayfası da şiə məzhəbini qəbul etmişdi. Səfəvi sülaləsinin hakimiyyətə gəlməsində mühüm rol oynayan yeddi qızılbaş tayfasından biri də Qacarlar olmuşdur. I İsmayılın müridləri arasında "Tozqoparan" ləqəbli Qara Piri bəy Qacar bir sıra döyüşlərdə igidliyi ilə fərqlənmişdi. Azərbaycan Səfəvi dövlətinin möhkəmlənməsində Qacar əmirlərinin böyük xidmətləri olmuşdur. Səfəvi şahlarının hakimiyyəti dövründə Qacar tayfasının bir qolu olan Ziyadoğlu nəsli mərkəzi Gəncə olan Qarabağ bəylərbəyliyinin irsi hakimləri sayılırdı.**

**Şah I Abbas Ziyadoğlu nəslindən olan Hüseyn xan Qacarı Astarabad vilayətinin hakimi təyin etmişdi. Bundan sonra Azərbaycanda yaşayan qacarların böyük bir hissəsi Astarabada köçmüşdülər. Burada qacarlar iki yerə - Qovanlı və Dəvəli qacarlarına bölündülər. 1742-ci ildə dünyaya gələn Ağaməhəmməd xanın**

**atası Məhəmmədhəsən xan Qovanlı, anası Ceyran xanım isə Dəvəli qoluna mənsub idi. Ağaməhəmməd xan ilk təhsilini anasından almışdı.**

**Girovluqdan şahlığa**

**Nadir şahın öldürülməsi imperiyanın dağılmasına gətirib çıxardı. Hakimiyyət uğrunda başlanan mübarizədə Məhəmmədhəsən xan Qacar da əsas simalardan biri idi. Məhəmmədhəsən xanın apardığı döyüşlərdə onunla çiyin-çiyinə böyük oğlu Ağaməhəmməd xan də iştirak edirdi. Astarabadda möhkəmlənən Məhəmmədhəsən xan Gilan, Qəzvin, İsfahanı və Cənubi Azərbaycanın bir hissəsini öz hakimiyyəti altına alsa da, 1759-cu ildə Zəndlərlə döyüşdə həlak oldu. Ağaməhəmməd xan türkman və qacarlardan topladığı qoşunla mübarizəni davam etdirdi. Döyüşlərin birində Ağaməhəmməd xan Kərim xan Zəndə əsir düşdü. Qacar tayfaları ilə münasibəti yaxşılaşdırmaq istəyən Kərim xan onu öldürməyib yanında girov saxladı. Şirazda girov qaldığı 16 ildə Ağaməhəmməd xan təhsilini mədrəsədə davam etdirib o dövrün məşhur alimlərindən elm, fəlsəfə və din tarixindən dərs aldı. Onun savad və məntiqi düşüncəsini görən Kərim xan Ağaməhəmməd xanı öz müşaviri təyin edərək mühüm dövlət işlərində onunla məsləhətləşirdi.**

**1779-cu ildə Kərim xanın vəfatından sonra Ağaməhəmməd xan Şirazı tərk edib özünü Astarabada çatdırdı. Burada bir-biri ilə düşmənçilik edən Qovanlı və Dəvəliləri barışdırıb öz ətrafında cəmləşdirərək ölkəni yenidən vahid dövlət daxilində birləşdirmək üçün mübarizəyə başladı. Əsas rəqibi zəndlərlə aparılan döyüşlərdə Ağa Məhəmməd xan qalib gələrək Gilanı, Mazandaranı, Xorasanın böyük bir hissəsini öz hakimiyyəti altına aldı.**

**1786-cı ildə zəndlərin qoşunlarını məğlub edən Qacar İsfahan və Tehranı tutdu. Tehranı dövlətinin paytaxtı elan edən Ağaməhəmməd xan şah titulu götürərək öz adına Aslan və Günəş (Şir-u-Xurşid) təsvirli qızıl pul kəsdirdi. Amma tacqoyma mərasimini imperiyanın tam bərpa olunmasınadək təxirə saldı.**

**Cənubi Azərbaycanın birləşdirilməsinə başlayan Qacar Sərab, Qaradağ, Xoy, Urmiya xanlıqlarını özünə tabe etdi. 1790-cı ildə Təbriz Qacar vəliəhdlərinin**

oturduğu “dar-üssəltənə” oldu. Bundan sonra keçmiş Səfəvi imperiyasını tamamilə bərpa etmək üçün Qacarın qarşısında Cənubi Qafqazda yerləşən Şimali Azərbaycanın və Şərqi Gürcüstanın birləşdirilməsi vəzifəsi dayanırdı.

**Cənubi Qafqaz uğrunda mübarizə**

Qacar Cənubi Qafqaza yürüşü bir qədər ləngitməli oldu. Bunun əsas səbəbi Rusiyanın Cənubi Qafqazı ələ keçirmək üçün fəaliyyətini artırması idi. 1783-cü ildə Kartli çarlığını öz himayəsinə götürən Rusiya Şimali Azərbaycan xanlarına da təzyiqlərini artırmışdı. Cənubi Qafqaza daxil olacağı təqdirdə Rusiya ilə toqquşmanın qaçılmaz olacağını bilən Qacarın müttəfiqə ehtiyacı var idi. Bu məqsədlə o, Osmanlı sarayına öz elçilərini göndərib danışıqlar aparmışdı. Rusiyanın Cənubi Qafqaz və Mərkəzi Asiya istiqamətində irəliləməsindən narahat olan İngiltərə və Fransa dövlətləri də Qacar dövləti ilə yaxınlaşmağa çalışırdı. 1795-ci ildə Qacar altmış minlik ordu ilə Cənubi Qafqaz üzərinə yürüşə başladı. Onun bu yürüşdə əsas hədəfi Qarabağ xanlığını tabe edib itaətdən boyun qaçıran, Rusiya ilə yaxınlaşan gürcü çarlığını cəzalandırmaq idi. Amma Qacar ordusu Qarabağ xanlığının mərkəzi sayılan Şuşanı bir ay mühasirədə saxlasa da, ala bilmədi. O, Şuşanın mühasirəsini dayandırıb Tiflis üzərinə yürüş etdi. Gürcüstan üzərinə yürüşdə Qacarlarla eyni kökdən olan Cavad xanın başçılığı ilə Gəncə Ziyadoğluları da iştirak edirdilər. Gürcü qoşunlarını darmadağın edən Qacar ordusu Tiflisi tutdu. Şahın icazəsi ilə şəhər qarət edilib dağıdıldı. Tiflisin tutulmasından sonra İrəvan, Dərbənd, Bakı xanları Ağa Məhəmməd xanın hakimiyyətini tanıdıqlarını bəyan etdilər. Gürcüstanı tamamilə tabe edən Qacar qoşunlarını Muğanda cəmləşdirib burada qışlamağa qərar verdi. Şah hələ də ona tabe olmayan Şəki, Şamaxı və Qarabağ xanlıqlarına qarşı hərbi əməliyyatları növbəti ilin yazına saxladı. Bu zaman Nadir şahın nəvəsinin Xorasanda qiyam qaldırması xəbərini alan Qacar təcili İrana qayıtdı. Dövlətin vahidliyini təmin etməyənə qədər rəsmi tacqoymanı gecikdirən Ağa Məhəmməd xan saray əyanlarının və yaxınlarının təkidi ilə bu mərasimi 1796-cı il 21 martda Novruz bayramı günündə keçirdi. Bundan sonra böyük qoşunla yürüş edərək Xorasanı bütünlüklə Qacarlar dövlətinə birləşdirdi. Qacarın Rusiyanın himayəsində olan

**Gürcüstanı tutması II Yekaterinanın əvvəlcədən planlaşdırdığı Cənubi Qafqazın işğalına başlaması üçün bəhanə oldu.**

**1796-cı ildə Rusiya Qacar dövlətinə rəsmən müharibə elan edib general Zubovun başçılığı altında Cənubi Qafqaza ordu yeritdi. Rus ordusu Dərbəndi, Qubanı və Bakını tutub oktyabrda Gəncə xanlığını da tabe edərək Qacar dövlətinə qarşı müharibəyə hazırlaşmağa başladı.**

**Xorasanda olduğu zaman bu hadisələrdən xəbər alan Qacar Tehrana qayıdıb Rusiya ilə uzun sürəcək müharibə hazırlığına başladı. Bu zaman Rusiyada hakimiyyət dəyişikliyi baş verdi. II Yekaterinanın yerini tutan yeni rus çarı Cənubi Qafqazdakı ordularını geri çağırdı. Qacar isə nəzərdə tutduğu yürüşü 1797-ci ildə həyata keçirdi. Bu dəfə əsas hücum hədəfi Qarabağ xanlığı idi. Şuşanı mühasirəyə alan Qacar ordusu şəhəri top atəşinə tutdu. Ibrahimxəlil xan hücum edib topları sıradan çıxarsa da, şəhərə qayıda bilməyib Dağıstana getdi. Şuşalılar bundan sonra şahla danışıq aparıb bac vermək şərti ilə müqaviməti dayandırdılar. Ağa Məhəmməd şah şəhərin qarət olunmasına, əhalinin incidilməsinə yol verməmək üçün qoşuna şəhərdən kənarda dayanmaq əmri verdi. Bundan sonra Şamaxıya hücum etdi. Şah burada da alicənablıq göstərib şəhər əhalisinin qarət olunmasına imkan vermədi. Hətta qoşuna çatacaq qənimətin pulunu öz xəzinəsindən ödədi. Yenidən Şuşaya qayıdan Qacar Şimali Azərbaycanın bütün xanlarının hüzuruna gəlmələri barədə əmr verdi. Şuşaya gələn bakılı Hüseynqulu xanı, gəncəli Cavad xanı rus ordusuna müqavimət göstərmədiklərinə görə həbs etdirdi. Həbs olunanlar arasında İbrahimxəlil xanın baş vəziri Molla Pənah Vaqif və xanın qardaşı oğlu Məhəmməd bəy Cavanşir də (Batmanqılınc) var idi. 1797-ci ilin 17 iyununda Ağa Məhəmməd şah saray xadimlərinin sui-qəsdi nəticəsində öldürüldü. Görkəmli dövlət xadimi Ağa Məhəmməd şah qarşısına qoyduğu bütün məqsədlərə nail olmasa da, mərkəzləşmiş dövlət yarada bilmişdi.**

**Ağa Məhəmməd şahın yenidən bərpa edib gücləndirdiyi hökmranlıq taxtına vəliəhd təyin etdiyi qardaşı oğlu Baba xan gəldi. O özünü Fətəli şah elan edərək (1797-1834-cü illər) hökmdarlığa başladı. Qacarlar dövləti İranda və Cənubi**

**Azərbaycanda 1925-ci ilə kimi mövcud oldu. Amma Qacarlar sülaləsinin sonrakı hökmdarlarından heç biri Ağaməhəmməd şahın səviyyəsinə qalxa bilmədi.**

# *Mövzu 8. I və II Rus-İran müharibələri.Komendant idarə üsulu*

**XVIII-XIX əsrlərin hüdudlarında Rusiya xarici siyasətinin əsas istiqamətlərindən biri Cənubi Qafqnazın istilasından ibarət idi. Çarizmin Cənubi Qafqazı əlavə gəlir mənbəyinə çevirməyə Xəzəri Rusiyanın daxili dəniz etməyə və faydalı qazıntıları artıq rus elminə məlum idi, rus hökuməti bu ölkənin sərvətlərinin mənimsənilməsini onun istilası ilə bağlayırdı. Bu bölgənin işğalı ənənəvi rus-türk rəqabətində qüvvələr nisbətini Rusiyanın xeyrinə həll edə bilərdi. Cənubi Qafqazın istilası dağlıların ərazilərini şimaldan və cənubdan mühasirəyə almaqdan ötrü əlverişli şərait yarada bilər, həmçinin rus-ingilis rəqabəti, Cənubi Qafqazın, o cümlədən Azərbaycanın əhəmiyyətini artırır. Rusiyanın bu yerləri işğal etməsi Böyük Britaniyanın Şərqə təsirinə, Ost-Hind kompaniyasının inhisarına ağır zərbə vura bilərdi. I Pavelin öldürülməsi, I Aleksandrın hakimiyyətə gəlişi vəziyyəti dəyişdirdi. I Aleksandr Fransa ilə əlaqələri qırdı və İngiltərə ilə yaxınlaşdı. Fransız təcavüzünün mövcudluğu şəraitində Rusiya ilə yaxınlaşmanı yüksək qiymətləndirən İngiltərə artıq İranı açıqca müdafiə edə bilmirdi. Fransa bu vəziyyətdən dərhal yararlanıb Rusiya əleyhinə müqavilə bağlamağı şah İranına təklif etdi. 1801-ci il sentyabrın 12-də Kartli-Kaxetiya çarlığının Rusiyaya birləşdirilməsi haqqında çar manifesti elan olundu. Rus qoşunları baş komandanı və mülki hakim tərəfindən idarə olunan Tiflis quberniyası yaradıldı. Azərbaycan ərazisinin də bir hissəsi – Kartli-Kaxetiya çarlığının vassal asılılığnda olan və 4 onunla birlikdə Rusiyaya birləşdirilmiş Qazax, Borçalı, Şəmsəddin sultanlıqları bu quberniyanın tərkibinə daxil edildi.rlikdə Rusiyaya birləşdirilmiş Qazax, Borçalı, Şəmsəddin sultanlıqları bu quberniyanın tərkibinə daxil edildi. 1802-ci ilin sentyabr-oktyabr aylarında**

**Qafqaz qoşunlarının baş komandanı Knorinq şimali Qafqazda Georgiyevski şəhərində siyasi və ticarət məsələləri üzrə şimali Azərbaycan xanlarının və Qafqazın digər hakimlərinin iştirakı ilə görüş keçirir. Burada 2 Azərbaycan xanlığının – Quba və Talış xanlıqlarının nümayəndələri də iştirak edir. İran şah Qarabağ və Bakı xanlığına tabe olmaq haqqında hədələyici məktublar göndərdiyinə görə digər xanlıqların nümayəndələri bu görüşdə yox idi. Müqavilədə deyilirdi ki, onu imzalayanlar öz xahişlərinə görə Rusiya himayəsinə qəbul olunurlar.Bu illərdə qədim gürcü zadəgan nəslindən çıxmış 1802-ci ilin sentyabrında Qafqazın baş komandanı təyin olunan P.D.Sisianov Cənubi Qafqazda müstəmləkə siyasətinin icraçısı oldu. Sisianov Car-Balakən camaatının ələ keçirilməsinə böyük əhəmiyyət verirdi. Belə ki, buə razi rus qoşunlarının Gürcüstandan Azərbaycanın içərilərinə doğru uzanan yolun üstündə idi. Rus qoşunları beş minlik gürcü qoşunları ilə birlikdə Car-Balakəndə yerli əhalinin müqaviməti ilə rastlaşdı. Qanya (Alazan) çay sahilindəki vuruşdan sonra yerli əhalinin müqaviməti qırıldı. General Qulyakov Balakəni yandırdı. Martın 29-da car fəth olundu.**

**1803-cü il aprelin 12-də CarBalakənin 9 nəfərdən ibarət səlahiyyətli nümayəndəsi Rusiya hakimiyyəti altına keçməsi barədə saziş imzaladılar. Sazişə görə çarlılar sədaqət əlaməti olaraq əmanətlər verməli, öz ərazilərində rus qoşunlarını yerləşdirməli idilər. Lakin camaatın itaət etmədiyini görən Qulyakov 1804-cü ilin yanvarın yenidən Cara soxuldu. Car yenə fəth olunub yandırıldı. Zaqatala yaxınlığında qanlı döyüşdə carlılar üstünlük qazandı. General Qulyakov öldürüldü.Bundan sonra İlisu sultanlığı da Rusiya təbəəliyini qəbul etməli oldu. Sultanlıqda 40-cı illərin ortalarında sultan və torpaqlarının daxili idarəsində hakimiyyəti qoruyub saxlamışdır. General Sisianov Gəncə xanlığının ələ keçirilməsinə böyük əhəmiyyət verirdi. «Gəncə qalasının yerli mövqeyi bütün Azərbaycan üzərində hökmrandır. Bax, buna görə də bu istila Rusiya üçün birinci dərəcəli əhəmiyyətə malikdir». 5 Gəncə xanlığı XVIII əsrin 90-cı illərindən rus dövləti ilə səmimi diplomatik münasibətlər saxlayırdı. Sisianovun Rusiyanın**

**himayəsini qəbul etmək tələbinə Cavad xan belə cavab verdi: «1796-cı ildə sənin padşahın fərman göndərdi, mən də onun təklifini qəbul edib qalanı təhvil verdim. Əgər indi isə sənin padşahın belə bir fərman veribsə, onun mənə göstər, mən də onun iradəsini görərək, buna uyğun hərəkət edərəm». Sisianov Rusiya hakimiyyətinin qəbul etmiş digər xanlıqlardan fərqli olaraq Gəncə xanlığına qarşı daha amansız tələblər irəli sürürdü. O, Cavad xandan ildə 20 min çervin, Şəki, Qarabağ və Şirvan xanlıqları üçün müəyyən edilmiş məbləğdən 3 dəfə çox ödənc tələb edirdi.O, 11 topu olan piyada batalyonu, 3 eskadron, 2 kazak yüzlüyündən ibarət qoşunu Gəncə üzərinə yeritdi. Bütün bu qoşunlara general Portnyagin rəhbərlik edirdi. Lazarev 1803-cü il yanvarın 9-da iki nəfər erməninin məktubuna əsaslanaraq Sisianova yazırdı: «Bütün Gəncə erməniləri rus ordusunun gəlişini səbirsizliklə gözləyirlər. Gəncə xanın ehtiyat tədbiri yalnız ondan ibarətdir ki, Şəmkirədək olan yola hər gün on nəfərlik süvari mühafizə dəstəsi nəzarət edir». Hələ 1802-ci il sentyabrın 26-da imperator Sisianov yazırdı: «Nəyin hesabına olursa-olsun Azərbaycanın bu və ya digər xanlıqlarına hücumda ermənilərdən geniş istifadə etmək lazımdır. Xüsusilə Rusiyaya daha sədaqətli erməni keşişçi Danil ola bidər». İşğal ərəfəsində Sisianovun Cavad xana sonuncu 5 məktubu, hədələyici, təhqiramiz tonda idi. Hələ Zubov Azərbaycana yürüş edərkən o, Gəncə qalasının açarını alıb gürcülərə vermişdir. Bu cavab xana çox toxunmuşdur. O, Azərbaycanı tərk edərkən çoxlu pul hesabına Gəncə qalasının açarını gürcü knyazından geri almışdı. O, həm də Cavad xan məktubu elə tonda yazırdı ki, guya Gəncə əvvəllər gürcü torpağı olmuşdur. Sisianov 1803-cü ilin dekabrında Cavad xan təslim olmaq haqqında verdiyi Ultimatuma belə cavab aldı: «Nə hədlə belə danışırsan, mən ki, sənə tabe deyiləm… Elə bu gün cavab ver» - bun ə deməkdir? Heç nökərlə də belə rəftar etməzlər. Bu bir. O ki, qaldı şəhərin təhvil verilməsinə, xam xəyaldan əl çək. 6 Gəncəyə yalnız meyidlərin üstündən kəsə bilərsən. Bildin? Mən öləndən sonra özgə cür yox». 1804-cü il yanvarın 3-də orucluq bayramı axşamı sübh çağı Gəncə qalasına hər tərəfdən od yağdırıldı. Hücum zamanı mayor Lisaneviç Cavad xanı öldürdü. Onun oğlu Hüseynqulu ağa da qəhrəmancasına həlak oldu. Lisaneviç polkovnik hərbi rütbəsi aldı. Bu həmin Lisaneviçdir ki, 1806-**

cı ildə Qarabağ hakimi İbrahim xanın 17 nəfər ailə üzvünü xaincəsinə yatdığı yerdə öldürmüşdür. Lakin günahsız qan yerdə qalmadı. O, 1825-ci il iyunun 22-də Kümüklü knyazı Musa Xasıyev tərəfindən öldürüldü. Deyilənə görə, İbrahim xanın Dağıstandakı qohumları intiqam almışlar. Gəncə ruslar tərəfindən fəth olunarkən verilən itkilər də müxtəlif mənbələrdə fərqli göstərilir. Firudin Əsədov və Sevil Kərimova «Çarizmi Azərbaycana gətirənlər» kitabının 63-cü səhifəsində yazırlar: «Gəncə döyüşündə 1500 nəfər gəncəli öldürülmüş, 800-ə qədər adam Əsir götürülmüşdür. Ruslar öldürülmüş gənclilərin meyidlərini yandırmışlar».Lakin Z.Bünyadovun redaktorluğu ilə «Azərbaycan tarixində yazılır: «Hücum zamanı xanın döyüşçülərindən 250 nəfər həlak oldu, 500-ü isə əsir alındı». Məlum olduğu kimi Cavad xanın arvadlarından Bəyim xanım şəkili Məmməd Həsən xanın bacısı idi. Buna görə də o, yanvarın 8-də Cavad xanın əsir götürülmüş ailə üzvlərini azad edib Şəkidə yaşamağına Sisianovdan icazə istəyir. Lakin türkün qəddar düşməni bunu rədd edir.1812-ci ilin fevralında Gürcüstan bölgəsi üzrə baş komandan təyin edilmiş Markiz Panluççi Abbas Mirzəyə yazır: «Gürcüstanı və ona bitişik vilayətləri idarə etməyə başlayarkən mən Yelizavetpol mərhum Cavad xanın qohum-əqrabasına rast gəldim. Öz vətəninə layiqincə xidmət edən adamları sevdiyim üçün Cavad xana hann qazandırıram. O, şəhəri müdafiə edərək, əlində silah həlak olmuşdur. Mənim Cavad xana olan dərin hisslərimi və xüsusi hörmətimi nəzərə alaraq, onun nəslindən olanların hamısına azadlıq verdim ki, İrana köçsünlər». 7 Markiz Paulluççinin qraf Rumyantsevə 7 aprel 1812-ci il tarixli məktubundan: Cavad xanın arvadlarından biri Bacı xanım Qarabağda qızının yanında qalmağı arzulamışdı. Mən ona Qarabağa köməyə izn verdim. Xanın digər arvadı Şükufə xanım, qızları Xatun bəyim, Balaca Bəyim, nəvəsi Mesaib ağa, anası Tutu, Cavad xanın oğlu Uğurlu xanın qızı və üç xidmətçisi İrana köçdülər Gəncənin alınması rus qoşunlarının digər feodal dövlətlərini tabe etmək məqsədilə Azərbaycanın içərilərinə doğru irəliləməsi üçün böyük əhəmiyyət kəsb etdi. Gəncə xanının vassal asılılığında olan Samux hakimi Şirin bəy Gəncənin süqutundan sonra Rusiyav təbəəliyini qəbul etməyə məcbur oldu. O, hər il Rusiyaya 1000 çervon, yəni 3 min manat bac verməyi öhdəsinə götürdü. Birinci

**Rusiya-İran savaşı. Gülüstan müqaviləsi 1804-cü ilin mayında «rusların sürətli uğurlarına dəhşətlə baxan» Fətəli Şah başda olmaqla İranın yuxarı feodal təbəqələri rus qoşunlarının Zaqafqaziyadan çıxarılmasını tələb etdi. Tələb rədd olundu. 1804-cü il iyulun 10-da Rusiya ilə İran arasında diplomatik əlaqələr kəsildi.İlk döyüş 1804-cü il iyulun 2-də İrəvan xanlığının ərazisində Eçmiədzin divarları yanında baş verdi. 12 topu olan 3600 nəfərlik piyada, süvari eskadronun 2 kazak yüzlüyündən ibarət rus qoşunu 20 minlik İran qoşunu ilə qarşılaşdı və gürcü süvari dəstələrinin köməyi ilə üstünlük qazandı. İkinci döyüş İrəvan yaxınlığında Qəmərli kəndinin yanında baş verdi. İran qoşunları Gəncəyə tərəf irəlilədiyindən, ruslar İrəvandan geri çəkildi.Qarabağ xanının Rusiya ilə yaxınlaşmasından həyəcana düşmüş İran sarayı İbrahim xəlil xanın oğlu Əbülfət ağanı 500 nəfərlik dəstə ilə Qarabağa göndərdi. Lakin xan oğlunun dəstəsini Dizax yaxınlığında əzdi.**

**1805-ci il mayın 14-də İbrahimxəlil xan Kürəkçay sahilində Sisianovla görüşdü və müqavilə imzalandı. Müqaviləyə görə Qarabağ xanlığı Rusiya təbəəliyinə qəbul olunur. Hər dəfə xanın varisləri çar tərəfindən təsdiq olunmalı idi. Xan nəvəsini girov kimi Tiflisə göndərməli idi. Xanlığın daxili idarəsi xanın ixtiyarında qalırdı. Şuşada rus qarnizonu 8 yerləşdirilir, xan bu silahlı qüvvəsinin zəruri ehtiyaclarını təmin etməli idi. Xan hər il öz gəlirlərindən Rusiya xəzinəsinə 8 min çervon ayırmağı öhdəsinə götürürdü.Sisianovun düşərgəsinə İbrahimxəlil xanın kürəkəni 7000 çervon verməli, inşası nəzərdə tutulan qalada rus qoşunlarını yerləşdirməli idi. İngilislərdən real kömək ala bilməyən İran şahı Fransaya kömək üçün müraciət etdi.1805-ci il yay kompaniyasının gedişində İran qoşunları Qarabağa soxulub, onu viran qoydular. Abbas Mirzə Şah-Bulaq yaxınlığında Koryaginin qoşunlarını geri oturtdu. Lakin ruslara kömək gələn kimi geri çəkildi. İyulda İran qoşunları Qazağa soxuldular. İyulun 27-də Zəyəm yaxınlığında tərəflər üz-üzə gəldilər. 1805-ci ildə hərbi əməliyyatların gedişi rusların xeyrinə oldu. Sisianov Şirvana doğru hərəkət edərkən, onun tələbi ilə İbrahimxəlil xan böyük oğlu Mehdiqulu xan başda olmaqla 1500 süvari verməyə məcbur oldu.Fit dağında**

möhkəmlənmiş Şamaxılı Mustafa xan 1805-ci il dekabrın 27-də rusların təbəəliyini qəbul etməyə məcbur oldu. İllik bacın məbləği 7000 çervon müəyyən olundu.Şamaxı xanlığının tabe edilməsindən sonra Bakıya yol açılmış oldu. Rus qoşunlarının komandanı Gilanı tutmaq, geri qayıdarkən isə Bakını ələ keçirmək üçün rus donanmasını Xəzərə göndərməyi qərara aldı.Rəşti tutmaq üçün uğursuz cəhddən sonra avqustun 17-də Zavalişin Bakı qalasını atəşə tutdu. Avqustun 29-da xanlığın mühüm strateci məntəqələri tutuldu.Lakin Abbas Mirzə Urmiyalı Əsgər xana Bakı xanına kömək üçün dərhal qoşunla hücuma keçməyi əmr etdi. General Zavalişin bunu eşidib qorxaraq Lənkəran yaxınlığındakı Sara adasına çəkildi. 1806-cı il fevralın əvvəllərində Sisianov Bakının 2 km-də general Zavalişinin desant dəstələri ilə birləşərək qalanın təslim edilməsini əmr etdi. Bakılı Hüseynqulu xan Rusiyanın şərtlərini qəbul etməyə məcbur oldu.Xan gəlirlərini Rusiyaya göndərməli, hələ 10 min manat məvacib almalı idi. Xanlıqda 600-100 nəfərlik rus silahlı dəstəsi saxlanılmalı idi. Xarici siyasət və hərbi məsələlərdə xan Rusiyaya tabe idi. Fevralın 8-də Sisianov polkovnik Eristavinin müşayiəti ilə xanla görüşmək üçün qala divarlarına yaxınlaşdı. Bu zaman Hüseynqulu xanın əmisi oğlu İbrahim 9 bəy tərəfindən öldürüldü.Yenə də cənubi Qafqazda vəziyyət mürəkkəbləşir. Dağıstan hakimləri Azərbaycana qarət məqsədilə soxulur.1806-cı il iyunun 8-də Şahbulaqla Əsgəran arasında Rusiya İran qoşunları toqquşdu. İran sərbazları sıxışdırıldı. İbrahimxəlil xan Şuşada yerləşən rus qarnizonunun komandiri mayor Lisaneviçlə razılığa gəlmişdir ki, ruslar köməyə gələnədək xan iranlılarla mülayim davransın. Xan İran qoşunlarının Şuşa qalasına lap yaxınlaşdığını görüb ailəsini Xankəndinə köçürdü. Lakin naməlum şəraitdə ailə üzvləri ilə birgə qətlə yetirildi.1806-cı ilin yay kompaniyası rus qoşunlarının uğurları ilə başa çatdı.

1806-cı ilin iyunundan 22-də Dərbəndi tutdular, sonra general Bulqaxovun komandanlığı altında Bakıya doğru yönəldilər. Hüseynqulu xan öz nümayəndə heyətini şəhərin bayrağı, qalanın açarı və duz-çörəklə birgə Bulqaxovun yanına göndərdi, özü isə qisasdan qorxaraq ailəsi ilə birlikdə Qubaya, oradan da İrana

**qaçdı. Tezliklə Quba xanı da qaçdı. Dərbənd və Quba xanlıqları Tərki Şamxalının ixtiyarına verildi.1806-cı il oktyabrın 22-də Şəki xanlığında üsyançılarla rus qoşunları arasında ağır döyüş baş verdi. Şəkililər məğlub oldu. Səlim xan İrana qaçdı. Tezliklə, Car-Balakəndəki üsyan da ruslar tərəfindən yatırıldı.Çar hökuməti heç nəyi İrana güzəştə getmək fikrində deyildi, üstəlik, Naxçıvan və İrəvan xanlıqlarını tələb edirdi.Fransanın təhriki ilə 1806-cı ilin sonunda Türkiyə Rusiyaya qarşı müharibəyə başladı. İlk qanlı döyüş Gümrü yaxınlığında baş verdi. 1807-ci il iyunun 8-də osmanlı qoşunları məğlub edildi. 1807-ci il mayın 4-də Fransa-İran müqaviləsi imzalanır. Müqavilə İrana hərbi köməyə nəzərdə tuturdu. Eyni zamanda 1807-ci ildə Fransa-Rusiya arasında Tilzit sülhü imzalanır. 1809-cu ildə İngiltərə Fransanı bölgədən sıxışdıraraq İranla müqavilə bağladı. İngilislər müharibə müddətində İrana hər il 120 min funt sterlinq maliyyə yardımı göstərməyi boyun oldu. 1808-ci ilin kompaniyası ruslar üçün uğursuz başa çatdı və Qudoviç istefa verdi. 1809-cu ildə Gəncə və Talış xanlığı İran qoşunları tərəfindən talan edildi.1810-cu ildə İran qoşunları Qarabağda, Pəmbəkdə, Meğri istiqamətində ruslar tərəfindən məğlubiyyətə 10 uğradıldı. 1810-cu ilin avqustunda İranla-Türkiyə arasında Rusiya əleyhinə hərbi ittifaq bağlandı. Bunun da köməyi olmadı. İran sərbazları Ahal Kələki yaxınlığında darmadağın edildi.**

**1812-ci ildə Şahbulaq və Sultanbud istiqamətində iranlılar uğur qazandı. Bu zaman rus qoşunları rus-türk müharibəsinin Qafqaz və Balkan cəbhələrində bir sıra uğurlar qazandı. M.İ.Kutuzovun Balkanlardakı qələbəsi xüsusən təsiredici idi. Odur ki, 1812-ci il mayın 16-da Buxarestdə Rusiya və Türkiyə arasında sülh imzalandı. Türkiyə Zaqafqaziyanın böyük bir hissəsinin Rusiya tərəfindən işğalını təsdiq etdi. Artıq Fransa ilə müharibə labüd olduğuna görə Rusiya və İranla sülh müqaviləsi imzalamaqda maraqlı idi.Aslandüşdə rus qoşunlarının qələbəsi və Kotlyarevskinin başçılığı ilə Lənkəran qalasının alınması Rusiya-İran müharibəsinin taleyini həll etdi. 1813-cü il oktyabrın 12-də Qarabağda Gülüstan kəndində Rusiya ilə İran arasında sülh müqaviləsi imzalandı. Müqaviləni İran tərəfindən Mirzə Əbdülhəsən xan Şirazi, Rusiya tərəfindən isə Qafqazın yeni baş**

**komandanı Rtişşev imzaladı. Sülhə görə İrəvan və Naxçıvan xanlıqları istisna olmaqla, digər şimali Azərbaycan xanlıqları Rusiyanın himayəsinə keçdi. İran təkcə Rusiyanın Xəzərdə hərbi donanma saxlamaq hüququnu tanıdı. 5%-li gömrük tarifi qoyuldu. Bu o demək idi ki, rus tacirləri üçün İrana yol açılırdı.İran həmçinin Şərqi Gürcüstana, Qazax və Şəmşəddil sultanlıqlarına, habelə Dağıstana olan iddialarından əl çəkdiyini bildirirdi. İranın daxilində isə rus tacirləri daxili gömrük rüsumlarından azad olunurdu. Gülüstan müqaviləsi Azərbaycanın Rusiya tərəfindən iki yerə bölünməsinin başlanğıcını qoydu. Şimali Azərbaycanın Rusiya tərəfindən istilasının 1-ci mərhələsi başa çatdı. 11 İkinci Rusiya-İran savaşı. 1828-ci il Türkmənçay sülh müqaviləsi İngiltərə hər vasitə ilə İranı Rusiya ilə yeni müharibəyə təhrik edirdi. 1814-cü il noyabrın 25-də Tehranda İngiltərə ilə İran arasında müqavilə bağlandı. Bu müqavilə Rusiyaya qarşı yönəlmişdir.**

**Müqaviləyə görə İran şahı İran sərhədləri tərəfindən Hindistanın təhlükəsizliyini təmin etməyi öz öhdəsinə götürürdü. Həmçinin ingilislər İrana maliyyə və hərbi yardım göstərməkdə davam edirdi.1817-ci ildə Qafqazdakı rus qoşunlarının komandanı İrana səfər edərkən çox soyuq qarşılandı və bir daha əmin oldu ki, İranı danışıqlar yolu ilə Rusiya ilə müharibədən yayındırmaq mümkün olmayacaq. Bu ərəfədə həm ingilislər, həm fransızlar İran ordusunu gücləndirməklə məşğul idilər.1823-cü ildə İran və Türkiyə arasında müqavilə imzalanır. 1825-1826-cı illərdə isfahana 200 tay ingilis silahı, həmçinin Hindistandan daha 15 min tüfəng göndərilir. 1826-cı ildə general Menşikovun başçılıq etdiyi heyət Tehrana gəldi. Çarın sərəncamı ilə Menşikov Qarabağın və Talış xanlığının bir hissəsini güzəşt etməyə hazır idi. Çünki beynəlxalq vəziyyət Rusiya üçün əlverişsiz idi. Menskinin başçılıq etdiyi heyət həqarət və təhqirlərdən sonra ancaq avqustun sonunda İrandan çıxa bildilər.1826-cı il iyulun 19-da Abbas Mirzənin 60 minlik ordusu Şimali Azərbaycana soxuldu. Plana görə vəliəhd qəflətən Qarabağa soxulmalı, Şuşanı ələ keçirməli, sonra isə Gəncəni tutub Tiflisə hücum etməli idi. Gürcü şahzadəsi Aleksandr isə Kaxetiyaya girməli, Car-Balakən dəstələri ilə birləşib, şimal-şərqdən Tiflis üzərinə yerimәli idi. Qazax-Şəmşəddil**

**istiqamətinə rus qoşunlarını geri otuzdurub, bütün Qarabağ mahallarını ələ keçirən İran qoşunları Şuşanı mühasirəyə aldılar. Onlara ingilis, fransız və italyan mühəndisləri kömək edirdi. 48 gün davam edən mühasirə nəticəsiz qaldı. Hüseynqulu xanın rəhbərliyi ilə Bakı qalasını ələ keçirmək cəhdləri də iranlılara uğur gətirmədi.İran qoşunları Şamaxıda da güclü müqavimətə rast gəldilər. Mustafa xan Yeni Şamaxını ələ keçirsə də, bütün əhalinin dəstəyinə 12 baxmayaraq köhnə Şamaxını ələ keçirə bilmədi.**

**Abbas Mirzə Şuşa ətrafında olarkən, İran ordusunun digər, qruppu Gəncəni ələ keçirdikdən sonra, Tiflisə tərəf hərəkət etdi. 1826-cı il sentyabrın 3-də Şamxorçay yaxınlığındakı qanlı döyüşdə erməni Madatavun rəhbərlik etdiyi rus qoşunları İran ordusunu ağır məğlubiyyətə düçar etdi. İranlılara Abbas Mirzənin oğlu başçılıq edirdi. Şuşada da İran ordusu pərənpərən olub uduzdu.Bundan sonra düşmən tərəflər Gəncə yaxınlığında üz-üzə dayandılar. Artıq baş komandan Yermolova Paskeviç əvəz etmişdir. Nizami məqbərəsi yaxınlığında qanlı döyüş baş verdi. Seçmə şah qoşunu darmadağın edildi. İranlılar 1000 nəfərdən çox itgi verərək, Xudafərin körpüsü istiqamətində Qarabağdan keçərək qaçdılar. Gəncə döyüşü II rus-İran savaşının taleyini demək olar ki, həll etdi. Şah qoşunu ilə birlikdə öz hakimiyyətlərini bərpa etməyə ümid bəsləyən xanlar və feodallar Azərbaycanı tərk etdilər.**

**1826-cı ildə Abbas Mirz əvə Şahzadə Aleksandrın Şəki və Dağıstanda əhalini üsyana qaldırması da bir nəticə vermədi.1827-ci ilin əvvəllərində İran sərbazları bütün Şimali Azərbaycan ərazisini tərk etdilər. Yalnız Talışda hələlik Mirhəsən xan qalırdı.1827-cu ilin yanvarında Madatovun başçılıq etdiyi rus qoşunu Meskin dairəsinə daxil oldu. Apreldə Rus qoşunları iki istiqamətdə irəliləməyə başladı. Aprelin 20-də Xudafərin körpüsü ələ keçirildi. Digər ordu qruppu İrəvan qalasını mühasirəyə aldı. Mühasirə 2 ay davam etdi. Qüvvə az olduğuna görə, ruslar geri çəkilərək Naxçıvanı döyüşsüz ələ keçirdi. Şah hakimiyyətinin Naxçıvan xanlığında ayağı olan Abbasabad qalası yaxınlığında cavanbulaq adlanan yerdə döyüş baş verdi. İyulun 7-də Abbasabad qalası təlsim oldu. Rus qoşunları 13 avqustda**

**Alagöz dağının ətəklərində, avqustun 17-də Uşağan adlanan yerdə iranlılarla iri döyüşlərə girərək İrəvana yaxınlaşdı. Xeyli ehtiyac ərzağın saxlandığı Sərdarabad qalası ruslar tərəfindən mühasirəyə alındı. Burada yaşayan 3 min erməni bütün vasitələrlə rus qoşunlarına yardım edirdi. Oktyabrın 1-də qanlı döyüşdən sonra İrəvan qalası ələ keçirildi. Oktyabrın 2-də Mərənd döyüşsüz ələ keçirildi. 13 1827-ci il oktyabrın 13-də rus qoşunu Təbrizə daxil oldu.**

**Təbrizin ələ keçirilməsi ilə Tehrana yol açılmış oldu. İ.Q.Burtsev Təbriz komendantı təyin edildi. Təbrizin və bütün Cənubi Azərbaycanın idarə olunmasına dair təlimat A.S.Qriboyedov tərəfindən tərtib edilmişdir. Cənubi Azərbaycanın feodal hakimləri Paskeviçə Tehranı tutmaq xahişi ilə müraciət etdilər. Lakin dağlıların azadlıq hərəkatı geniş vüsət alması və Rusiya-Türkiyə müharibəsinin reallaşması təhlükəsi Rusiyanı İranla müharibəni başa çatdırmağa sövq edirdi. 1827-ci il noyabrın 7-də tərəflər arasında danışıqlar başlandı. Rusiya İrəvan və Naxçıvan xanlıqlarının ona güzəştə gedilməsini, İran qoşununun Talış xanlığını tərk etməsini və gümüş pulla 30 milyon manat təzminat verilməsini təklif edirdi. Şah sarayı isə rus qoşunlarının Azərbaycan ərazisindən çıxarılmasını tələb edirdi. Lakin ingilis diplomatiyasının təhriki və Türkiyənin təzyiqi altında danışıqlar kəsildi. 1828-ci il yanvarın 24-də Paskeviç rus qoşununa Ərdəbil və Tehran istiqamətində hərəkət etməyi əmr etdi. Urmiya və Ərdəbil tutuldu. İranın tamamilə darmadağın ediləcəyindən ehtiyatlanan Britaniya səfiri Makdonald döyüşən tərəflər arasında vasitəçilik etdi. 1828-ci il fevralın 6-da (18) Təbriz yaxınlığındakı Türkmənçay kəndində Abbas Mirzə ilə Paskeviç arasında sülh danışıqları yenidən başlandı. Rus hökuməti Paskeviçin qarşısında Şahdan Cənubi Azərbaycan ərazisinin də Rusiyaya birləşdirilməsini tələb etmək vəzifəsini qoymuşdur. A.S.Qriboyedov da bu fikrə tərəfdar çıxdı. İngilis diplomatiyası bütün gücünü ona sərf edirdi ki, Rusiya özünün Cənubi Azərbaycana olan iddialarından əl çəksin. Müqavilə 1828-ci il fevralın 10-da (22-də) imzalandı. Türkmənçay sülh müqaviləsinə görə İran Şimali Azərbaycana olan öz iddialarından əl çəkir, onun üzərində Rusiya hakimiyyətini tanıyırdı.**

**Cənubi Azərbaycan isə İranın himayəsində qaldı. Azərbaycan iki yerə bölündü. Azərbaycanın İrandan alınması ingilislərin qüdrət və nüfuzunun daha da sarsılması demək idi. Onlar bu bölgənin hərbi strateci mövqeyin mühüm əhəmiyyət verirdilər. İngilis diplomatiyasının bu siyasət digər səbəblərlə birlikdə Azərbaycanın, onun xalqının ikiyə bölünməsində mühüm rol oynadı.Türkmənçay 14 müqaviləsi 16 maddədən ibarət idi. İran və Rusiya arasında sərhəd xəttini dördüncü, Gülüstan müqaviləsi də daxil olmaqla İrəvan və Naxçıvan xanlığının Rusiyaya güzəştə getdiyini beşinci maddə müəyyən edirdi.Səkkizinci maddəyə görə Xəzər dənizində hərbi donanma saxlamaq hüququ ancaq Rusiyaya verilirdi. Bu maddə Xəzərə can atan ingilislərin mənafeyinə ciddi zərbə idi. Onuncu maddə ilə Rusiyaya İranın istədiyi şəhərində diplomatik nümayəndəlik açmaq, onlara ticarət etmək hüququ verilirdi. Müqaviləyə əsasən, İran Rusiyaya 20 milyon manat məbləğində hərbi təzminat ödəməli idi. Müqaviləyə əsasən əhalinin Cənubi Azərbaycandan Cənubi Qafqaza və əksinə sərbəst hərəkət etməsinə icazə verilirdi. Bununla da ermənilərin kütləvi şəkildə Azərbaycana köçürülməsinə başlanıldı. Təkcə 1826-1828-ci illər rus-türk müharibəsinin gedişində İrandan və Cənubi Azərbaycan ərazilərindən Zaqafqaziyaya, o cümlədən Qarabağa 18 min erməni ailəsi köçürülürdü. 1828-1830-cu illərdə Zaqafqaziyaya 40 mindən çox İran və 84000 Türkiyə ermənisi köçürüldü və onlar Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı torpaqlarında yerləşdirildi, onlara 200 min desbatindən çox xəzinə torpağı ayrıldı.Türkmənçayda rus tacirlərinə bir sıra üstünlüklər verən və xüsusi «akt» adlandırılan ticarət sazişi bağlandı.**

**Türkmənçay sülh müqaviləsi XIX yüzilliyin birinci qərinəsindən Rusiya-İran müharibəsinə son qoydu və İranın Cənubi Qafqaza və Dağıstana olan iddialarından imtina etdi. Mövzu 2. Komendant idarə üsulu. Müstəmləkə əsarətinə qarşı üsyanlar Hələ I Rusiya-Qacarlar müharibəsinin gedişində çar Rusiyası yerli xanlıqları ləğv etməyə başlamışdı. Rus qoşunlarına şiddətli müqavimət göstərən xanlıqların yerində başında rus zabitinin - komendantın durduğu idarə üsulu yaradıldı. Məsələn, Dərbənd, Bakı xanlıqları məhz bu cür ləğv edilmişdi. 1806-cı**

**ildə işğal olunmuş Quba xanlığında isə bir müddət yerli bəylərdən ibarət Əyalət şurası 15 fəaliyyət göstərmişdi. 1810-cu ildə müstəmləkə zülmü əleyhinə burada baş vermiş üsyan yatırıldıqdan sonra həmin şura ləğv edildi. Rusiya idarəçiliyini "könüllü" qəbul etməyə məcbur olmuş xanlıqların isə taleyi bir qədər fərqli idi. Qarabağ, Şəki, Şirvan və Lənkəran xanlıqlarında yerli idarəçilik bir müddət saxlanılmışdı. Lakin Cənubi Qafqazdakı rus məmurları onların mövcudluğuna, yerli idarəçiliyin qalmasına uzun müddət dözmək fikrində olmadıqlarını tezliklə büruzə verdilər. 1819-cu ildə sonuncu Şəki xanı İsmayıl xan zəhərlənərək öldürüldü və xanlığın varlığına son qoyuldu. 1820-ci ildə Şamaxı, bundan iki il sonra isə Qarabağ xanlığı ləğv edildi. Rusiyaya sədaqəti ilə seçilən Lənkəran xanlığını da eyni aqibət gözləyirdi. Yüksək rütbəli rus məmurlarının xüsusi göstərişi və bunu yerinə yetirən komendantın təzyiqi nəticəsində 1826-cı ildə Mirhəsən xan da xanlığı tərk etməyə məcbur oldu. Beləliklə, Lənkəran xanlığının da varlığına son qoyuldu. Bu tədbirlərlə çar Rusiyası XIX əsrin əvvəllərində imzalanmış müqavilələrin xanlıqların işğalı prosesində həyata keçirilmiş taktiki addım olduğunu bir daha əyani şəkildə nümayiş etdirdi. 1828-ci ilin martında daha bir tarixi haqsızlıq baş verdi. Çar I Nikolayın fərmanı ilə Naxçıvan və İrəvan xanlıqlarının torpaqlarını əhatə edən qondarma "erməni vilayəti" yaradıldı. Bu addım həmin xanlıqların rəsmən ləğv olunması ilə yanaşı, gələcəkdə tarixi Azərbaycan torpaqları hesabına erməni dövlətinin təşkilinə zəmin hazırladı. Beləliklə, rus işğalından sonra keçən qısa zaman ərzində yerli idarəetmə sistemi bütünlüklə yeni hərbi idarə üsulu ilə əvəz edildi. Onun yerində rus zabitləri - komendantlar tərəfindən idarə olunan əyalətlər, dairələr və distansiyalar yaradıldı. Komendantları Qafqazın Baş hakimi təyin edirdi. Onlara geniş səlahiyyətlər verilmişdi.**

**İdarə etdikləri ərazilərdə bütün mülki və hərbi idarəçilik komendantların əllərində cəmlənmişdi. Onlar hətta məhkəmələrə də sədrlik edirdilər. Bu isə misli görünməmiş özbaşınalıqlara, əhalinin soyulub-talanmasına şərait yaradırdı. Əyalətlər mahallara, mahallar isə ənənəvi olaraq kəndlərə bölünürdü. Mahalları**

naiblər, kəndləri isə kəndxuda və ya yüzbaşılar idarə edirdi. Naiblər və kəndxudalar, əsasən, vergilərin yığılması və komendantlara 16 göndərliməsi ilə məşğul olurdular. Naib və ya kəndxuda vəzifəsinə təyin edilənlərin Rusiyaya sədaqəti əsas götürülürdü. Dövlətdən heç bir maaş almayan bu vəzifə sahiblərinə çar hökuməti yalnız bəzi imtiyazlar vermişdi. Qarabağ, Şəki, Şirvan və Lənkəran əraziləri mərkəzi Şuşa olan Müsəlman Əyalətləri Rəisliyində birləşdirilmiş, Bakı və Quba isə Dərbənddə yerləşən Hərbi Dairə Rəisliyinə tabe etdirilmişdi. Rus işğalı məhkəmə sistemində də mühüm dəyişikliklərə səbəb oldu. Ənənəvi şəriət məhkəmələri öz əvvəlki rolunu itirdi. Bu məhkəmələrin səlahiyyətləri evlənmə-boşanma (kəbin-talaq) və vərəsəlik məsələləri ilə məhdudlaşdırıldı. Əvəzində yeni yaradılan əyalət və şəhər məhkəmələrinə geniş səlahiyyətlər verildi. Bu məhkəmələrdə verilən qərarlar qayda-qanundan daha çox onlara sədrlik edən komendantların iradəsindən asılı idi. Məhkəmələr rus dilində aparılır, bu isə dili bilməyən yerli əhali üçün böyük problemlər yaradırdı. Ən böyük ədalətsizliklərdən biri də mülki cinayətlərə hərbçilər üçün yaradılmış səhra məhkəmələrində baxılması idi. Çarizmin köçürmə siyasəti Bir tərəfdən Osmanlı dövləti, digər tərəfdən Qacarlar İranı ilə əhatə olunan Cənubi Qafqazın əhalisinin, əsasən, müsəlmanlardan ibarət olması çarizmin müstəmləkəçi maraqlarına cavab vermirdi.

I Pyotrun vəsiyyətlərindən kənara çıxmayan rus çarizmi ermənilərin Şimali Azərbaycana köçürülməsinə xüsusi diqqət ayırırdı. Xristianları Cənubi Qafqaza köçürməkdə çarizmin bir sıra məqsədləri var idi: 1. İşğal edilmiş ərazidə yaşayan əhalinin mütləq çoxluğunu müsəlmanlar təşkil etdiyindən Osmanlı və Qacarlar dövlətlərinə meyil göstərməyən və Rusiya imperiyasına sədaqətlə xidmət edəcək qeyri-müsəlmanları yerləşdirməklə özünə etibarlı sosial dayaq yaratmaq; 2.Xristian əhalini qonşu müsəlman dövlətləri ilə sərhəddə yerləşdirməklə bufer zona yaratmağa nail olmaq, yerli müsəlman-türk əhalinin müsəlman Şərqi ilə əlaqələrini zəiflətmək; 17 3. Xristianlaşdırma və ruslaşdırma siyasətini həyata keçirmək; 4. Regionun iqtisadi fəthini sürətləndirmək və xəzinənin gəlirlərini

artırmaq. Bu məqsədlərə çatmaq üçün çarizm erməni faktoruna xüsusi diqqət ayırmışdı. Erməni kilsə xadimləri və rus ordusunda xidmət edən erməni mənşəli zabitlər vasitəsilə Qacarlar və Osmanlı dövlətləri ərazisində yaşayan bu xalqın nümayəndələri arasında Qafqaza köçürülmə ilə bağlı təbliğat aparılırdı. Çar hökuməti onlara Azərbaycan torpaqları hesabına dövlət yaradacağı vədini də vermişdi. Ermənilərin Qacarlar İranından Şimali Azərbayana köçürülməsi 1804-cü ildən başlayaraq mərhələ-mərhələ həyata keçirildi. 1804-cü ildə Yelizavetpol qəzasına 105 erməni ailəsi, 1805-ci ildə isə 1300 erməni köçürüldü. General Sisianov hətta 1600 aysoru da Şimali Azərbaycanda yerləşdirdi.

Ermənilərin kütləvi şəkildə Cənubi Qafqaza gətirilməsi Türkmənçay və Ədirnə müqavilələrindən sonra daha geniş vüsət aldı. Almanların Qafqaza köçürülməsi. Çarizmin köçürmə siyasətində almanlar da mühüm yer tuturdular. XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Almaniya siyasi dağınıqlıq dövrünü keçirməklə yanaşı, ağır iqtisadi böhran içərisində idi. Napoleon müharibələri də ölkədən yan ötmədi. Məhz belə bir dövrdə Rusiya alman əhalisinin hərbi cəhətdən fəth edilmiş Qafqaz torpaqlarında yerləşdirilməsinə ciddi diqqət ayırdı. Almaniyanın cənubundakı Vürtemberq knyazlığı, Baden Napoleon müharibələrindən daha çox zərər görmüşdü. Alman köçkünlərinin Qafqaza köçürülməsi prosesi 1817– 1818-ci illərdə başladı. Onların içərisində savadlı mühəndislərin, bacarıqlı sənətkarların,kəndlilərin olması da rus çarizminin Qafqazla bağlı iqtisadi maraqları ilə üst-üstə düşürdü. Cənubi Qafqazın zəngin təbii ehtiyatlarını səmərəli şəkildə mənimsəməyə, həmçinin bölgədə xristian ünsürlərinin mövqeyini gücləndirməyə çalışan Rusiya almanların burada yerləşdirilməsində daha maraqlı tərəf idi. Azərbaycanda ilk alman koloniyası (məskəni) indiki Göygöl rayonu ərazisində yaradılan Yelenendorf oldu. Bir qədər sonra isə Şəmkir yaxınlığında Annenfeld koloniyası da təşkil edildi. 18 Azərbaycanda rus məskənləri

Çar hökuməti ruslaşdırma siyasətinə uyğun olaraq Azərbaycana rusların köçürülməsini də diqqətdə saxlayırdı. İlk vaxtlar burada xidmət edən əsgərlərin xidmət müddətini başa vurduqdan sonra Azərbaycanda məskunlaşdırılmasına

**cəhd edilsə də, bu alınmadı. Rus əsgərləri özləri üçün yad olan iqlimdə yaşamaq istəmirdilər. Əvəzində I Nikolay 1830-cu il oktyabrın 20-də rus kəndlilərinin Şimali Azərbaycana köçürülməsi haqqında fərman verdi. Bu fərmanla Azərbaycanda ilk rus məskənləri yaradıldı. Sonrakı dövrlərdə də rusların Azərbaycanın şimal torpaqlarında yerləşdirilməsi prosesi davam etdirildi. Ən münbit torpaqlar, həmçinin yerli əhalinin yaylaq kimi istifadə etdiyi ərazilər gəlmələrə verildi. Müstəmləkə zülmünə qarşı xalq üsyanları XIX əsrin 30-cu illərində Şimali Azərbaycanı üsyanlar bürüdü. Bu üsyanlarda əhalinin bütün təbəqələrinin iştirakı və onlara hakim zümrənin nümayəndələrinin başçılıq etməsi azərbaycanlıların çarizmin müstəmləkə zülmü ilə barışmazlığının göstəricisi idi. Rus çarizminin Şimali Azərbaycanda apardığı milli dini ayrıseçkilik, ruslaşdırma, xristianlaşdırma siyasəti, köçürülmələr nəticəsində yerli əhalinin münbit torpaqlarını, xüsusilə yaylaqlarının xeyli hissəsini itirməsi, komendant özbaşınalıqları, vergi və mükəlləfiyyətlərin çoxluğu əhalidə kəskin narazılıq doğururdu. Şimali Qafqazda dağlı xalqlarının Rusiyanın müstəmləkə zülmünə qarşı mübarizəsi də Azərbaycanda alovlanan üsyanlara müəyyən təsir göstərmişdi. Hər bir üsyanın özünəməxsus cəhətləri də var idi.**

# *Mövzu 9. XIX əsrin 30-cu illərində üsyanlar.XIX əsrin 40-70-ci illərində islahatlar*

**XIX əsrin 30-cu illərində Şimali Azərbaycanı üsyanlar bürüdü. Bu üsyanlarda əhalinin bütün təbəqələrinin iştirakı və onlara hakim zümrənin nümayəndələrinin başçılıq etməsi azərbaycanlıların çarizmin müstəmləkə zülmü ilə barışmazlığının göstəricisi idi. Rus çarizminin Şimali Azərbaycanda apardığı milli dini ayrıseçkilik, ruslaşdırma, xristianlaşdırma siyasəti, köçürülmələr nəticəsində yerli**

**əhalinin münbit torpaqlarını, xüsusilə yaylaqlarının xeyli hissəsini itirməsi, komendant özbaşınalıqları, vergi və mükəlləfiyyətlərin çoxluğu əhalidə kəskin narazılıq doğururdu. Şimali Qafqazda dağlı xalqlarının Rusiyanın müstəmləkə zülmünə qarşı mübarizəsi də Azərbaycanda alovlanan üsyanlara müəyyən təsir göstərmişdi. Hər bir üsyanın özünəməxsus cəhətləri də var idi.**

**XIX əsrin 30-cu illərində baş vermiş üsyanlar yatırılsa da, onları doğuran sosial-iqtisadi və siyasi səbəblər qalmaqda idi.Azərbaycanda çarizmin iqtisadi siyasətinin həyata keçirilməsi, diyarın təbii ehtiyatlarının mənimsənilməsi cəhdləri, bəzi digər amillərlə yanaşı, komendant idarə üsulunun təsiri altında ləngidilirdi. Hətta çar məmurlarının etirafına görə, bu idarəçilik üsulu dövlət xəzinəsinə xeyli ziyan da vururdu. Həmçinin çarizmin Cənubi Qafqazda öz hökmranlığını möhkəmləndirməsinə nail olmaq cəhdi komendant idarə üsulunun ləğvini və onun yeni sistemlə əvəz olunmasını tələb edirdi. 1840-cı il aprelin 10-da I Nikolay tərəfindən "Zaqafqaziya (Cənubi Qafqaz – red.) diyarının idarə olunması üçün təsisat" adı altında inzibati məhkəmə islahatı layihəsi təsdiq olundu. Bu islahat 1841-ci il yanvarın 1-dən qüvvəyə mindi. Cənubi Qafqazın inzibati quruluşu dəyişdirilərək Ümumrusiya inzibati ərazi bölgüsünə uyğunlaşdırıldı. Komendant idarə üsulu ləğv edildi. İslahat nəticəsində Cənubi Qafqaz diyarı mərkəzi Tiflis olan Gürcüstan-İmeretiya quberniyasına və mərkəzi Şamaxı olan Xəzər vilayətinə bölündü. Quberniya və vilayət qəzalara ayrıldı. Qəzaların tərkibində nahiyələr yaradıldı ki, onların da çoxu keçmiş mahalların ərazilərinə uyğun gəlirdi. Nahiyələrin sayı və sahələri Qafqaz çar hakimiyyət orqanları tərəfindən təsdiq 20 olunurdu. Bu zaman əhalinin milli tərkibinə və iqtisadi özünəməxsusluğuna məhəl qoyulmurdu. Cənubi Qafqazın ali idarəçiliyi buradakı qoşunların komandanının – Baş hakimin əlində cəmlənmişdi. Baş hakim general-qubernatora nisbətən daha geniş səlahiyyətlərə malik idi. Həm qubernator, həm də vilayət rəisi vəzifələrinə çarın fərmanı ilə yalnız ruslar təyin edilirdi. 1840-cı il 10 aprel qanunu Cənubi Qafqazın məhkəmə sistemində mühüm dəyişikliklər etdi. Qəza məhkəməsi**

**hakimlərdən və vergi verən təbəqələrdən seçilən iclasçılardan ibarət idi. Mülki işlərə hərbi məhkəmələrdə baxılması qaydası ləğv edildi.**

**Ümumimperiya qanunlarına əsaslanan quberniya, vilayət və qəza məhkəmələri yaradıldı. Bütün kargüzarlıq işləri yalnız rus dilində aparılırdı. 1840-cı il qanunu ilə şəriət məhkəmələrinin əlində yenə də yalnız nikah və vərəsəlik işlərini həll etmək hüququ saxlanılmışdı. Buna baxmayaraq, Şimali Azərbaycanın yerli sakinləri bütün mülki-hüquqi mübahisələrə görə şəriət məhkəmələrinə üz tutmaqda davam edirdilər. Azərbaycanlı məmurlar inzibati idarələr və məhkəmələrdən çıxarılır, onların yerinə rus məmurları təyin olunurdu. Çarizmin 1841-ci il tarixli qərarı ilə Qazax, Şəmşəddil və Borçalı nahiyələrinin ağaları, Xəzər vilayətinin bəyləri kəndlərin idarəçiliyindən kənarlaşdırıldı. Bəylər və ağalar tiyul torpaqlarından məhrum edildilər. Bu qərar böyük narazılıqlara və çıxışlara səbəb olduğundan 1842-ci ildə torpaqların müsadirəsi dayandırıldı. Çarizm tərəfindən 1840-cı illərin əvvəllərində elan olunmuş, yerli feodallarla münasibətlərin kəsilməsinə yönəldilmiş siyasət uğursuzluqla nəticələndi. Yeni inzibati-ərazi bölgüsü Çar hökuməti dağlılarla müharibəni tezliklə başa çatdırmaq və Qafqazda öz mövqeyini möhkəmləndirmək üçün 1844-cü ildə Cənubi Qafqaz diyarının Baş idarəsi əvəzinə, Qafqaz Canişinliyini təsis etdi. Canişin mütləqiyyətin "ali hüquqları"nın başlıca keşikçisi idi və ona müstəsna dərəcədə geniş səlahiyyətlər verilmişdi. Qraf Mixail Vorontsov Qafqaz canişini təyin olundu. Diyarın inzibatiərazi qurumunda aparılan dəyişikliklər də Cənubi Qafqazda çar hakimiyyətinin güclənməsinə xidmət edirdi. 1846-cı il 14 dekabr tarixli fərmanla Gürcüstan- 21 İmeretiya quberniyası və Xəzər vilayətinin yerində 4 quberniya yaradıldı. Bu quberniyalar aşağıdakılar idi: 1.Tiflis; 2.Kutais; 3.Şamaxı; 4. Dərbənd. Bir qədər sonra – 1849-cu ildə isə İrəvan quberniyası formalaşdırıldı. Lakin bu inzibati-ərazi quruluşu da Azərbaycan və gürcü torpaqlarını nəinki müvafiq quberniyaların hüdudlarında birləşdirdi, əksinə, daha da parçaladı. Beləliklə, inzibati-məhkəmə sistemində edilmiş dəyişikliklər zəhmətkeş kütlələrin**

**vəziyyətini yüngülləşdirmək əvəzinə, sosial və milli əsarəti daha da ağırlaşdırdı. Çarizmin Azərbaycan zadəganları ilə ittifaqı möhkəmləndirməsi.**

**XIX yüzilliyin 40-cı illərinin əvvəllərində Azərbaycanda yaranmış şərait bu ölkədə mütləqiyyətə elə bir möhkəm sosial zəmin yaratmaq zərurətini diktə edirdi ki, ona arxalanaraq kəndliləri də əldə saxlamaq mümkün olsun. Beləliklə, yaranmış vəziyyət çarizmi yerli bəylərə, ağalara qarşı siyasətini dəyişməyə vadar etdi. 1842-ci ildə Tiflisdə ağaların şəxsi hüquqları və onların həyata keçirilməsi yollarının işlənib hazırlanması ilə məşğul olan komitə fəaliyyətə başladı. Komitənin qarşısında ağaların şəxsində elə bir "ali müsəlman silki" yaratmaq vəzifəsi qoyulurdu ki, hökumət bu vasitə ilə xalqa müvafiq surətdə təsir göstərə bilsin. Azərbaycan bəylərinin torpaq hüquqları və onların kəndlilərlə qarşılıqlı münasibəti məsələsi M.Vorontsovun canişinliyi dövründə həll edildi. Qafqaza yola düşmək ərəfəsində Vorontsovu çarın özü qəbul etdi və o, I Nikolaydan çarizmin aqrar siyasətinin başlıca istiqamətini müəyyənləşdirən göstərişlər aldı. 1843-cü ildən etibarən rəsmi sənədlərdə Azərbaycan ağa və bəyləri "ali müsəlman silki" adlandırılmağa başlandı. I Nikolay 1846-cı il dekabrın 6-da canişin adına reskript (qanun gücündə olan sənəd) imzaladı. Reskript ali müsəlman silkinin həm mülk, həm də tiyul torpaqları üzərində tam irsi mülkiyyət hüququnu təsdiq edirdi. Çar Rusiyasının zadəganları 22 kimi Azərbaycan feodalları da öz torpaqlarından imperiyanın ümumi qanunları əsasında "istifadə etmək, satmaq, bağışlamaq, irsən vermək" hüququ aldılar. Çar hökuməti bütün imperiyada olduğu kimi, feodalların silki hüquqlarının qayğısına qalaraq qeyd edirdi ki, hüquqi sövdələşmə əsasında Azərbaycan feodalları torpağı yalnız ali müsəlman silkinə verə bilərlər. Tiyul və mülkün feodal torpaq mülkiyyətinin eyni kateqoriyasına daxil edilməsi Azərbaycan feodallarının torpaq hüquqlarının güclənməsi ilə əlaqədar yeni bir mərhələnin başlanması demək idi. Sahibkar kəndliləri də formal olaraq dövlət kəndliləri təbəqəsinə şamil edildilər. Kəndli qrupları (rəiyyət, rəncbər, nökər və s.) isə ləğv edilərək ümumi adla – "mülkədar tabelisi" adlandırıldı. Bəylərə və ağalara öz kəndliləri üzərində polis və inzibati məhkəmə hüquqları verildi. Çar hökuməti**

feodalların torpaq üzərində mülkiyyət və kəndlilər üzərində inzibati hüquqlarını təsdiqləyərək bunun müqabilində özünə sədaqətlə xidmət göstərməyi tələb edirdi. 1847-ci il kəndli əsasnamələri Reskriptdə şərh olunan və torpaq sahibkarları ilə kəndlilərin qarşılıqlı münasibətlərini müəyyənləşdirən prinsiplər 1847-ci il 20 aprel və 28 dekabr tarixli "Kəndli əsasnamələri"ndə konkretləşdirildi. Bu əsasnamələrdən birincisi Şamaxı və Dərbənd quberniyalarının bəy kəndlilərinə, ikincisi isə Yelizavetpol qəzasındakı Qazax və Şəmşəddil nahiyələri ağalarının torpaqlarında yaşayan kəndlilərə aid idi. "Kəndli əsasnamələri"ndə torpaq mülkiyyətçiləri ilə kəndlilərin qarşılıqlı münasibətlərini müəyyənləşdirən, sahibkar kəndlilərinin iqtisadi və hüquqi vəziyyətinə aid bir sıra müxtəlif məsələlərə toxunulurdu. Bunlar aşağıdakılar idi: 1.Torpaq; 2.Vergi; 3. Mükəlləfiyyət. Əsasnamə torpaq mülkiyyətçilərinin üzərinə 15 yaşından yuxarı kişi cinsindən olan hər bir kəndlini taxılçılıq, maldarlıq və bostançılıq üçün yararlı olan 5 desyatinlik (desyatin – 1,36 hektar) pay torpağı ilə təmin etmək vəzifəsi qoyurdu. Qanunda kəndli mükəlləfiyyətlərinin müxtəlif növləri, ödənilməsi və yerinə 23 yetirilməsi üsulları ətraflı surətdə şərh edilirdi. Malcəhət torpaq vergisi olub məhsulun 1/10-i qədər müəyyən edilmişdi. Kəndlilər öz pay torpaqlarını sahibkarların iş heyvanı, alətləri və toxumundan istifadə edərək becərdikləri təqdirdə məhsulun 1/5 -dən çox olmayan hissəsini sahibkara verməli idilər. Əkinçiliklə və oturaq maldarlıqla məşğul olan kəndlilər mal-qaralarının sahibkar torpağında otarılması müqabilində məbləği müəyyənləşdirilməmiş xüsusi pul vergisi – çöpbaşı ödəyəcəkdilər. Əsasnamənin əsas maddələrindən biri kəndlilərin mükəlləfiyyətləri məsələsi idi. Kəndli ailələri bir nəfəri öz iş heyvanı və alətləri ilə birlikdə ildə 18 gün ərzində bəy təsərrüfatında biyara göndərmək məcburiyyətində idilər. Bundan başqa, kəndlilər ildə iki gün elliklə sahibkar üçün işləyərək (əvrəz) kənd təsərrüfatı və ya suvarma işlərini yerinə yetirməyə borclu hesab olunurdular. Əsasnamə sahibkarlara onların torpaqlarında yaşayan kəndlilər üzərində polis və məhdud məhkəmə hakimiyyəti hüququ verir, kəndlilərin "şəxsən azad və digər sahibkarın yanına keçmək hüququna malik olduqlarını" təsdiq edirdi. 1840-cı illərdə keçirilən islahatlar müstəmləkə xarakteri daşısa da, rus çarizmi ilə ali

**müsəlman silki arasında ittifaqın yaranmasına səbəb oldu. Həmçinin ağa-kəndli münasibətlərində də bir qədər qayda-qanun yaradıldı.**

# *Mövzu 10. Şimali Azərbaycan Birinci Dünya müharibəsi illərində*

**1914-cü ilin iyununda bəşəriyyət tarixində o vaxta qədər misli görünməmiş müharibə I Dünya müharibəsi başladı.Müharibənin başlamasının əsas səbəbkarları Almaniya, İngiltərə, Fransa, Avstriya –Macarıstan və Rusiya idi. Lakin Dünyanı yenidən bölüşdürüb paylmağa can atan Almaniya müharibənin əsas səbəbkarı oldu. Müharibə Avstriya-Macarıstanın Serbiyaya hücumu ilə başladı. Serbiya ilə müqaviləsi olan Rusiya iyunun 19-da ümumi səfərbərlik keçirdi. Buna cavab olaraq Almaniya Rusiyaya müharibə elan etdi. Rusiyanın Antanta üzrə müttəfiqləri Fransa və İngiltərə Almaniyaya qarşı çıxdı. Müharibə tezliklə 38 ölkəni əhatə edərək Dünya müharibəsinə çevrildi. Qafqaz, ilk növbədə isə neft Azərbaycanı da Almaniyanın işğal planlarına daxil idi.Alman məmuru Rudolf Martin 1907-ci ildə nəşr etdirdiyi"Berlin-Bağdad" adlı kitabında almanların hakimiyyəti altında Bakı və bütün Qafqazı əhatə edəcək "Tiflis canişinliyi" yaradılması planını irəli sürmüşdü. Müharibə ərəfəsində Almaniyadan Cənubi Qafqaza çoxlu kəşfiyyatçılar qrupu göndərilmişdi. Bu casuslar Almaniyanı Qafqazın və burada yaşayan xalqların müdafiəçisi kimi təqdim edirdilər. 47 Almaniyaya Cənubi Azərbaycanda da öz təsirini möhkəmləndirmək üçün, bu bölgənin strateji əhəmiyyətini nəzərə alıb, nüfuzlu yerli dairələrlə sıx əlaqələr qurmağa çalışır və Rusiyanın buradakı mövqeyini zəiflətməyə çalışırdılar. Bu planların həyata keçirilməsində Almaniyanın hərbi müttəfiqi olmuş Türkiyəyə mühüm yer verilirdi. Müharibə ərəfəsində Almaniyanın nüfuzu Türkiyədə xeyli gücləndi. Hətta 1914-cü ilin əvvələrində alman genralı Sanders Türkiyə silahlı qüvvələrinə başçılıq etməyə başladı. Almaniya Qafqazı ələ keçirmək üçün Rusiyaya qarşı Türkiyədən istifadə etməyə çalışırdı. Özünün mənafeyi ilə bağlı planları olan Türkiyə müharibəyə qoşularaq ona cihad elan etdi və bütün dünya**

müsəlmanlarını köməyə çağırdı. Qafqaz, Orta Asiya, Krım və Volqaboyunun istilası Turan imperiyasının yaradılması üçün əsas idi. Türkiyə Rusiya ilə müharibədə Qafqazdakı müsəlman xalqlarının köməyinə ümid bəsləyirdi. Lakin Türkiyə hökuməti Azərbaycanın müstəqilliyinə dair heç bir vəd vermir, onun gələcək Turan imperiyasının tərkibinə qatılmasını planlaşdırırdı.Türklərin bilavasitə vəzifəsi Qars və Sarıqamış istiqamətində rus qoşunlarını məğlub edərək Cənubi Qafqazı istila etmək idi. Lakin Sarıqamış istiqamətində türk qoşunları məğlub oldular. Türk qoşunları eyni zamanda Cənubi Azərbaycan ərazisinə girərək 1915- ci il yanvarın 1-də Təbrizi və Urmiyanı ələ keçirdilər. Lakin yanvarın sonunda rus qoşunları Türkiyəni bu yerlərdən çıxara bildi. I Dünya müharibəsinin başlanması Azərbaycan cəmiyyətinin müxtəlif təbə-qələrində ziddiyətli əks-sədaya səbəb oldu. Cəmiyyətin yuxarı sosial təbəqələri burjuaziya, mülkədarlar və liberal ziyalılar Rusiyanı müdafiə edirdilər. Eyni za-manda Dövlət Dumasının müsəlman fraksiyası da çar hökumətini müdafiə edir, bütün müsəlmanları “Rusiyanın şöhrəti və bütövlüyünün” qorunmasına çağırırdı. Mütərəqqi Azərbaycan ziyalıları müharibə nəticəsində xalq üçün geniş azadlıqlar əldə ediləcəyinə ümid bəsləyirdilər. F.X.Xoyski bu münasibətlə deyirdi: “Bu müharibənin qalibi, kim olursa olsun, bu müharibədən çoxlu yaralarla və zəifləmiş şəkildə çıxacaq. Zəifləmiş və yaralanmamış bizlər isə xahiş yox, tələb edə 48 biləcəyik. Müstəqillik, bax bizim üçün lazım olan budur, özü də böyük dövlətlər müharibədən sonra nə qədər zəif olsalar, bizim üçün azadlıq o qədər yaxşı olacaq. Bu azadlıq bizim qüvvəmizdən, bizim neftimizdən doğacaq.Çünki biz dünyaya daha çox lazımıq, nəinki dünya bizə”M.Ə.Rəsulzadə də göstərirdi ki bu müharibə əzilən ölkələrin müstəqilliyini möhkəmləndirərək sülhlə bitəcək. 1914-1915-ci ilərdə türk inisarları, habelə azərbaycanlı mühacirlər antirus təbliğatı gücləndirsələr də, bütünlükdə Azərbaycan cəmiyyəti Rusiyanın qələbəsini dəstəkləyirdilər.Milyonçulardan H.Z.Tağıyev, M.Nağıyev, Ş.Əsədullayev, H.Hacinski və başqaları bu müharibəyə çoxlu miqdarda ianələr verirdilər.

**Yerli burjuaziyanın təşəbbüsü ilə Bakı və digər şəhərlərdə əhalidən ianə toplayır və xeyriyyəçilik işləri davam etdirilirdi. Çar hökuməti müsəlmanları orduya çağırmasa da, bir çox azərbaycanlılar könüllü surətdə hərbi xidmətə gedirdilər. Müharibədə 200 nəfərdən çox azərbaycanlı zabit vuruşmuşdu. Məşhur generallar S.Mehmandarov, Ə.Şıxlinski, Hüseynxan Naxçıvanski: bu müharibədə böyük şucaət göstərmişdilər. H.Naxçıvanskinin rəhbərlik etdiyi "Vəhşi Diviziya " ən iri müsəlman hərbi diviziyası idi. Şuşada təşkil olunmuş "Tatar süvari alatyı" bu diviziyanın tərkib hissəsi idi. Bu diviziyanın seçmə süvari alayları bütünlükdə azərbaycanlı və Dağıstanlı könüllülərindən ibarət idi. 1914-cü il Lodz əməliyyatında 21-ci piyada diviziyasının komandiri S.Mehmandarov xüsusuilə fərqlənirdi.O, rus qüvvələrini mühasirəyə almağa çalışan alman general Markezinin hərbi planlarını pozmuş və onlara güclü zərbə vurmuşdu. S.Mehmandarov müharibənin sonuna yaxın korpuslar qrupuna komandirlik etmişdi. "Artilleriyanın allahı" adlandırılmış general-leytenant Ə.Şıxlinski rus ordusunda artilleriya işinin ən mahir ustası sayılırdı. Müharibənin ilk günlərindən Peterburqun artilleriya müdafiəsi ona tapşırılmışdı. 1915-ci ildə Ə.Şıxlınski Ali Baş Komandanlıq qərərgahında işləmiş, sonra Qərb cəbhəsinin artilleriya rəisi, 49 müharibənin sonuna yaxın isə 10-cu ordunun komandanı vəzifəsini tutmuşdu.Bir çox Azərbaycanlı zabitlər –polkovnik Talıb Vəkilov, rotmistr Teymur Novruzov, kapitan Tərlan Əliyarbəyov və başqaları döyüşlərdə göstərdikləri igidliklərə görə yüksək mükafat olan "Georgi xaçı" ilə təltif edilmişdilər.İlk azərbaycanlı hərbi təyyarəçi poruçik Fərrux Qayıbov rus aviasiya qrupunun tərkibində Vilnodakı alman hərbi obyektlərinə hücumda iştirak etmişdi.Bir saat ərzində o, düşmənin 4 təyyarəsi ilə vuruşmuş, onlardan üçüncü vurub salmış, lakin özü də vurularaq qəhrəmancasına həlak olmuşdur.Müharibə dövründə Azərbaycanda fəaliyyət göstərərək partiya və siyasi təşkilatların da müharibəyə münasibətləri fərqlənirdi. Bakıda fəaliyyət göstərən "Daşnaksütyun", "Qnçak" erməni partiyaları guya kı, ermənilərin həyatında yeni səhifə açmalı olan bu müharibədə erməni xalqının iştirakına tərəfdar çıxaraq onları mübarizəyə səsləyirdilər.Bakı menşeviklərinin mövqeyi xeyli ziddiyətli idi. Onlar müharibənin ilk günlərində vərəqələr çap**

**edərək müharibəni pisləyirdilər. Eserlər də müharibəyə müxtəlif mövqelərdən yanaşırdılar. Bu müharibədə yalnız bolşeviklər partiyası öz hökuməti əlehinə çıxaraq imperialist müharibəsini vətəndaş müharibəsinə çevirmək taktikasını irəli sürürdülər. Bolşeviklərin müharibə əlehinə fəaliyyəti zəhmətkeş kütlələr arasında narazılığı daha da artırırdı. Bu da Bakı və digər şəhərlərdə bir sıra tətillərin baş verməsinə səbəb oldu. Müharibə ölkənin iqtisadiyyatına güclü dağıdıcı təsir göstərmişdi. Cəbhəyanı bölgəyə çevrilmiş Azərbaycan sənayesi digər arxa rayonlara nisbətən müharibənin dağıdıcı təsirinə daha çox məruz qalmışdı. Müharibə əmtəə dövriyyəsinin, nəqliyyatın işini pozmuş, xammal və avadanlıq idxalını məhdudlaşdırılmışdı.Azərbaycan neft sənayesi müharibə illərində ciddi çətinliklərlə üzləşdi. Kəskin neft böhranı yaranmış oldu. Texniki vasitələrin çatışmazlığı, xaricdən neft ava-danlıqlarının alınmaması qazma işlərinin azalmasına, emal olunan məhsulların kəskin azalmasına səbəb oldu. Məsələn müharibə illərində Bakı emal zavodlarında yüksək keyfiyyətli neft məhsulları 38,2 faizdən 23 faizə endi.Ümumi təsərrüfat dağınıqlığı Azərbaycan 50 iqtisadiyyatının digər sahələrində də dağ-mədən, ipəkçilikdə də özünü göstərdi. Gədəbəydə mis filizinin çıxarılması, əridilməsi sahəsində xeyli geriləmə özünü göstərdi.Tovuzdakı sement zavodu tamamilə bərbad hala düşmüşdü. Nuxa və Şuşanın ipəksarıma fabriklərinin yarıdan çoxu barama çatışmazlığı üzündən işləmirdi. Pambıq parça istehsalı xeyli azalmışdı. Balıqçılıq sənayesi tənəzzülə uğramışdı.Müharibə illərində Azərbaycan kənd təsərrüfatı da ciddi böhran keçirdi. Dənli və texniki bitkilər əkini kəskin surətdə azalmışdı. Bakı və Yelizavetpol quberniyasında taxıl əkini sahəsi 42 faizə qədər azalmışdı. Təsərrüfat dağınıqlığı pambıqçılıqda hakim idi. Yenə yuxarıda göstərilən quberniyalarda pambıq istehsalı 3 dəfəyə qədər azalmışdı. Müharibə Azərbaycanın iqtisadi həyatında mühüm yer tutan üzümçülüyü də bərbad hala salmışdı.Azərbaycanda üzüm yığımı 1913-cü ildə 5000 puddan çox olduğu halda, 1915-ci ildə 800 pud təşkil edərək 7 dəfə azalmışdı. Şərabçılıq və meyvəçilik təsərrüfatı da ciddi böhran keçirirdi. Heyvandarlıq da ağır vəziyyətdə idi. Mal-qaranın sayı kəskin surətdə azalmışdı.Mal-qaranın, xüsusən də at, camış və öküzlərin hərbi məqsədlər üçün yığılması ilə əlaqədar**

**olaraq, müharibənin birinci iki ilində iş heyvanlarının sayı təxminən 50 faiz azalmışdı.Cəbhəyə və xüsusən də arxa işlərinə səfərbərliklər kənd təsərrüfatını işçi qüvvəsindən xeyli dərəcədə məhrum edirdi. 1915-ci iliyunun 15-də verilən çar fərmanına görə azərbaycan kəndinin kişi əhalisinin 30 faizi arxa cəbhə işlərinə cəlb edilmişdi.Güclənməkdə olan təsərrüfat dağınıqlığının ən mühüm səbəblərindən biri nəqliyyatın böhran vəziyyətinə düşməsi idi. Qafqazı Avropa Rusiyası ilə bağlayan ən başlıca yol Vladiqafqaz dəmir yolu xətti idi. Lakin həmin dəmir yolu xətti texniki təhcizatın zəif olması üzündən Avropa ölkələrində olan dəmir yol xətlərində olduqca geri qalırdı. Qafqaz dəmir yolu bir xətli idi ki, bu da onun yükdaşıma qabiliyyətini xeyli məhdudlaşdırırdı. Dəniz nəqliyyatında vəziyyət nisbətən yaxşı idi. Müharibə illərində teploxodlar, nefti boruları və digər gəmirlərin sayı nisbətən artmışdı.Nəqliyyat və təsərrüfat dağınıqlığı Azərbaycanda ərzaq təminatını xeyli kəskinləşdirmişdi.**

**Ərzaq böhranı, qaçqınlar axını və şəhərdə iri hərbi birləşmələrinin məskunlaşması üzündən daha da kəskinləşdi. Məsələn, Bakıya 1916-cı ildə lazım olan 750-min pud əvəzinə cəmi 321-min pud buğda və un gətirilmişdi. Müharibənin ilk günlərindən ərzaq məhsullarının qiymətləri hədsiz dərəcədə sürətlə artırdı. Çörəyin qiyməti 3 dəfədən çox artmışdı. Ərzaq çatışmazlığı Azərbaycanın qəzalarında qeyri adi dərəcədə dərinləşmişdi.Taxıl,ət, qənd, və digər ərzaq məhsulları kəskin şəkildə bahalaşdı.Qəzalarda çörək 7-8 dəfə bahalaşmışdı. Müharibə əməklə kapital arasındakı ziddiyətləri daha da kəskinləşdirdi, zəhmətkeş kütlələrinin vəziyyətini daha da ağırlaşdırdı.Neft sənayesi fəhlələrinin həyat və iş şəraiti son dərəcədə çətinləşmişdi.Mədənlərdə iş günü 12-14 saatadək yüksəlmişdi.Müharibə zəhmətkeş kəndlilərinin yoxsullaşması və müflisləşməsinə gətirib çıxardı.Kənddə sosial təbəqələşmə prosesi daha da sürətləndi. Zəhmətkeşlərin iqtisadi və siyasi vəziyyətlərinin kəskin surətdə pisləşməsi, onların tətil mübarizələrinin başlanmasına gətirib çıxardı.1915-ci ilin yayından Bakı tətil hərəkatında dönüş başlandı və indiyədək təkcə neft sənayesi işçilərinin iştirak etdikləri tətil hərəkatına digər sənaye müəssələri fəhlələri də qoşuldular.1916-cı iil**

**fevralın 14-16-da şəhərdə iri həyəcanlar baş verdi. Əksəriyyəti qadınlardan ibarət olan çox saylı kütlə alverçilərin üzərinə hücum edərək bazarları,mağazaları ərzaq ambarını dağıtmağa başladılar. Bu həyacanlarda şagirdlər də iştirak edirdilər. Hökumət bu həyəcanıları yatırmaq üşün Gəncə və başqa şəhərlərdən Bakıtya iri hərbi qüvvələr gətirdi. 1916-cı ildə Bakıda tətillərin sayı xeyli artaraq 94 aksiyaya çatmış, onlarda 13 min nəfərdən çox adam iştirak edtmişdi. Bu tətillərin təsiri ilə kapitalistlər fəhlələrə müəyyən güzəştlərə getsələr də lakin polis və ordunun köməyi ilə bu aksiyalara divan tutmağa çalışırdılar.Fəhlə sinfinin kapitalistlərə qarşı mübarizəsi əyalətlərdə də artırdı. Şəki ipək sarıma fabriklərinin fəhlələri, Gəncə mahlıc istehsalı fəhlələrinin geniş həyacanları baş vermişdi. 52 Müharbə illərində iqtisadi böhranın dərinləşməsi, zəhmətkeşlərin vəziyyətinin kəskin surətdə ağırlaşması və Azərbaycan kəndində sosial zidiyyətlərin kəskinləşməsi kəndli həyacanının yüksəlişinə səbəb oldu. 1914-1917-ci illərdə qəzaların əksəriyyətini kəndli hərəkatı bürümüşdü. Kəndlilər lik növbədə kəskin ehtiyac duyduqları torpaq uğrunda mübarizə aparırdılar. Dövlət və mülkədar torpaqlarının tutulması mübarizənin ən geniş yayılmış formalarından biri idi.Müharibə illərində ən iri kəndli həyacanları Yelizavetpol quberniyaslnda və Bakı quberniyasının Lənkəran və Quba qəzalarında baş verdi. Bu həyacanlar kəndlilər və hökümət nümayəndələri-mülkədar, qolçomaq dəstələri arasında silahlı toqquşmalarla müşahidə olunrdu.Bu dövrdə qaçaqların –silahlı kəndli dəstələrinin çıxışları xüsusilə kəskin xaraker alaraq, Azərbaycanın bütün qəzalarını əhatə etdi.Onlar amansız istismara,hər cür sosial ədalətsizliyə qarşı mübarizə aparır, Çar mütələqiyyətinin vergi siyasətinə qarşı çıxırdılar. Müharibə illərində xalq intiqamçılarının- qaçaqların 40 dək dəstəsi fəaliyyət göstərirdi.Qaçaq hərəkatının ən görkəmli başçılarından biri Qaçaq Süleyman Ağahüseyn oğlu idi.O,öz dəstəsi ilə Zəngəzur və Qarabağ bölgələrində çar üsul idarəsinə, yerli bəylərə qarşı 15 ildən çox partizan mübarizəsi aparmışdı. Onun dəstəsində 200-dən çox qaçaq var idi. Cəbhədəki ağır vəziyyətə baxmayaraq çar hökuməti kəndli hərəkatına qarşı bir sıra tədbirlər həyata keçirirdi. Hərəkatının ən çox geniş yayıldığı Bakı,Yelzavetpol quberniyalarında hərbi vəziyyət rejimi**

tətbiq edildi. Lakin iqtisadi və siyasi böhran gettikcə dərinləşir və günü gündən fəhlə və kəndli hərəkatı dahada genişlənirdi. Çar hökuməti bu inqilabi çıxışların qarşısında aciz idi. 1917-ci il fevralın 28-də Petroqradda baş verən burjua demokratik inqilabı nəticəsində 300 illik Romanovlar sülaləsinin hakimiyyətinə son qoyuldu. Mütləqiyyət devrildi. M.Ə.Rəsulzadə o günlərdə yazırdı:" Rusiyanın xalqları öz ürəklərində saxladıqları məqsədlərə nəhayət ki, çatdılar.Əli qanlı jandarm, bütün xalqların düşməni olan istibdad yıxılmışdı".Martın 3-də hakimiyyət Cənubi Qafqazda xüsusi 53 Zaqafqaziya Komitəsinə verildi.Lakin yeni hakimiyyətin təşkilində müxtəlif siyasi partiyalar müxtəlif mö-vqelərdə dayanırdılar.1917-ci il Oktyabr çevrilişindən (Petroqıradda) sonra Cənubi Qafqazda siyasi vəziyyət yenidən kəskinləşdi.1917-ci il noyabrın 15-də müsavatçı, menşevik , eser və daşnaklardan ibarət Zaqafqaziya Komissarlığı təşkil edirdi.Onun tərkibinə M.Cəfərov, M.Aslanov, X.Xasməmmədov və F.X. Xoyski daxil oldular. Bu təşkilat zəif və az səmərəli bir orqan idi. Onun öz ordusu yox idi, öz dekretlərini həyata keçirməkdə aciz idi. Bakıda isə siyasi vəziyyət tamamilə başqa cürə idi. Beləliklə şəhərdə hakimiyyət demək olar ki, sovetlərin əlində idi. Eyni zamanda Bakı Duması da hakimiyyət orqanı kimi fəaliyyət göstərirdi və o, Bakı Sovetini tanımaqdan imtina etdi. Dumaya tanınmış hüquqşünas F.X.Xoyski rəhbərlik edirdi və bu təşkilat Bakı ictimaiyyətinin müəyyən hissəsini təşkil edirdi. Bu dövrdə siyasi nüfuzu daha da artan "Müsavat" partiyasının fəaliyəti daha da gücləndi.1917-ci il oktyabrın 25- də partiyanın I qurultayı keçirildi, onun proqramı qəbul edildi. I qurultay partiyanın sonrakı siyasi mübarizəsinin və Azərbaycana milli muxtariyyat verilməsinin taktika və strategiyasını müəyyən etdi. "Musavat" gücləndikcə onunla bolşeviklər arasında münasibət daha da dərinləşirdi. Çünki bolşeviklər və onların orqanı olan Bakı soveti ermənipərəst siyasət yürüdürdülər. Bu vaxt Zaqafqaziyada siyasi vəziyyət daha da mürəkkəbləşdi. Fəaliyyət göstərdiyi dövrdə Zaqafkom xalqa heç nə verə bilmədi.Torpaq məsələsi həll edilməmiş qaldı.Torpaqlar kəndli komitələrinə verildi və kəndli torpağı həmin komitələrdən icarəyə götürməli idi. Zaqafkomun həyata keçirdiyi bu torpaq siyasəti kəndlilərin narazılıqılarının artmasına səbəb

oldu. Azərbaycanın bir çox qəzalarını kəndli həyəcanları bürümüş oldu. Bu həyəcanları yatırmaq üçün Zaqafkom bütün zorakı tədbirlərə əl atdı. Zaqafkomun xəyənətkar siyasətindən xalq kütlələrinin qəzəblənməsinin artmaqda olduğunu görən millətəçi partiyalar 1918-ci il fevralın 23 –də Zaqafqaziya Seymini çağırdılar.Seymdə Gürcüstan sosial-demokratlarından 54 (Menşeviklər) 32 nəfər, Azərbaycan müsavatçıları 30 nəfər, erməni daşnaqlarından 27 nəfər deputat iştirak edirdi. Digər partiya və bloklardan isə 14 deputat təmsil olunmiuşdular. Ümumiyyətlə Seymdə müsəlman fraksiyasının sayı 44 nəfər deputatdan ibarət idi.Zaqafqaziya Seymi Geqekçori başda olmaqla Zaqafqaziya hökumətini təşkil etdi. Bu hökumətdə 13 nazir portfelinin 5 – i azərbaycanlılara məxsus idi. Zaqafqaziya Seymi hökumətin əsas vəzifələrini müəyyən etdi. 1.Konstitusiya layihəsini hazırlamaq; 2.Respublikalar arasında sərhədlərin müəyyən edilməsi; 3.Müharibə vəziyyətinə son qoymaq ; 4.Torpaq isalhatı keçirmək. Musavat partiyası adından M,Ə.Rəsulzadə hökumətin verdiyi təkliflərə aşağıdakıları əlavə etməyi irəli sürdü:1). Dağıstanın Cənubi Qafqaza birləşdirilməsi.2).Bakının xaricilərdən( Bolşevilklərdən) azad edilməsi.1918-ci il martın 31 də Zaqafqazaiya Seymi və Komisarlığının birgə iclasında qərara alındı ki, sülh bağlamağa ixtiyarı var və Türkiyə ilə sülh müqaviləsi 1914 cü il sərhədlərinə əsaslanmalıdır Nümayəndə heyəti həm də çalışacaqdır ki,Şərqi Anadolu öz müqəddəratını təyin etməli və Türkiyə hüdudlarında Ermənistanın muxtariyyatını təmin etsinlər.Cənubi Qafqazda milli azadlıq hərəkatının daha da gücləndiyi bir şəraitdə Azərbaycnda geniş xalq kütlələrinin Aərbycana muxtariyyət verilməsi tələbini qətiyyətlə irəli sürdülər. Cənubi Qafqaz xalqlarının gələcəkdə milli respublikalar yaratmaq cəhdlərinə Bakı Soveti və onun rəhbəri S.Şaumyan maneçilik törətməyə çalışır,bunu O, “millətcilərin öz müqəddəratını təyin etməsi”kimi qələmə verirdi.O, Cənubi Qafqazı üç vilayətə parçalamağı zəruri sayırdı: 1.Qərbi Zaqafqaziya: Bura Kutaisi, Batumi quberniyaları və Tiflis quberniyasının bir hissəsi aid edilirdi; 55 2.Şərqi Zaqafqaziy: Bura İrəvan quberniyası, Tiflis quberniyasının bir hissəsi, Qars və Yelizavetpol quberniyası; 3.Bakı vilayəti,Yelizavetpol quberniyasının bir hissəsi, Dağıstan vilayəti. Göründüyü kimi

**onun bölgüsü Ermənistan və erməni millətçilərinə xidmət edirdi.Hətta Rusiyanın hökuməıt başçısı V.İ.Lenin Şaumyanı tənqid edərək göstərir ki, Şaumyan "Erməni millətçilərinin əlaltısına çevrilmişdir". 1918-ci il aprelin 22-də Zaqafqaziya Seyminin islasında Cənubi Qafqazın müstəqilliyi məsələsi müzakirə olundu və Zaqafqaziya Respublikalarının müstəqil, demokratik və federativ respublikalar olması haqqında qətnamə qəbul olundu. Eyni zamanda Çxenkeli başda olmaqla yeni hökumət kabineti yaradıldı. Xoyski, M.Aslanov, İ.Heydərov, N.Yusifbəyli, M.Hacıniski bu hökumətin üzvi oldular. Yeni hökumət yenidən Türkiyə ilə sülh danıışıqlarına başladılar. 1918-ci il mayın 11-də Batumi şəhərində Zaqafqaziya və Türkiyə nümayəndə heyətləri arasında danışıqlar davam etdirildi.Qars, Ərdahan və Batumun Türkiyəyə verilməsi razılaşdırıldı.Ümumiyətlə Türkiyənin məqsədi Ermənistan və Azərbaycan torpaqlarını tutmaqdan ibarət idi.Gürcüstan isə Almaniyaya verilməli idi.Yeni yaradılmış hakimiyyət orqan da uzun zaman yaşaya bilmədi.Gürcüstanın mayın 26-da Seymin tərkibindən çıxmas ilə Zaqafqaziya Seymi iflasa uğradı.İki gün sonra isə Azərbaycan və Ermənistan öz müsyəqilliklərini elan etdilər. Bu dövrdə Cənubi Qafqazda Erməni şovinist-millətçi qüvvələr öz məkrli siyasətlərini davam etdirirdilər.1918 ilin yanvarından onlar Bakıda və digər rayonlarda müsəlman qırğınları törətmək üçün müxtəlif fitnəkarlıqlara əl atırdılar. Azərbaycanın qabaqcıl ziyalıları gözlənilən təhlükəni irəlicədən duyurdular. Birinci Dünya müharibəsinin sonlarında Qafqazın xristian əhalisi məqsədyönlü şəkildə silahlandırılırdı.Qafqaz cəbhəsinin ləğv olunması nəticəsində çoxlu erməni və malakanlar silah əldə etməyə başladılar.Cəbhədən fərarilik edən bir çox erməni və rus əskərləri də Bakıda cəmləşməyə başladılar. Eyni zamanda daşnakların da bir neçə min yaxşı silahlanmış əsgəri var idi.**

**Ermənilərin və Bakı Soveti rəhbərliyinin müsəlman qırğınlarını törətməkdə bir məqsədi də "Müsavat"partiyasının getdikcə genişlənən nüfuzunun qarşısını almaqdan ibarət idi.Errmənilərin hazırladıqları bu qırğına qarşı çıxacaq silahlı müsəlman qüvvələri demək olar ki, yox idi. "Qırmızı Qvardiya" adı ilə yaradılan 10-12 min nəfərlik ordunun 70%-ermənilərdən ibarət idi.Həmçinin Şamaxıda və**

Muğanda ehtiyat rus-malakan silahlı dəstələri yaradılmışdı. Cinayəti həyata keçirmək üçün bəhanə lazım idi.Bu məqsədlə “Evelina” münaqişəsi törədildi. Həmin gəmidə olan müsəlman əsgərlərin tərksilah edilməsi müsəlman əhalinin həyacanına səbəb oldu.Bakı Soveti əksinqilabi qiyamı yatırmaq adı altında azərbaycanlı əhali üzərinə geniş hücuma başladılar. 1918ci il martın 30-da səhər tezdən əllərinə girəvə düşən daşnaklar gəmilərdə qoyulmuş toplardan Abşeronun şimal kəndlərini atəşə tutdular.Bakının özündə qırğın bir neçə gün davam etdi.Martın 30-da gecə kommisar Tatevos Əmirov bir qurup silahlı dəstə ilə İsmailiyə binasına – müsəlman xeyriyyə ocağına soxuldu.Çox çəkmədiki binanı alov bürüdü. Daşnaklar Təzəpir məscidinə,Tağıyev teatırına böyük ziyan vurdular. 3 gün ərzində təkcə Bakıda 12 mindən çox müsəlman qanı töküldü. Erməni daşnakları uşaq, qadın, qocalara fərq qoymadan əsl soyqırım siyasəti yeridirdilər.Erməni daşnaklarının bu cinayəti təkcə Bakı ilə qurtarmırdı.Onlar kütləvi qırğınları Şamaxı,Quba ərazilərində də törətmişdilər. Amazapsın rəhbərliyi altında Qubaya daxil olan daşnaklar 2 mindən çox azərbaycanlı əhalisinə divan tutmuşdu.O hətta lovğalıqla belə deyirdi: “Mən bura qayda qanun yaratmaq,Sovet hakimiyyətini qurmaq üçün yox, müsəlmanları məhv etmək üçün gəlmişəm”.Onun cəza dəstələri təkcə insan qırğını ilə kifayətlənməyib, qarətlə də məşğul idilər. Amazaps, Avetisov, Petrovun rəhbərliyi altında Bakı Sovetinin qoşunları Şamaxıya hücum etmiş və kütləvi qırğınlar törətmişlər.Belə hücumlar Lənkəran, Salyan və Kürdəmirdə də olmuşdu. Beləlikdə 3 gündən artıq davam edən qırğınlarda 15 mindən çox dinc müsəlman əhalisi qətlə yetirildi və bu hadisə azərbaycanlıların soyqırımı demək idi. Mart hadisələri Bakıda Sovet 57 hakimiyyətinin süqutunun başlanğıcı oldu. Zəhmətkeş müsəlman əhalisi Sovet hakimiyyitindən üz döndərməyə başladı.Çox çəkmədi ki, iyulun 31-də Bakı Soveti iflasa uğradı. Artıq azərbaycan xalqının müstəqilliyi zərurətə çevrilmişdi. Mayın 28-də xalq öz istəyinə nail oldu və Azərbaycan Xalq Cümhuriyyəti elan edildi.

# *Mövzu 11. Cənubi Azərbaycan XIX-XX əsrlərdə*

**Cənubi Azərbaycanın idarə olunması XIX əsrdə Cənubi Azərbaycan İranın dörd əyalətindən biri idi. İlk vaxtlar Qacarlar dövləti bəzi nüfuzlu xanların hakimiyyətini tanımaqla onları ayrı-ayrı xanlıqların hakimi təyin etdi və daxili müstəqilliklərini qəbul etməli oldu. Dövlət onların daxili işlərinə qarışmır, yalnız vergi və xüsusilə də silahlı qüvvə tələb edirdi. Qacarlar dövründə İran ordusunun əsas hissəsi məhz Cənubi Azərbaycandan toplanan qüvvələrdən ibarət idi. Maku, Urmiya kimi xanlıqlar istisna edilməklə qalanları tədricən ləğv olunaraq vilayətlərə çevrildi. Əyalətdə vali vəzifəsindən tutmuş vilayət hakimlərinə qədər şəxslər mərkəzdən göndərildiyindən yerli feodallar Qacarlardan narazı qalırdılar. 24 Fətəli şahın (1797–1834) vaxtından Cənubi Azərbaycan "vəliəhdneşin" (vəliəhdin əyləşdiyi yer) hesab edilmiş, "Darüssəltənə" (səltənət evi) adlandırılan Təbrizdə isə həmişə Qacarların rəsmi vəliəhdləri oturmuşdular. Bu da Azərbaycanın, xüsusilə Təbriz şəhərinin siyasi əhəmiyyətini göstərirdi. Vəliəhd burada oturduğu və Təbriz, bir növ, ikinci paytaxt olduğu üçün xarici diplomatik nümayəndələrin iqamətgahları da burada yerləşirdi. Əyalətin idarəsi rəsmən vəliəhdin ixtiyarında olsa da, əslində, onu şahzadələrdən seçilən və "qaimməqam" adlanan vali idarə edirdi. Əsasən, şahın və yaxınlarının qohumlarından təyin olunan vali, vəzir, kələntər və s. rəsmi şəxslər vəzifələrinə gəlir mənbəyi kimi baxaraq xalqı soyurdular. XIX əsrdə iqtisadi vəziyyət. XIX əsrin 30–60-cı illərində Cənubi Azərbaycan əhalisinin əsas məşğuliyyəti kənd təsərrüfatı – əkinçilik və maldarlıq idi. Təkcə kənd əhalisi deyil, şəhər əhalisinin də bir hissəsi əkinçiliyin müxtəlif sahələri ilə məşğul olurdu. Cənubi Azərbaycanda təbii, qismən də süni suvarma əsasında buğda, arpa, çəltik və başqa dənli bitkilərlə yanaşı, texniki bitkilər, o cümlədən pambıq, tütün əkilir, barama yetişdirilir, meyvə-tərəvəz becərilirdi. Bu əyalət İranın ən məhsuldar ərazisi hesab edilir və buradan taxılla yanaşı, pambıq və quru meyvə də ixrac olunurdu. XIX əsrin 50–70-ciillərinə qədər**

**Cənubi Azərbaycan İranın "taxılçılıq və heyvandarlıq bazası" idi. Onun iqtisadi həyatda belə bir mövqeyə malik olması burada yerli tələbatı ödəyən və xarici bazarlar üçün də mal ixrac edən müxtəlif sənətkarlıq sahələrinin formalaşmasına geniş imkanlar açırdı. Şəhərlərdə ayaqqabı, saxsı və ya mis qab-qacaq, digər məişət əşyalarının, təsərrüfat alətlərinin istehsalı xeyli inikşaf etmişdi. Lakin İngiltərə və Rusiya dövlətlərinin İranda əldə etdikləri imtiyazlar nəticəsində Cənubi Azərbaycan sənətkarlığının bir çox sahələrinə böyük ziyan dəydi. Belə ki xarici sənaye mallarının ölkəyə geniş miqdarda və maneəsiz axını ilə bağlı buradakı bir sıra emalatxana və sexlər rəqabətə davam gətirməyərək öz fəaliyyətlərini dayandırmalı oldu. Əsrin sonlarına qədər Azərbaycan şəhərlərində emalatxana quruluşu hələ də qalırdı. Emalatxanalarda, adətən, 3-4 sənətkar işləyirdi. 25 XIX əsrin sonlarında Cənubi Azərbaycanın təsərrüfat həyatında yeniliklər nəzərə çarpmağa başladı. Bunun da bir sıra səbəbləri var idi. İlk növbədə, xarici kapitalın sürətli axını Cənubi Azərbaycanda təsərrüfatın inkişafına müəyyən təsir göstərirdi. Burada iqtisadiyyat müstəmləkə və asılı ölkələrə xas bir sıra xüsusiyyətlər kəsb edirdi. İran və onun bir hissəsi olan Azərbaycan İngiltərə və Rusiyanın sənaye mallarının satış bazarına, eyni zamanda xammal bazasına çevrilmişdi. Xarici bazarda, o cümlədən Rusiyada pambıq, boyaq maddələri, yun, gön-dəri kimi məhsullara, həmçinin ayrı-ayrı sənətkarlıq mallarına tələbatın artması qeyd edilən sahələrin inkişafına təkan verdi. XIX əsrin son rübündə əsas sənətkarlıq sahəsi xalçaçılıq idi. Xalça istehsalı sənayedə kapitalist münasibətlərinin inkişaf etdiyi əsas sahə idi. Təbrizdə, Marağada, Xalxalda və bəzi şəhərlərdə istehsal edilən yun və ipək yaylıqlar, şal, yun, ipək, pambıq parçalar həm yerli əhalinin, həm də İranın başqa əyalətlərinin tələbatını ödəyir və xaricə ixrac olunurdu. Sosial vəziyyət. XIX əsrin sonlarında Cənubi Azərbaycan əhalisinin sayı 2 milyon nəfərə çatırdı. Əhalinin 0,5 mln. nəfərini şəhərdə yaşayanlar təşkil edirdi. Yerdə qalan hissə kəndlərdə məskunlaşmışdı və ya yarımköçəri həyat sürürdü. Əhalinin yuxarı təbəqəsi xanlardan, mülkədarlardan, ruhanilərdən ibarət idi. Kəndlilər və sənətkarlar ağır istismara məruz qalır, vergi və mükəlləfiyyətlərdən əziyyət çəkirdilər. Kəndlilərin çox hissəsi**

torpaqsız olduğundan ağır şərtlərlə torpaq icarəyə götürərək yardarlara1 çevrilirdilər. Şəhərlərdə sayı artan tacirlər varlandıqca mülklər alaraq özlərini mülkədarlara bənzədirdi. Feodal zülmündən və yoxsulluqdan təngə gələn əhali doğma yurdlarını tərk edərək qonşu dövlətlərə, əsasən də Rusiyaya kəsbkarlığa gedirdi. XIX əsrdə Cənubi Azərbaycanda mövcud olan əsas torpaq mülkiyyət formaları bunlar idi: Xalisə dövlətə məxsus torpaqlardır. İcarəyə verilir və ya məmurlar tərəfindən idarə edilirdi. Bu torpaqların idarə edilməsi yarıtmaz halda olduğundan 1886-cı ildə onların satılması haqqında fərman verilmişdi.Mülk və ya ərbabi feodallara məxsus olub irsi xarakter daşıyırdı. Bütün İranda əkinəyararlı torpaqların 66%-ni 26 təşkil edirdi.Tiyul hərbi və ya mülki xidmət müqabilində verilən torpaqlar idi. Şərti xarakter daşıyırdı.Vəqf dini idarələrə, mədrəsələrə, ruhanilərə bağışlanan torpaqlardır.İlati ayrı-ayrı tayfalara xidmət müqabilində verilən və əsasən, otlaqlardan ibarət torpaqlardır. Tədricən tayfa başçılarının əlinə keçirdi.Xırdamalik kəndlilərin və ya kiçik mülkədarların əlində olan cüzi torpaq paylarıdır ki, əsasən, Urmiya ərazisində geniş yayılmışdı. Böyük torpaq sahələri iri mülkədarların əlində toplanmışdı. Onlar öz mülklərində istədikləri kimi vergi toplayır, kəndliləri istismar edirdilər. XIX əsrin sonlarına yaxın əhalidən 20 adda vergi yığılır və ya mükəlləfiyyət tələb edilirdi. Yığılan vergilərə misal olaraq qapıpulu (otlaqlara görə), başpulu və digərlərini göstərmək olar. Dövlətin topladığı əsas vergi torpaqpulu idi. Sabit olan bu vergi kəndlilərin əldə etdiyi məhsulun 10%-nə bərabər hesablanırdı.

Xalq hərəkatı. Feodal quruluşunun böhranı və xarici kapitalın ölkəyə müdaxiləsi ilə əlaqədar sosial ziddiyyətlərin kəskinləşməsi XIX əsrin ortalarında antifeodal xalq üsyanlarına səbəb oldu. Onlardan ən güclüsü 1848–1852-ci illərdə baş verən Babilər üsyanıdır. Babilik Seyyid Əli Məhəmmədin (1819–1850) adı ilə bağlı dini təlimdir. O, 1844-cü ildə Bab (ərəbcədən tərcümədə “qapı”) ləqəbini götürmüş, Allahın vəd etdiyi Mehdi olduğunu bəyan etmişdir. 1850-ci ildə Zəncanda babilər üsyana qalxdılar. Vuruşlarda onların ailə üzvləri də iştirak edirdilər. Əsas etibarilə kəndli və sənətkarlardan ibarət olan babilərin arasında

çoxlu tacir və xırda ruhanilər də var idi. Şah hökuməti tərəfindən üsyanı yatırmaq üçün göndərilən qoşun dəstələri Zəncanı mühasirəyə aldılar, lakin ciddi müqavimətə rast gələrək geri çəkilməli oldular. Üsyan başçılarından biri qəzvinli Zərrintac olmuşdur. Xalq arasında onu Tahirə də adlandırırdılar.Dekabr ayında 30 minlik şah qoşunu və feodal dəstələri Zəncanı yenidən mühasirəyə alaraq hər tərəfdən hücuma keçdilər. Üsyançıların çoxu həlak oldu. 1850-ci il dekabrın sonunda Zəncan üsyanı yatırıldı. Ümumiyyətlə, 1848-ci ildən 1852-ci ilə qədər babilərin on üsyanı olmuşdur. Bu üsyanların 3-nə Tahirə başçılıq etmişdi. 27 1891-ci ilin martında Nəsirəddin şah Qacar bütün İranda tütün almaq, satmaq və emal etmək üçün ingilislərlə müqavilə imzaladı və şirkət bunun müqabilində əldə edəcəyi qazancdan İran hökumətinə ildə cüzi bir məbləğ ödəməyi öhdəsinə götürdü. Buna cavab olaraq, Təbriz əhalisinin böyük əksəriyyətinin imzası ilə şaha göndərilən tələbnamədə tütün və tənbəki inhisarının ləğv edilməsi tələb olundu. Təbriz bazarı bağlandı, 20 min adam silahlanaraq hazır vəziyyətdə dayandı. Təbrizin ardınca Şiraz, İsfahan və Məşhəddə şirkətə qarşı kəskin çıxışlar baş verdi. Tehranın özündə əhali inhisarın ləğv edilməsi tələbi ilə 1892-ci ildə şah sarayına hücum etdi. Bütün bunlar şahı məcbur qoydu ki, şirkətin başçısı Talbotla bağlanmış müqaviləni ləğv etsin. İranda ilk antiimperialist çıxış olan bu hərəkatda Cənubi Azərbaycanın ticarət burjuaziyası, sənətkarlar, ruhanilər, digər təbəqələrin nümayəndələri nəinki iştirak edirdilər, həm də aparıcı rol oynayırdılar. Bu dövrdə Cənubi Azərbaycanda mövcud olan ən əsas problemlərdən biri iri feodalların, xüsusilə də iri ruhanilərin taxıl möhtəkirliyi ilə məşğul olması idi. Ərzaq məhsullarının qıtlığı və bahalığı xalqın səbir kasasını doldurmuşdu. 1898-ci ildə Təbrizdə buna qarşı çıxışlar baş qaldırdı. Üsyana Zeynəb paşa adlı bir qadın başçılıq edirdi. Üsyançılar ərzaq anbarlarını dağıdaraq kasıblara taxıl paylayırdılar. Bu çıxışdan qorxuya düşən möhtəkirlər anbarlarını açıb ərzaq məhsullarını ucuz qiymətə əhaliyə satmağa məcbur oldular.

**Sosial-iqtisadi vəziyyət**

**XX əsrin əvvəllərində Qacarlar sülaləsinin (1796–1925) hakimiyyəti altında olan Cənubi Azərbaycanda gərgin sosial-iqtisadi böhran yaşanırdı. İranın Rusiya və İngiltərə kimi dövlətlərin yarımmüstəmləkəsinə çevrilməsi, şahın və onun məmurlarının özbaşınalığı, dalbadal baş verən qıtlıq, hakim dairələrdəki rüşvətxorluq ölkədə geniş xalq kütlələrinin vəziyyətini ağırlaşdırmışdı. Boşalmış xəzinəni doldurmaq üçün kəndli və sənətkarlardan, həmçinin tacirlərdən alınan vergi qanunsuz şəkildə artırılırdı. Əldə olunan gəlirlər isə şahın və onun yaxınlarının ehtiyaclarına sərf edilirdi. Əhalinin bütün zümrələri hökumətdən narazı idi. Var-yoxdan çıxan və feodal istismarından əziyyət çəkən kəndlilər güzəran dalınca qonşu ölkələrə üz tuturdular. İnqilab ərəfəsində qazanc üçün təkcə Rusiyaya 300 min kəsbkar getmişdi.**

**Xaricdən sənaye mallarının axını nəticəsində müflisləşən sənətkar və tacirlər şəhər əhalisinin ən çox narazı qalan hissəsi idi. Bütün gəlirli sahələrin xaricilərə icarəyə verilməsi, hətta dövlət vəzifələrinin də əcnəbilərə həvalə olunması yeni yaranan burjuaziyanı qıcıqlandırırdı. 1903-cü ildə Belçika ilə imzalanan və onlara daha geniş hüquqlar verən növbəti müqavilə buna bariz sübutdur. İranın müxtəlif yerlərində yaranan gizli cəmiyyətlər ölkədə şah idarəçiliyinin dəyişməsini, ədalətli idarə üsulunun, qanunverici orqanın yaradılmasını arzulayır, müxtəlif tələblər irəli sürürdü. Xalq kütlələrinin rəğbətini qazanmağa çalışan ruhanilərin mütərəqqi təbəqəsi də bu işdə fəal rol oynayırdı. Cənubi Azərbaycanın Təbriz, Zəncan, Ərdəbil şəhərləri narazılıq mərkəzinə çevrilmişdi.**

**Göstərilən dövrdə Cənubi Azərbaycanda demokratik fikrin yayılmasında, milli siyasi şüurun oyanmasında, xarici imperializmə və yerli feodal zülmünə qarşı mübarizənin güclənməsində bir sıra başqa amillərin də böyük təsiri var idi. Belə ki 1904-cü ilin dekabrında Bakıda baş verən və qələbə ilə nəticələnən fəhlə tətilləri, Rusiyada 1905–1907-ci illərdə olan burjua-demokratik inqilabı İranın, xüsusən də Cənubi Azərbaycanın siyasi mühitinə təsir göstərməklə orada həyəcan və çıxışların güclənməsinə, inqilabi hərəkatın başlanmasına təkan verdi.Məşrutə (Konstitusiya) hərəkatı. İranda bütün bu həyəcan və etirazların siyasi partlayışa çevrilməsi bir qığılcıma bənd idi. 1905-ci il dekabrın 12-də Tehranda Baş nazir Eynüddövlənin**

**qəndin qiymətinin bahalaşmasını bəhanə edərək paytaxtda 17 taciri həbs etdirib döydürməsi, onların dükanlarının qarət olunması qığılcım rolunu oynadı. Tehranla yanaşı, Təbrizdə, Ərdəbildə, Xoyda, Zəncanda və Cənubi Azərbaycanın digər şəhərlərində də bazar və dükanlar bağlandı, etiraz nümayişləri, çıxışlar başlandı. Yüzlərlə adam müqəddəs yerlərdə bəstə oturdu**

**Etirazçıların tələbləri bunlar idi:**

**1.KonstitusiyanınMəşrutənin)qəbulu;**

**2.Məclisin,yəniparlamentinçağırılması;**

**3. Xarici məmurların ölkədən qovulması.**

**Arasıkəsilməyən çıxışlar nəticəsində qorxuya düşən şah hökuməti inqilabçıların tələblərinə əməl etməyə məcbur oldu. 1906-cı il avqustun 5-də Müzəffərəddin şah Konstitusiya qəbul edilməsi haqqında fərman verdi, bunun ardınca məclisə seçkilər keçiriləcəyi elan olundu. Təbriz şəhərində seçkili orqanlar – əncümənlər yaradıldı. Əncümən qanunverici hakimiyyət orqanı idi, bütün qərar və sərəncamlar onun tərəfindən verilirdi. Əncümənin qərarı ilə əhalinin ərizə və şikayətlərinə baxmaq üçün Ədliyyə, qayda-qanuna nəzarət etmək üçün Nəzmiyyə, vergi toplamaq üçün Maliyyə idarələri yaradıldı. Bələdiyyə idarəsi dağılmış küçələri, bazar və karvansarayları bərpa edirdi. Çörək bolluğu, ucuzluq və gözlənilən hücumlara qarşı taxıl ehtiyatı yaratmaq üçün xüsusi komissiya təşkil olundu. Komissiya şəhərdəki taxıl anbarlarını möhürlədi və kəndlərdən buğda-arpa gətirilməsini təşkil etdi. Hər gün əncümənin təyin etdiyi qiymətə çörəkçilərə verilən taxıldan bişirilən çörək əhaliyə ucuz satılırdı. Şəhəri müdafiə etmək məqsədilə varlıların üzərinə “Müharibə xərci” adlanan vergi qoyulmuşdu. Təbrizin ardınca əncümənlər Cənubi Azərbaycanın Urmiya, Ərdəbil, Marağa, Salmas, Maku, Zəncan, Xalxal və başqa şəhərlərində də yaradıldı.**

**1906-cı il dekabrın 30-da ölüm yatağında olan Müzəffərəddin şah hələlik birinci hissəsi hazırlanmış Konstitusiyanı imzaladı. Lakin 1907-ci ilin yanvarında taxta əyləşmiş Məhəmmədəli şah atasının imzaladığı Konstitusiyanı tanımaq istəmirdi. O, inqilabı yatırmağa, iştirakçılarını isə cəzalandırmağa çalışırdı. Bu xəbər İranın**

digər yerləri ilə yanaşı, iqtisadi tətillərin baş verdiyi və siyasi mübarizənin davam etdiyi Təbrizdə də hərəkatın dərinləşməsinə səbəb oldu.

1907-ci ilin fevralında fəhlə və qulluqçulardan, məktəb müəllimləri və tələbələrdən ibarət tətilçilər teleqrafxana ətrafında toplaşdılar. Şah geri çəkilməyə məcbur olub Konstitusiyanı əlavələrlə birgə imzaladı. 1908-ci ilin əvvəllərində şah aranın sakitləşdiyini düşünüb hücuma keçməyə cəhd etdi. Hərəkatda fəal iştirak edən xeyli adam həbs olundu. İyun ayında şahın göstərişi ilə rus zabiti V.P.Lyaxovun dəstəsi məclisi və Tehran şəhərindəki Azərbaycan nümayəndəliyinin yerləşdiyi binanı top atəşinə tutub dağıtdı. Buna cavab olaraq, Səttarxanın başçılığı ilə Təbrizdə silahlı üsyan başladı. O, sayı 20 minə çatan könüllülərdən ibarət fədailər dəstəsi yaratdı və Hərbi Şura təşkil etdi. Xalqın məhəbbətlə "Sərdari-milli" adı verdiyi Səttarxanın yaxın köməkçisi "Salari-milli" adlandırılan Bağırxan oldu. Üsyançılar Təbrizi əks-inqilabçılardan təmizlədilər. Şəhərdə qayda-qanun yaradıldı, xalqın nifrət etdiyi şah məmurları, o cümlədən vali Səməd xan qovuldu. İran inqilabçılarına gizli yolla göstərilən köməyin artmasının bir səbəbi də şah hökumətinin xaricdə olan dövlət məmurlarının bir çoxunun inqilaba rəğbət bəsləməsi və əncümənlərə üzv yazılması idi.
Belələrinə misal olaraq Yelizavetpol, Bakı, Aşqabad və Tiflisdəki konsulları göstərmək olar. Dünyanın müxtəlif yerlərindən üsyançılara maddi və mənəvi dəstək gəlirdi. İnqilaba ilk yardımı qonşu ölkələrə müvəqqəti iş üçün getmiş İran təbəələri göstərirdilər. Bunlar başlıca olaraq Qafqaz, Mərkəzi Asiya və Volqaboyunun sənaye mərkəzlərində, limanlarında, müxtəlif nəqliyyat işlərində, eləcə də kənd təsərrüfatı sahəsində çalışan, böyük əksəriyyəti Cənubi Azərbaycandan gəlmiş fəhlələrdən ibarət idi. Başda məşhur xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev olmaqla, Azərbaycan milli burjuaziyasının ən görkəmli nümayəndələrinin İran inqilabçılarına hərtərəfli yardımı xüsusi qeyd edilməlidir. Həmin dövrdə nəşr olunan "İrşad", "Tazə həyat" qəzetləri və "Molla Nəsrəddin" jurnalı İran inqilabına mənəvi dəstək olur, Səttarxan, Bağırxan, Hüseynxan haqqında məqalələr çap edirdilər. Üsyanın genişlənməsi imperialist dövlətləri, xüsusilə Rusiya və İngiltərəni narahat edirdi. Fədailəri tərk-silah etmək

**məqsədilə Səttarxan və Bağırxan 1910-cu ilin mart ayında Tehranın rəsmi dairələri tərəfindən paytaxta dəvət olundular. Şaha inanan və artıq qan tökülməsinə yol vermək istəməyən Səttarxan dəvəti qəbul edib Tehrana gəldi. Əldə olunan razılığa baxmayaraq, onun adamlarına xəyanətkarcasına hücum edildi. Ağır yaralanan Səttarxana geri qayıtmağa icazə verilmədi. Bu xəyanət Azərbaycan xalqının dərin hiddətinə səbəb oldu, lakin çar Rusiyasının Cənubi Azərbaycanda olan qoşunları əhalinin fəal çıxışına imkan vermədi. Xarici təbəələri qorumaq bəhanəsi ilə əks-inqilabi qüvvələr Təbriz üzərinə hücuma başladılar. Təbrizdə şiddətli vuruşmalar dekabrın əvvəllərinədək davam etdi. Üsyan qan içində boğuldu. Beləliklə, 1905–1911-ci illər İran burjua inqilabının ən gərgin anlarında mühüm, həlledici rol oynamış və irtica qüvvələrinin qarşısında aciz qaldığı hərəkat yalnız xarici müdaxiləçilərin ordusu tərəfindən yatırıla bildi.**

**Cənubi Azərbaycan Birinci Dünya müharibəsi illərində**

**Birinci Dünya müharibəsi ərəfəsində ölkədəki ziddiyyətlər daha da kəskinləşdi, xırda burjuaziya, kəndli və fəhlələrin yaşayış şəraiti son dərəcə pisləşdi və ölkənin siyasi həyatında böhranlı vəziyyət yarandı. İranda nüfuz qazanmağa çalışan iri dövlətlər bir-biri ilə açıq və gizli mübarizə aparırdı. 1912-ci ildə Təbrizdə alman kapitalına məxsus xalça şirkəti açılmışdı. Böyük həcmdə kapitala malik olan şirkətin yaratdığı fabrik yun əyirmək və rəngləmək, xalça toxumaq üçün müasir avadanlıqlarla təchiz olunmuşdu. Burada istehsal edilən yüksək keyfiyyətli xalçalar Avropa dövlətlərinə və ABŞ-a ixrac olunur, yaxşı qiymətə satılırdı. Müharibənin əvvəlində özünü bitərəf elan etməsinə baxmayaraq, İranın, xüsusən də Cənubi Azərbaycanın ərazisi dünyanı yenidən bölüşdürməyə çalışan ölkələrin hərbi əməliyyatlar meydanına çevrilmişdi.**

**1914-cü ilin axırlarında Mosuldan Urmiya, Xoy, Soucbulaq istiqamətində hərəkət edən türk qoşunları Cənubi Azərbaycanın çox hissəsini tutdu. Osmanlı hərbi hissələri ilə Cənubi Azərbaycan ərazisində olan rus qoşun dəstələri arasında toqquşma baş verdi. Bununla da, İranın şimal-qərb hissəsində yeni cəbhə açıldı. Türk hərbi komandanlığı Cənubi Azərbaycanda öz mövqeyini möhkəmləndirməyə**

**çalışırdı. Lakin türk qoşunlarının 1915-ci ilin yanvarında Sarıqamış altında rus ordusu tərəfindən məğlub edilməsi İranda və Qafqazda möhkəmlənmək istəyən alman-türk blokunun planını pozdu. Məğlub olan türk ordusu geri çəkildi.**

**Rus ordusunun Təbrizə daxil olması əhalinin vəziyyətini ağırlaşdırdı. Zorakılıq meydanına çevrilən, sosial-iqtisadi çətinliklər qarşısında qalan, aclığa düçar olan yerli əhalinin 15%-i həlak oldu. Bu zaman xalq kütləsinin mübarizəsinə İran Demokrat Partiyasının Təbriz təşkilatı başçılıq edirdi. Fevral burjua inqilabından sonra rus ordusu İranı tərk etdi. Mərkəzi hökumətin gücsüzlüyündən istifadə edən erməni, aysor dəstələri ruslardan və ingilislərdən aldıqları silahlarla müsəlman əhaliyə qarşı soyqırımı törədərək minlərlə dinc adamı məhv etdi. Belə soyqırımların ən dəhşətlisi 1918-ci ilin mart ayında Urmiya şəhərində baş verdi və tarixə "Urmu bəlası" kimi daxil oldu. Müharibə onsuz da bərbad olan iqtisadiyyata ağır zərbə vurdu. Həmin illərdə İranda olmuş ingilis generalı Denstervilin verdiyi məlumata görə, burada müharibə zamanı bir xalvar[2] buğdanın qiyməti 12 tüməndən 230 tümənə qalxmışdı. Başqa sözlə, təxminən 20 dəfə artmışdı. Bütün bunlar əhalinin narazılığına səbəb olurdu.**

**Cənubi Azərbaycan 1917-1920-ci illərdə. Narazılıqların artmasının səbəbləri**

**1917-ci ildə Rusiyada Fevral burjua-demokratik inqilabı qələbə çaldığı və çarizmin devrildiyi vaxt Cənubi Azərbaycan rus qoşunlarının işğalı altında idi. Buradakı demokratik qüvvələrin həm İran irticasının, həm də işğalçıların təzyiqi altında olması acı həqiqətlərdən biri idi. Odur ki Rusiyada çarizmin devrilməsi xəbəri İrandakı rus əsgərlərində inqilabi coşqunluq yaratmaqla yanaşı, Cənubi Azərbaycana da böyük ruh yüksəkliyi və ümidlər gətirdi. İran irticasının dayağı olan çarizmin süqutu, burada bütün demokratik qüvvələr tərəfindən Tehran hakimiyyətinin yerlərdə, o cümlədən Cənubi Azərbaycanda zəifləməsi kimi qəbul edildi.**

**Cənubi Azərbaycanda əhalinin çıxışlarına əsas siyasi orqan olan İran Demokratik Firqəsinin (Partiyasının) (İDP) Əyalət Komitəsi istiqamət verirdi. Fevral inqilabı baş verərkən Azərbaycan Əyalət Komitəsi İDP-nin nəzərəçarpacaq dərəcədə fəaliyyət göstərən yeganə təşkilatı idi. Komitəyə Şeyx Məhəmməd**

**Xiyabani başçılıq edirdi. Fevral inqilabının qələbəsi xəbəri İDP-nin Azərbaycan Əyalət Komitəsinin işini də canlandırdı.**

**Azərbaycan Əyalət Komitəsi təşkilatın mətbuat orqanı kimi "Təcəddüd" qəzetini nəşr etməyə başladı. Qəzetin ilk nömrəsi 1917-ci il aprelin 9-da çıxdı. Bu mətbuat orqanı fars dilində nəşr edilir, nüsxələri Tehrana və ölkənin başqa şəhərlərinə də göndərilirdi. 1917-ci il avqustun 24-də Təbrizdə İDP-nin Əyalət Komitəsinin konfransı açıldı. Konfrans Azərbaycan Demokratik Partiyasının yaradıldığını elan etdi. Xiyabani başda olmaqla onun Mərkəzi Komitəsi seçildi. ADP Azərbaycanın vəziyyətini yaxşılaşdırmaq üçün müəyyən tədbirlər görmək məcburiyyətində idi. İlk növbədə, başıpozuqluq, möhtəkirlik və aclıqla mübarizə məqsədilə bəzi qurumlar yaradıldı. Bu qurumlar aşağıdakılar idi:**

1. **Ərzaq komissiyası imkanlı adamlardan taxıl alıb çörək bişirtdirir və onu çox ucuz qiymətə əhaliyə satırdı.**
2. **Məhəllə komissiyası yaşlı insanlardan təşkil olunmuşdu və məhəllələrdəki yoxsul ailələri müəyyənləşdirib onlara çörək çatdırılmasında Ərzaq komissiyasına yardım edirdi.**
3. **Yoxsullar evi yoxsul, kimsəsiz və qoca adamların yerləşdirilməsi üçün nəzərdə tutulmuşdu.**
4. **Yardım (İanə) komissiyası yoxsullar üçün yardım toplamaqla məşğul olur, bu məqsədlə varlılardan pul (ianə) toplayırdı.**

**Xiyabani şəxsən özü bu qurumların işinə nəzarət edir və vəzifəsini pis yerinə yetirən şəxslərin adlarını "Təcəddüd" qəzetində nəşr etdirir, eyni zamanda ADP-nin iclaslarında onları ifşa edirdi. "Təcəddüd" qəzetində bütün qurumların statistik hesabatları da dərc olunurdu. Xiyabani rəsmən iqtidarda olmasa da, Cənubi Azərbaycanda hər şeyi nəzarətdə saxlayırdı. ADP-də əhalinin, demək olar ki, bütün sosial təbəqələri təmsil olunmuşdu. Buraya orta və xırda burjuaziyanın, orta mülkədarların, ziyalıların və ruhanilərin aşağı zümrələrinin nümayəndələri, fəhlə və kəndlilər də daxil idi. Demokratlar əhalini xarici işğalçıların ölkədən qovulması və Cənubi Azərbaycana muxtariyyət verilməsi uğrunda mübarizəyə**

**çağırırdılar. Bunun sayəsində də Cənubi Azərbaycanda mübarizə əhvali-ruhiyyəsi getdikcə artırdı. Təbriz, Urmiya və Ərdəbildə dövlət məmurlarının özbaşınalığına qarşı həyəcan və çıxışlar baş qaldırmışdı. Təbrizdə vəziyyət xüsusilə kəskin idi. Burada 1917-ci il iyunun 17-də başlanmış çıxışlar əhalini qarət edən vali Sərdar Rəşidə qarşı çevrildi. Sərdar Rəşidin şəhərdən qovulması təkidlə tələb edildi. Vəliəhd Məhəmməd Həsən Mirzə Sərdar Rəşidin istefaya çıxması haqqında fərmana qol çəkməyə məcbur oldu.**

**Siyasi fəallığın artması**

**1917-ci ilin yayından sonra ADP-nin fəaliyyətində və onun başçısı Şeyx Məhəmməd Xiyabaninin dünyagörüşündə, siyasi baxışlarında yeni bir mərhələ başlandı. Bu mərhələdə siyasi partiya başçısı kimi yetkinləşmiş Xiyabani o dövrdəki İran şəraiti üçün milli demokratik inqilabın tələblərinə cavab verən mövqedən çıxış edirdi. O özünün bu siyasi-nəzəri platformasını "təcəddüd", yəni "yeniləşmə məsləyi" adlandırırdı. Artıq ADP-nin fəaliyyət dairəsi xeyli genişlənmiş, partiya Cənubi Azərbaycanda yetişən xalq hərəkatının rəhbər təşkilatı kimi formalaşmışdı.**

**Tezliklə Cənubi Azərbaycanın bütün şəhərlərində partiyanın yerli təşkilatları yaranmağa başladı. Partiyanın ən güclü təşkilatlarından biri Bakıda təşkil olunmuşdu. Bu təşkilat "Azərbaycan" adlı qəzet nəşr edirdi.**

**1917-ci ilin noyabr və dekabr aylarında Təbriz, Ərdəbil, Xoy, Urmiya, Sərab, Zəncan və b. şəhərlərdə keçirilən izdihamlı mitinqlərdə əhali ingilislərin əlində oyuncağa çevrilmiş Vüsuqüddövlə hökumətinin istefa verməsini, demokratik hökumət təşkil olunmasını tələb edirdi. Təbriz və digər şəhərlərdə keçirilən mitinqlərin çoxunun təşkilatçısı ADP idi.**

**Cənubi Azərbaycanı bürüyən və İranın başqa yerlərində də genişlənən çıxışlar nəticəsində müvəffəqiyyətlər qazanıldı, o cümlədən Vüsuqüddövlə və onun əlaltıları 1917-ci ilin sonunda istefa verməyə məcbur oldular.**

**İngiltərə–İran münasibətləri.**

**1918-ci ilin əvvəllərində Rusiya öz qoşunlarını İrandan çıxardı. İngiltərə hərbi komandanlığı isə, əksinə, müstəmləkə siyasətini gücləndirməklə İrandan Osmanlı dövlətinə qarşı hücum meydanı kimi istifadə etməyi planlaşdırırdı. 1918-ci ilin yanvarında ingilislər general Denstervilin komandanlığı altında İrana xüsusi hərbi dəstə göndərdi. Bu dəstə Ənzəli və Rəşti, sonra isə Bakını işğal etməli idi. İngilislər Cənubi Azərbaycanda öz planlarını həyata keçirmək üçün ən təcrübəli məmurlarını göndərirdilər.**

**1918-ci ilin noyabrında Birinci Dünya müharibəsində məğlub olan Osmanlı dövləti Cənubi Azərbaycanda yerləşdirdiyi ordusunu buradan çıxartdıqdan sonra ingilislər İranın şimal-qərbini də ələ keçirdilər. 1919-cu il avqustun 9-da ingilislərin İran hökuməti ilə bağladığı saziş isə Cənubi Azərbaycanda genişlənən milli azadlıq hərəkatının yeni pilləyə qalxmasına təkan verdi, əyalətdə ingilislər və şah hökumətinə qarşı mübarizə şiddətləndi. Ş.M.Xiyabani bütün çıxışlarında xalqı birliyə və açıq mübarizəyə çağırırdı.**

**Hərəkata başçılıq edən ADP-nin bu dövrdəki fəaliyyəti üçün səciyyəvi cəhət o idi ki, partiya tədricən passiv mübarizə mövqeyindən uzaqlaşır, öz tələblərini hökumətə qəti şəkildə bildirir, xalqı daha ciddi mübarizəyə səsləyirdi. Belə ki partiyanın proqramında nəzərdə tutulan taktika dəyişilmişdi. Bu səbəbdən də dinc çıxışlarla yanaşı, silahlı üsyana hazırlaşmaq planı 1920-ci ilin yazında daha böyük inamla həyata keçirilməyə başlandı. Xiyabaninin aşağıdakı sözləri bu planı aydınlığı ilə açıqlayır: "Ağıllı bir xalq teleqrafxanaya toplaşıb öz qulluqçu və nökərlərindən ədalət və azadlıq istəməz... Bu, dilənçilikdir, bu, zillət və əsarətdir. Bu, qəhrəman və diri xalqa yaraşmaz".**

**Xiyabaninin bu sözləri partiyada təkamüldən xəbər verir, inqilabi çağırışa qəti dönüş yarandığını göstərirdi. O, İranın demokratikləşməsini və onun tərkibində Cənubi Azərbaycana geniş muxtariyyət verilməsini tələb edirdi.**

**Üsyanın başlaması və qələbəsi.**

**1920-ci il aprelin ilk günlərində ADP-nin üzvlərindən bir neçəsinin həbs edilməsi üsyanın başlamasına təkan verdi. Aprelin 7-nə keçən gecəni "Təcəddüd" qəzetinin yerləşdiyi redaksiya binasında keçirən ADP rəhbərliyi silahlı üsyan**

planını hazırlandı.Üsyanın başlaması ilə Cənubi Azərbaycandakı milli azadlıq hərəkatı yeni mərhələyə daxil oldu. Hərəkat silahlı üsyan xarakteri aldı. Üsyana rəhbərlik etmək üçün İctimai İdarə Heyəti (İİH) təşkil olundu. Heyətə Ş.M.Xiyabani başçılıq edirdi.İİH-nin rəhbərliyi altında üsyançılar iki gün müddətində, demək olar ki, bütün dövlət idarələrini ələ keçirdilər. Silahlı üsyan qan tökülmədən qələbə çaldı. İİH milli azadlıq və demokratik hüquqlar uğrunda mübarizə apardığını Təbrizdəki xarici dövlət konsulluqlarına rəsmən bildirdi. İİH öz fəaliyyətinə, ilk növbədə, Tehrandan göndərilmiş dövlət məmurlarını və hərbi qulluqçuları idarə işlərindən kənar edərək Təbrizdən qovmaqla başladı. Azərbaycan əyalətinə vali göndərilən və Təbrizə gəlməyə cəsarət etməyən Eynüddövlə üsyanın başlanmasından sonra Tehrandan verilən göstərişə əsasən Miyanədən çıxaraq Təbrizə tərəf hərəkət etdi. Ş.M.Xiyabaninin təklifi ilə Azərbaycan adı "Azadıstan"la əvəz olundu.

Demokratların tələblərini sözdə qəbul etmiş Eynüddövlə üsyanı yatırmaq haqqında mərkəzin göstərişini həyata keçirmək məqsədilə dərhal bir sıra tədbirlər görməyə başladı və ilk növbədə, Tehrandan külli miqdarda pul tələb etdi. O eyni zamanda üsyanın bir sıra iştirakçıları ilə gizli danışıqlara başlamaqla onları parçalamağa nail olmaq istəyirdi. Hərəkat öz hüdudlarını genişləndirməkdə davam edirdi. Təbrizdə başlamış üsyan tədricən Cənubi Azərbaycanın başqa mahal və şəhərlərini də əhatə edirdi. Bu hərəkatların çoxuna, bir qayda olaraq, ADP-nin yerli təşkilatları başçılıq edirdi. Artıq iyunun əvvəllərinə doğru üsyan Cənubi Azərbaycan çərçivəsində geniş bir ərazini – Zəncan, Marağa, Əhər, Xoy, Ərdəbil və s. əhatə edirdi. Təbriz üsyanı dövründə ingilislərə və daxili irticaya qarşı etiraz hərəkatı bütün İranı bürümüşdü. Uzaq və yaxınlığından asılı olmayaraq, İranın mühüm məntəqələrində Təbriz üsyanına qarşı açıq hüsnrəğbət və həmrəylik güclü idi. Denikin ordusunun qalıqlarını təqib etmək bəhanəsi ilə İranın Ənzəli limanına qoşun yeridən Sovet Rusiyasının İran kommunistləri ilə əlaqə yaradaraq Gilanda Sovet hakimiyyətini elan etməsi ADP-nin mövqeyini gücləndirdi. Gilan Respublikası ilə əlaqələr yaradılsa da, burada güclü təsirə malik olan rus-bolşevik qüvvələrin yardımı rədd edilmişdi. Ş.M.Xiyabaniyə başqa

**köməklər də təklif olunmuşdu. Bunlardan İrəvan quberniyasında daşnaklara qarşı fəaliyyət göstərən və sovet ordusu Azərbaycanı işğal etdikdən sonra Mərəndə çəkilməyə məcbur olan Abbasqulu bəy Şadlinskinin yardım təklifini göstərmək mümkündür. Həmçinin Mustafa Kamal Atatürk də Xiyabaniyə hərbi kömək təklif etmişdi.**

**Milli hökumətin yaradılması**

**1920-ci il iyunun 23-də ADP müvəqqəti hakimiyyət orqanı kimi fəaliyyət göstərən İİH əsasında Milli hökumət yaratmağı qərara aldı. Mərkəzi dövlətin nümayəndəsi kimi bütün fəaliyyəti tamamilə iflic edilmiş vali Eynüddövlə də Təbrizi tərk etməkdən başqa çıxış yolu görməyərək əhatəsindəki məmurlarla birlikdə şəhərdən çıxdı. Beləliklə, Təbrizdə mərkəzdən göndərilmiş bir nəfər də məmur qalmadı.**

**MH-nin Alaqapıya (valinin oturduğu bina) köçməsi Təbriz əhalisinin ümumi bayramına çevrildi. Milli hökumət kənd təsərrüfatı, maarif, maliyyə, səhiyyə, ədliyyə və s. sahələrdə islahatlar və başqa tədbirlər həyata keçirməyə başladı. Milli müdafiə qüvvələrinin təşkili üçün də layihə hazırlandı. Bu layihəyə əsasən şəhər əhalisindən və Təbrizə gəlmiş kəndlilərdən gələcəkdə ümumi sayı 12 minə çatdırılacaq qoşun hissəsi - milli qvardiyanın yaradılmasına başlanıldı.**

**Hökumət şəhər əhalisindən yeni jandarm və polis dəstələri təşkil edərək nizam-intizam yaratdı. Bu qüvvələr Milli hökumətin əsas dayağı idi. Təbrizdə xalça fabriki tikilməsinə başlanılmış, şəkər zavodu, toxuculuq və dəri fabriklərinin yaradılması, kənd təsərrüfatı bankının və milli bankın açılması, pul islahatının, şəhər əncüməninə seçkilərin keçirilməsi və s. planlaşdırılmışdı. Milli hökumətin mühüm sahələr – maarif, mədəniyyət, səhiyyə, ədliyyə, vəqf, hərbi işlər və s. üzrə idarə və nazirlikləri yaradılmışdı. Əhalinin savadlanmasına xüsusi diqqət yetirilir, şəhər və kəndlərdə pulsuz məktəblər açılırdı. Təbrizdə pulsuz qız məktəbinin təşkili bütün İran üçün nadir hadisə oldu. İdarə və müəssisələrdə "Azadıstan" adı yazılmış yeni lövhələr vurulsa da, onların üzərində İran dövlətinin gerbi saxlanılmışdı.**

**Milli hökumətin süqutu**

**İngilislər özləri üçün “təhlükəli” hesab etdikləri Cənubi Azərbaycandakı hərəkata qarşı planlar hazırlayırdılar. Vali Eynüddövlə vasitəsilə MH rəhbərliyi altında aparılan danışıqlar, general Edmondun köməkliyi ilə üsyana qarşı görülən tədbirlər, o cümlədən demokratların mühafizəkar qrupunun Təbrizdə qiyamı, bölgələrdə isə feodal dəstələrin üsyan tərəfdarları üzərinə hücumu baş tutmadıqda onlar yeni planlar cızmağa başladılar. Danışıqlarla üsyançılara təsir edə bilməyəcəyini görən İranın yeni Baş naziri Müşirüddövlə ingilislərin yaxından köməyi və bilavasitə rəhbərliyi ilə üsyançılara qarşı hücuma hazırlaşmaq qərarına gəldi. Hücumu təşkil etmək üçünHidayət Müxbirüssəltənə sentyabrın ilk günlərində vali sifəti ilə Təbrizə daxil oldu. Müxbirüssəltənə Baş nazirin məktubunu Xiyabaniyə çatdırıb onunla “danışıqlara” başladı.**

**Danışıq davam etdiyi müddətdə isə Müxbirüssəltənə Təbrizin kənarında düşərgə saldı və MH tərəfindən tərk-silah edilməmiş İranın kazak briqadası qarnizonunun komanda heyətini öz tərəfinə çəkərək şəhərə birgə hücum planı hazırladı. Marağadakı kazak süvari dəstələri də Təbrizə çağırıldı. Müxbirüssəltənə eyni zamanda MH-nin silahlı qüvvələrini Təbrizdən uzaqlaşdırmaq üçün jandarm dəstəsinin rəhbəri Mir Hüseyn Haşımini ələ ala bildi. Mayor Haşımi şəhər ətrafındakı quldur dəstələri ilə mübarizə aparmaq bəhanəsi ilə silahlı qüvvələri MH-nin razılığını almadan şəhərdən çıxardı.**

**Əks-inqilabi qüvvələr sübh çağı üsyançıların mərkəzini qəflətən bombalayaraq hücuma keçdilər. ADP-nin silahlı üzvlərinin ciddi müqavimətinə baxmayaraq, əks-inqilabi qüvvələr 1920-ci il sentyabrın 12-də Alaqapını ələ keçirdilər, sentyabrın 14-də isə “Təcəddüd” qəzetinin binasını dağıtdılar. Əks-inqilabi qüvvələrin sayca çox olmasına baxmayaraq, üsyançılar sentyabrın 14-dək son damla qanlarına qədər qəhrəmancasına vuruşdular. İrticaçılar onlara amansız divan tutdular. Sentyabrın 14-də, başqa demokratlar kimi, Xiyabani də qəhrəmancasına həlak oldu. İran irticasının başçısı Müşirüddövlə isə Cənubi Azərbaycanda xalq hərəkatının yatırılmasındakı “xidmətlərinə” görə şah tərəfindən birinci dərəcəli “Taci-Kəyan” nişanı ilə təltif edildi.**

**Bir sıra məhdudiyyətlərinə və nöqsanlarına, üsyan zamanı buraxılan səhvlərə baxmayaraq, Şeyx Məhəmməd Xiyabaninin başçılığı ilə həyata keçirilmiş 1920-ci il Təbriz üsyanı və bütün hərəkat Cənubi Azərbaycanda və bütövlukdə İran tarixində parlaq bir dövrü təşkil edir.**

**Üsyan məğlub edilsə də, bu hərəkat Cənubi Azərbaycan türklərinin İranda əcnəbi ağalığına, irtica özbaşınalığına qarşı mübarizəsində mühüm bir səhifə oldu.**

**Üsyan nəticəsində əvvəlki hökumət istefa verdi və İranda Müşirüddövlənin başçılığı ilə yeni dövlət kabineti təşkil edildi. İngilislərə qarşı mübarizənin ən kəskin vaxtında hakimiyyət başına gələn Müşirüddövlə xalqın nifrət və qəzəbindən qorxaraq 1919-cu il İngiltərə-İran sazişinin həyata keçirilməsinin məclis tərəfindən təsdiq olunanadək təxirə salındığını elan etdi və bu qərar 1921-ci ildə sazişin ləğvi ilə nəticələndi. İran türklərinin öz milli varlığı və demokratiya uğrunda mübarizəsi tarixində Ş.M.Xiyabaninin rəhbərliyi ilə baş vermiş hərəkatın rolu və əhəmiyyəti böyükdür. Təbrizdəki üsyana və bütün hərəkata başçılıq etmiş Ş.M.Xiyabani şəxsiyyəti isə Cənubi Azərbaycanda XX əsrin əvvəllərindən formalaşan milli şüurun inikşafı prosesində xüsusi bir səhifə – mərhələ təşkil edir. Ş.M.Xiyabani İranda müstəqillik və demokratik azadlıqlar uğrunda mübarizə aparmış ictimai-siyasi xadimlər içərisində xüsusi yer tutur.**

## Cənubi Azərbaycan 1920-1940-cı illərdə

## Cənubi Azərbaycan 1920-ci illərdə

**1920-ci illərin birinci yarısında ictimai-siyasi vəziyyət mütərəqqi liberal-demokratların deyil, əks-təmayüllü qüvvələrin xeyrinə dəyişməyə başladı. Burada öz nüfuzunu yaymaq məqsədi güdən Böyük Britaniya fəal surətdə İranın daxili işlərinə qarışırdı. Əvvəlcə iri feodallara arxalanaraq yerini möhkəmləndirməyə çalışan ingilislər tezliklə fikirlərini dəyişərək daha çevik olan və Sovet Rusiyasına nifrət edən Rza xan kimi hərbçilərə üstünlük verdilər. Hələ 1920–1922-ci illərdə Cənubi Azərbaycanda demokratik hərəkatın silah gücünə yatırılması zamanı buraya göndərilmiş hökumət qoşunları, əsasən, Hərbi nazir Rza xanın komandanlığı altında olan kazak diviziyasının hissələri Təbrizi və digər şəhərləri**

**tutdular. Hərbi vəziyyət elan edildi. 1924–1925-ci illərdə Təbriz, Ərdəbil, Miyanə, Diklidaş nahiyələrində yaşayan tayfalar silahsızlaşdırıldı.1925-ci ilin iyulunda Rza xan Cənubi Azərbaycana səfər edib Təbriz, Xoy, Salmas, Ərdəbil şəhərlərində oldu. O, səfərə çıxmamışdan əvvəl xüsusi bəyanatında bildirdi ki, 1924-cü ilin yazında və yayında bu səfəri Azərbaycanın fövqəladə xidmətlərini nəzərə alaraq edir. Əslində isə məqsəd Azərbaycandakı bütün qüvvələri səfərbər edib Qacarları devirməyə hazırlaşdırmaq idi. İşsizlikdən, bahalıqdan, rüşvətxorluqdan, özbaşınalıqdan bezən geniş xalq kütləsi Rza xanın yağlı vədlərinə inanırdı. Nəhayət, 1925-ci ildə Qacarlar sülaləsi devrildi və hakimiyyətə Rza şah Pəhləvi gəldi.**

**Cənubi Azərbaycan Rza şahın hakimiyyəti illərində**

**1920-ci illərin ikinci yarısı – 1930-cu illərdə Cənubi Azərbaycanda müəyyən sosial-iqtisadi, siyasi və mədəni dəyişikliklər baş verdi. Bu dövrdə Cənubi Azərbaycanda xüsusi kapital əsasında onlarla xırda, orta və iri sənaye müəssisəsi tikildi. Bunların içərisində, əsasən, Təbrizdə təmərküzləşmiş trikotaj – corab, pambıq və yun parça, kibrit fabriklərini, düyü, pambıqtəmizləmə, gön-dəri, taxta-şalban zavodlarını göstərmək olar. Bütün bunların nəticəsində Cənubi Azərbaycanda milli sənaye kapitalının əsası qoyuldu. Lakin Pəhləvi rejiminin təmsil etdiyi qüvvələr sosial-iqtisadi sahələrdə dərin dəyişikliklərin həyata keçirilməsini arzulamır, yalnız öz hakimiyyətini möhkəmləndirmək məqsədi güdən səthi islahatlarla kifayətlənirdi.Bu dövrdə sosial strukturda baş vermiş dəyişikliklərdən biri də vaxtilə ən güclü və nüfuzlu təbəqələrdən olan ruhanilərin sayının azalması və mövqeyinin zəifləməsi oldu. Rza şah, bütün diktatorlar kimi, heç bir müxalif qüvvələrlə hesablaşmayan və zorakı siyasətə üstünlük verən dövlət başçısı idi. Onun dövlət səviyyəsinə qaldırdığı və paniranizmə[1] söykənən milli zülm siyasəti qeyri- fars xalqlara, o cümlədən Azərbaycan türklərinə qarşı maddi və mənəvi həyatın, demək olar ki, bütün sahələrində həyata keçirilirdi. Əski türk kitabları, Təbriz şairlərinin çap olunmuş əsərləri və əlyazmaları toplanılıb yandırılırdı. Türkcə coğrafi adlar – dağ, çay, şəhər, kənd, tarixi türk əsərlərinin və**

abidələrinin adları və s. sistematik olaraq farslaşdırılırdı. Rza şahın mərkəzləşmiş güclü dövlət yaratmaq məqsədilə apardığı inzibati siyasət də qeyri-fars millətlərin varlığına, milli təmərküzləşməsinə qarşı çevrilmişdi. 1937-ci ildə təsdiq olunan yeni inzibati bölgüyə əsasən Azərbaycan ərazisində üç ostan – vilayət yaradıldı.

**Rza şah diktaturasının süqutu**

**1941-ci il avqustun 25-də SSRİ və Böyük Britaniya hökuməti öz qoşunlarını Almaniyanın əlaltısına çevrilməkdə olan İrana yeritdi. Sovet qoşunları şimal regionlarını, o cümlədən Cənubi Azərbaycanı tutdu. Demokratik qüvvələrin təzyiqinə dözməyən şah öz oğlunun xeyrinə taxt-tacdan imtina etdi. Rza şahın hərbi-polis rejiminin iflasa uğraması nəticəsində ölkədə real hakimiyyət parlamentə və onun təşkil etdiyi hökumətə keçdi. Konstitusiyada nəzərdə tutulmuş bəzi təsisatların, siyasi azadlıqların qismən bərpası, siyasi məhbusların həbsdən buraxılması İranda ictimai-siyasi həyatın canlanması üçün əlverişli şərait yaratdı. İlk vaxtlar kortəbii çıxışlar, mitinq və nümayişlər sonralar müxtəlif partiyaların, qəzet və jurnalların fəaliyyəti nəticəsində getdikcə mütəşəkkil ictimai-siyasi mübarizə formasını aldı.**

**Milli hərəkatın başlanması**

**Keçmişdə olduğu kimi, Cənubi Azərbaycan yenə də Ümumiran demokratik hərəkatlarının əsas mərkəzlərindən birinə çevrildi. 1941-ci ilin sentyabr-oktyabr aylarından burada geniş xalq kütlələrinin mitinq və yığıncaqları, nümayişləri genişləndi. 1942–1944-cü illərdə Azərbaycandakı demokratik hərəkatda əvvəllər heç vaxt geniş təzahür etməmiş bir xüsusiyyət ön plana çıxmağa başladı və bütün hərəkata yeni məzmun gətirdi. Bu, milli şüurun misilsiz dərəcədə inkişafı demək idi.**

**Cənubi Azərbaycanda milli mədəniyyətin inkişaf etdirilməsində Şimali Azərbaycanın təsiri həlledici əhəmiyyətə malik oldu. Bu təsir özünü, ilk növbədə, Şimali və Cənubi Azərbaycan ziyalılarının, mədəniyyət xadimlərinin canlı yaradıcılıq əlaqələri və əməkdaşlığı formasında büruzə verirdi. 1941–1946-cı**

**illərdə buraya, habelə İranın başqa ərazilərinə çoxlu mədəniyyət xadimləri gələrək konsert və tamaşalar verdi, mühazirələr oxudu, yerli əhaliyə mədəni quruculuq sahəsində konkret yardım göstərdi. Bu fəaliyyət sayəsində qarşılıqlı əlaqələr genişləndirildi.**

**Milli hökumətin yaranması və süqutu**

**1945-ci ilin yayında Cənubi Azərbaycanda demokratik hərəkatın yeni – ikinci mərhələsi başladı. Bu, əsaslı surətdə dəyişmiş beynəlxalq vəziyyətlə xeylidərəcədə bağlı idi. Cənubi Azərbaycanın iri torpaq sahibləri, ticarət burjuaziyasının bir çox nümayəndələri demokratik hərəkatın qarşısını almaq üçün hər vasitəyə əl atırdılar. Onlar kiçik silahlı dəstələr təşkil edib terror hadisələri törədir, köçəri tayfalarla əhalini toqquşdurmağa çalışırdılar. Buna cavab olaraq Azərbaycanın müxtəlif yerlərində silahlı fədai dəstələri yaranmağa başladı. Bu mübarizənin gedişində bəzi yerlərdə müvəqqəti idarəetmə orqanları da meydana çıxdı.**

**1945-ci il sentyabrın əvvəlində Seyid Cəfər Pişəvəri başda olmaqla bir qrup tanınmış demokrat Azərbaycan Demokratik Partiyasının yaradılması haqqında bəyanatla çıxış etdi. Sentyabrın 13-də ADP təsisçilərinin ilk konfransı keçirildi. Konfrans 11 nəfərdən ibarət Müvəqqəti Komitə seçdi və partiyanın I Qurultayını çağırmağı qərara aldı. ADP-nin orqanı olan “Azərbaycan” qəzeti ana dilində çıxmağa başladı. ADP-nin yaranması əhalinin geniş təbəqələri arasında böyük rəğbətlə qarşılandı. Bir neçə həftə ərzində minlərlə adam partiya sıralarına daxil oldu. 1945-ci ilin oktyabrında ADP-nin I Qurultayı keçirildi. Qurultay partiyanın rəhbər orqanlarını seçdi və siyasi mübarizəni genişləndirməyi qət etdi. Mərkəzi hökumətin hücumunun qarşısını almaq üçün bütün şəhərlərdə yeni hakimiyyət orqanları yaradıldı. Noyabr ayında xalqın tanınmış xadimlərindən ibarət Azərbaycan Xalq Konqresi çağırıldı və o özünü Müəssislər Məclisi elan etdi. Əsas tələb Milli hökumətin yaradılması oldu. Dekabrın 12-də başda S.C.Pişəvəri olmaqla Milli hökumət yaradıldı. Bu hadisə tarixə “21 Azər” hərəkatı kimi daxil oldu. Çünki 12 dekabr İran təqvimi ilə Azər ayının 21-nə təsadüf edir.**

**Hökumət 10 nazirlikdən, Ali Məhkəmə və Baş Prokurorluqdan ibarət oldu. Milli hökumətin yaradılması ilə demokratik hərəkatın üçüncü mərhələsi başladı. Milli hökumət Azərbaycanın İranın tərkibində muxtariyyət prinsipi əsasında mübarizə aparacağını bildirdi. Milli hökumətin qarşısında duran əsas vəzifə yerlərdə yeni inzibati-ərazi orqanlarının yaradılması idi. Bu məqsədlə əncümənlərin formalaşdırılmasına başlanıldı.**

**Demokratik hərəkatın ən mühüm tədbirlərindən biri də zəhmətkeşlərin xeyrinə sosial-iqtisadi islahatların keçirilməsi idi. Buna görə də Milli hökumət 1946-cı il fevralın 16-da Aqrar Qanun verdi. Bu qanuna əsasən, torpaqsız kəndlilər torpaqla təmin olunmalı idi.**

**Bir qədər sonra – mayın 12-də qəbul olunmuş "Əmək haqqında" Qanun sosial sahədə digər mühüm addım oldu. Bu qanuna görə, fəhlə və qulluqçuların iş şəraiti xeyli yaxşılaşdırıldı, sahibkarlar tərəfindən istismar məhdudlaşdırıldı. Lakin Milli hökumətin ən böyük nailiyyəti milli mədəniyyətin inkişafının əsaslarını yaratmaq yolunda atdığı addımlar oldu. Bu istiqamətdə birinci dərəcəli tədbir 1946-cı il yanvarın 6-da Milli Məclisin qəbul etdiyi "Dil haqqında" Qanun idi.**

**1946-cı ilin iyununda Təbriz Universitetinin təsis edilməsi, müxtəlif yaradıcı birlik və təşkilatların, muzeylərin yaradılmasına başlanması əsl milli mədəni inqilab üçün əsas yaradır, demokratik hərəkatın milli məzmununu möhkəmləndirirdi. Bütün bu hadisələrdən istifadə edən İran hökuməti hücuma keçməyi qərara aldı. Noyabrın 30-da hökumət qoşunları ilə fədailər arasında döyüşlər başladı.**

**Sovet dövləti Cənubi Azərbaycanda İran qoşununa müqavimətin qarşısını almaq üçün ölkədəki nümayəndələri vasitəsilə dekabrın 11-də gecə ikən hərəkat rəhbərlərini, ilk növbədə, Pişəvərini Sovet İttifaqına mühacirətə məcbur etdi. Hərəkatın yeni rəhbərliyi bütün silahlı qüvvələrə döyüş meydanlarını tərk etmək haqqında göstəriş verdi.**

**Dekabrın 12-də Təbrizə daxil olan şah qoşunları minlərlə adamı güllələdi və ya həbs etdi. Kütləvi təqiblərə başlanıldı. Cəza tədbirlərindən qurtulmaq üçün on minlərlə vətənpərvər qaçmağa, mühacirət etməyə məcbur qaldı. 1941–1946-cı illər**

**milli azadlıq hərəkatı məğlubiyyətə uğradı. Cənubi Azərbaycandakı milli demokratik hərəkat məğlub olsa da, ölkənin sonraki tarixinə çox böyük təsir göstərdi, xalqda öz milli varlığı, tarixi və mədəniyyəti ideyasını möhkəmləndirdi, bu məqsədlər uğrunda gələcək mübarizə üçün təməl daşı qoydu.**

**Cənubi Azərbaycan İran İslam inqilabı və ondan sonrakı dövrdə**

**İnqilabaqədərki dövr**

**XX əsrin 50–60-cı illərində ağır ictimai-siyasi durumda olan İranda kəndlilərin çıxışları baş verirdi. Bu çıxışlar Cənubi Azərbaycanda xüsusilə güclü idi. Ölkədə sosial partlayış gözlənilirdi. Şah hökuməti genişlənən demokratik mübarizənin qarşısını hərbi yolla almaqla bərabər, islahatlar keçirməyə qərar verdi. Bu, İran tarixinə "Ağ inqilab" adı ilə düşdü. 1962-ci ildə keçirilmiş aqrar islahat nəticəsində tezliklə Cənubi Azərbaycan kəndlilərinin 80 faizi torpaq sahibinə çevrildilər. Buna baxmayaraq, kəndlilər fermer təsərrüfatı yaratmaq yolunda böyük çətinliklərlə qarşılaşırdılar. Ölkədə inkişaf birtərəfli gedirdi. Cənubi Azərbaycan inkişaf tempinə görə İranın əsas sənaye mərkəzlərindən geri qalırdı. Aparılan islahatlar ölkənin inkişafını şərtləndirməklə yanaşı, İranda Qərb həyat tərzinin yayılmasına da yol açdı.**

**İran İslam inqilabı ərəfəsində şah hökumətinin apardığı islahatlar, həmçinin mədəniyyət sahəsində modernləşdirmə cəhdləri, siyasi-hüquqi sferada qatı mühafizəkar siyasət yürüdülməsi ölkədə ziddiyyətləri daha da dərinləşdirdi. Eləcə də xarici dövlətlərin ölkənin daxili işlərinə qarışmaqla qarışıqlıq yaratmaq səyləri müxalif qüvvələrə fikirlərini açıq ifadə etmək, etiraz aksiyaları keçirmək imkanı verdi. Tezliklə inqilabi hərəkat başladı. Hərəkat şah üsul idarəsinə, eyni zamanda ölkənin ABŞ inhisarlarının xammal əlavəsinə çevrilməsinə qarşı yönəlmişdi.**

**İnqilabın başlanması**

**1977-ci il dekabrın 12-də Milli hökumətin yaranmasının (1945-ci il)ildönümü münasibətilə Təbriz Universiteti tələbələrinin şah əleyhinə çıxışları başladı. 1978-ci il yanvarın 9-da Qum şəhərində Konstitusiya prinsiplərinə və qaydalarına riayət olunması, şahlığın ləğv edilməsi tələbi ilə çıxış edən nümayişçilərlə polis arasında toqquşmalar baş verdi. Toqquşmalarda həlak olanların dəfninin 40-cı günü –**

**fevralın 18-də Təbrizin din başçılarının əhaliyə müraciəti hər kəsi ayağa qaldırdı. Nümayişlərdə 100 min nəfər iştirak edirdi. Nümayişçilər islam və demokratiya istəyini özündə əks etdirən şüarlar irəli sürürdülər. Dinc etiraz aksiyası sonra mövcud quruluşa qarşı üsyana çevrildi. Bunu "29 bəhmən üsyanı" da adlandırırlar. Şah Təbrizə başqa şəhərlərdən əlavə nizami hərbi dəstələr göndərdi. Qüvvələr bərabər olmadığından üsyan qəddarlıqla yatırıldı. Antişah və antiimperialist hərəkat olan 1978–1979-cu illər İran inqilabının sosial-siyasi mahiyyətini, əslində, elə 18 fevral Təbriz üsyanı müəyyən etmişdi. Təbriz üsyanı Pəhləvi monarxiyasına zərbə vuran ilk xalq çıxışı idi. Bu üsyandan sonra etiraz dalğası Tehran, İsfahan, Məşhəd, Əraq, Qum, Zəncan və başqa şəhərlərə də yayıldı. İnqilabın rəhbərləri arasında xeyli azərbaycanlı var idi. Bunlardan Ayətullah Kazım Şəriətmədarini, Müvəqqəti hökumətin başçısı Mehdi Bazərqanı və başqalarını misal çəkmək olar.**

**İnqilabın qarşısını almaq üçün şah bir neçə kabinet dəyişikliyi etdi. Lakin bunun elə bir faydası olmadı. Həmin ilin sentyabrında inqilabın ikinci mərhələsi başlandı. İlk çıxışlar ayın 7-də ölkənin 12 şəhərində, o cümlədən Təbrizdə kütləvi xarakter aldı. Sentyabrın 8-də – cümə günü hakimiyyətin nümayiş iştirakçılarını gülləbaran etməsi də üsyançıları öz yolundan döndərə bilmədi. "Qanlı cümə günü" adını almış həmin gün əhalinin şaha qarşı qəzəb və nifrətini daha da artırdı. Neftçilərin noyabr ayında həftəlik, daha sonra isə 1978-ci ilin dekabrından 1979-cu il fevralın əvvəllərinədək davam etmiş aramsız ümumi tətili şah hakimiyyətinə ağır zərbə vurdu və inqilabın taleyini həll etdi. Şah 1979-cu il yanvarın 16-da İrandan qaçdı. Fevralın 16-da şahpərəstlərin son tör-töküntüləri Təbrizdə və Cənubi Azərbaycanın başqa şəhərlərində tamamilə zərərsizləşdirildi, nəzarət xalqın əlinə keçdi. Beləliklə, inqilab başa çatdırıldı. 1978–1979-cu illərin İran inqilabı dövründə azərbaycanlılar 25 min nəfərə yaxın qurban verdilər.**

**Respublika qurulması yolunda. 1979-cu ilin fevralında dini-siyasi məzmunlu hərəkatın liderlərindən olan Ayətullah Xomeyninin Fransadan Tehrana gəlməsi ilə İran İslam inqilabı bitdi. Bundan sonra ölkənin idarəçilik sisteminin hansı əsasda qurulması ilə bağlı fikir ayrılıqları yarandı. Tudə Partiyası başda olmaqla bir**

qrup sosialist respublikasını, daha çox ingilislərin təsir dairəsində olan başqa bir qrup (əsasən, dini qrup) İslam respublikasını, ABŞ yönümlü qüvvələr və xüsusən Milli Cəbhə tərəfdarı olanlar demokratik quruluşu müdafiə edirdilər. Ölkənin ən nüfuzlu dini liderlərindən biri, əslən azərbaycanlı olan Seyid Məhəmməd Kazım Şəriətmədarinin rəhbərlik etdiyi Müsəlman Xalq Respublikası Partiyası (MXRP) isə dinin siyasətdən ayrı tutulmasını istəyən, milli və etnik azlıqların haqlarını müdafiə edən, liberal dəyərlərə üstünlük verən idarəçilik sisteminin yaradılmasını istəyirdi. Lakin qələbənin ilk günündən hakimiyyət sükanını ələ alan Ayətullah Xomeyni tərəfdarları ümumxalq rəy sorğusu ilə 1979-cu il aprelin 1-də İran İslam Respublikasını (İİR) elan etməyə nail oldular. İnqilab dövründə İranın heç bir xalqı milli tələblər irəli sürmədi. Yalnız inqilabın qələbəsi ərəfəsində və ondan sonra milli hüquqların təmin olunması məsələsi gündəmə gəldi. İnqilab zamanı Xomeyni başda olmaqla bəzi siyasi xadimlər məzlum xalqlara öz müqəddəratını təyin etmək haqqının veriləcəyini bildirmişdilər. Ruhanilər tərəfindən idarə edilən və ölkənin ən güclü dini-siyasi partiyası olan İslam Respublikası Partiyası da verdiyi bəyanatında hər xalqın dili, ədəbiyyatı, mədəniyyəti və adət-ənənələrini qorumaq hüququnun olduğunu bildirmiş, etnik və milli ayrı-seçkiliyi haram saymışdı. Müvəqqəti hökumətin başçısı, əslən azərbaycanlı olan Mehdi Bazərqan İranda etnik azlıqlara mədəni hüquqların verilməsinin tərəfdarı idi. O, İranın ərazi bütövlüyü daxilində əyalətlərin belə bir hüquqa sahib olmasını məqbul sayırdı.

**Hüquqi mübarizə**

Bununla yanaşı, İran daxilində Azərbaycana muxtariyyətin verilməsi, məktəblərdə tədrisin ana dilində aparılması, ana dilində dərsliklərin, kitabların, qəzet və jurnalların çap olunması kimi məsələləri gündəmə gətirən bir sıra təşkilatlar yaradıldı. Belə təşkilatlardan biri də Tehranda meydana gələn Azərbaycan Yazıçıları və Şairləri Cəmiyyəti idi. 1979-cu ilin aprelində cəmiyyət ana dili probleminin həlli ilə bağlı proqram qəbul etdi. Azərbaycan dilini Azərbaycan xalqının rəsmi dili elan edən bu proqramın başlıca maddələri İran universitetlərində bu dilin rəsmən tanınması, Azərbaycan dili və ədəbiyyatı

**kafedralarının yaradılmasına hazırlıq aparılması məsələlərini özündə əks etdirirdi. Eləcə də proqramda məktəblər üçün ana dili və ədəbiyyat müəllimlərinin hazırlanmasına başlanılması, milyonlarla azərbaycanlının yaşadığı Tehranda ikidilli məktəblərin açılması və dərs kitablarının çap olunması kimi məsələlərə də diqqət yetirilirdi. Əsasən, ziyalılardan ibarət olan bu qrupun fəaliyyəti 1980-ci illərin əvvəllərinə kimi davam etmişdir.**

**Bu dövrdə İran azərbaycanlılarının haqları uğrunda mübarizə aparan siyasi təşkilatlar arasında MXRP də var idi. MXRP-nin Azərbaycan təşkilatı suveren İran dövləti daxilində Azərbaycan xalqının muxtar hüquqları uğrunda mübarizəni öz başlıca vəzifəsi kimi göstərir, eyni zamanda islam prinsiplərinə dayanaraq sosialist cəmiyyətinin əsaslarını qoymaq əzmini bildirirdi. Bütün bunlara baxmayaraq, 1979-cu ilin dekabrında qüvvəyə minmiş Konstitusiya ölkədə ruhanilərin mütləq hakimiyyətini təsbit etmiş oldu.**

**Sonuncu üsyan**

**Konstitusiya layihəsinin yeni mətnindən milli əyalətlərin bəzi hüquqları ilə bağlıqeydlərin çıxarılması, həmçinin ibtidai məktəblərdə ana dilində təhsil hüququ əvəzinə fars dilinə icazə verilməsi kəskin etiraz doğurdu. 1979-cu il dekabrın 5-də İran MXRP-nin Azərbaycan bölməsi Təbriz əhalisini Konstitusiyaya etiraz etməyə, bəzi fiziki və mənəvi hücumlara məruz qalmış Şəriətmədariyə dəstək olmaq üçün mitinq və nümayişə çağırdı. Bu, Təbrizdə üsyanın başlanmasına təkan oldu. Konstitusiyanın 110-cu maddəsinə (bu maddə Xomeyniyə mütləq ali hakimiyyət hüquqları verirdi) etirazla başlanmış bu üsyan zamanı Təbrizdə dövlət idarələri, radio və televiziya stansiyaları, başqa kütləvi informasiya vasitələri, təyyarə meydanı ələ keçirildi. Cənubi Azərbaycan "Azərbaycan İslam Respublikası" elan edildi. Bir neçə gün davam edən nümayişlər dalğası Təbrizdən kənara yayılsa da, elə bir uğur əldə edə bilmədi. Buna səbəb Şəriətmədarinin tələblərin yerinə yetirilməsi üçün şəxsi nüfuzundan və milli hərəkatın gücündən istifadə etməməsi və geri çəkilməsi oldu. Beləliklə, müxtəlif sosial-siyasi qüvvələr tərəfindən dəstəklənən iki dini başçı – Xomeyni ilə Şəriətmədari arasındakı**

**ziddiyyətlər ikincinin tərəfdarlarının məğlubiyyəti ilə nəticələndi. Hakim İslam Respublika Partiyasının yerli təşkilatları geniş fəaliyyət meydanı əldə etdilər.**

**Hakimiyyətin möhkəmləndirilməsi**

**1980-ci ilin yanvarında prezident seçkiləri keçirildi. Martmay aylarında parlament seçildi, avqust-sentyabrda isə yeni, daimi hökumət işə başladı. Yeni hökumət torpaq, işsizlik məsələsini həll edə bilmədi. İran İslam Məclisi torpaq islahatı haqqında qanunu qəbul etsə də (sentyabr, 1981), dövlət bu qanunu həyata keçirməkdə aciz oldu. Çünki islahata şamil edilən torpaq sahələrinin çoxu varlı ruhanilərin, Məclis vəkillərinin, yüksək vəzifə sahiblərinin mülkiyyətində idi. Elə bu səbəbdən də İİR rəhbərliyi işsizlik problemini həll edə bilmədi.**

**1980-ci illərin əvvəllərindən etibarən mövcud quruluşa zidd olan çevrələrə qarşı təqiblərə başlanıldı. Fəalların bir qismi həbs olundu, bəziləri məhv edildi, qalan hissə isə mühacirətə getməkməcburiyyətində qaldı. Lakin müəyyən qurumlar öz fəaliyyətlərini 1983-cü ilin əvvəllərinə qədər, gizli şəkildə də olsa, davam etdirdilər. Tezliklə gizli fəaliyyət göstərən təşkilatlara "mədəni inqilab" adı altında müxtəlif siyasi damğalar vuruldu və onlara qarşı aparılan təqiblər daha da genişləndirildi. Bununla yanaşı, 1983-cü ilin əvvəllərinə kimi mədəni təşkilatlar da azad nəşr imkanlarından məhrum edilib təqiblərə məruz qaldılar. Dövlət yerli dillərə yalnız farscanın yanında işlədilməsi şərtilə məhdud hüquqlar versə də, reallıqda qeyri-fars xalqlar məktəblərdə milli ədəbiyyatların belə ana dilində tədrisini həyata keçirmədilər. Əvəzində islam adı altında şovinist ideologiya təbliğ olunmağa başlandı. 1984-cü ildə Ayətullah Xomeyninin rəhbərliyi və səyi ilə "təhsilin islamlaşdırılması" haqqında konsepsiya qəbul edildi. Ali və orta təhsil sahəsində mövcud olan bütün dərsliklərin məzmunu formaca dəyişdirilsə də, məzmunca fars millətçiliyinə xidmət göstərirdi. İran prezidenti Haşemi Rəfsəncaninin hakimiyyəti dövründə (1997–2005) qeyri-fars xalqların milli ədəbiyyatlarının məktəbdə ana dilində tədris olunması məsələsi rəsmi formada gündəmə gətirilsə də, bu sahədə konkret bir addım atılmadı.**

# *Mövzu 12. Azərbaycan Xalq Cümhuriyyəti.Sovet totalitar rejiminin təşəkkülü. Kütləvi repressiyalar*

**Azərbaycan Xalq Cümhuriyyətinin yaranması 1918-ci ilin yazında Cənubi Qafqazda ictimai-siyasi vəziyyət gərgin olaraq qalırdı. Zaqafqaziya hökumətinin Osmanlı imperiyasına müharibə elan etməsi, azərbaycanlıların soyqırıma məruz qalması milləti xilas etmək üçün müstəqil dövlətin yaradılmasını zəruri edirdi. Zaqafqaziya Seyminin və hökumətinin daxilində ziddiyyətlər getdikcə artırdı. Mayın 26-da Zaqafqaziya Seyminin sonuncu iclası keçirildi. Gürcüstanın federasiyadan çıxmaq haqqında bəyanatından sonra Zaqafqaziya Seymi özünün buraxıldığını elan etdi. Mayın 27-də Seymin Azərbaycan fraksiyasının keçirdiyi iclasda Müvəqqəti Milli Şuranın yaradılması haqda qərar qəbul edildi. M.Ə.Rəsulzadə Milli Şuranın sədri seçildi. Milli Şura Azərbaycanın müstəqil dövlət elan edilməsi haqqında qərar qəbul etdi. Beləliklə, 1918-ci il mayın 28-də Azərbaycanın dövlət müstəqilliyi elan olundu. Milli Şura tərəfindən "İstiqlal Bəyannaməsi" qəbul edildi. "İstiqlal Bəyannaməsi"ndə deyilirdi: 1. Azərbaycan tamhüquqlu və müstəqil dövlətdir. Cənubi Qafqazın cənub və qərb hissələrindən ibarətdir. Ali hakimiyyət Azərbaycan xalqına məxsusdur. 2. Müstəqil Azərbaycanın siyasi quruluş forması Xalq Cümhuriyyətidir. 58 3. Azərbaycan Xalq Cümhuriyyəti beynəlxalq birliyin bütün üzvlərilə, xüsusən həmsərhəd xalqlar və dövlətlərlə dostluq əlaqələri yaradacaq. 4. Azərbaycan Xalq Cümhuriyyəti öz sərhədləri daxilində millətindən, dinindən, ictimai vəziyyəti və cinsindən asılı olmayaraq bütün vətəndaşlarına tam vətəndaşlıq və siyasi hüquqlar verir. 5. Azərbaycan Xalq Cümhuriyyəti onun ərazisində yaşayan bütün xalqların sərbəst inkişafına şərait yaradacaq. 6. Məcisi-Müəssisanın çağırılmasına qədər Azərbaycanda ali hakimiyyət xalqın səsvermə you ilə seçdiyiMilli Şura və Milli Şuranın qarşısında cavabdeh olan Müvəqqəti hökumət sayılır. Bu "Bəyannamə" çox mühüm tarixi hüquqi sənəd idi. O, Azərbaycan Xalq Cümhuriyyətinin qurulduğunu bəyan etməklə yanaşı, onun bütün fəaliyyətinə hüquqi təminat verən**

əsas qanun rolunu oynamışdı. Həmin gün Milli Şura F. Xoyskinin başçılığı ilə Müvəqqəti hökumətin tərkibini təsdiq etdi. Mayın 30-da Müvəqqəti hökumətin başçısı F. Xoyski müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması haqqında məlumatı radioteleqrafla xarici dövlətlərin başçılarına bildirdi. Azərbaycan bütün Şərq aləmində ilk dəfə olaraq demokratik respublika idarə üsulunu bərqərar etdi. O, mahiyyətcə ən demokratik Respublika – parlament Respublikası idi. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətdə ilk uğurlu addımı iyunun 4- də Batumda Osmanlı dövləti ilə Sülh və dostluq müqaviləsinin imzalanması oldu. Bu müqavilə ilə Azərbaycanın dövlət müstəqiliyini tanıyan ilk dövlət Osmanlı dövləti oldu. Müqavilənin 4-cü bəndinə görə ehtiyac olarsa, Osmanlı dövləti Azərbaycana hərbi yardım göstərməyi öz üzərinə götürürdü. Həmin bəndə müvafiq olaraq, Milli Şuranın sədri M.Ə.Rəsulzadə və Xarici İşlər naziri M.Hacınski Osmanlı hökumətindən hərbi yardım istədilər. İyunun 59 əvvəllərində Nuru paşanın rəhbərlik etdiyi "Qafqaz İslam ordusu" Gəncəyə gəldi. Yerli əhali Osmanlı əsgərlərini hərarətlə qarşıladı. Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinin Gəncə dövrü Osmanlı ordusunun Gəncəyə gəlməsinin qarşısını ala bilməyən Gürcüstan hökuməti Azərbaycan Milli Şurasına münasibətini dəyişdirdi.Onun tələbi ilə iyunun 16-da Azərbaycan Milli Şurası və hökuməti Gəncəyə köçürüldü. Lakin Gəncədə Nuru paşanın yeni hökumətə etimadsızlıq göstərməsi ilə əlaqədar olaraq hökumət böhranı yarandı. Böhrandan çıxmaq məqsədilə iyunun 17-də Milli Şuranın iclasında iki qətnamə qəbul edildi. Birinci qətnamədə göstərilirdi ki, Müvəqqəti hökumət altı ay müddətindən gec olmayaraq Müəssislər Məclisi çağırmağa borcludur, qalan məsələlərin həllində isə tam hüquqa malikdir. İkinci qətnaməyə görə isə Milli Şura öz fəaliyyətini dayandıraraq bütün hakimiyyəti Fətəli xan Xoyskinin rəhbərliyi ilə təşkil edilən hökumətə verir və ona tapşırır ki, yaxın vaxtlarda çağırılacaq Müəssislər Məclisindən başqa öz hakimiyyətini heç kimə güzəştə getməsin. Beləliklə, "iyun böhranı" Milli Şuranın fəaliyyətinin müvəqqəti olaraq dayandırılması ilə nəticələndi. Bununla Azərbaycanın dövlət müstəqilliyi qorunub saxlanıldı. Elə həmin gün F.Xoyskinin başçılığı ilə ikinci hökumət kabineti yaradıldı. Yaranmış

gərgin vəziyyəti nəzərə alan hökumət iyunun 19-da bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan etdi. Hökumət qarşısında duran ən mühüm vəzifələrdən biri Bakını yadelli ağalığından azad etmək və Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək idi. Azərbaycan Xalq Cümhuriyyətini tanımayan Bakı XKS ona qarşı müharibə elan etdi. Milli hökuməti beşiyində boğmaq qəsdində olan S.Şaumyan "vətəndaş müharibəsini" yenidən alovlandırıb Gəncə üzərinə yürüşə hazırlaşdı. O, V.İ.Leninin göstərişi ilə iyunun 6-da Gürcüstan hökumətinə məktubla etdiyi müraciətində Osmanlı qoşunlarını öz ərazisindən Azərbaycana buraxmamağı [60] xahiş edir, əvəzində isə Sovet Rusiyasının Gürcüstanın muxtariyyətini tanıyacağını vəd edirdi. Bu uğursuz cəhdlər baş tutmadıqda Bakı XKS-in hərbi və dəniz işləri üzrə komissarı T.N.Korqanov iyunun 6-da Gəncə üzərinə yürüş haqqında əmr verdi. İyunun 10-da Bakı Sovetinin hərbi qüvvələri Cənubi Qafqaz dəmir yolu xətti boyunca hücuma keçərək, Hacıqabul-Kürdəmir-Müsüslü istiqamətində irəlilədilər. İyunun 12-də Kürdəmir işğal olundu. İyunun 27-dən iyulun 1-dək Göyçay istiqamətində gedən gərgin döyüşlərdə Bakı Sovetinin qoşunları ağır məğlubiyyətə uğrayıb geri çəkilməyə məcbur oldu. Onların Gəncəyə hücumunun qarşısı alındı. İyulun 20-də Azərbaycan-Osmanlı hərbi qüvvələri Bakı istiqamətində hücuma keçdilər. Bakının azad edilməsi 1918-ci ilin iyul ayı ərzində Azərbaycan-Osmanlı hərbi qüvvələrinin Bakı istiqamətində hücum əməliyyatlarının başlanması XKS-nin vəziyyətini xeyli çətinləşdirdi. Azərbaycan-Osmanlı ordusunun şiddətli hücumuna davam gətirə bilməyən Bakı XKS iyulun 31-də öz səlahiyyətlərindən əl çəkdi. Ciddi hərbi hazırlıqdan sonra Qafqaz İslam ordusu sentyabrın 15-də Bakıya həlledici hücuma keçdilər. Həmin gün ingilis hərbi qüvvələri Bakını tərk etdilər. Erməni hərbi dəstələri də "hərbi nazir" general Baqratuni başda olmaqla Ənzəliyə qaçdılar. Sentyabrın 15-də Azərbaycan ordusu və Nuru paşanın başçılığı ilə Osmanlı qoşunları Bakıya daxil oldular. Azərbaycanlı əhali onları sevinclə, əsl xilaskar kimi qarşıladı. Osmanlı ordusu Azərbaycanın müstəqilliyinin, ərazi bütövlüyünün qorunmasına böyük yardım göstərdi, bu yolda 1100 əsgər, 30 zabit qurban verdi. Bundan iki gün sonra, sentyabrın 17-də Azərbaycan Xalq Cümhuriyyətinin Milli hökuməti Gəncədən Bakıya köçürüldü.

**Xalq Cümhuriyyəti hökuməti Azərbaycanın əzəli torpaqları olan Naxçıvanda, Zəngəzurda, Qarabağda, Lənkəranda öz hakimiyyətini bərqərar etmək üçün tədbirlər gördü. Hökumət, Zəngəzur və Qarabağı öz nəzarəti altına almaq 61 məqsədilə 1919-cu ilin yanvarında Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzaları daxil olmaqla Qarabağ general-qubernatorluğunu yaratdı. Xosrov paşa bəy Sultanov general-qubernator təyin edildi. Hökumətin tədbirləri sayəsində Dağlıq Qarabağın erməni əhalisi 1919-cu ilin avqustunda bölgənin Azərbaycanın ayrılmaz hissəsi olması barədə qərar qəbul etdi. 1919-cu ilin fevralında Naxçıvan general-qubernatorluğu yaradıldı. Bəhram xan Naxçıvanski onun generalqubernatoru təyin edildi. 1919-cu ilin avqustunda hələ həmin ilin mayında cənub bölgəsində yaradılmış qondarma "Muğan Sovet Respublikası" ləğv olundu. Bununla Azərbaycan Xalq Cümhuriyyəti öz hakimiyyətini Respublikanın bütün ərazisində bərqərar etdi. Azərbaycan Xalq Cümhuriyyətində Dövlət quruculuğu Nazirlər Şurasının 1918-ci il 27 iyun tarixli fərmanı ilə Azərbaycan dili dövlət dili elan olundu. Azərbaycan hökumətinin 1918-ci il 21 iyun tarixli qərarı ilə üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz olan qırmızı bayraq dövlət bayrağı qəbul edildi. Noyabr ayının 9-da həmin bayraq üçrəngli-yaşıl, qırmızı və mavi zolaqlardan ibarət olan bayraqla əvəz olundu. M.Ə.Rəsulzadənin qeyd etdiyi kimi Azərbaycanın dövlət bayrağındakı bu üç rəng «Türk milli mədəniyyətinin, müasir Avropa demokratiyasının və islam sivilizasiyasının simvoludur».1918-ci il noyabrın 16-da yenidən toplaşan Milli Şura noyabrın 19-da «Azərbaycan parlamentinin yaradılması haqqında» qanun qəbul etdi. Qanuna əsasən, təkpalatalı parlament 120 nəfərdən ibarət olmalı idi. Respublika ərazisində yaşayan bütün xalqların, kişilərlə qadınların bərabər seçki hüququ qanunla təsbit olundu. Bu qanunla Azərbaycan Şərqdə qadınlara seçki hüququ verən ilk ölkə oldu. 120 nəfərdən ibarət olan Azərbaycan parlamentində Azərbaycan türklərinə 80, ermənilərə 21, ruslara 10, alman, yəhudi, gürcü və polyaklara 1 yer qalan 5 yerə də 3-ü Bakı həmkarlar təşkilatına, 2 yer isə Bakı neft sənayeçiləri şurası və ticarət sənaye ittifaqı üçün nəzərdə tutulmuşdur. 1918-ci il dekabrın 7-də 62 fəaliyyətə başlayan parlamentin sədri Əlimərdan bəy Topçubaşov, sədrin birinci**

müavini isə Həsən bəy Ağayev seçildi. Parlament müvəqqəti hökumətin istefasını qəbul etdi və dekabrın 26-da T.X.Xoyskinin rəhbərliyi ilə yeni hökumətin tərkibi elan olundu. İngilislərin təkidi ilə hökumətdə üç nazir vəzifəsi ruslara, iki yer ermənilərə təklif olundu. Lakin ermənilər bu təklifdən imtina etdilər. Daha sonra baş nazir F.X.Xoyski söz alaraq hökumətin öz səlahiyyətlərini üerə qoyduğunu və bütün hakimiyyətin parlamentə təhvil verildiyini bildirdi.Parlamentdə fəaliyyət göstərən fraksiyaların nümayəndələri çıxış edərək öz mövqelərini və parlamentdəki gələcək fəaliyyət proqramlarını açıqladılar. Parlament fəaliyyətinin əsas məqsədi: – Azərbaycanın müstəqilliyini, onun milli siyasi hüquqlarının müdafiə olunması; – Azərbaycanda digər Qafqaz xalqları arasında həmrəylik münasibətlərinin yaradılması; – Ölkə daxilində demokratik quruluşun bərqərar edilməsindən ibarət olmalıdır. Uzun məşvərətdən sonra yeni hökumət kabinetinin təşkili bu dəfə də F.X.Xoyskiyə həvalə olundu. Bu sayca üçüncü hökumətin tərkibini parlamentə təqdim etdi.Yeni kabinetdə – Nazirlər Şurasının sədri və xarici işlər naziri Fətəli xan Xoyski, daxili işlər naziri – Xəlil bəy Xasməmədov, Xalq təhsili naziri – Nəsib bəy Yusifbəyli, hərbi nazir – Səməd bəy Mehmandarov oldu.1918-ci il oktyabr ayının sonlarında beynəlxalq aləmdə baş vermiş hadisələr Azərbaycan Respublikasını daha bir ciddi sınaq qarşısında qoymuş oldu. Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasəti Birinci Dünya müharibəsində məğlub olmuş Türkiyə ilə Böyük Britaniya arasında 1918-ci il oktyabr ayının 30-da Mudros barışığı imzalandı. Barışığa görə Türkiyə Zaqafqaziya, o cümlədən Azərbaycandan hərbi hissələrini çıxarmalı idi. 63 Bu sazişə görə Zaqafqaziya Böyük Britaniyanın nüfuz dairəsi elan olunur və Bakıya ingilis qoşunları yeridilirdi. İngilis qoşunlarının Bakıya gəlməsi vəziyyəti daha da gərginləşirdi. N.Usubbəyov, Əhməd bəy Ağayev və M.Rəfiyevdən ibarət Azərbaycan nümayəndə heyətinin İrandakı ingilis qoşunlarının komandanı general Tomsonla Ənzəlidə apardığı danışıqların nəticələri Azərbaycan tərəfi üçün heç də ümidverici olmadı. Tomson bildirdi ki, «Azərbaycan Respublikası hökuməti türklərin intriqası nəticəsində yaranmış və xalq arasında heç bir dayağa malik deyildir». Azərbaycan nümayəndələrinin generalın bu fikrinə etirazından sonra o,

əlavə etmişdir: «Bir halda ki, siz əksini iddia edirsiniz, onda gələrik, yerindəcə təhqiqat aparıb müvafiq qərar qəbul edərik». 1918-ci il noyabr ayının 17-də qoşunlar Bakı limanına daxil olduğu zaman general Tomson limanında İngiltərə, ABŞ, Fransa, İtaliya bayraqları ilə yanaşı ADR bayrağını gördükdə onu götürməyi əmr etmişdi.M.Ə.Rəsulzadə xatirələrində yazırdı: «17 noyabrda iki Bakı var idi: - Kədərli müsəlman Bakısı və xoşbəxt xristian Bakısı». İki gündən sonra komandanlıq müsəlman əhalisini kədərləndirən belə bir bəyanat verir: «…qalib Antanta ordusu öz ölkəsinə qayıtmazdan əvvəl ümumi qələbənin qazanılmasına belə böyük kömək göstərmiş cəsur rus xalqı qarşısında öz borcunu yerinə yetirəcəkdir, o, Rusiyadan qoparılmış Qafqazı düşmən qüvvələrdən təmizləyəcək. Onlar elə bu məqsədlə də Ufada təşkil olunmuş rus hökumətinin razılığı ilə buraya gəldilər. Yeni Azərbaycan hökumətinin təşkili ilə əlaqədar olaraq general Tomson dekabrın 28-də bəyanat verdi. Xoyski hökumətinin general Tomson tərəfindən Azərbaycanda yeganə qanuni hakimiyət kimi tanınması «vahid və bölünməz Rusiya» bayrağı altında çıxış edən qüvvələrə bir qədər ayıldıcı təsir göstərsə də onların Azərbaycan hökumətini devirmək fikrindən daşındırmadı. 1919-cu il yanvar ayının əvvəllərində «Qafqaz-Kaspi» hökuməti deyilən bir oyuncaq qurum yaratdılar.1919-cu ilin yanvar ayının 22-də Bakıya gəlmiş Zaqafqaziyadakı müttəfiq qanunlarının baş komandanı Milton Nazirlər Şurasının sədri F.X.Xoyski 64 ilə görüşündə bildirdi ki, Azərbaycan hökumətini leqal hakimiyyət kimi qəbul edir və Zaqafqaziya dövlətlərinin daxili işlərinə qarışmır. Miltonun bu bəyanatı L.Biçeraxov «hökuməti»nin taleyini faktiki olaraq həll etmiş oldu.Azərbaycan hökuməti müttəfiq komandanlığına fevralın 28-də nota təqdim etdi.Bakıda asayişin bərqərar edilməsinə maneçilik törədən Biçeraxovun qoşunları şəhərdən çıxarılsın və erməni silahlı birləşmələri tərk-silah edilsin. Bu tələbdən sonra 24 saat ərzində Biçeraxovun qoşunları Bakıdan çıxarıldı. Erməni dəstələri isə tərk-silah olundu. Azərbaycan hökumətinin mövqeyi möhkəmləndikdən sonra general Tomsonun tutduğu Bakı general-qubernatorluğu vəzifəsi ləğv olundu.Tomsonun noyabr bəyannaməsinə əsasən Azərbaycan hökumətinə Bakıda ordu saxlamaq qadağan edilmişdi.Buna görə də 1918-ci ilin noyabrından 1919-cu ilin aprelinədək

respublikanın hərbi nazirliyi Gəncədə fəaliyyət göstərməli oldu. 1919-cu ilin aprelində Azərbaycan qoşunları təntənəli surətdə Bakıya daxil oldular. 1919-cu il aprelin 14-də parlamentdə yeni yaradılmış hökumət barədə məlumat verildi. Çünki mart ayında hökumət böhranı nəticəsində F.X.Xoyski kabineti istefa vermişdir. Parlament üzvləri qarşısında çıxış edən N.Yusifbəyov bəyannaməsini elan etli. İstiqlal prinsipini xüsusi qeyd edən baş nazir onun kabinetinin həll etməli olduğu əsas məsələləri təhlil etdi. Bu məsələlərin başlıcası Azərbaycanın ərazi bütövlüyü idi.Xarici siyasət sahəsində Dağlılar Respublikasının müdafiə olunması və Denikinə qarşı mübarizədə ittifaq yaratmaq qərara alındı.1919-cu il aprelin 25-də Tiflisdə siyasi, iqtisadi, maliyyə və ərazi mübahisələrini həll etmək üçün Zaqafqaziya dövlətlərinin konfransı açıldı. Konfransın işində xarici işlər naziri M.Cəfərov, parlament üzvləri F.Xoyski və Xəlil bəy Xasməmmədov iştirak edirdilər. Konfrans hər üç respublikaların ilk növbədə ərazi məsələlərinin həll edilməsinə toxunurdu. Bu məsələni ilk növbədə Ermənistan tələb edirdi. 65 Denikin Ordusunun Dağıstan və Gürcüstan üzərinə hücumunun başlanması ilə əlaqədar konfransın işi yarımçıq qaldı. Denikin qoşunlarının Petrovski (Mahaçqala) və Dərbəndi işğal etməsi Azərbaycanın müstəqilliyi üçün real təhlükə yaratmış oldu. 1919-cu il may ayının 26-da parlament iclasında Azərbaycan üçün təhlükə törədən Denikin Ordusunun hərəkətləri barədə Musavat fraksiyasının hökumətə sorğusu müzakirə edildi. Başqa fraksiyalardan olan deputatlar musavatı müdafiə etdilər və Azərbaycan Demokratik Partiyasının istiqlaliyyətini qorumaq üçün hazır olduqlarını bildirdilər. Parlament hökumətinin tədbirlərini bəyəndi və ona tam yardım edəcəyinə söz verdi. 1919-cu ilin iyun ayının 19-da dövlət müdafiə komitəsi Azərbaycanın bütün ərazisində hərbi vəziyyət elan etdi. Sərhədləri möhkəmləndirmək üçün parlament 1919-cu il iyulun 27-də Azərbaycanla Gürcüstan arasında respublikaların hüquqlarını və ərazi bütövlüklərini birgə müdafiə etmək üçün bağlanmış müqaviləni bir səslə qəbul və təsdiq etdi. Zaqafqaziya respublikalarının birgə mübarizəsi işinə daşnak Ermənistanı böyük ziyan verdi. O, müqaviləni imzalamır, əksinə regionda Denikinin işğalına kömək edirdi. Türkmənçay müqaviləsinin 8-ci bəndini bəhanə edən Denikin Azərbaycan

**donanmasının milli dövlət bayrağı altında Xəzər dənizində üzməsinin qarşısını almağa cəhd etdi. Azərbaycanın xarici işlər naziri M.Y.Cəfərov Denikinə göndərdiyi notada bu əsassız tələbi rədd etdi. Notada deyilirdi: «1828-ci il Türkmənçay müqaviləsi Rusiya ilə İran arasında bağlanmışdı və Azərbaycan üçün heç bir qüvvəyə malik deyildir. Nəzərinizə çatdırmağı lazım bilirəm ki, Azərbaycan donanması indiyə qədər olduğu kimi bundan sonra da öz milli bayrağı altında üzəcəkdir».Azərbaycan xalqı istiqlaliyyətinin birinci ildönümünü belə həyəcanlı bir şəraitdə faktiki olaraq Denikinlə mübarizə vəziyyətində qarşılamalı olduq. İstiqlal günü 1919-cu il may ayının 28-də Paris sülh konfransındakı Azərbaycanın nümayəndə heyətinə ABŞ prezidenti Vidro Vilson qəbul etdi. Vilsona təqdim olunmuş memorandumda Azərbaycan Respublikasının yaranma tarixi və bir ildə keçdiyi inkişaf yolundan bəhs edilirdi. Həmin vəzifələr:**

**– Azərbaycanın istiqlaliyyətinin tanınması; – Azərbaycanın Millətlər Ccəmiyyətinə daxil olması; – Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında diplomatik münasibətlərin yaranması; – Azərbaycana hərbi kömək göstərilməsindən ibarət idi. Azərbaycan Respublikasının sülh nümayəndəliyi sülh konfransının qarşısında aşağıdakı tələblərin qorunmasını təvəqqe edir: – Sülh konfransı Qafqaz Azərbaycanını Rusiya imperiyasından ayrılmasını bəyənsin. – Azərbaycan sərhədləri memoranduma əlavə olunan, xəritədə göstərilən və Azərbaycan Demokratik Respublikası adı ilə tanınan tam müstəqil dövlət olacaq; – Azərbaycan Respublikasının sülh nümayəndəliyinin üzvləri sülh konfransının və onun komissiyalarının işinə cəlb olunurlar. – Azərbaycan Respublikası başqa dövlətlər kimi yüksək himayəsi altında olmaq istədiyi millətlər liqasının üzvlüyünə qəbul edilsin. Bu təkliflər yerinə yetiriləcəyi təqdirdə Azərbaycan keçmiş Rusiyaya borclarını da ödəməyə hazırdır. 1919-cu ilin yayında Azərbaycanın siyasi həyatında əlamətdar hadisə baş verdi. İngilis qoşunları Azərbaycanı tərk etdilər və bu andan etibarən Azərbaycan tam müstəqil dövlət kimi yaşamağa başladı. Azərbaycan xalqının 19 aylıq müstəqil və azad həyatının əsas yekunları aşağıdakılardan ibarət idi: 1.Son dövrədək bir çox siyasi və vətəndaşlıq**

**hüquqlarından məhrum edilmiş, dövlət quruculuğu sahəsində heç bir təcrübəsi olmayan xalq qısa bir tarixi müddətdə normal fəaliyyət göstərən dövlət apparatı yaratdı. 67 2.Azərbaycan Respublikasının ərazi bütövlüyünü qoruyub-saxlamaq mümkün oldu. 3.Piyada, süvari, artilleriya, aviasiya və hərbi dəniz donanmasından ibarət olan mütəşəkkil ordu yaradıldı. Hərbi kadrlar hazırlanması məqsədi ilə hərbi tədris müəssisələri açıldı. 4. Ölkənin iqtisadi və maliyyə vəziyyətinin sağlamlaşdırıl-ması prosesinə başlandı. Azərbaycan iqtisadiyyatının əsasını təşkil edən neft sənayesinin işi bərpa edildi. Azərbaycan Milli Bankı yara-dıldı. Böyük ehtiyac duyulan idarəetmə kadrlarının ha-zırlanması üçün xüsusi məktəblər təsis olundu. 5.Xalq maarifi sahəsində ciddi nailiyyətlər qazanıldı. Məktəb sisteminin milliləşdirilməsinə başlandı və orta məktəblərin təxminən yarısı milliləşdirildi. Məktəblərdə rus tarixi əvəzinə ümumtürk tarixi keçilmə-yə başlandı. Azərbaycan dilinin tədrisi isə bütün məktəblərdə məc-buri hesab edildi. Bakı Universitetinin əsası qoyuldu. Kənd Təsərrüfatı İnstitutunun yaradılması haqqında qanun qəbul edildi.Azərbaycanda 7 kişi, 1 qadın gimnaziyası açıldı. Ali təhsil almaq məqsədi ilə Avropa universitetlərinə dövlət hesabına 100-ə yaxın gənc azərbaycanlı ezam edildi.Müəllim kadrlarına olan ehtiyacı ödəmək üçün iki aylıq kurslar təsis edildi. 1920-ci ilin yanvarın 11-də müttəfiq dövlətlərin ali şurası Azərbaycanın istiqlaliyyətinin de-fakto tanınması haqqında qərar qəbul etdi. Bu münasibətlə Azərbaycanın xarici işlər naziri F.X.Xoyskinin müttəfiq dövlətlərin hökumətlərinə göndərdiyi memorandumda qeyd edilirdi ki, «Azərbaycan Respublikasının hökuməti və xalqı Avropa dövlətləri tərəfindən Azərbaycanın müstəqilliyinin defakto tanınması və onun dünya birliyinə qəbul olunmasını böyük razılıq hissi ilə qarşılamışlar».Azərbaycanın müstəqilliyinin beynəlxalq aləmdə tanınmasına baxmayaraq ölkənin şimal sərhədlərindəki vəziyyət gərgin olaraq qalırdı. Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və tarixdə yeri RSFSR Xarici İşlər naziri Q.V.Çiçerin 1920-ci il yanvarın əvvəllərində Azərbaycan hökumətinə göndərdiyi notada Sovet Rusiyasının xalqların öz müqəddəratını təyin etmək hüququna hörmət etməsindən dəm vurur və 68 Azərbaycana Denikinin əleyhinə hərbi ittifaq bağlamağı təklif edirdi.Q.V.Çiçerin 1920-ci il 23 yanvar tarixli ikinci**

**notasında Azərbaycanın müstəqilliyinə aydın münasibətini bildirməkdən yan keçərək beynəlxalq münasibətlər üçün yolverilməz bir formada Azərbaycan hökumətinin Denikinə qarşı mübarizə aparmayan imtina etməkdə günahlandırdı.1920-ci il martın 7-də Azərbaycan hökumətinə göndərdiyi növbəti notada Q.V.Çiçerin bildirdi ki, «Azərbaycanın istiqlaliyyəti yalnız Sovet Rusiyası ilə Azərbaycan arasında münasibətlər kompleksinə daxil olan müxtəlif məsələlər barəsində mürəkkəb danışıqların nəticəsi olaraq tanına bilər». F.X.Xoyski yenə öz cavabında bildirdi ki, Sovet Rusiyası ilə Azərbaycan Cümhuriyyəti arasında bütün məsələlər yalnız Azərbaycanın Dövlət müstəqilliyinin Sovet Rusiyası tərəfindən tanınmasından sonra həll edilə bilər. 1920-ci ilin martınadək göndərilən notalar respublikaya qarşı hazırlanan müdaxiləni pərdələmək məqsədi güdürdü.Təəssüflər olsun ki, Azərbaycan tarixinin belə məsuliyyətli dövründə hökumət daxilində birliyin qorunub saxlanılması mümkün olmadı.Sovet Rusiyasına münasibət məsələsində hökumətin iki üzvü – F.X.Xoyski ilə M.H.Hacınskinin arasında qırğın mübarizə başladı. Bu ziddiyyətin nəticəsində M.H.Hacınski daxili işlər naziri – istefa verməsi ilə nəticələndi. Ancaq ticarət naziri kimi hökumətin tərkibində qala bildi. M.H.Hacınskinin yeni hökumət kabinetinin təşkilini yubatması Azərbaycanda onsuz da gərgin olan vəziyyəti bir qədər də gücləndirərək, parlamentdə müxtəlif partiyalar arasında gedən siyasi mübarizəni son həddə çatdırdı.Bununla əlaqədar, «İttihad» partiyasının xəyanətkar mövqeyindən danışmamaq mümkün deyildir. «İttihad»çı liderləri açıq-açığına «Musavat» hökumətini devirməyə çağırır və dövlət çevrilişi etmək üçün öz xidmətlərini bolşeviklərə təklif edirdilər.Azərbaycana qarşı müdaxilə ərəfəsində Sovet hökuməti öz hərəkətlərini daşnak Ermənistanı ilə sıx əlaqələndirirdi.Moskvanın təhriki ilə daşnaklar 1920-ci il martın sonunda Qarabağ və Gəncəbasarda qiyam qaldırdılar. Bu qiyam iki məqsədə xidmət edirdi: 69 1. Azərbaycan hökuməti özünün bütün qüvvələrini qiyamçılara qarşı göndərməli oldu. Buna görə Azərbaycanın şimal sərhədləri müdafiəsiz qaldı. 2. Bolşeviklər daşnak qiyamından istifadə edərək hökuməti Qarabağda milli münaqişəni həll etməkdə acizlikdən gördülər. Bu cəhətdən Ə.Qarayev 1920-ci il**

aprelin 1-də Azərbaycan parlamentindəki çıxışı daha xarakterik idi.O, demişdi ki: «Qızıl Ordu artıq Yalama stansiyasında dayanmışdır və mən Sizə təklif edirəm ki, onu köməyə çağırıb hakimiyyəti bolşeviklərə təhvil verəsiniz. Çünki bol-şeviklər hakimiyyəti, milli məsələni həll etməyə qa-dir olan yeganə hakimiyyət, XI Qızıl Ordu isə milli qırğına son qoyacaq yeganə ordudur».Ə.Qarayevin bu çıxışına cavab olaraq M.Ə.Rəsulzadə bildirmişdi «…üsyan eləyənin adı Əliheydərmi olsun, ya Vartararmı, ikisi də qiyamçıdır. Qarabağdamı və Bakıdamı çıxışda bulunsun ikisi də birdir. Mən burada hər halda bir Azərbaycan parlamentinin üzvünü deyil, bir Rusiya vəkilinin, bir Rusiya agentinin sözünü eşidirəm».1920-ci il aprel ayının 15- də F.X.Xoyskinin Çiçerinə göndərdiyi notada deyilirdi ki, «hal-hazırda sovet Rusiyası qoşunlarının Dərbənd rayonunda Azərbaycan sərhəddi boyunca cəmləşməsi müşahidə olunur. Azərbaycan hökuməti Sovet hökumətinin məqsədlərindən xəbərsiz olduğu üçün xahiş edir ki, ordunun göstərilən rayonda toplaşmasının səbəbləri və məqsədləri barədə məlumat verəsiniz». Çiçerin Azərbaycan hökumətinə cavab verməyi belə lazım bilmədi. Aprelin 27-də XI Qızıl Ordu hissələri Azərbaycan ərazisinə daxil olub, Bakıya doğru irəliləməyə başladılar. Həmin gün gündüz saat 12-də Azərbaycan parlamentinə AK (b) MK və RK (b)-nın Qafqaz Ölkə Komitəsinin Bakı bürosu adından hakimiyyəti təhvil vermək haqqında ultimatum verildi.Azərbaycan parlamenti həmin gün axşam saat 11-də hakimiyyətin Azərbaycan kommunistlərinə verilməsi barədə qərar çıxardı: Bu şərtlə ki: – rus ordusu Bakıya daxil olmadan dəmiryolu ilə birbaşa Anadolunun köməyinə gedəcək; 70 – Azərbaycanın istiqlalı və ərazi bütövlüyü hər cür təcavüz və ilhaqdan qorunacaq; – Azərbaycan ordusu olduğu kimi saxlanılacaq; – Azərbaycanın siyasi partiyaları üçün fəaliyyət sərbəstliyi təmin olunacaq; – Keçmiş Dövlət xadimləri, hökumət üzvləri və millət vəkilləri təqib olunmayacaq, Dövlət idarələri qulluqçularının iş yerləri saxlanılacaq, yalnız rəhbər vəzifəli şəxslər dəyişdiriləcək; – Azad şəraitdə toplanacaq Azərbaycan şuraları hakimiyyətin idarə şəkilini təyin edəcək. Azərbaycanın Rusiya tərəfindən ilhaqı ilə əlaqədar tariximizin yeni bir səhifəsi açılmış oldu.

# *Mövzu 13. Azərbaycan SSR İkinci Dünya müharibəsi illərində və müharibədən sonrakı illərdə (1945-1980-ci illər)*

**Bildiyimiz kimi 30-cu illərin sonu üçün Dünyada siyasi vəziyyət çox mürəkkəb və zidiyyətli hal almışdı.Dünyada qabaqcıl ölkələrdən olan ABŞ, İngiltərə və Fransanın yarıdımı və köməkliyi nəticəsində Almaniya və İtaliya, Şərqdə isə militarist Yaponiya müharibə ocağı yaratdılar.Birinci Dünya müharibəsində məğlub olan Almaniya versal hərbi buxovlarını qıraraq təcavüzkarlıq fəaliyyətini genişləndirdi.İkinci cahan müharibəsi ərəfəsində təklikdə kapitalist Dünyasına qarşı duran SSRİ faktoru dünyanın siyasi inkişafına əsaslı təsir göstərirdi. Bolşevizm, kommunizm təhlükəsindən qorxan və ona hədsiz nifrət bəsləyən kapitalist qusurları SSRİ-nin hansı tərəfdən çıxış edəcəyinə böyük maraq göstərir, xüsusən faşist bolkunun «Antikominten» pərdəsindən məsət olan ingilis-fransız 87 hakim dairələri SSRİ-nin təkləmək, faşist Almaniyasını ona tərəf yönəltmək siyasəti yürüdürdülər.Belə şəraitdə keçmiş SSRİ-nin başlıca yolu manevr etmək, necə olur-olsun, təcavüzü özündən uzaqlaşdırmaq siyasəti yürütməkdən ibarət idi.Təklənməkdən ehtyat edən sovet rəhbərliyi 1939-cu ilin əvvəllərindən İngiltərə və Fransa hökumətlərinin təkliflərinə cavab olaraq təcavüzkara qarşı birgə hərəkət etmək barədə danışıqlara başladı.. Danışıqlar çox ləng, uğursuz və həvəssiz getdiyini görən faşist almaniyası manevr edərək SSRİ-ilə müvəqqəti razılığa gəlməyi qət etdi. Müharibə ərəfəsində dünyada yaranmış böhranlı vəziyyət, tamamilə təklənmək təhlükəsi SSRİ-nin faşist almaniyasının təklifini qəbul etməyə məcbur etdi. 1939-cu il avqustun 23-də SSRİ ilə Almaniya arasında on il müddətinə birbirinə hücüm etməmək müqaviləsi imzalandı. Bu müqavilə SSRİ-yə faşist təcavüzünün vaxtını uzatmaq məqsədini güdürdü.SSRİ tərəfindən hələ 1939-cu il aprelin 3-də Hitler tərəfindən təsdiq edilmiş «Vays» (və ya. Ağ plan) planına müvafiq olaraq sentyabrın 1-də Polşaya hücum etdi.1939-cu il sentyabrın 3-də İngiltərə və Fransa Almaniyaya müharibə elan etdilər. Bununla ikinci cahan müharibəsi başlandı. Dünya ağalığı niyətində olan faşist Almaniyası hələ təqribən**

iki il əvvəl 10 il müddətinə imzaladığı hücum etməmək, dostluq və əməkdaşlıq müqavilələrini pozaraq 1841-ci il iyunun 22-də xaincəsinə keçmiş SSRİ-yə basqın etdi.Faşistlərin fikrincə SSRİ-nin aradan götürülməsi dünya ağalığına gedən yolun geniş açılması demək idi. Çoxdan niyyətində olduqları və «Barbarossa» planı adı altında hazırladıqları bu müharibədə nəyin babasına olursa-olsun Sovet imperiyasının parçalanıb məhv edilməsi, Uraldan Şərqə kiçicik rus dövləti vəziyyətində saxlamaqdan ibarət idi.Bu müharibədə Faşist Almaniyasının məqsədini açıqlayan A.Hitler 1941-ci il maptın 30-dan müşavirədə demişdi: «Rusiyada bizim vəzifəmiz hərbi qüvvələri, dövləti məhv etməkdir. Elə hərəkət etməyin ki, kommunist təhlükəsi bir daha baş qaldırmasın». SSRİ sərhədləri keçirildikdən sonra faşist 88 radiosu bildirmişdir ki, «Şərq səfəri dünya mədəniyyətini bolşevizm təhlükəsindən azad edəcəkdir». Müharibənin ilk dvründə düşmən çox güclü olduğundan bir-birinin ardınca nailiyyətlər əldə edirdi. Almaniya SSRİ-yə nisbətən hərbi cəhətdən çox güclü idi. Müharibə başlanandan bir gün sonra ümumi səfərbərlik elan edildi. Arxada və n cəbhədə bütün hakimiyyət 1941-ci il iyunun 30-da yaradılmış DMK-nin əlində cəmləşdirilmişdi. Ali baş komandanlıq Qərərgahı yaradılmışdı.Partiya, Dvlət və təsərrüfat orqanlarının, ictimai təşkilatların işi müharibə dövrünün tələblərinə uyğun olaraq yenidən qurulmuşdu.Düşmən hücumuna məruz qalan Qərb rayonlarından sənaye və digər obyektlərin, əhalinin Şərqə köçürülməsi tədbirləri həyata keçirilmişdi.1941-ci ilin ikinci yarısında Şərq bölgələrinə 10 milyondan çox adam köçürülmüş, 1360 iri sənaye müəssisəsi köçürülüb işə salınmışdır. Ümumiyyətlə Şərq bölgəsində 2593 sənaye müəssisəsi tikilmiş və yenidən qurulmuşdu. Müharibəin ilk günündən Azərbaycan xalqı da SSRİ-nin başqa xalqları ilə çiyin-çiyinə alman faşist işğalına qarşı mübarizəyə başladı. Azərbaycan K(b)P MK-si 1941-ci il iyunun 28-də bütün partiya komitələrinə iş formalarını, metodlarını müharibə tələblərinə uyğun yenidən qurmaq haqqında məktub göndərdi.Müharibənin birinci üç günündə Azərbaycandan 18 minə kimi adam Qızıl Ordu sıralarına könüllü yola düşdü.Müharibənin ilk günlərində Azərbaycanın 40 mindən çox oğlan və qızı cəbhəyə getmək üçün hərbi

**komissarlığa ərizə Verdi. Qısa müddətdə 186.704 nəfər xalq qoşunu dəstələri yaradıldı. Respublika ərazisində 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi təşkil edildi. 15 min nəfərlik dəstələr yaradıldı. 1941-42-ci illərdə respublikada 1(bir) milyon nəfər hərbi təlim proqramını öyrənmişdi.Azərbaycan döyüşçüləri alman-faşist işğalçılarına qarşı ilk vuruşmalardan əsgəri rəşadət göstərdilər. H.B,Əliyev, K.Qasımov və b. igidliyi cəbhəyə yayıldı. 1941-ci il dekabr ayının 11-də azərbaycanlılar arasında ilk olaraq İsrafil Məmmədov Sovet İttifaqı Qəhrəmanı 89 adı aldı. Azərbaycan xalqının fəxri olan 1941-ci ildə 402-ci və 223-cü, 1942-ci ildə 416-cı və 271-ci Milli diviziyalar yaradıldı. Bu diviziyalardan 416, 223, 77-ci atıcı diviziyalar döyüş sınaqlarından şərəflə çıxdılar.Azərbaycan K(b)P-sı xalq təsərrüfatının hərbi qaydada yenidən qurulması sahəsində böyük iş apardı. Yüngül, toxuculuq və yeyinti sənayesi tamamilə cəbhə üçün məhsul istehsalına keçdi.**

**Kənd təsərrüfatında hərbi əhəmiyyətli, yeni texniki bitkilər becərilməsinə başlandı. Böyük çətinliklərə baxmayaraq, neftçilər fədakarlıqla çalışır, cəbhəni və xalq təsərrüfatını yanacaqla təmin edirdilər.Azərbaycan SSR-də yüksək aktanlı benzin istehsalına başlanıldı. Azərbaycan neftçiləri müharibə illərində ölkəyə 75 milyon tona qədər neft verdilər. Dənizdə, quruda və havada düşmən üzərində sovet ordusunun üstünlük qazanmasında Bakı neftçilərinin az əməyi olmamışdır. Ən çətin şəraitdə onlar ordunu və ölkənin xalq təsərrüfatını yanacaqla fasiləsiz təchiz edir, o zaman bütün Sovet neftinin təqribən dörddə üç hissəsini verirdilər. «Hər şey cəbhə üçün, hər şey qələbə üçün!» şüarı ilə işləyən Azərbaycan neftçiləri DMK-nin keçici Qırmızı Bayrağına layiq görüldü. Bakı döyüşən ordunun cəbhəxanalırandan birinə çevrildi. 1942-ci ildə Bakıda 130 növ müxtəlif silah, hərbi sursat hazırlanırdı. «Katyuşa» raketi, «Şpagin» pulemyotu istehsal edilir, «YAK-3» qırıcı təyyarəsi yığılırdı. Gəncə şəhərində 3 sənaye müəssisəsi silah hazırlayırdı. Azərbaycan kolxozçuları da müharibənin çətin şəraitində ölkəyə yüz min tonlarla taxıl, pambıq, on min tonlarla tütün, ət, yağ, yun, meyvə və s. kənd təsərrüfatı məhsulları verirdilər.İqtisadiyyatın hərbi qaydada qurulması ehtiyatları ödəmək üçün xalqın təşəbbüsü əsasında müdafiə fondu təşkil edilmişdi.**

**1941-ci ilin noyabr ayı üçün xalq könüllü olaraq müdafiə fonduna bir milyon rubl pul, 1,3 milyard rubl istiqraz, 85 kq qızıl, 6700 kq gümüş və s. qiymətli şeylər vermişdi. Orduya kömək məqsədilə 2 milyon nəfər adamı təmsil edən 24 könüllü xalq qoşunu yaradılmışdı.Azərbaycan xalqı vətənin şanlı müdafiəçiləri üçün heç nə əsirməmirdi. Azərbaycan zəhmətkeşləri müdafiə fonduna 15 kq qızıl, 952 kq 90 gümüş, 311 milyon mantlıq iqtidar Verdi, müharibə dövründə dövlətdən 1,5 milyard manatlıq istiqraz və lotareya aldı, tank və təyyarə dəstələri fonduna 220 milyon manat pul ayırdı. Müharibə illərində cəbhəyə 1,6 milyon ədəd müxtəlif əşya və 125 vaqon isti paltar yollamışdı. Azərbaycan xalqı faşist işğalçılarından azad edilən rayonların əhalisinə yardım işində yüksək vətənpərvərlik və beynəlmiləlçilik nümunəsi göstərirdi. 1943-cü ilin payızında həmin rayonlara respublika yardım komitəsi və onun rayon komissiyaları yaradıldı. Leninqrad və Stalinqrada, Stavropol ölkəsinə, Ukrayna və Şimali Qafqaz neftçilərinə hərtərəfli kömək ümumxalq işinə çevrildi.Azərbaycan SSR-in elm və mədəniyyət xadimləri öz fədakar əməyi ilə qələbə işinə böyük yardım göstərirdilər. Y.Məmmədəliyevin rəhbərliyi ilə aviasiya benzin istehsalının yeni texnologiyası hazırlandı. Azərbaycan döyüşçüləri partizan, müqavimət, mili-azadlıq hərəkatında Müharibənin ilk günlərindən minlərlə Azərbaycan vətəndaşı cəbhələrdə faşizmə qarşı mərdliklə vuruşdu. 1941-ci ildə Brest qalasının qəhrəman müdafiəçiləri arasında 44 nəfər azərbaycanlı var idi. 1941-ci ldə kiçik leytenant İsrafil Məmmədov Novqorod yaxınlığında Moskva yaxınlığındakı döyüşlərdə tank bölməsinin komandiri Həzi Aslanov, Vorodino çölündəki vuruşmada pulemyotçu İdris Vəliyev düşmənin 50-dən çox əsgərini məhv etdi. Təyyarəçi Hüseynbala Əliyev Leninqrad döyüşlərində düşmənin 6 təyyarəsini məhv etdi. 1942-ci ilin yay ayında faşistlər «Edelveys» planı üzrə Qafqaza hücuma hazırlaşırdılar. 1942-ci il sentyabr 9-da Azərbaycan SSR-də hərbi vəziyyət elan olundu. Bakı müdafiə rayonu yaradıldı. Düşmən 1942-ci ildə 71 dəfə, 1943-cü ildə isə 3 dəfə Bakının səmasına soxulmağa cəhd etdi. Faşistlərin Bakı üzərində 96 hərbi təyyarəsi məhv edildi.Qafqazın Mozdok qayonundakı döyüşlərdə 402, 416 və 223- cü Azərbaycan diviziyaları işitrak edirdi. İsmayıl Əliyev idi. 1943-cü ildə isə 50 91 nəfər azərbaycanlı Məmməd Əliyevin**

**başçılığı ilə faşist düşərgəsindən qaçaraq Krımda partizan dəstəsi yaratmışdı. 1942-ci ildə Belorusiyanın Borisov şəhərində «Dyadya Kolya» partizan birəşməsinin qərargah rəisi polkovnik Ələkbər Əliyev idi. O, 1944-cü ildə Suvarov adına partizan dəstəsinə komandir təyin edilmişdi.Azərbaycanlılar Avropa xalqlarının partizan və antifaşist müqaviməti hərəkatında da iştirak edirlər. 1942-ci ilin yarında Polşadakı faşist Əsir düşərgələrində azərbaycanlı əsirlər gizli təşkilat yaratmışdılar. Təşkilata zabitlər Nadir Qiyasbəyov və Mirzəxan Məmmədov rəhbərlik edirdilər. 1942-ci ilin noyabrında Fransada faşistlərin ölüm düşərgəsindən qaçıb partizanlara qoşulan azərbaycanlı Əhmədiyyə Cəbrayılov – «Azmed Mişel» Xarqo adı ilə Fransanın azadlıq hərəkatında fəal iştirak etmişdi. Ə.Cəbrayılov Fransa paradında əsgərə generaldan irəlidə getmək hüququ verən hərbi medalla təltif olunmuşdu.1942-ci ilin avqustunda ağır yaralanaraq Əsir düşən Mehdi Hüseynzadə Yuqoslaviya partizanlarına qoşulmuş və «Mixaylo» ləqəbi ilə fəaliyyət göstərmişdi. O, hitlerçilərə qarşı müharibədə əfsanəvi qəhrəmanlıqlan göstərmiş, 700 hərbi əsiri azad etmişdi. Yuqoslaviya xalq Azadlıq ordusunun kəşfiyyatçıtəxribat qurupuna rəhbərlik edən Mixaylo 1000 nəfərdən çox alman zabitini məhv etmişdi. Mehdi Hüseynzadə 1944-cü ildə faşistlərlə qeyri-bərabər döyüşdə xeyli düşmən qırmış və ələ keçməmək üçün son gülləsinin özünə vurmuşdu. Ona ölümündən xeyli sonra – 1957-ci ildə Sovet İttifaqı Qəhrəmanı adı verildi. Əli Babayev İtalyadakı partizan hərəkatında iştirak etmiş, Harribaldi adına batalyonun komandiri olmuş, döyüşlərdəki igidliyinə görə İtalyanın «Hərbi Sovet Ordusunun Şimali Qafqazı azad etmək əməliyyatlarda Azərbaycan diviziyalarında döyüşən əsgərlər qəhrəmanlıq göstərirdilər. Tuapşe uğrunda döyüşlərdə Qafur Məmmədov düşmənin 13 əsgərini öldürdü və öz həyatı bahasına komandirini xilas etdi. İdris Süleymanov, Baloğlan Abbasov, Həzi Aslanov Sovet İttifaqı Qəhrəmanı kimi ən yüksək ada layiq görüldülər.1943-cü ilin yay hücumu zamanı H.Əcdərov Oryol şəhəri üzərinə qələbə bayrağını sancdı. Hərbi təyyarəçilər Adil Quliyev və 92 Züleyxa Seyidməmmədova da fərqləndilər.Tanqanroq şəhərinin azad edilməsində göstərdiyi rəşadətə görə 416-cı diviziyaya «Taqanroq diviziyası» fəxri adı verildi. Hərbi əməliyyatlarda**

**qəhrəmanlığına görə 271-ci diviziya «Qorlovva diviziyası» fəxri adını aldı. 416-cı və 77-ci diviziyalar «İkinci dərəcəli Suvorov oreni» ilə təltif olundular. 1944-cü il iyunun 2930 -da H.ASlanovun komandanlıq etdiyi 35-ci qvardiya-tank briqadası Berizna çayını keçib Pleşeni şəhərini azad etdi. 1944-cü ildə H.Aslanov ikinci dəfə Sovet İttifaqı Qərəmanı adı ilə təltif olunmağa təqdim edildi. Bu fərman ölümündən 47 il sonra, 1991-ci ildə həyata keçirildi.223-cü diviziya Yuqoslaviyanın azad edilməsində fəal iştirak etdiyinə görə fəxri «Belqrad diviziyası» adını aldı. Polşa və Çexoslovakiyanın azad edilməsi uğrunda döyüşlərdə Ziya Bünyadov da daxil olmaqla 20 nəfər azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. 1945-ci ilin fevralında 416-cı diviziy Oder çayı sahilinə çıxaraq Berlin üzərinə yeridi və may ayının 2-də Brandenbuq darvazası üzərinə qələbə bayrağı sancdı. Reyxstaqın alınmasında göstərdiyi rəşadətə görə Yusif Sadıqov Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Ağır döyüşlərdə əsr düşmüş və faşist düşərgələrinə salmış azərbaycanlı əsrlərin çoxu faşist əsarətindən qurtulmaq üçün mübarizə aparır və düşərgələrdən qaçaraq partizanlara qoşulurdular. Onlardan biri də Smolenskidə fəaliyyət göstərən partizan briqadasının qərargah rəisi şücaətinə görə» gümüş medali lə təltif olunmuşdu. Vilayət Hüseynov Mussolinini həbs edən partizanlar arasında olmuşdu. Əkbər Ağayev isə Buhenvald ölüm düşərgəsində yaradılan təşkilatın rəhbərlərindən biri olmuş, ələ keçdikdən sonra güllələnmişdi. 1945-ci il mayın 8-də Almaniya danışıqsız təslim oldu. 9 may tarixə qələbə günü kimi daxil oldu. Lakin ikinci dünya müharibəsi davam edirdi. Sentyabrn 2-də Yaponiyanın təslim olması ilə müharibə qurtardı.1941-1945-ci illərdə respublikanın 600 mindən çox oğlan və qızı cəbhəyə getdi**

**İqtisadi inkişaf İkinci Dünya müharibəsi ölkənin təsərrüfatına ağır zərbə vurdu. Müharibədə Azərbaycanın sənaye istehsalının göstəriciləri kəskin surətdə aşağı düşdü. Sənayenin ümumi məhsulu 1940-cı illə müqayisədə 22% az idi. Neft hasilatı, təqribən, yarıbayarı azalmış, istehlak mallarının istehsalı kəskin surətdə enmiş, kənd təsərrüfatının maddi-texniki bazası zəifləmişdi. İşğal olunmuş sovet əraziləri azad olunduqca respublikada xalq təsərrüatı bərpa edilirdi. Xəzər**

**dənizində neftçıxarma sənayesinin iqtisadi cəhətdən səmərəsiz olması iddialarına baxmayaraq, Azərbaycan alimlərinin, neftçilərinin gərgin əməyi sayəsində dünyada ilk dəfə olaraq Azərbaycanda açıq dənizdə neft çıxarılmasına başlanıldı. Dənizdə qazılan kəşfiyyat quyusu 1949-cu ildə fontan vurdu. Bu dövrdə Azərbaycanda Sumqayıt, Daşkəsən, Mingəçevir, Əli Bayramlı (indiki Şirvan) kimi yeni sənaye mərkəzləri yaradıldı. Sumqayıt böyük kimya və metallurgiya şəhərinə çevrildi. Tezliklə burada Azərbaycan əlvan 96 metallurgiyasının ilk müəssisəsi – Alüminium zavodu işə salındı. 1945–1954-cü illərdə Mingəçevirdə Cənubi Qafqazda ən böyük Su Elektrik Stansiyası, Daşkəsəndə Filizsaflaşdırma kombinatı tikilib istifadəyə verildi. 1951-ci ildə SSRİ-də ən böyük tikinti müəssisələrindən olan Qaradağ sement zavodu işə salındı. Respublikada yüngül və yeyinti sənayesində də yüksəliş müşahidə olundu. Azərbaycanda həyata keçirilən aqrar siyasət imperiya mənafeyinə tabe edilmişdi. Məqsəd həm daşınıb aparılan pambıq, ipək, tütün, habelə sonralar tərəvəz və üzüm istehsalını artırmaq, həm də respublikanın vacib ərzaq məhsullarına olan tələbatını mərkəzdən daha çox asılı vəziyyətə salmaq idi. Suvarılan torpaqların sahəsini genişləndirmək üçün 1950–60-cı illərdə Samur-Dəvəçi, Yuxarı Qarabağ, Yuxarı Şirvan, Baş Muğan, Abşeron kanalları kimi iri irriqasiya sistemləri inşa edildi. Bununla belə, əhalinin sosial rifahının yüksəldilməsinə də diqqət ayrılırdı. Əhalinin sosial rifahı. Mühüm sosial dəyişikliklərdən biri şəhər əhalisinin sürətlə artımı olmuşdu. 1970-ci ildə əhalinin artıq 50 faizi şəhərlərdə məskunlaşmışdı. Buna səbəb şəhərlərin sürətlə inkişaf etməsi, habelə kolxozçulara pasport verilməsi idi. 1947-ci il dekabrın 14-də ərzaq və sənaye mallarına kartoçka sistemi ləğv edildi. İstehsalın ardıcıl olaraq artması əhalinin gəlirlərinin çoxalması ilə nəticələndi. 1967-ci il noyabrın 6-da Bakı metropoliteninin istismara verilməsi respublikanın həyatında böyük hadisə kimi yadda qaldı. Bu, Yaxın Şərqdə birinci metropoliten idi. Adamların maddi rifahının yaxşılaşması və səhiyyə sahəsindəki nailiyyətlər əhali arasında ölüm hadisələrini azaltdı. Totalitar rejim davam edir. Güclü totalitar rejimin təmin olunmasında Stalinin, Azərbaycanda isə Bağırovun şəxsi nəzarəti altında işləyən Dövlət Təhlükəsizlik və Daxili İşlər Nazirliklərinin mühüm rolu var idi. Çuğulluq,**

satqınlıq, adamlara qarşı etimadsızlıq, gizli izləmə, düşüncələrə nəzarət daha da artmışdı. Tarix elmi üzərində hakim ideologiyanın təzyiqi gücləndirilmişdi. Şimali Azərbaycanın [97] Rusiyaya könüllü birləşdirilməsi haqqında cəfəng uydurmalar irəli sürülür, Azərbaycan Cümhuriyyəti hökumətinin xalqa zidd siyasət yürütdüyü iddia edilirdi. Akademik Heydər Hüseynovun 1949-cu ildə çap olunmuş "XIX əsr Azərbaycanda ictimai və fəlsəfi fikir tarixindən" əsərində Şeyx Şamilin başçılığı ilə xalq hərəkatını çarizmin müstəmləkəçilik siyasətinə qarşı mübarizə kimi qiymətləndirməsi "yuxarılar"a xoş gəlməmiş, bu əsərə görə ona verilmiş "Stalin mükafatı" geri alınmış, təqiblərə başlanmışdı. Türk dünyasının möhtəşəm orta əsr abidəsi "Kitabi-Dədə Qorqud" "irticaçı feodal-xan eposu" adı ilə damğalanmış, A.A.Bakıxanov fanatizmdə, xan və bəyləri müdafiə etməkdə, M.M.Kazım bəy "çarizmin sadiq qulu" olmaqda günahlandırılmışdı. Akademik M.A.Dadaşzadə "Türkiyə casusu" kimi damğalanmışdı. Bununla yanaşı, mərkəz azərbaycanlılara etibar etmir, mühüm vəzifələrin çoxuna, xüsusən güc orqanlarına başqa millətlərin, əsasən də rus və ermənilərin nümayəndələrini cəlb edirdi. Erməni fitnəkarlığı Moskvanın fitvası və havadarlığı ilə erməni millətçiləri, kommunist-daşnaklar vaxtaşırı azərbaycanlıların Ermənistan SSR-dəki tarixi etnik ərazilərindən sıxışdırılıb çıxarılması, birinci növbədə, Qarabağın qoparılıb Ermənistana verilməsi tələbi ilə çıxış edirdilər. Ermənistan K(b)P MK və XKS-i Qarabağ ərazisinin iqtisadi cəhətdən Ermənistan SSR-lə bağlı olduğunu Stalinə sübut etməyə çalışırdı. O vaxt Azərbaycan K(b)P MK-nın birinci katibi M.C.Bağırovun bu barədə rəyi soruşmuşdur. O, cavab məktubunda Dağlıq Qarabağın Ermənistana güzəştə gediləcəyi təqdirdə müxtəlif vaxtlarda Ermənistana, Gürcüstana və Sovet Rusiyasına verilmiş bir çox tarixi ərazilərin Azərbaycan SSRə qaytarılmasını vacib hesab etdiyini bildirmişdir. Məsələnin bu səpkidə müzakirə olunması ermənilərin planlarının pozulmasına səbəb olmuşdu. Deportasiya. Qarabağ məsələsini öz xeyirlərinə həll etməyi bacarmayan ermənilər başqa bir fitnəyə əl atdılar. Onların fitnəkarlığı sayəsində 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti "Ermənistan SSR-dən kolxozçuların və başqa [98] azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi

**haqqında" 4083 saylı qərar verdi. SSRİ Nazirlər Sovetinin 1948-ci il 10 mart tarixli daha bir qərarı ilə bu işi həyata keçirmək üçün konkret tədbirlər planı müəyyən olundu. Bu qərara görə, 100 min azərbaycanlı 1948–1950-ci illərdə "könüllülük prinsipinə əsasən" Azərbaycana köçürülməli idi. Ermənistandan deportasiya olunmuş azərbaycanlılar Azərbaycan SSR-in KürAraz ovalığı və digər rayonlarında (Saatlı, Göyçay, İmişli, Əli Bayramlı, Zərdab, Salyan, Kürdəmir, Sabirabad, Yevlax, Ucar və s.) yerləşdirildilər. Ermənistan SSR-də etnik təmizləmənin bu mərhələsində 100 (150 min)min nəfərdən çox azərbaycanlı zorla köçürüldü və ya köçməyə məcbur edildi. Eyni zamanda Azərbaycanda yaradılan yeni sənaye mərkəzlərinə – Sumqayıta, Əli Bayramlıya, Mingəçevirə, Daşkəsənə başqa respublikalardan minlərlə adam, o cümlədən erməni yerləşdirildi. Siyasi rejimdə yumşalma İ.D.Mustafayev. 1953-cü il martın 5-də totalitar sovet sistemini quran İ.V.Stalin vəfat etdi. N.S.Xruşşov 1953-cü ilin sentyabrında Sov.İKP MK-nın birinci katibi seçildi. M.C.Bağırov Azərbaycan KP MK və Bakı Komitəsinin birgə plenumunda (12–13 iyul 1953-cü il) ziyankarlıqda, qüsurlu rəhbərlik metodlarında, kadrlara səmərəli fəaliyyət üçün şərait yaratmamaqda və başqa əməllərdə təqsirkar bilinib vəzifəsindən kənar edildi. Tezliklə həbs edildi, xalq düşməni kimi ölüm cəzasına – güllələnməyə məhkum olundu. 1954-cü il fevralın 14–16-da Azərbaycan KP-nin XX Qurultayı keçirildi və akademik İmam Daşdəmir oğlu Mustafayev MK-nın birinci katibi seçildi. İ.D.Mustafayev və həmkarları yeni şəraitdə respublikanın, xalqın vəziyyətini yaxşılaşdırmağa, milli, mənəvi dəyərlərin, mədəniyyətin, elmin, təhsilin inkişaf etdirilməsinə, xalq təsərrüfatının tərəqqisinə nail olmağa cəhd göstərdilər. Sənayenin sürətlə inkişafı, yeni iş yerlərinin açılması, kəndli gənclərin Bakıya axını nəticəsində paytaxtın iqtisadi-ictimai həyatında azərbaycanlı kadrların rolu artdı. Beynəlmiləl şəhər kimi məşhurlaşmış Bakıda yerli əhalinin tərkibi 99 azərbaycanlıların xeyrinə dəyişməyə başladı. Respublikada kənd təsərrüfatına göstərilən diqqət nəticəsində ərzaq məhsullarının istehsalı artdı. Respublikada Azərbaycan dilinin rəsmi dövlət dili statusunun təmin olunmasının mətbuatda açıq müzakirəsi keçirildi. 1956-cı ildə Azərbaycan SSR Ali Soveti 1937-ci ildə qəbul edilmiş Konstitusiyaya**

**respublikada dövlət dilinin Azərbaycan dili olması barədə maddə əlavə etdi. Kargüzarlıq işlərinin Azərbaycan dilində aparılması üçün konkret tədbirlər görüldü. 1956-cı ildə Bakı telestudiyası işə düşdü. Məhkəmə quruculuğu məsələləri, mülki və cinayət məcəllələrinin qəbulu respublikaların öz ixtiyarına verildi. Repressiya illərində cəzaya məruz qalanların işlərinə yenidən baxılması üçün komissiyalar təşkil edildi və günahsız olduqları sübut edilərək onlara bəraət verildi. Minlərlə azərbaycanlının üzərindən "xalq düşməni" damğası götürüldü. Tezliklə Azərbaycan rəhbərliyinə qarşı təqiblərə başlanıldı. Dağlıq Qarabağ məsələsi növbəti dəfə ortaya atıldı. Ermənistan SSR Dağlıq Qarabağın Ermənistana verilməsini tələb etdi. Bu respublikada antitürk əhvali-ruhiyyə yenidən qızışdırıldı. Yerevan Pedaqoji İnstitutunun Azərbaycan bölmələri bağlandı. Yerevan Azərbaycan Pedaqoji Texnikumu Azərbaycanın Xanlar (indiki Göygöl) rayonuna köçürüldü. C.Cabbarlı adına V.Y.Axundov. Belə bir şəraitdə Sov.İKP MK-nın 1959-cu ilin iyununda keçirilən plenumu Azərbaycan SSR rəhbərliyini qondarma ittihamlarla ciddi tənqid etdi. İ.D.Mustafayev vəzifəsindən azad olundu. Vəli Yusif oğlu Axundov Azərbaycan KP MK-nın birinci katibi seçildi. Milli dəyərlərə diqqət daha da artırıldı. 1966-cı ildə İranda yaşayan böyük Azərbaycan şairi Məhəmməd Hüseyn Şəhriyarın "Heydərbabaya salam" poeması Bakıda çap olundu. Yaradıcı gənclər üçün "Ulduz" jurnalının nəşrinə başlandı. Novruz bayramı "Bahar bayramı" adı ilə rəsmi şəkildə qeyd edildi. 1962-ci il dekabrın 17-də 95 nəfərin iştirak etdiyi gizli yığıncaqda Milli Azərbaycan Qərargahı (MAQ) təşkil olundu. MAQ-ın rayonlarda şöbələri yaradıldı. Təşkilat üzvlərinin əksəriyyəti vəzifəli şəxslər idi. Başlıca məqsəd rəhbər vəzifələrdə azərbaycanlıların olmasına, respublika büdcəsinə ayırmaların Moskvada deyil, Bakıda həll edilməsinə çalışmaq, milli oyanışa xidmət etmək idi. 100 MAQ-çılar bir neçə mühüm vəzifəyə azərbaycanlı kadrların təyin edilməsinə nail oldular. Belə bir şəraitdə mərkəzin təzyiqi nəticəsində Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti 1969-cu il 7 may tarixli qərarı ilə sərhəd rayonlarında 2 min hektardan çox Azərbaycan torpağının Ermənistana verilməsi haqqında hələ 1938- ci il mayın 5-də**

**qəbul olunmuş qərarı təsdiq etdi. Lakin bir qədər sonra Azərbaycan rəhbərliyinə gəlmiş Heydər Əliyev bu qərarın icrasına yol vermədi.**

# *Mövzu 14.Birinci Qarabağ müharibəsi.Xocalı soyqırımı.Dövlət müstəqilliyinin bərpası.Milli Qəhrəmanlarımız*

**Qarabağ münaqişəsi**

**Ermənilər əvvəl sovet, sonra Rusiya hərbi qüvvələrinin köməyindən istifadə edərək Dağlıq Qarabağdakı fitnəkar əməllərini genişləndirdilər. Azərbaycanlılar sıxışdırılır və qovularaq ərazidən çıxarılırdı. 1991-ci ilin sentyabrında ermənilər tərəfindən qeyri-qanuni qurumun – Dağlıq Qarabağ Respublikasının yaradıldığı elan edildi. Bu qanunsuz əmələ cavab olaraq Azərbaycan Respublikası həmin il noyabrın 26-da DQMV-nin statusunu ləğv etdi.SSRİ-nin dağılmaqda olduğu bir vaxtda onlar öz havadarlarına və uzun müddətdən bəri hazırlaşdıqlarına güvənərək hərəkətə keçdilər. Düşmənin müvəffəqiyyətinin bir səbəbi də Azərbaycanda ordu quruculuğuna ciddi şəkildə başlanılmaması idi. Ermənilərin törətdiyi silahlı təxribatlara əhali arasından çıxan könüllülər və Azərbaycan milisi (polisin əvvəlki adı) cavab verməli olurdu.**

**Azərbaycanda mövcud olan demokratik qüvvələrin təzyiqi 1991-ci il sentyabrın 5-də Müdafiə Nazirliyinin təşkil edilməsi, oktyabrın 9-da isə Azərbaycan Respublikası silahlı qüvvələri haqqında qanunun qəbul edilməsi ilə nəticələndi. Noyabrın 19-da 22 rayon və şəhərdə özünümüdafiə batalyonlarının yaradılması qərara alındı. Lakin qat-qat yaxşı silahlanmış və təlim görmüş düşmənə qarşı bu dəstələrlə mübarizə aparmaq çox çətin idi.**

**Müharibənin ilk illəri**

**Qarabağın azərbaycanlılar yaşayan məntəqələrinə ermənilər tərəfindən hücumlar genişləndirildi. 1992-ci ilin əvvəllərində Kərkicahan qəsəbəsi, Qeybalı, Malıbəyli, Aşağı Quşçular və Yuxarı Quşçular kəndləri işğal edildi.**

**Şuşanın mühasirəsini yarmaq üçün yanvarın sonlarında Azərbaycan ordusu "Daşaltı" əməliyyatı keçirdi. Lakin düzgün rabitə qurulmaması səbəbindən əməliyyat uğursuzluqla nəticələndi. Fevralın ortalarında düşmən Qaradağlı kəndini ələ keçirdi. Kəndin müdafiəçilərinə və dinc sakinlərə vəhşicəsinə divan tutuldu. Fevralın sonunda isə Xocalı soyqırımı törədildi.**

**Azərbaycan dövləti Dağlıq Qarabağ münaqişəsini ATƏM-də müzakirəyə çıxardı. Münaqişənin həlli üçün yaradılan Minsk qrupu fəaliyyət göstərsə də, Dağlıq Qarabağdakı ərazilər bir-birinin ardınca ermənilər tərəfindən işğal edilirdi. 1992-ci il mayın 8-də Ermənistan Şuşa şəhərinin tutulması ilə Dağlıq Qarabağın, demək olar ki, bütün ərazisini ələ keçirmiş oldu. Bir neçə gün sonra Laçın rayonunun işğalı ilə Dağlıq Qarabağla Ermənistan arasında birbaşa əlaqə yaradıldı. Ölkədə ordu quruculuğu prosesi də davam etməkdə idi. Fevralın 20-də Azərbaycan aviaeskadrilyası yaradıldı. Həmin gün Hərbi hava qüvvələri günü elan edildi. Keçmiş SSRİ-nin Xəzər donanmasının qüvvə və vəsaitinin 25 faizi Azərbaycan Respublikasının sərəncamına keçdi.**

**Martın 25-də Azərbaycan Respublikasının o dövr üçün ən yüksək fərqlənmə dərəcəsi olan "Azərbaycanın Milli Qəhrəmanı" adı müəyyən olundu. İyunun 5-də Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin 11 əməkdaşı göstərdiyi şəxsi igidlik və şücaətə görə ölümlərindən sonra bu fəxri ada layiq görüldülər.**

**1992-ci ilin yay aylarında Azərbaycan Ordusu bir sıra müvəffəqiyyətlər əldə etdi. İyul-avqust aylarında Ağdərə rayonu, demək olar ki, azad olundu. Goranboyun düşmən tərəfindən tutulmuş torpaqları geri alındı. Avqustun əvvəllərində Ermənistanın Azərbaycan (Gədəbəy rayonunda) ərazisindəki Başkənd düşməndən təmizləndi.**

**ABŞ konqresi erməni lobbisinin təzyiqi ilə 1992-ci ilin oktyabrında "Azadlığı Müdafiə Aktı"na 907-ci əlavəni qəbul etdi. Bu sənədə əsasən, Azərbaycan guya Ermənistanı blokadada saxlamaqda təqsirləndirilir, respublikaya dövlət səviyyəsində hər cür, hətta humanitar yardımın göstərilməsinə belə ciddi məhdudiyyətlər qoyulurdu.Azərbaycan Ordusunun uğurları ermənilərin havadarlarını daha da fəallaşdırdı. 1992-ci ilin sonları – 1993-cü ilin əvvəllərində**

Azərbaycan Silahlı qüvvələri ağır döyüşlərə girməli oldu və bir sıra uğursuzluqlarla üzləşdi. 1993-cü ilin əvvəllərində Rusiya Azərbaycana bildirdi ki, o ya rus ordusuna güvənib MDB-yə daxil olmalı, ya da yalnız özünə arxalanmalıdır. Azərbaycan Rusiyanın ultimativ təklifi ilə razılaşmadı.

1993-cü il fevralın əvvəllərində ermənilər Rusiyanın 7-ci ordusunun 128-ci motoatıcı alayının və muzdluların, əsasən də kazakların iştirakı ilə Ağdərə bölgəsinə hücuma keçdilər. Düşmənin uğurlarında Azərbaycan Ordusundakı bəzi səriştəsizlik, hətta xəyanət hallarının da rolu var idi. Ermənistan Azərbaycana qarşı müharibə aparsa da, silahlı əməliyyatların yalnız Dağlıq Qarabağ erməniləri tərəfindən aparıldığını iddia edirdi. Hücuma məruz qalan Kəlbəcər aprelin 3-də işğal olundu. Minlərlə adam əsir alındı və görünməmiş vəhşiliklərə məruz qaldı.

Rusiya öz qoşununu Azərbaycandan, digər keçmiş sovet respublikalarında olduğu kimi, mərhələlərlə yox, tezliklə çıxardı. Bu zaman Azərbaycana çatmalı olan silahın xeyli hissəsi ermənilərin əlinə keçdi. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası 30 aprel 1993-cü ildə qəbul etməyə məcbur olduğu 822 saylı qətnamə ilə Kəlbəcər rayonunun işğalından narahatlığını ifadə etdi.

Respublikadakı siyasi böhran, Surət Hüseynovun hərbi qiyamı və ən əsası, ermənilərin cəzasız qalması düşmənə iyun ayının əvvəllərində güclü hücuma keçməyə imkan verdi. İyul ayında Ağdam, avqustda Cəbrayıl, Füzuli, Qubadlı, oktyabrın sonlarında isə Zəngilan rayonları işğala məruz qaldı.

BMT-nin Təhlükəsizlik Şurası Azərbaycan torpaqlarının işğalı ilə bağlı olan 822, 853, 874, 884 saylı qətnamələr qəbul etdi.

Həmin sənədlərdə ermənilərin işğal olunmuş ərazilərdən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələb edilsə də, Ermənistan müxtəlif bəhanələrlə bu tələbləri yerinə yetirməkdən boyun qaçırır.

Müharibənin gedişində dönüş

Ümummilli lider Heydər Əliyevin 1993-cü ilin iyun ayında respublikanın rəhbərliyinə qayıdışı ordu quruculuğunda da ciddi nəticələrə gətirib çıxardı. Nizamsız hərbi hissələr ləğv edildi, güclü nizami ordu yaradılması prosesi başladı. 1993-cü il noyabrın 2-də Heydər Əliyev televiziya və radio ilə müraciət edərək

xalqı düşmənə qarşı birləşməyə və mübarizəyə qalxmağa səslədi. Xalq öz rəhbərinin çağırışına səs verdi. Tez bir zamanda könüllülərdən ibarət taborlar yaradıldı və cəbhəyə göndərildi. Əfqanıstanda xidmətdə olmuş keçmiş döyüşçülər Prezidentə müraciət etdikdən sonra onlardan ibarət hərbi hissə yaradıldı.

1993-cü ilin noyabrında Ali Sovet Müdafiə haqqında qanun qəbul etdi. Prezident şəxsən cəbhə bölgələrində olub konkret tədbirlər müəyyənləşdirdi.

Həmin il noyabrın ortalarında Azərbaycan Ordusu artıq cəbhələrdə ermənilərin hücumlarına ciddi müqavimət göstərə bilirdi. Dekabrın ortalarında Azərbaycan əsgərləri Beyləqan istiqamətində böyük qəhrəmanlıq nümayiş etdirdilər.Akif Xanəliyev bir döyüşdə 50-yə qədər düşmən əsgərini məhv etdi, Etibar İsmayılov döyüşçü yoldaşlarını xilas edərək özünü düşmən tankının altına atdı və onu partlatdı. Ölümündən sonra o, Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldü.

Dağlıq Qarabağ münaqişəsinin gedişində təkcə azərbaycanlılar deyil, digər millətlərdən olan bir çox Azərbaycan vətəndaşı da qəhrəmanlıq göstərmişdir. Onların arasından ölümlərindən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş İsgəndər Aznaurovun, Yuri Kovalyovun, Albert Aqarunovun və başqalarının adlarını çəkmək olar. 1994-cü il yanvarın 5-də Azərbaycan Ordusu Füzuli rayonundakı mühüm strateji əhəmiyyətə malik olan Horadiz qəsəbəsini və 22 kəndi azad etdi. Hücum genişləndirildi, Cəbrayıl rayonunun bir hissəsi, Kəlbəcər rayonunun bir sıra yaşayış məntəqələri düşməndən təmizləndi. Döyüşlərdə düşmən 4 min əsgər və zabit itirdi.

Nüfuzlu imperiyapərəst qüvvələr ermənilərə köməklərini daha da artırdılar. Lakin Azərbaycan silahlı qüvvələri düşmənin bütün cəbhələrdəki hücumlarına sinə gərə bildi.

Azərbaycan öz suverenliyinə hörmət çərçivəsində Rusiyanın münaqişəni həll etmək səylərinə də sayğı ilə yanaşdı. Azərbaycan Respublikası 1994-cü il mayın 8-də münaqişədə iştirak edən tərəflərin, o cümlədən Dağlıq Qarabağın azərbaycanlı və erməni icmalarının niyyətini təsdiq edən Bişkek protokolunu imzaladı. 1994-cü il mayın 12-də cəbhə xəttində atəşkəs əldə edildi.

Ölkə ərazisinin 20 faizi düşmən tapdağı altındadır. Elan edilməmiş müharibədə 20 min azərbaycanlı şəhid, 5 min nəfər əlil olub, 100 min nəfər yaralanıb. Qaçqın və köçkünlərin sayı milyonu keçib.

Xocalı soyqırımının səbəbləri

Xocalı Xankəndindən 10 kilometr şimal-şərqdə, Ağdam-Şuşa və Əsgəran-Xankəndi yollarının üzərində yerləşir. Dağlıq Qarabağ münaqişəsinin ilk günlərindən etibarən Xocalı diqqət mərkəzində idi. Ermənistanda repressiyaya məruz qalaraq öz doğma torpaqlarından qovulan 1500 azərbaycanlı və Fərqanədən (Özbəkistandan) gəlmiş 495 Axıska türkü məhz Xocalıda məskunlaşmışdı. Həmin dövrdə Xocalıya qayğı göstərilirdi. Hələ 1988-ci ilin oktyabrında Azərbaycan hökuməti Xocalının sosial inkişafına dair xüsusi qərar qəbul etmişdi. Həmin qərara görə, respublikanın müxtəlif rayonlarından Xocalıya tikinti materialları, işçi qüvvəsi göndərilir, şəhər sürətlə tikilir və genişlənirdi. Xankəndindən qovulan 18 min azərbaycanlının da bir qismi Xocalıya pənah gətirmişdi. Ermənistan tərəfindən işğal olunmazdan əvvəl bu şəhərin əhalisinin sayı 7000 nəfərə çatmışdı. Ermənilər Xocalı aeroportu vasitəsilə Xankəndinə hərbi sursat daşıyırdılar. Bunun qarşısını tədricən alan Xocalı polisi fədakarlıq edərək sərnişin reyslərindən başqa heç bir yük təyyarəsinin həmin aeroporta enməsinə yol vermirdi.

Ermənilərin Xocalını əsas hədəflərdən biri kimi seçməsi təsadüfi deyildi.

Düşmən Xocalını işğal etməklə bir sıra məqsədlər güdürdü:

1. Dağlıq Qarabağ regionunun digər şəhərlərini ələ keçirmək üçün strateji üstünlükqazanmaq;
2. Regionda yeganə mülki hava limanına malik olan mühüm kommunikasiya mərkəziniələ keçirmək;
3. Xocalıda törədilən soyqırımı ilə psixoloji üstünlük əldə etmək və azərbaycanlılarıniradəsiniqırmaq;
4. Xocalıda və ətraf ərazilərdə olan tarixi izlər onların ərazi iddialarını puça çıxartdığı üçün şəhəri yer üzündən silmək.

Xocalı soyqırımının törədilməsi.

**1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə güclü artilleriya atəşindən sonra SSRİ dövründə Xankəndi şəhərində yerləşdirilmiş 366-cı motoatıcı alayın zirehli texnikası və hərbi heyətinin köməyi ilə Ermənistan silahlı qüvvələri və yarımhərbi birləşmələr şəhəri ələ keçirmək üçün hərəkətə keçdilər. Hücum başladıqdan sonra şəhərdə qalan 2500-ə yaxın əhali azərbaycanlıların nəzarətində olan ən yaxın məkana çatmaq məqsədilə buranı tərk etməyə çalışdı. Lakin insanların ümidi boşa çıxdı. Şəhəri tərk edənlər pusquya salındılar, Naxçıvanlı və Pircamal kəndləri yaxınlığında erməni hərbi postları tərəfindən ya atəşə tutularaq qətlə yetirildilər, ya da əsir götürüldülər. Düşmən Xocalı soyqırımını törətməklə 613 nəfəri qətlə yetirdi; o cümlədən 63 uşaq, 106 qadın, 70 yaşlı, 8 ailə tamamilə məhv edildi; 25 uşağın hər iki valideyni, 130 uşağın isə bir valideyni öldürüldü. Həmçinin 487 nəfər yaralandı, 1275 nəfər girov götürüldü, 150 nəfər isə itkin düşdü. Yalnız çox az sayda insan Azərbaycanın nəzarətində olan Ağdam şəhərinə çata bildi.**

**Xocalıda mülki əhalinin bilərəkdən, zorakılıqla qətlə yetirilməsini çoxsaylı faktlar sübut edir. Məsələn, həmin gün əhalinin xilas olmaq istəyən xeyli hissəsinin ərazidən çıxış yollarında əvvəlcədən hazırlanmış xüsusi pusqularda məhv edilməsi bunlardan biridir.**

**Xocalının düşmən tərəfindən işğal olunması zamanı böyük şücaət göstərərək şəhid olmuş bir sıra igid vətən oğulları Azərbaycanın Milli Qəhrəman fəxri adına layiq görülmüşlər. Bunların arasında Xocalı aeroportunun komendantı Əlif Hacıyevin, Xocalı ərazi özünümüdafiə batalyonunun komandiri Tofiq Hüseynovun, rota komandiri Aqil Quliyevin, silahlı dəstəyə başçılıq etmiş Ələsgər Novruzovun adlarını çəkmək olar. Xocalı soyqırımı zamanı dinc əhalinin xilas edilməsində fərqlənmiş və şəhidlik zirvəsinə yüksəlmiş Hikmət Nəzərli, Füzuli Rüstəmov, Canbulaq Rzayev, Araz Səlimov da ölümlərindən sonra Azərbaycanın Milli Qəhrəmanı adını aldılar.**

**Xocalı həqiqətlərinin dünyaya çatdırılmasında Azərbaycanın Milli qəhrəmanı Çingiz Mustafayevin çəkdiyi videolentlərin rolu əvəzsizdir.**

**Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev Xocalı hadisəsi ilə bağlı demişdir: *"Xocalı soyqırımı XX əsrin ən böyük insan faciələrindən biridir. Xocalıda***

***misligörünməmiş qəddarlıqla törədilmiş bu insan qırğınının Yer kürəsinin hər hansı bir guşəsində baş verməsinin qarşısını almaq üçün Xocalı soyqırımı həqiqətləri dünya ictimaiyyətinə hərtərəfli çatdırılmalı və humanizm ideallarına sədaqət nümayiş etdirən bütün insanların bu faciəyə öz qəti, birmənalı mövqelərini bildirmələri üçün ciddi və məqsədyönlü iş aparılmalıdır".***

**Xocalı faciəsinə qiymət verilməsi**

**Məhz Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıtmasından sonra Xocalı soyqırımına ciddi siyasi, hüquqi qiymət verilmişdir. Milli Məclis onun təşəbbüsü ilə 1994-cü ildə "Xocalı soyqırımı günü haqqında" qərar qəbul etmişdir. Həmin sənəddə hadisənin səbəbləri, günahkarları ətraflı şəkildə göstərilmişdir. Ulu öndərin 25 fevral 1997-ci il tarixli sərəncamı ilə hər il fevral ayının 26-sı saat 17.00-da Azərbaycan Respublikasının ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edilir.**

**Xocalı faciəsinin soyqırımı kimi dəyərləndirilməsi və dünya ictimaiyyətinə təqdim edilməsi Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biridir. Bu istiqamətdə Azərbaycan Prezidenti İlham Əliyev ardıcıl və sistemli tədbirlər həyata keçirir. Bununla bağlı Heydər Əliyev Fondu, xüsusən onun prezidenti, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti də xüsusi olaraq qeyd edilməlidir.**

**2008-ci ildə Heydər Əliyev fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət" beynəlxalq maarifləndirmə kampaniyasına start verilmişdir.Kampaniya Xocalı soyqırımının dünya ölkələri tərəfindən tanınması, erməni cinayətkarlarının məsuliyyətə cəlb olunması, həmçinin Xocalı soyqırımı qurbanlarının yad edilməsi, onların xatirəsinin əbədiləşdirilməsi və sağ qalmış ailələrə dəstək verilməsi məqsədi daşıyır.Məhz bu kampaniya sayəsində dünyada Xocalı hadisələrini soyqırımı kimi tanıyan ölkələrin sayı ildən-ilə artmaqdadır.**

**Müstəqilliyin bərpasına gedən yolda**

**Heydər Əliyev hələ 7 mart 1991-ci ildə – Azərbaycan Respublikası Ali Sovetinin sessiyasındakı çıxışında SSRİ-nin saxlanılmasına münasibət bildirilməsi üçün**

keçiriləcək Ümumittifaq referendumunda iştirakın əleyhinə çıxış etmiş, Azərbaycanın müstəqil dövlət kimi mövcud ola biləcəyini əsaslandırmışdı.

Naxçıvan MR-in Ali Məclisi 1991-ci il martın 14-də SSRİ-nin saxlanılması barədə referendumda iştirak etməmək haqqında qərar qəbul etdi. Bundan ruhlanan Azərbaycanın demokratik qüvvələri bütövlükdə həmin referendumu boykot etdilər.

SSRİ rəhbərliyinin yarıtmaz siyasəti, xüsusən Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qərəzli mövqeyi, həmçinin həyat səviyyəsinin getdikcə aşağı düşməsi müstəqillik ideyalarının respublika əhalisi arasında daha çox yayılmasına səbəb oldu.

1991-ci il oktyabrın 3-də – ölkə prezidenti ilə Azərbaycan Xalq Cəbhəsi liderlərinin görüşündə Milli Şuranın yaradılması haqqında razılaşma əldə edildi. Azərbaycan xalqının müstəqilliyə yönəlmiş səyi qanuni sonluqla nəticələndi və 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" yekdilliklə qəbul edildi.Konstitusiya Aktında qeyd olunurdu ki, Azərbaycan dövləti müstəqil, unitar və dünyəvi dövlətdir. SSRİ-nin Azərbaycan ərazisindəki bütün daşınar və daşınmaz mülkiyyəti Azərbaycan Respublikasının mülkiyyəti hesab olunur. Siyasi, iqtisadi və mədəni həyatını öz tarixi və milli ənənələrinə, ümumbəşəri dəyərlərə uyğun inkişaf etdirmək Azərbaycan xalqının inkaredilməz və bölünməz hüququdur. Azərbaycan xalqı Azərbaycan Respublikası ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan bütün Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir. Siyasi hakimiyyət xalqa məxsusdur, suveren hakimiyyət parlament, ali icra orqanı və məhkəmələr, ümumi, birbaşa, gizli, bərabər səsvermə yolu ilə seçilmiş nümayəndələr vasitəsilə həyata keçirilir. Respublikanın ərazisi və sərhədləri toxunulmazdır. Təbii ehtiyatlar Azərbaycan Respublikasına məxsusdur. İqtisadi fəaliyyət bazar münasibətlərinə və azad sahibkarlığa əsaslanır. Qanunla müəyyənləşdirilmiş hallardan başqa məcburi əmək qadağandır. Zəhmətkeşlərin qanunla tənzimlənən tətil hüquqları vardır. Konstitusiya Aktında vətəndaşların seçib-seçilmək, siyasi

**partiya və birliklər yaratmaq hüququ, respublikanı müdafiə etmək, öz gəlirlərinə müvafiq olaraq vergillər ödəmək, qanunlara danışıqsız əməl etmək vəzifələri və s. təsbit olunurdu.**

**Buna baxmayaraq, o dövrdəki Azərbaycan rəhbərliyi imperiyanın dağılacağına inamsızlıq nümayiş etdirərək respublikanın müstəqilliyinin referendumla təsdiq edilməsini ləngidirdi.**

**Müstəqilliyin hüquqi cəhətdən möhkəmlənməsi**

**1991-ci il dekabrın 8-də Belarusun Brest şəhəri yaxınlığında Rusiya Federasiyası, Ukrayna və Belarus rəhbərləri Müstəqil Dövlətlər Birliyi (MDB) yaradılması haqqında müqavilə bağladılar. Bununla da, SSRİ beynəlxalq hüquq subyekti kimi tarix səhnəsindən silindi.**

**Azərbaycanın müstəqil dövlətə çevrilməsində daha bir həlledici addım dekabrın 29-da atıldı. Həmin gün keçirilən referendum bülleteninə "Siz "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Azərbaycan Respublikası Ali Sovetinin qəbul etdiyi Konstitusiya Aktına tərəfdarsınızmı?" sualı yazılmışdı. Azərbaycan xalqı verilmiş suala yekdilliklə müsbət cavab verərək dövlət müstəqilliyinə tərəfdar olduğunu bildirdi.**

**Milli Məclis 1992-ci il mayın 27-də musiqisini Üzeyir Hacıbəylinin, sözlərini Əhməd Cavadın yazdığı "Azərbaycan marşı"nı Dövlət Himni kimi qəbul etdi. 1993-cü il fevralın 23-də isə Dövlət Gerbi təsdiq olundu.**

**Beləliklə, Azərbaycan xalqı yaranmış tarixi şəraitdən düzgün və uğurla istifadə edərək XX əsrdə ikinci dəfə öz dövlət müstəqilliyini elan etdi**

**Müstəqilliyin ilk addımları**

**Müstəqil dövlətə çevrilmiş Azərbaycan Respublikası olduqca mürəkkəb beynəlxalq şəraitdə fəaliyyət göstərməli idi. Azərbaycanın daxili və xarici siyasətinin ali məqsədi dövlət müstəqilliyini tanıtmaq və möhkəmləndirmək, ölkə daxilində səmərəli dövlət quruculuğunu həyata keçirmək, güclü bir dövlət qurmaq və vətəndaşlarının daha yaxşı yaşayışını təmin etməkdən ibarət idi.**

Müstəqillik əldə edilən kimi xarici siyasətdə ilk addımlar atılmağa başlandı. Ölkənin müstəqilliyini 1991-ci il noyabrın 9-da ilk olaraq Türkiyə Cümhuriyyəti tanıdı. 1991-ci ilin sonuna qədər Azərbaycan Respublikası Rumıniya, Pakistan, İsveçrə, İran tərəfindən tanındı. Bu proses 1992-ci ildə də davam etdi. Azərbaycan Respublikası müxtəlif beynəlxalq təşkilatların üzvlüyünə qəbul edilməkdə idi. O, 1991-ci ilin dekabrında İslam Konfransı təşkilatına, 1992-ci ilin fevralında İqtisadi Əməkdaşlıq Təşkilatına, iyulunda isə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinə (ATƏM) qoşuldu. 1992-ci il martın 2-də Birləşmiş Millətlər Təşkilatına (BMT-yə) üzv olan Azərbaycan həmin təşkilatın qəbul və təsdiq etdiyi bir çox mühüm beynəlxalq sənədləri imzaladı. Respublikanın bir sıra ölkələrdə səfirlikləri açıldı.

1992-ci il İyunun 7-də keçirilən Prezident seçkilərində AXC-nin sədri Əbülfəz Elçibəy qalib gəldi. AXC hakimiyyəti dövründə ölkənin pul vahidi manat dövriyyəyə buraxıldı. Ordu quruculuğu və vahid komandanlığın yaradılması istiqamətində əsaslı addımlar atıldı

Lakin hakimiyyətə gəlmiş qüvvələr tezliklə xalqın etibarını itirməyə başladılar. Onlar hakimiyyəti möhkəmləndirə və ondan xalqın xeyrinə səmərəli istifadə edə bilmədilər. Bunun başlıca səbəbi Azərbaycanın düşmənlərinin xalqın hakimiyyətinin güclənməsini, ölkənin güclü dövlətə çevrilməsini istəməmələri idi. Rəhbərliyin kadr siyasətindəki səhvləri, idarəçilikdə yol verdiyi ciddi qüsurları xalqı ondan daha da uzaqlaşdırdı. Həm iqtidarın səriştəsiz siyasəti, həm də xarici güclərin təhrikçiliyi ölkə daxilində separatçı qüvvələri ruhlandırdı.

1993-cü il iyun ayının əvvəllərində hərbi qiyam başladı. Surət Hüseynovun başçılıq etdiyi hərbi hissə ölkə rəhbərliyinə tabe olmaqdan imtina etdi. İqtidar hərbi müxalifətin öhdəsindən gəlməkdə çətinlik çəkdi. İyunun 4-də Gəncədə silahlı toqquşma baş verdi və hökumət qüvvələri məğlub oldu. Qiyamçılar Bakı istiqamətində irəliləməyə başladılar. Danışıqlar nəticəsində parlamentin sədri, Baş nazir, üç güc naziri istefa verməli oldu və ölkədə hakimiyyət boşluğu yarandı.

Yeni Azərbaycan Partiyasının yaranması

**Azərbaycanın tanınmış ziyalılarından 91 nəfər 1992-ci il oktyabrın 16-da "Səs" qəzetində "Heydər bəyi biz çağırmalıyıq!" adlı müraciətlə çıxış etdi. Heydər Əliyevə ünvanlanmış bu tarixi sənəddə ölkəni yaranmış ağır durumdan çıxarmaq üçün xalqın məhz onun başçılığı altında Yeni Azərbaycan Partiyasında təşkilatlanmaq arzusu öz əksini tapmışdı.**

**Ümummilli lider Heydər Əliyev respublika ziyalılarının bu çağırışına oktyabrın 24-də cavab verdi. O öz cavabında mövcud ictimai-siyasi durumu ciddi şəkildə təhlil etdi və yaranmış ağır vəziyyətdən çıxış yollarını göstərdi. Heydər Əliyev Yeni Azərbaycan Partiyasının yaradılmasının obyektiv zərurətə əsaslandığını və onun fəaliyyətində fəal iştirak etməyə hazır olduğunu bildirdi.**

**Yeni Azərbaycan Partiyasının yaradılmasında məqsəd Azərbaycan Respublikasını mövcud böhrandan xilas etmək idi. Qısa müddət ərzində Heydər Əliyevin sədrliyi ilə partiyanın təşkilat komitəsi formalaşdı, onun rəhbərliyi ilə proqram və nizamnamə layihələri hazırlandı.**

**1992-ci il noyabrın 21-də Naxçıvanda Azərbaycan Respublikasının bütün bölgələrini təmsil edən nümayəndələrin iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Konfransda partiyanın yaradılması haqqında qərar, həmçinin onun proqramı və nizamnaməsi qəbul edildi. Heydər Əliyev yekdilliklə partiyanın sədri seçildi. Beləliklə, xalqın həyatında mühüm rol oynayan və öz üzərinə böyük tarixi missiya götürən Yeni Azərbaycan Partiyası yaradıldı.**

**Heydər Əliyev çoxları tərəfindən təkcə YAP-ın deyil, bütün Azərbaycan xalqının lideri kimi qəbul edilirdi. O öz müdrik məsləhətləri ilə xalqı yaxınlaşmaqda olan fəlakətlərdən qurtarmağa, o dövrdəki iqtidara, siyasətçilərə düzgün yol göstərməyə səy göstərirdi.**

**Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı. Ölkə rəhbərliyi bu məsləhətlərə məhəl qoymurdu. Siyasi böhran ölkəni parçalanma və vətəndaş müharibəsi həddinə çatdırdıqda iqtidar Heydər Əliyevə müraciət etməli oldu. Ulu öndər xalqın və respublika rəhbərliyinin təkidli dəvətlərini qəbul etməyə bilməzdi. O, demək olar ki, başlanmış vətəndaş müharibəsinin qarşısını almaq üçün düşünülmüş siyasi tədbirlər həyata keçirdi. İyunun 13–14-də Gəncədə hərbi**

**müxalifətlə danışıqlar aparan H.Əliyev yaranmış siyasi böhrandan çıxmağın yollarını müəyyənləşdirdi.**

**İyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin fövqəladə sessiyasında Heydər Əliyev Ali Sovetin sədri seçildi. Həmin gün ölkənin tarixinə Qurtuluş Günü kimi daxil oldu. 1997-ci ildən etibarən 15 iyun Azərbaycan Respublikasında Milli Qurtuluş Günü kimi bayram edilir. 1993-cü ilin 15 iyunu Azərbaycan xalqının tarixində yeni bir dövrün başlanğıcı oldu.**

**Ölkədəki ictimai-siyasi gərginlik davam etməkdə idi. Prezident Əbülfəz Elçibəy iyunun 17-dən 18-nə keçən gecə Bakını tərk etdi və Ordubad rayonunda yerləşən Kələki kəndinə getdi. O bunu paytaxtda qardaş qırğınının qarşısını almaq istəyi ilə izah etdi və ölkəni oradan idarə edə biləcəyini bildirdi. Ali Sovetin Prezidentə geri qayıtmaq təklifləri qəbul olunmadı. Belə olduqda Prezident səlahiyyətləri də Heydər Əliyevə həvalə edildi.**

**1993-cü ilin yayı və payızında xalq Ulu öndərin ətrafında daha sıx birləşdi. Avqustun sonunda ümumxalq referendumunda Azərbaycan xalqı Əbülfəz Elçibəyə bir prezident kimi etimadsızlıq göstərdi.1993-cü il oktyabrın 3-də Ümummilli lider Heydər Əliyev mütləq səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçildi.**

**Demokratik dövlət quruculuğuna başlanılması**

**Müasir Azərbaycan Respublikası müstəqilliyinin ilk illərindən etibarən demokratik, hüquqi və dünyəvi dövlət yaratmaq məqsədini elan etmiş və dövlət quruculuğu sahəsində ardıcıl, qətiyyətli tədbirlər həyata keçirmişdir. Belə bir dövləti yaratmaq üçün ölkə tarixi təcrübəyə, qədim dövlətçilik ənənələrinə, güclü iqtisadiyyata, lazımi elmi potensiala, ən əsası isə, Heydər Əliyev kimi təcrübəli bir siyasi liderə malik idi.**

**Demokratik, hüquqi və dünyəvi respublika quruculuğu ilə bağlı həyata keçirilən tədbirləri mərhələlərə bölmək mümkündür. Azərbaycanın dövlət müstəqilliyini bərpa etdiyi 18 oktyabr 1991-ci ildən Heydər Əliyevin ölkədəki hakimiyyətə qayıtdığı 15 iyun 1993-cü ilə qədər davam etmiş dövrü bu prosesin birinci mərhələsi hesab etmək olar.**

**Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilməsindən Azərbaycan Respublikası Konstitusiyasının referendum yolu ilə qəbul edildiyi 12 noyabr 1995-ci il tarixə qədər olan dövr demokratik dövlət quruculuğunun ikinci mərhələsi kimi qiymətləndirilə bilər. Bu dövrdə Heydər Əliyevin 1993-cü ildə ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilməsi xalqın ona olan yüksək etimadını bir daha nümayiş etdirdi.**

**Azərbaycan Respublikasının Konstitusiyası**

**1995-ci ilin iyununda Prezident Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Respublikasının Konstitusiyasını hazırlamaq üçün Konstitusiya Komissiyası yaradıldı. Komissiyaya ölkənin tanınmış hüquqşünasları, qanunverici, icra və məhkəmə hakimiyyəti nümayəndələri cəlb olunmuşdu. Komissiya Heydər Əliyevin dəyərli məsləhətlərini, Azərbaycan xalqının milli xüsusiyyətlərini, qabaqcıl demokratik ölkələrin təcrübəsini nəzərə alaraq Konstitusiya layihəsini hazırladı. Layihə mətbuatda dərc edildi və ümumxalq müzakirəsinə verildi. Vətəndaşlardan və təşkilatlardan alınan təkliflər nəzərə alınaraq layihəyə düzəliş və əlavələr edildi. "Azərbaycan Respublikası Konstitusiyası"nın layihəsinin yeni variantı əhalinin tanış olması üçün mətbuatda dərc olundu. Müstəqil Azərbaycan dövlətinin Əsas Qanunu – Azərbaycan Respublikasının Konstitusiyası 1995-ci il noyabrın 12-də referendumla qəbul edildi. Seçicilərin mütləq əksəriyyəti Konstitusiya layihəsini bəyəndiyini bildirdi.**

**Demokratik dövlət quruculuğu prosesinin davamı**

**Müstəqil Azərbaycanın Konstitusiyasının qəbul edildiyi vaxtdan Ümummilli liderin 12 dekabr 2003-cü ildə vəfatına qədər olan dövr demokratik dövlət quruculuğu prosesinin üçüncü dövrü hesab edilə bilər. Bu dövrdə də Heydər Əliyev hüquqi-demokratik dövlət quruculuğu sahəsində mühüm tədbirlər həyata keçirmişdir. 11 oktyabr 1998-ci ildəki seçkilərdə Heydər Əliyev seçicilərin əksəriyyətinin səsini toplayaraq yenidən Azərbaycan Respublikasının Prezidenti oldu. Bu onun fəaliyyətinin xalq tərəfindən yüksək qiymətləndirilməsinin təzahürü idi.**

**24 avqust 2002-ci ildə keçirilmiş referendumun nəticələrinə görə, Azərbaycan Respublikasının Konstitusiyasında əlavələr və dəyişikliklər aparıldı. Bununla da, ölkədə hüquqi və demokratik dövlət quruculuğunun konstitusiya əsasları möhkəmləndirildi.1996-cı ildə qanunların beynəlxalq normalara uyğun hazırlanması məqsədilə Respublika Prezidentinin yanında Hüquqi İslahatlar Komissiyası yaradıldı. Milli Məclis tərəfindən ölkədə siyasi-iqtisadi, mədəni prosesləri nizama salan yüzlərlə qanun qəbul edildi. Prezident 1998-ci ildə insan, vətəndaş hüquq və azadlıqlarının, söz, fikir, mətbuat azadlığının təmin edilməsi, senzuranın ləğv olunması haqqında fərmanlar verdi. Ölkədə məhkəmə islahatı keçirildi. Ölüm cəzası Şərqdə ilk dəfə olaraq Azərbaycanda 1998-ci ildə ləğv edildi. Ölkədə aparılan siyasi, hüquqi islahatlar demokratik inkişaf proseslərini də sürətləndirdi. 12 dekabr 1999-cu ildə Azərbaycan Respublikasında ilk bələdiyyə seçkiləri keçirildi. 1998-ci ildə ölkədə Konstitusiya Məhkəməsi yaradıldı. 2000-ci ildən etibarən hakimlərin xüsusi imtahan verməsi təcrübəsi həyata keçirilməyə başlandı. Dövlət idarəetmə sistemində islahatlar reallaşdırıldı.**

**Azərbaycanın yeni neft strategiyasının əsası 20 sentyabr 1994-cü ildə “Əsrin müqaviləsi” nin imzalanması ilə qoyuldu. Bu müqavilə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən üç zəngin neft yatağının iri xarici neft şirkətləri ilə birgə işlənməsini nəzərdə tuturdu. “Əsrin müqaviləsi” ndə 8 ölkənin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya, Səudiyyə Ərəbistanı) 13 məşhur neft şirkəti iştirak edirdi. Azərbaycan iqtisadiyyatının inkişafının II mərhələsi 1998–2002-ci illəri əhatə edirdi. Bu mərhələ qısa və orta müddətli proqramlarla bazar iqtisadiyyatının əsaslarının möhkəmləndirilməsi, onun bütün sahələrində davamlı inkişafa nail olunması və dünya iqtisadiyyatına inteqrasiyanın genişləndirilməsi ilə səciyyələndirilə bilər.**

**1999-cu ildə Gürcüstan istiqamətində Bakı–Supsa “Qərb neft kəməri” istifadəyə verildi. 1999-cu il noyabrın 18-də İstanbulda xam neftin Bakı–Tbilisi–Ceyhan əsas boru ixrac neft kəməri vasitəsilə nəql edilməsi ilə bağlı saziş imzalandı. Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən keçməli olan bu**

**kəmərlə əlaqədar bütün mübahisələrin uğurla həll edilməsi, ilk növbədə, Ulu öndər Heydər Əliyevin müdrik siyasətinin nəticəsi idi.**

**Azərbaycan Respublikası hələ 1992-ci ildə NATO-nun Şimali Atlantika Əməkdaşlıq Şurasına (həmin şura 1997-ci ildən etibarən Avropa-Atlantika Tərəfdaşlıq Şurası – AATŞ adlanır) qoşulmuşdu. 1994-cü ildə Azərbaycan NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" Proqramına da qəbul edildi. Azərbaycanın NATO ilə sıx əməkdaşlığı sonralar da uğurla davam etdirildi. Ölkəni təmsil edən hərbi hissə sülhməramlı qüvvələrin Kosovoda və Əfqanıstandakı əməliyyatlarında iştirak etdi. NATO Parlament Assambleyası 2002-ci ildə İstanbuldakı iclasında Azərbaycan Respublikasını NATO PA-nın assosiasiyalaşdırılmış üzvlüyünə qəbul etdi. Heydər Əliyev Azərbaycanın bu təşkilatda iştirakının əhəmiyyətini yüksək qiymətləndirirdi.**

**15 oktyabr 2003-cü ilə təyin edilmiş Azərbaycan Respublikasının prezident seçkilərində Ümummilli lider Heydər Əliyevin namizədliyi növbəti dövr üçün qeydə alınmışdı. Lakin o, səhhətində yaranmış problemlərlə əlaqədar olaraq mövcud vəziyyəti düzgün təhlil edib qiymətləndirdi və öz namizədliyini həmin vaxt ölkənin Baş naziri olan cənab İlham Əliyevin xeyrinə geri götürdü.**

**İlham Əliyevin prezidentliyinin birinci dövrü**

**15 oktyabr 2003-cü ildə alternativ, demokratik əsaslarla keçirilən seçkilərdə İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi.**

**Demokratik dövlət quruculuğunun sonrakı mərhələsi Heydər Əliyevin siyasi varisi və layiqli davamçısı olan İlham Əliyevin fəaliyyəti ilə bağlıdır. 2003-cü ildə ilk dəfə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İ.Əliyevin prezidentlik dövrü də, öz növbəsində, iki mərhələyə ayrıla bilər.**

**18 mart 2009-cu ilədək davam edən birinci mərhələ Azərbaycanda hüquqi və dövlət quruculuğunun davam etdirilməsi ilə səciyyələnir. Bu mərhələnin başa çatması həmin tarixdə növbəti referendumla Azərbaycan Respublikası Konstitusiyasına əlavə və dəyişikliklərin edilməsi, həmçinin ölkə iqtisadiyyatındakı keçid dövrünün məhz 2009-cu ildə başa çatması ilə izah oluna bilər.**

**İlham Əliyevin prezidentliyinin sonrakı dövrü**

**2009-cu ildən sonrakı dövr isə Azərbaycan Respublikasında hüquqi dövlət quruculuğunun daha da möhkəmləndirilməsi dövrü kimi qiymətləndirilməlidir. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 21 fevral 2017-ci ildə Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsi də bu istiqamətdə atılmış mühüm bir addımdır.İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə dövlətin xarici siyasətində yeni mərhələ başladı. Bu mərhələ özündən əvvəlki dövrün təmələri üzərində dayanır və onun davamını təşkil edirdi. Bununla yanaşı, həmin mərhələ məzmununa görə zəngin, mahiyyəti baxımından daha dərin, əhatəliliyinə görə daha geniş oldu.**

**2003-cü ildən etibarən Azərbaycan Respublikasının xarici siyasətində başlıca məqsədlər dövlətin hər cəhətdən müasir, rəqabətədavamlı ölkəyə çevrilməsi, Ermənistanın hərbi təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsinin dinc yollarla həll edilməsi, ölkənin beynəlxalq enerji, nəqliyyat-kommunikasiya və tranzit mərkəzlərindən biri olması prosesinin davam etdirilməsi, vətəndaşların rifahının daha da yüksəldilməsi üçün daha əlverişli beynəlxalq şəraitin təmin edilməsi və s. idi. Bu məqsədlərin həyata keçirilməsi üçün çevik, tarazlaşdırılmış, səmərəli xarici siyasət xətti yürüdülürdü.**

**2003-cü ilin dekabrında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Cenevrədə keçirilmiş İnformasiya Cəmiyyəti üzrə dünya sammitindəki iştirakı onun ilk xarici səfəri oldu. Prezidentliyinin 2003–2008-ci illəri əhatə edən birinci dövründə İlham Əliyev xarici dövlətlərə 100 səfər etdi. Təkcə elə bu səfərlərin sayı və dövlətçilik üçün əhəmiyyəti, həmçinin xarici ölkələrin nümayəndə heyətlərinin Azərbaycana səfərləri keçirilmiş müxtəlif beynəlxalq toplantılarda ölkənin fəal iştirakı xarici siyasətin nə qədər dinamik və səmərəli olduğunu nümayiş etdirir.**

**İntensiv fəal xarici siyasət nəticəsində 2003–2017-ci illər ərzində ölkədə bir çox ikitərəfli, regional və beynəlxalq toplantılar keçirildi. Bu dövrdə bir çox ölkələrin dövlət və hökumət rəhbərləri ölkəyə müxtəlif səviyyəli səfərlər etdilər.**

Azərbaycan ölkələr arasındakı ziddiyyətlərin aradan qaldırılmasında vasitəçilik etmək istiqamətində də səmərəli fəaliyyət göstərdi. Ölkənin beynəlxalq əlaqələri genişləndi, dünyadakı rolu artdı və mövqeyi möhkəmləndi.2017-ci ilin 30 oktyabrında Bakı–Tbilisi–Qars dəmir yolunun təntənəli açılış mərasimi keçirildi. O, Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yol kimi qiymətləndirilir. Bu yol Avrasiyanın nəqliyyat xəritəsinin önəmli hissəsinə çevrilməkdədir. Çin, Qazaxıstan, Orta Asiya, Avropa ölkələrinin istifadə edəcəyi bu yolun çəkilişinin uğurla başa çatdırılması Azərbaycanın növbəti ciddi nailiyyəti kimi qiymətləndirilir. 2018-ci il 12 iyunda Türkiyənin Eskişəhər şəhərində TANAP-ın (Trans-Anadolu qaz boru kəməri) açılış mərsimi keçirildi. Bu kəmərin çəkilişi Azərbaycanın qaz ehtiyatlarının Avropaya nəql edilməsində mühüm bir addım oldu. İlham Əliyevin ölkəyə uğurlu rəhbərliyi Azərbaycan xalqının onu 2008, 2013, 2018-ci illərdə də Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçməsində aydın təzahür edir. 2003–2017-ci illərdə ölkənin qazandığı uğurların baş memarı olan İlham Əliyev artıq xalqın tarixində Qurucu Prezident olaraq özünə layiqli yer qazanmışdır.

**2016-cı ilin aprel döyüşləri**

Ermənilərin həm kompromisə gəlməmələri, həm də arasıkəsilməyən təxribatları Azərbaycanı qətiyyətli addımlar atmağa vadar edirdi. 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə və gün ərzində Azərbaycanın mövqeləri və yaşayış məntəqələri bütün cəbhə boyu Ermənistan silahlı qüvvələri tərəfindən növbəti dəfə güclü artilleriya atəşinə tutuldu.Azərbaycan Silahlı Qüvvələrinin komandanlığı bu hücumun qarşısının alınması, mülki əhalinin təhlükəsizliyinin təmin olunması üçün Ağdərə–Tərtər–Ağdam və Xocavənd–Füzuli istiqamətində təxirəsalınmaz cavab tədbirlərinin keçirilməsi barədə qərar qəbul etdi. Döyüş nəticəsində Goranboy rayonu və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış kəndi ətrafındakı yüksəkliklər, həmçinin Seysulan məntəqəsi azad olundu. Füzuli rayonu istiqamətində yerləşən, geniş ərazini nəzarətdə saxlamaq imkanı verən strateji əhəmiyyətli Lələ təpə yüksəkliyi də Azərbaycan ordusunun nəzarəti altına keçdi.

**Beləliklə, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin təhlükəsizliyi təmin olundu. Beynəlxalq qurumların müraciətləri və öz sülhsevər siyasətinin nəticəsi olaraq Azərbaycan dövləti hərbi əməliyyatları birtərəfli qaydada dayandırdı. Ermənilər növbəti dəfə xəyanətkarlıq edərək əks-hücuma keçmək istədilər. Azərbaycan Silahlı Qüvvələri uğurlu əməliyyatlar apararaq erməni birləşmələrinin uzun illər ərzində mühəndis-istehkam baxımından möhkəmləndirdiyi müdafiə xəttini yardı, strateji əhəmiyyətli bir sıra mövqeləri düşməndən azad etdi.**

**Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanması, erməni işğalçılarının silahlı təxribatlarının qarşısının alınması və düşmənin dinc əhaliyə hücumlarının dəf edilməsi zamanı göstərdikləri igidliyə görə Azərbaycan hərbçilərinin böyük bir qrupu Azərbaycan Respublikasının Prezidenti tərəfindən orden və medallarla təltif olundu. Şükür Həmidov, ölümlərindən sonra isə Murad Mirzəyev, Samid İmanov İlham Əliyevin fərmanı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görüldülər. 2016-cı ilin aprel hadisələri erməni qəsbkarlarına Azərbaycan dövlətinin və xalqının qətiyyətli mövqeyini və öz torpaqlarının azad edilməsi uğrunda mübarizəyə hazır olduğunu bir daha nümayiş etdirdi. Azərbaycan xalqı Qarabağ münaqişəsini, lazım gəlsə, silah yolu ilə həll etmək hüququnu daim özündə saxlayır.**

**2018-cı il mayın 20-dən 27-nə qədər Naxçıvan Muxtar Respublikası Əlahiddə Ümumqoşun Ordusunun əks-həmlə əməliyyatı nəticəsində Şərur rayonunun Ağbulaq, Qızılqaya yüksəklikləri, həmçinin Günnüt kəndi ordumuzun nəzarəti altına keçmişdir. Döyüşlər nəticəsində, ümumi olaraq, 11000 hektarlıq ərazi işğaldan azad edilmişdir. Bu uğurlu əməliyyat Azərbaycan Silahlı Qüvvələrinə İrəvan–Gorus–Laçın–Xankəndi avtomobil yoluna nəzarət etməyə imkan yaratdı.**

## 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİ

**2020-ci il sentyabrın 27-də Ermənistan Respublikasının silahlı qüvvələri beynəlxalq hüquq normalarını yenidən kobud surətdə pozaraq, müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə etməklə bir neçə istiqamətdən Azərbaycan Respublikasının yaşayış məntəqələrini və hərbi mövqelərini atəşə**

tutmaqla törətdikləri növbəti hərbi təxribat nəticəsində mülki şəxslər və hərbçilər arasında ölən və yaralananlar olduğu, Azərbaycan Respublikasının milli təhlükəsizliyinə qarşı real və potensial hərbi təhdidlərin qarşısının alınması və zərərsizləşdirilməsi üçün Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən əks-hücum əməliyyatlarına başlamışdır.

**Azərbaycan Respublikasının Hərbi doktrinasına əsasən, Ermənistan Respublikasının Azərbaycan Respublikası ərazisinin bir hissəsini işğal altında saxlaması və problemin siyasi yolla tənzimlənməsi çərçivəsində işğal etdiyi əraziləri azad etməkdən imtina etməsi səbəbindən beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, ərazi bütövlüyünü bərpa etmək məqsədi ilə hərbi güc daxil olmaqla bütün lazımi vasitələrdən istifadə etmək hüququnu Azərbaycan Respublikası özündə saxlayır.Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə dərhal Təhlükəsizlik Şurasının iclası keçirilmiş, təcavüzkara adekvat cavab verilməsi istiqamətində konkret tapşırıqlar verilmişdir.**



**Ermənistan Respublikasının silahlı qüvvələrinin Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsini və ətraf rayonlarını işğal etməsi, Azərbaycan Respublikasına qarşı real silahlı hücum təhlükəsi yarandığı, ölkənin, əhalinin və ərazinin, eləcə də Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin müdafiəyə hazır vəziyyətə gətirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2020-ci il tarixli Fərmanı ilə 2020-ci il 28 sentyabr saat 00:00-dan Azərbaycan Respublikasının bütün ərazisində hərbi vəziyyət elan edilmiş, 28 sentyabr 2020-ci il tarixli Sərəncam ilə Azərbaycan Respublikasında qismən**

səfərbərlik elan olunmuşdur. İlk gündən Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən başlanılmış əks-hücum əməliyyatları nəticəsində Azərbaycan Respublikasının bir neçə rayonunu, eləcə də strateji əhəmiyyətli digər əraziləri işğaldan azad edilmişdir. Bu məqsədlə, 29 sentyabr 2020-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Fərman imzalanmışdır. Fərmandan irəli gələrək Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində, Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünə müvafiq olaraq, hər rayon üzrə xüsusi idarəetməni həyata keçirən müvəqqəti komendantlıqlar yaradılmışdır. Müvəqqəti komendantlıqların nəzdində də müvafiq dövlət orqanlarının (qurumlarının) nümayəndələrinin daxil olduğu əməliyyat qərargahları yaradılmış, vəzifələri müəyyən edilmişdir.

Vətən torpaqlarını işğaldan azad edən rəşadətli və müzəffər Ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində Ermənistan Respublikasının silahlı qüvvələri darmadağın edilərək, canlı qüvvə və texnika sarıdan böyük itkilər verərək geri çəkilməyə məcbur olmuş və döyüş meydanındakı acınacaqlı məğlubiyyətlərinin əvəzini çıxmaq üçün Azərbaycanın münaqişə zonasından və cəbhə xəttindən uzaqda yerləşən şəhər və rayonlarındakı mülki infrastruktur obyektlərini – yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri hədəf seçmiş, müxtəlif növ silahlarla, o cümlədən artilleriya və ballistik raketlərlə atəşə tutaraq insanlıq əleyhinə cinayətlər və müharibə cinayətləri törətmiş, mülki şəxsləri vəhşicəsinə qətlə yetirmiş, mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə irimiqyaslı zərər vurmuşlar.

Belə ki, Azərbaycanın ikinci böyük şəhəri, çoxsaylı tarixi və mədəni abidələri olan qədim Gəncə, ərazilərində strateji obyektlər yerləşən və keçən Mingəçevir (Su Elektrik Stansiyası) və Yevlax (Bakı-Tbilisi-Ceyhan neft kəməri) şəhərlərini, Beyləqan, Bərdə, Tərtər, Qəbələ, Goranboy, Ağcabədi, Abşeron, Xızı və digər

**rayonlarını ballistik raketlər və digər ağır artilleriya qurğularından atəşə tutulmuşdur.**

**Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək, düşmənə sarsıdıcı zərbələr endirmişdir. Azərbaycan Ordusunun zəfər yürüşünə dözə bilməyən düşmən təxribatlara əl ataraq, günahsız mülki insanları hədəfə almaqla müharibə cinayətləri törətmişdir. 44 gün sürən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Azərbaycan xalqının tarixində, mədəniyyətində və qəlbində xüsusi yeri olan, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etmişdir.Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə noyabrın 8-də Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynamış, bununla da, Ermənistan öz məğlubiyyətini etiraf etmişdir.**

**2020-ci il noyabrın 10-da imzalanan Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası baş nazirinin və Rusiya Federasiyası Prezidentinin bəyanatı ilə müharibə Azərbaycanın qələbəsi ilə nəticələnmişdir. Ermənistan kapitulyasiya olunaraq Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 02.12.2020-ci il tarixli Sərəncamları ilə sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü, noyabrın 8-i Zəfər Günü kimi təsis edilmişdir.**


UNUTMA!!!
Azərbaycanın işğal olunmuş əraziləri
XANKƏNDİ 26 dekabr 1991-ci il
XOCALI 26 fevral 1992-ci il
ŞUŞA 8 may 1992-ci il
LAÇIN 18 may 1992-ci il
XOCAVƏND 2 oktyabr 1992-ci il
KƏLBƏCƏR 2 aprel 1993-cü il
AĞDƏRƏ 7 iyul 1993-cü il
AĞDAM 23 iyul 1993-cü il
CƏBRAYIL 23 avqust 1993-cü il
FÜZULİ 23 avqust 1993-cü il
QUBADLI 31 avqust 1993-cü il
ZƏNGİLAN 29 oktyabr 1993-cü il




## *Mövzu 15.İkinci Qarabağ(Vətən)müharibəsi. Vətən müharibəsi qəhrəmanları*

**İkinci Qarabağ müharibəsi, Vətən müharibəsi və ya "Dəmir Yumruq" əməliyyatı— Azərbaycan Silahlı Qüvvələri və Ermənistan Silahlı Qüvvələri arasında Dağlıq Qarabağda davam edən silahlı qarşıdurma. Atəşkəsdən**

**sonra müşahidə olunan ən gərgin və uzunmüddətli döyüşdür. Beynəlxalq səviyyədə Azərbaycanın bir hissəsi kimi tanınan, lakin Ermənistan hökümətinin idarəetməsi altında yaradılan Qondarma Dağlıq Qarabağ Respublikası ilə bağlı həll olunmamış münaqişənin son gərginləşməsidir. Qarşıdurmalar 27 sentyabr 2020-ci il səhər saat 06:00- da Füzuli rayonunun Qaraxanbəyli kəndindən təmas xətti boyunca başladı Döyüşə ilk girən isə 87- ci Motoatıcı alayın Motoatıcı Tağımı oldu. Bunun ardınca Ermənistanda hərbi vəziyyət və ümumi səfərbərlik, Azərbaycan isə hərbi vəziyyət, komendant saatı və qismən səfərbərlik elan etdİ. Türkiyə, bu dəstəyin dərəcəsi mübahisəli olsa da, Azərbaycana hərbi dəstək verdi. Türkiyənin iştirakının, münaqişədə Azərbaycanın mövqeyini artırmaqla və Rusiyanın bölgədəki təsirini kənarlaşdırmaqla təsir dairəsini genişləndirmək cəhdi olduğu düşünülür.**

**Beynəlxalq ekspertlər müharibənin Azərbaycanın hücumu ilə başladığını və əsas məqsədin bölgənin müdafiəsi zəif olan cənub bölgələrini işğaldan azad etmək olduğunu iddia edirlər. Müharibə, pilotsuz təyyarələrin, sensorların, ağır artilleriyanın və raket zərbələrinin istifadəsi, habelə dövlət təbliğatının və onlayn informasiya müharibəsində rəsmi sosial media hesablarının istifadəsi ilə yadda qalan oldu. Çoxsaylı ölkələr və Birləşmiş Millətlər Təşkilatı döyüşləri kəskin şəkildə qınadı və hər iki tərəfi gərginliyi azaltmağa və mənalı danışıqları təxirə salmadan davam etdirməyə çağırdı. Rusiya, Fransa və ABŞ-ın vasitəçiliyi ilə əldə olunan üç atəşkəs də müharibəni dayandıra bilmədi. Dağlıq Qarabağdakı ən böyük ikinci şəhər olan Şuşanın azad edilməsindən sonra İlham Əliyev, Vladimir Putin və Nikol Paşinyan arasında 10 noyabr 2020-ci il, saat 00:00-dan (UTC+3)etibarən bütün döyüş əməliyyatlarını dayandıran atəşkəs bəyanatı imzalandı. Arayik Harutyunyan da döyüş əməliyyatlarının dayandığını təsdiqlədi. Müqaviləyə əsasən, Azərbaycan müharibə zamanı işğaldan azad etdiyi ərazilərə nəzarəti əlində saxladı. Ermənistan isə işğal altında olan digər ətraf əraziləriAzərbaycanaqaytardı.Azərbaycan, həmçinin Türkiyə və İranla həmsərhəd olan Naxçıvana dəhliz əldə etdi. Təxminən 2000 rus əsgəri Ermənistan və Dağlıq**

**Qarabağ arasındakı Laçın dəhlizi boyunca ən azı 5 il müddətinə sülhməramlı qüvvələr olaraq yerləşdirildi.**

**2020-ci il sentyabrın 27-də Ermənistan Respublikasının silahlı qüvvələri beynəlxalq hüquq normalarını yenidən kobud surətdə pozaraq, müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə etməklə bir neçə istiqamətdən Azərbaycan Respublikasının yaşayış məntəqələrini və hərbi mövqelərini atəşə tutmaqla törətdikləri növbəti hərbi təxribat nəticəsində mülki şəxslər və hərbçilər arasında ölən və yaralananlar olduğu, Azərbaycan Respublikasının milli təhlükəsizliyinə qarşı real və potensial hərbi təhdidlərin qarşısının alınması və zərərsizləşdirilməsi üçün Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən əks-hücum əməliyyatlarına başlamışdır. Ermənistan Respublikasının silahlı qüvvələrinin Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsini və ətraf rayonlarını işğal etməsi, Azərbaycan Respublikasına qarşı real silahlı hücum təhlükəsi yarandığı, ölkənin, əhalinin və ərazinin, eləcə də Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin müdafiəyə hazır vəziyyətə gətirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2020-ci il tarixli Fərmanı ilə 2020-ci il 28 sentyabr saat 00:00-dan Azərbaycan Respublikasının bütün ərazisində hərbi vəziyyət elan edilmiş, 28 sentyabr 2020-ci il tarixli Sərəncam ilə Azərbaycan Respublikasında qismən səfərbərlik elan olunmuş, hərbi əməliyyatlara hazırlıq və onların keçirilməsinə dair qərarlar qəbul edilmişdir.İlk gündən Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən başlanılmış əks-hücum əməliyyatları nəticəsində Azərbaycan Respublikasının bir neçə rayonunu, eləcə də strateji əhəmiyyətli digər əraziləri işğaldan azad edilmişdir. Bu məqsədlə, 29 sentyabr 2020-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Fərman imzalanmışdır. Fərmandan irəli gələrək Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində, Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünə müvafiq olaraq, hər rayon üzrə xüsusi idarəetməni həyata keçirən müvəqqəti komendantlıqlar yaradılmışdır. Müvəqqəti komendantlıqların nəzdində də müvafiq dövlət orqanlarının**

**(qurumlarının) nümayəndələrinin daxil olduğu əməliyyat qərargahları yaradılmış, vəzifələri müəyyən edilmişdir.Vətən torpaqlarını işğaldan azad edən rəşadətli və müzəffər Ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində Ermənistan Respublikasının silahlı qüvvələri darmadağın edilərək, canlı qüvvə və texnika sarıdan böyük itkilər verərək geri çəkilməyə məcbur olmuş və döyüş meydanındakı acınacaqlı məğlubiyyətlərinin əvəzini çıxmaq üçün Azərbaycanın münaqişə zonasından və cəbhə xəttindən uzaqda yerləşən şəhər və rayonlarındakı mülki infrastruktur obyektlərini – yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri hədəf seçmiş, müxtəlif növ silahlarla, o cümlədən artilleriya və ballistik raketlərlə atəşə tutaraq insanlıq əleyhinə cinayətlər və müharibə cinayətləri törətmiş, mülki şəxsləri vəhşicəsinə qətlə yetirmiş, mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə irimiqyaslı zərər vurmuşlar.**

**Belə ki, Azərbaycanın ikinci böyük şəhəri, çoxsaylı tarixi və mədəni abidələri olan qədim Gəncə, ərazilərində strateji obyektlər yerləşən və keçən Mingəçevir (Su Elektrik Stansiyası) və Yevlax (Bakı-Tbilisi-Ceyhan neft kəməri) şəhərlərini, Beyləqan, Bərdə, Tərtər, Qəbələ, Goranboy, Ağcabədi, Abşeron, Xızı və digər rayonlarını ballistik raketlər və digər ağır artilleriya qurğularından atəşə tutulmuşdur.**

**27 sentyabr 2020-ci il tarixdə saat 18 radələrində Naftalan şəhərinin Qaşaltı-Qaraqoyunlu kəndində yerləşən, kənd sakini Qurbanov Elbrus İsa oğlunun evinə top mərmisinin düşməsi nəticəsində bir ailə (5 nəfər) tamamilə məhv olmuşdur. 04, 05, 08, 11 və 17 oktyabr tarixlərində raket və ağır artilleriya hücumları nəticəsində Gəncə şəhərində 26 nəfər həlak olmuş, 175 nəfər yaralanmış, şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəymişdir. Ermənistan silahlı qüvvələrinin raket və ağır artilleriya hücumları nəticəsində Bərdə rayonunda 29 nəfər həlak olmuş, 112 nəfər yaralanmış, rayonda yerləşən mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda**

**ziyan dəymişdir. Ümumilikdə Ermənistanın hərbi təcavüzü nəticəsində 12-si uşaq, 27-si qadın olmaqla 93 mülki şəxs həlak olmuş, 454 mülki vətəndaş yaralanmış, ümumilikdə 12292 yaşayış və qeyri yaşayış sahəsinə, 288 nəqliyyat vasitəsinə ziyan dəymiş, 1018 fermer təsərrüfatı üzrə zərər faktı aşkar edilmişdir. 2020-ci ilin 27 sentyabr - 10 noyabr müddətində Ermənistan həm döyüş meydanında, həm də münaqişə zonasından kənarda yerləşən Tərtər, Ağcabədi və Goranboy rayonlarını qadağan edilmiş və son dərəcə təhlükəli olan fosfor bombalarından 5 dəfə istifadə etməklə müxtəlif vaxtlarda atəşə tutmuşdur.**

**08 oktyabr, 03, 04 və 08 noyabr 2020-ci il tarixlərdə Ermənistan silahlı qüvvələri Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində, habelə Ermənistan Respublikasının ərazisində yerləşən hərbi birləşmələrinə rəhbərlik edən şəxslər və onların yaratdığı cinayətkar birliklər «Silahlı münaqişələr zamanı mülki şəxslərin müdafiəsinə dair» 1949-cu il tarixli Cenevrə Konvensiyasının tələblərini kobud şəkildə pozaraq geniş miqyaslı dağıntılara səbəb ola bilən müharibə üsullarından istifadə etməklə mülki əhalinin və ya döyüşlərdə iştirak etməyən ayrı-ayrı mülki şəxslərin sıx yaşadıqları Füzuli, Tərtər rayonları ərazilərində yerləşən yaşayış məntəqələrinə, habelə BMT-nin "Bioloji müxtəliflik haqqında" Konvensiyasının əsas təməl prinsiplərini pozaraq ətraf mühitə qəsd edən geniş, uzun sürən və ciddi ziyan vurmaq, insanları qəsdən öldürmək məqsədilə Füzuli rayonunun Arayatlı, Alxanlı, Tərtər rayonunun Səhləbad kəndinə və Şuşa şəhərinin ərazisində yerləşən Azərbaycan Respublikasının təbii sərvəti hesab edilən qiymətli və çoxillik ağacları olan meşələrə hər birinin içərisində 3,6 kiloqram P-4 kimyəvi tərkibli (ağ fosfor) olan D-4 tipli 122 millimetrlik ən azı 6 top mərmiləri ilə atəş açaraq həmin ərazilərdə yerləşən təbii sərvətləri qəsdən yandırmaqla xüsusilə külli miqdarda ziyan vurmuş, Azərbaycan Respublikasına qarşı təcavüzkar müharibə planlaşdırılmış və aparılmış, habelə terrorçuluq cinayəti törədilmişdir.**

**Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan**

**mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək, düşmənə sarsıdıcı zərbələr endirmişdir. Azərbaycan Ordusunun zəfər yürüşünə dözə bilməyən düşmən təxribatlara əl ataraq, günahsız mülki insanları hədəfə almaqla müharibə cinayətləri törətmişdir.44 gün sürən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Azərbaycan xalqının tarixində, mədəniyyətində və qəlbində xüsusi yeri olan, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etmişdir. Rəşadətli Azərbaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçmişlər, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edilmişdir.Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə noyabrın 8-də Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynamış, bununla da, Ermənistan öz məğlubiyyətini etiraf etmişdir. 2020-ci il noyabrın 10-da imzalanan Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası baş nazirinin və Rusiya Federasiyası Prezidentinin bəyanatı ilə müharibə Azərbaycanın qələbəsi ilə nəticələnmişdir. Ermənistan kapitulyasiya olunaraq Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 02.12.2020-ci il tarixli Sərəncamları ilə sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü, noyabrın 8-i Zəfər Günü kimi təsis edilmişdir.**

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. **Azərbaycan tarixi. 7 cilddə, Bakı, 2007.**
2. **Həsən Qəniyev. Azərbaycan tarixi. Bakı, 2019.**
3. **Süleyman Əliyarlı. Azərbaycan tarixi. Bakı, 2009.**
4. **İradə Nuriyeva. Azərbaycan tarixi. Bakı, 2015.**
5. **Mehman Abdullayev. Azərbaycan tarixi. Bakı, 2014.**
6. **İsmayıl Məmmədov. Azərbaycan tarixi. Bakı, 2014.**
7. **Kərim Şükürov. Azərbaycan tarixi. Bakı, 2004.**
8. **Yusif Yusifov və Ziya Bünyadov. Azərbaycan tarixi. Bakı, 2007.**